TÜRKMƏN

ŞEİRİ

ANTOLOGİYASI

(XVII – XIX ƏSRLƏR)

Bakı – 2011

TürkSOY kitabxanası seriyası: 13

AMEA Folklor İnstitutu
Elmi Şurasının
qərarı ilə çap olunur

Tərtib edən,
türkməncədən uyğunlaşdıran
və ön sözün müəllifi:
Prof. Dr. Ramiz ƏSKƏR

Redaktoru:
AMEA-nın müxbir üzvü,
Prof. Dr. Tofiq HACIYEV

Məsləhətçi:
Prof. Dr. Annaqurban AŞIROV

Türkmən şeiri antologiyası (XVII-XIX əsrlər).
Bakı, MBM, 2011, 400 s.

Kitabda zəngin türkmən ədəbiyyatının Əndəlib, Azadi, Şahbəndə, Məxdimqulu, Şeydayi, Məğrubi, Qayıbi, Talibi, Qurdoğlu, Kəminə, Seyidnəzər Seydi, Zəlili, Seydulla Seydi, Zinhari, Molla Nəfəs, Aşiqi, Katibi, Dostməhəmməd, Möhtaci, Miskin Qılınc, Balqızıl kimi tanınmış nümayəndələrinin seçilmiş əsərləri toplanmışdır. Kitab 31 mart - 4 aprel 2009-cu ildə İstanbulda TürkSOY tərəfindən təşkil olunan «Türk Ləhcələri Arasında Uyğunlaşdırma Çalışmalarının Bugünkü Durumu və Qarşılaşılan Problemlər» mövzusunda Beynəlxalq simpoziumun tövsiyələrinə və yekun bəyannaməsinə uyğun olaraq nəşr edilir.

İSBN: 978-9952-29-041-7
© MBM
© Ramiz Əskər

TÜRKMƏN ƏDƏBİYYATININ QIZIL DÖVRÜ

...Nurmühammet Andalyp, Döwletmämmet Azady, Magtymguly Pyragy, Mämmetweli Kemine, Mollanepes yaly yüzlerçe alymlarymyz, akyldarlarymyz, şahyrlarymyz, sunqat ussatlarymyz öçmejek yz qaldyrdylar, ylym we döredijilik dünyäsinde uly meşhurlyga eye boldular.

Gurbanguly Berdimuhamedow,
Türkmenistanyň Prezidenti

...Nurməhəmməd Əndəlib, Dövlətməmməd Azadi, Məxdumqulu Fəraqi, Məmmədvəli Kəminə, Molla Nəfəs kimi yüzlərcə alimlərimiz, müdriklərimiz, şairlərimiz, sənət ustadlarımız sönməz iz qoydular, elm və yaradıcılıq dünyasında böyük məşhurluğa sahib oldular.

Qurbanqulu Berdimühəmmədov,
Türkmənistan Prezidenti

Bakı Dövlət Universitetinin türk xalqları ədəbiyyatı kafedrasında qardaş türk xalqları ədəbiyyatı ilə yanaşı türkmən ədəbiyyatı da tədris edilir. Lakin əldə kifayət qədər elmi ədəbiyyat, xüsusilə tərcümə əsərləri yoxdur. Bu da öz növbəsində tədrisdə, eləcə də tədqiqat sahəsində müəyyən problemlər yaradır. Düzdür, son iki-üç ildə klassik türkmən ədəbiyyatının bir sıra görkəmli nümayəndələrinin əsərləri ana dilimizdə çapdan buraxılmışdır ki, bunlardan Nurməhəmməd Əndəlibin, Məxdumqulu Fəraqinin və Molla Nəfəsin kitablarını göstərə bilərik. Ancaq bu da qardaş xalqlarımız və ölkələrimiz arasında getdikcə artan mədəni-ədəbi əlaqələrin fonunda olduqca azdır. Ona görə də ilk etapda klassik dövrü əhatə edən «Türkmən şeiri antologiyası (XVII-XIX əsrlər)» kitabını hazırlamağı qərara aldıq. Gələcəkdə müasir türkmən poeziyası, nəsri və dramaturgiyası ilə bağlı xüsusi tədqiqatların və antologiyaların da hazırlanması gündəmdə durur.

XVII-XIX əsrlər türkmən ədəbiyyatı son dərəcə zəngin və çoxşaxəlidir. Həmin dövrdə Nurməhəmməd Əndəlib, Dövlətməmməd Azadi, Abdulla Şahbəndə, Məxdimqulu Fəraqi, Şeydayi, Qurbanəli Məğrubi, Qayıbnəzər Qayıbi, Murad Talıbi, Orazpolad Qurdoğlu, Məmmədvəli Kəminə, Seyidnəzər Seydi, Seydulla Seydi, Qurbandurdu Zəlili, Əbdürrəhim Zinhari, Molla Nəfəs, Oraz Aşiqi, Əvəztaqan Katibi, Dostməhəmməd, Annaqılınc Möhtaci, Miskinqılınc, Dövlətməmməd Balqızıl kimi istedad və sənətkarlıq baxımından bir-birindən fərqli bir çox türkmən şairi yaşayıb yaratmışdır.

Bu dövrün əsas özəlliyi ədəbi türkmən dilinin cilalanması və bu dildə əsərlər yazılmasıdır. Doğrudur, türkmənlərin ədəbiyyatı XVII əsrdən başlanmır, onun ilkin

kökü daha qədimlərə gedib çıxır. Xüsusilə saysız-hesabsız əfsanələr, dastanlar, rəvayətlər, folklor nümunələri ən azı min illik bir tarixi əhatə edir. Lakin yazılı ədəbiyyat qismən gəncdir. Burada da iki məsələni bir-birindən ayırmaq vacibdir. Bunlardan birincisi oğuz-türkmən kontekstində nəzərdən keçirilən ədəbiyyatdır. Məlumdur ki, türk xalqlarının oğuz boyuna mənsub olan qismi islam dinini qəbul etdikdən sonra qonşu xalqlar tərəfindən türkmən adlandırılmışdır. Ona qədər və ondan sonra da uzun müddət türkmənlər-oğuzlar özlərinə həm oğuz, həm də türkmən demişlər.

XI əsrdə Səlcuk ibn Dukakın nəvələri Toğrul bəyin (993-1063) və Çağrı bəyin (991-1061) qurduqları dövlət qısa müddət ərzində Mavəraünnəhr, İran, Azərbaycan, Qafqaz, İraq, Suriya, Anadolu və Ərəbistan yarımadasını ələ keçirərək Böyük Səlcuqlu imperiyasına çevrildi. Rəsmi tarixşünasliqda bu imperiyanın 1038-1157-ci illər arasında mövcud olduğu qəbul edilir. Əslində, Osmanlı imperiyasının təşəkkülünə qədər (1299) və hətta ondan xeyli sonra da keçmiş Böyük Səlcuqlu imperiyasının ərazilərində meydana gələn yeni dövlət qurumları idarəçilik, hüquq, hərbi və mədəni baxımdan səlcuqların varisi və davamıdır, ona görə də səlcuqlu dövrü sayılır. Səlcuqlu dövrü isə doğrudan-doğruya oğuz, dolayısı ilə türkmən dövrüdür. Burada belə sual ortaya çıxır: 1041-ci ildə Dandənakan meydan müharibəsində İranı tutan 18 yaşlı oğuz-türkmən döyüşçüsü 30 il sonra 1071-ci ildə Malazgirt savaşında Bizansı məğlub edərkən 48 yaşında deyildimi? Alparslan özü oğuz-türkmən deyildimi? Onun yanında öz sazı-sözü ilə əskərləri döyüşə ruhlandıran ozan mahnılarını hansı dildə oxuyurdu? Bu ozanın nəvəsi, nəticəsi olan şairlər öz əsərlərini hansı dildə yazmışlar? Təbii ki, oğuz-türkmən dilində. Elə isə nə üçün bu ədəbiyyat eyni zamanda türkmən ədəbiyyatı adlanmasın? Tarixi aspektdə baxdıqda sanki buna heç kim etiraz etmir. Lakin milli-ərazi kontekstində etiraz var. Misal üçün, biz azərbaycanlılar belə hesab

edirik ki, İzzəddin Həsənoğlu, eləcə də Qazi Bürhanəddin, Cahan şah Həqiqi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli yüz faiz Azərbaycan şairidir. Bunu həm dil faktoru, həm də həmin şairlərin yaşadıqları coğrafiyanın bir zamanlar Azərbaycan kültür sferasına və ya dövlət qələmrovuna daxil olması ilə izah edirik. Təxminən eyni dövrlərdə yaşamış və eyni dildə yazmış Yunus İmrəni coğrafi əlamətə görə türk, eyni zamanda ümumtürk şairi sayırıq. Məncə, keçmişdə oğuz-türkmən dilində yazmış bütün ədiblər eyni zamanda türkmən şairidir. Və türkmən alimlərinin onları türkmən şairi saymasına etiraz etmək doğru deyil. Həmin şairlərinin müasir türkmən dilində yaxşı anlaşılmaması tarixi və linqvistik bir məsələdir. Ona qalsa, Füzuli də bugün yüzdə yüz anlaşılmır, Nizami isə əsərlərini farsca yazmışdır. Lakin bu bizə onların hər ikisini öz şairimiz saymağa mane olmur.

Türkmən ədəbiyyatının ikinci problemi isə çağatay dilidir. Bu dildə yazan bir çox türkmən şairi özbək ədəbiyyatının nümayəndəsi hesab edilir. Bayram xan və Vəfai bunlara ən parlaq nümunədir. Üstəlik, baharlı boyundan olan, bir müddət Şah İsmayıl Xətainin yanında qulluq edən Bayram xan bizim bəzi elektron saytlarında Azərbaycan şairi kimi təqdim olunur.

Göründüyü kimi, nəinki oğuz kontekstində, hətta çağatay kontekstində də bəzi iç-içə keçmələr, müxtəlif ədəbi əriş-arğaçlar mövcuddur. Odur ki, özünəçıxma hallarına normal baxmaq lazımdır. Əgər etnik mənşəyi, coğrafi məkanı və ləhcəsi fərqli olan bir şair qardaş bir xalqın ədəbi-estetik zövqünü oxşayırsa və həmin xalq onu öz şairi saya bilirsə, bunda heç bir qəbahət yoxdur.

XVII əsrdə bugünkü türkmən dilində ilk yazılı əsərlərin meydana çıxması ilə türkmən ədəbiyyatında yeni dövr başlanmışdır. Türkmənlərdə bu işin öncülü Nurməhəmməd Əndəlib, bizdə isə Molla Pənah Vaqifdir. Lakin dil amili yeni ədəbiyyat üçün özlüyündə birinci dərəcəli məsələ olsa da, hər şey demək deyil. Onun arxasınca Şərq ədəbiyyatının ənənəvi poetik sistemindən sıyrılmaq, gül-bülbül orbitindən çıxmaq, ədəbiyyatı hə-

yata və xalqa yaxınlaşdırmaq, ictimai-sosial mövzuları işləmək vəzifəsi gəlir.

Yeni türkmən ədəbiyyatı Nurməhəmməd Əndəlibin simasında öz banisini, Dövlətməmməd Azadinin şəxsində öz fəlsəfi-estetik meyarını, Məxdumqulu Fəraqinin şəxsində öz xəlqiliyini və realizmini, Məmmədvəli Kəminənin simasında tənqidini və satirasını, Molla Nəfəsin şəxsində yeni lirikasını tapdı. Ədəbiyyata vətənsevərlik, milli təəssübkeşlik, türkmən birliyi, digər adı ilə, türkmənçilik ideyaları yerləşdi. Mərdlik, cəsarət, qəhrəmanlıq, səxavət və digər insani keyfiyyətlər yeni məzmun kəsb etdi, gözəlin və gözəlliyin tərənnümü yeni çalarlar qazandı, bir sözlə, mövzu baxımından böyük dəyişikliklər meydana gəldi. Bəzi ənənəvi mövzularda qələmə alınan əsərlər, özəlliklə dini-ruhani şeirlər, nətlər, münacatlar artıq xalqın ana dilində yazılmağa başlandı. Tərcüməçilik və nəziraçilik ədəbi əlaqələrin güclənməsinə, qarşılıqlı zənginləşməyə səbəb oldu.

Ədəbi janrlar sahəsində də böyük dəyişikliklər ortaya çıxdı. Divan ədəbiyyatının qəzəl, qəsidə, məsnəvi janrları ilə paralel xalq yaradıcılığından, folklordan, dastanlardan gələn qoşma, gəraylı, müxəmməs, təcnis kimi milli janrlar geniş intişar tapdı, əruz vəzni öz yerini böyük ölçüdə heca vəzninə tərk etdi.

Yeni türkmən ədəbiyyatının ən mühüm xidmətlərindən biri də milli folklor irsinə, xüsusilə xalq dastanlarına yeni ruh, yeni can və nəfəs verməsi oldu. Türkmən ədəbiyyatında başqa türk xalqlarında müşahidə olunmayan bir yenilik özünü göstərdi. Şairlər xalq dastanlarını yenidən işlədilər, onların şeirlərini cilaladılar, süjet xəttini təkmilləşdirdilər.

XVII-XIX əsrlər türkmən ədəbiyyatının ən böyük xidməti isə, bizcə, türkmən millətini formalaşdırmaq oldu. Heç də əbəs deyildir ki, Məxdumqulu Fəraqi Türkmənistanın mənəvi yaradıcısı hesab edilir. Bu işdə digər şairlərin də böyük rolu vardır.

Bir sözlə, XVII-XIX əsrlər dövrü türkmən ədəbiyyatının qızıl dövrüdür. Bu ədəbiyat qədim və zəngin dövlətçilik tarixi olan, neçə-neçə imperiyalar quran bir xalqın yeni dövrdə mədə-

ni sahədə yeni yüksəlişi, bədii söz sahəsində yenidən parlamasıdır. Əks halda, ona qızıl dövr demək mümkün olmazdı.

Bu antologiyada xronoloji ardıcıllıqla XVII-XIX əsrlərdə yaşamış 21 türkmən şairinin şeirləri toplanmışdır. Hər şair haqqında qısa oçerk verilmiş, əsas bioqrafik bilgilər və yaradıcılığının ən ümdə özəllikləri göstərilmişdir. Daha sonra hər şairin ən gözəl şeirləri verilmişdir. Bunu nəzərə alaraq bu kiçik girişdə şairlər haqqında fərdi söhbət açmağa lüzum görmürük. Oxucular bizim Vaqıf, Vidadi, Zakir, Natəvan, Nigari, Şakir, Salik, Nəvvab kimi sənətkarlarımızın yaradıcılığı ilə türkmən şairlərinin sənəti arasında forma və məzmun baxımından çox böyük bənzərliklər olduğunu əyani şəkildə görəcəklər.

Biz inanırıq ki, Azərbaycan oxucuları və elmi-ədəbi ictimaiyyəti bu kitabı rəğbətlə qarşılayacaq, onun vasitəsilə qardaş türkmən ədəbiyyatının klassik dövrü ilə, dil və poetik ənənə baxımından bizə çox yaxın olan bir xalqın ədəbi irsi ilə tanış ola biləcəkdir. Bu kitabın çıxması Azərbaycan-türkmən ədəbi əlaqələri tarixində də yeni bir səhifə açacaq, ədəbiyyatşünaslıq və tədris sahəsində mühüm bir boşluğu dolduracaqdır.

Şeirlər ana dilimizə imkan daxilində orijinala yaxın şəklində uyğunlaşdırılmışdır. Dilimizdə qarşılığı olmayan sözlərin mənası mətnaltı haşiyədə göstərilmiş, axıra isə çətin anlaşılan sözlərin kiçik bir lüğəti əlavə edilmişdir.

Biz öz ənənəmizə sadiq qalaraq bu kitabı da TürkSOY kitabxanası seriyasından nəşr edirik. Çünki TürkSOY-un türk dünyasının UNESCO-su olaraq türk xalqlarının mədəni inteqrasiyasına böyük töhfə verdiyinə, onları bir-birinə yaxınlaşdırdığına və qarşılıqlı surətdə zənginləşdirdiyinə ürəkdən inanır və onun nəcib fəaliyyətini dəstəkləyirik.

Burada bir məsələni növbəti (on üçüncü!) dəfə vurğulamaq istəyirik: TürkSOY kitabxanası seriyası layihəsi bu seriyanın ilk kitabından bəri bütünlüklə könüllülük əsasında həyata keçirilir. Bu layihədə iştirak edən hər kəs, o cümlədən bu antologiyanı tərtib edən, türkməncədən ana dilimizə uyğunlaş-

dıran və ön sözün müəllifi bəndəniz Ramiz Əskər, kitabın redaktoru, görkəmli türkoloq, türk dünyasının böyük təəssübkeşi, əziz dostum və müəllimim, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Türk Dil Qurumunun fəxri üzvü hörmətli Prof. Dr. Tofiq Haciyev, kitabın məsləhətçisi, məni lazımi ədəbiyyatla təchiz edən, dəyərli tövsiyələr verən Türkmənistan Elmlər Akademiyası Milli Əlyazmalar İnstitutunun direktoru hörmətli Prof. Dr. Annaqurban Aşırov bu işi türklüyə bir xidmət olsun deyə heç bir məvacib və honorar almadan təmənnasız yerinə yetirmişlər. Əməyi keçən hər kəsə, o cümlədən Türkmənistanın Azərbaycandakı səfirliyinin əməkdaşı Bibisara Məmmədovaya sonsuz təşəkkürlə, qəhrəman və nəcib türkmən millətinin zəngin mədəniyyətinə ehtiramla,

Ramiz ƏSKƏR.
Bakı, 10 may 2011-ci il.

NURMƏHƏMMƏD ƏNDƏLİB
(1660 – 1740)

Nurməhəmməd Əndəlib zəngin türkmən ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri, özündən sonra gələn bütün türkmən şairlərinin müəllimi və ustadıdır. Azadi, Şahbəndə, Məxdimqulu, Şeydayi, Məğrubi, Qayıbi, Talıbi, Qurdoğlu, Kəminə, Seyidnəzər Seydi, Zəlili, Seydulla Seydi, Zinhari, Molla Nəfəs, Aşiqi, Katibi, Möhtaci, Miskin Qılınc, Balqızıl kimi tanınmış söz ustaları onun ardıcılları və şagirdləridir.

Əndəlibin türkmən ədəbiyyatı qarşısındakı xidmətləri son dərəcə böyükdür. Hər şeydən əvvəl o, müasir türkmən ədəbiyyatının və ədəbi yazı dilinin banisidir. Ondan əvvəl yaşayıb-yaradan türkmən şairlərindən Bayram xan və Vəfai öz əsərlərini həmin dövrdə bütün Orta Asiyada geniş yayılan və əsasən mədrəsə təhsili görmüş adamların işlətdiyi ədəbi çağatay türkcəsi ilə qələmə almışlar. Əndəlib isə əsərlərini uşaqlıqdan bəri sevəsevə dinlədiyi milli-məhəlli dastanların təsiri altında şirin türkmən dilində yazmaqla bir ilki gerçəkləşdirmişdir. Şairin ikinci böyük xidməti türkmən ədəbiyyatını mövzu və janr baxımından zənginləşdirməsidir. Əslində, o, realist türkmən poeziyasının ilk rüşeymlərini qoymuş, Məxdumqulu isə onu zirvəyə qaldırmışdır. Milli ədəbiyyatda ilk poemanın, ilk dastanın müəllifi də Əndəlibdir. Nəhayət, o, türkmən ədəbiyyatında ilk tərcüməçilərdən biridir.

Nurməhəmməd Əndəlibin həyatı haqqında əldə dəqiq məlumat yoxdur. Son dövrlərdə aparılan tədqiqatlar nəticəsində onun 1660-cı ildə Daşoğuz vilayətinin İlanlı bölgəsinin Qaramazı kəndində anadan olduğu təsbit edilmişdir. Şair 1740-cı ildə 80 yaşında vəfat etmişdir.

Əndəlib amansız bir xəstəliyə tutulduğu için təbdili-iqlim məqsədilə özbəklər arasına köçmüs, Ürgəncdə, əsasən də Xivədə yaşamışdır. O, «Risaleyi-Nəsimi» poemasının giriş qismində həyatı, doğulduğu və yaşadığı yer, habelə təxəllüsü haqqında kiçik bilgilər vermişdir:

Adım idi Nurməhəmməd Qərib,
Sözdə təxəllüsüm idi Əndəlib.

Şəhrimiz Urgənc – vilayət idi,
Xanımız Şirqazi himayət idi.

Əsli-məkanım ki Qaramazıdır,
Adəmi işrətdə qışı-yazıdır.

Bil ki, Qaramazı bizim cayımız,
Zikri-xuda eşq ilə dilxahımız...

Barça xəlayiq içində bəd işim,
Yetdi əlli beşə mənim bu yaşım.

Şair öz əsərlərini Əndəlib təxəllüsü ilə yazmışdır. Rəvayətə görə, o, gəncliyində Gül adlı bir qızı sevmiş, ona nisbət olsun deyə özünə Əndəlib, yəni «Bülbül» təxəllüsünü seçmişdir. Adının tərkibindəki Qərib sözü isə doğma vətəndən, el-obadan uzaqda yaşamasına işarədir. Şeirlərində özünü Əndəlibi-binəva, Əndəlibi-zar, Əndəlibi-bəlakeş adlandırması həyatının məşəqqət içində keçdiyini göstərir:

Gahi xərabatda işim, gah fəğan,
Külbeyi-əhzan idi gahi məkan.

Şairin təhsili, şəxsi həyatı haqqında yazılı mənbələrdə elə bir ciddi məlumat yoxdur. Ancaq əsərlərindən anlaşıldığına görə, o çox mükəmməl təhsil almış, Şərq poeziyasını, onun bədii ifadə vasitələrini dərindən mənimsəmiş, ərəb, fars, tacik dillərini də yaxşı öyrənmişdir. Şairin «Şahnamə»ni tərcümə etməsi barədə bəzi məxəzlərdə bilgi verilir. Təəssüf ki, bu tərcümə in-

diyədək tapılmamışdır. Əndəlibin bir sıra şairlərin əsərlərinə nəzirə yazması onu göstərir ki, o, klassik Şərq şeirini ciddi mütaliə etmiş, söz sənətinin bütün incəliklərinə yiyələnmişdir.

Əndəlibin zəngin poetik irsinin çox az qismi bizə gəlib çatmışdır. Hazırda əlimizdə onun səkkiz qəzəli, bir neçə mürəbbəsi, müxəmməsi və müsəddəsi, bəzi başqa şeirləri var. Bunlar sayca az olsalar da, janr və məzmunca çox əlvan, bədii cəhətdən isə çox mükəmməl əsərlərdir. Əndəlib sənətinə dərin ehtiram bəslədiyi Nəvainin on yeddi, Füzulinin iki, Vəfai, Übeydi, Həbib və Caminin birər qəzəlinə təxmis, Nəvainin bir qəzəlinə təsmin, Məşrəbin bir qəzəlinə və bir mürəbbəsinə təzmin yazmışdır. Onun qələmə aldığı təzmin, təxmis və təsminlər ən yüksək poetik səviyyədədir, orijinallarından əsla geri qalmır. Bu, Əndəlibin parlaq istedadından xəbər verir.

Onun sənətinə hörmət əlaməti olaraq özbək şairləri Müxlis və Munis də hərəsi Əndəlibin bir qəzəlinə təxmis yazmışlar. Beləliklə, Əndəlib Orta Asiyada nəzirəçiliyin, dolayısı ilə, ədəbi əlaqələrin inkişafında mühüm rol oynamışdır. O, məşhur fars şairi Caminin on bir qəzəlini türkmən dilinə eyni ilhamla tərcümə etmişdir.

Böyük sənətkar yazdığı poemalarla özündən sonrakı şairlərə də nümunə olmuşdur. Onun «Risaleyi-Nəsimi», «Oğuznamə», «Səəd Vəqqas» və «Qisseyi-firon» adlı dörd poeması var.

Əndəlibin «Oğuznamə»si digər oğuznamələrlə məzmun etibarilə ümumən səsləşə, əksər məqamlarda üst-üstə düşsə də, bir sıra fərqlər də müşahidə edilir, yəni burada şairin orijinal dəst-xətti, bədii üslubu və təhkiyəsi özünü göstərir. Əndəlibdə Oğuz xanın türk cahan hakimiyyəti uğrunda mübarizəsi daha yığcam, daha fərqli epizodlarla təsvir edilir. Hətta eyni detallarda belə bəzi fərqlər görmək mümkündür. Oğuz xanın ölümünə şairin mərsiyəsi onun ən orijinal tərəfidir.

Əndəlib «Risaleyi-Nəsimi» poemasında məşhur şair İmadəddin Nəsiminin parlaq obrazını yaratmışdır. «Səəd Vəqqas» və «Qisseyi-firon» adlı poemalar dini səciyyəli əsərlərdir. Səəd

Vəqqas məşhur islam sərkərdəsi və dövlət xadimi, öz səxavəti və xeyirxahlığı ilə əfsanəvi şöhrət qazanmış tarixi şəxsiyyətdir. Poemada onun mərdliyi və comərdliyi, bu yolda hətta oğlunu qurban verməsi təsvir olunur. «Qisseyi-firon» isə yəhudi peyğəmbəri Musanın doğulması və zülmkar Misir fironunu devirməsi haqqındadır.

Əndəlib türkmən ədəbiyyatında ilk dəfə olaraq dastanları, rəvayətləri, xalq hekayələrini nəzmə çəkmiş, onları ədəbi cəhətdən cilalamış, süjet xəttinə əl gəzdirmiş, şeirlərini yenidən işləmişdir. Bunlar «Leyli və Məcnun», «Yusif və Züleyxa», «Baba Rövşən» və «Zeynal Ərəb» dastanlarıdır. Başqa bir məlumata görə, «Mirzə Həmdəm» dastanı da ona məxsusdur.

Bu dastanlardan ikisi, daha doğrusu, «Leyli və Məcnun»la «Yusif və Züleyxa» eynən Azərbaycan versiyası ilə səsləşir və bizə məlum olan məzmundadır. Şairin dini-mənqibəvi səciyyə daşıyan «Baba Rövşən» və «Zeynal Ərəb» dastanları isə bizdə bilinmir və aşıqlarımızın dastan repertuarında yoxdur. Şairin dastanlarının hamısı süjet və sənətkarlıq baxımından çox mükəmməl, şeirləri isə çox gözəldir.

2011-ci il Əndəlibin 350 illik yubileyi ilidir. Bu münasibətlə Türkmənistanın müxtəlif şəhərlərində bir sıra yubiley tədbirləri, təntənəli mərasimlər keçirilir. 10-12 mart tarixlərində isə şairin vətəni Daşoğuzda Türkmənistan Elmlər Akademiyasının və Daşoğuz vilayət icra hakimiyyətinin birgə əməkdaşlığı ilə Əndəlibə həsr olunan beynəlxalq elmi konfrans təşkil edildi. Biz bu yubileyə töhfə olaraq Nurməhəmməd Əndəlibin «Şeirlər, poemalar, dastanlar» (Bakı, 2011, 292 s.) adlı kitabını Azərbaycan dilində nəşrə hazırladıq. Şairin burada verilən şeirləri həmin kitabdan alınmışdır.

XƏNDAN-XƏNDAN

Gəldi ol sərvi-səxi naz ilə xəndan-xəndan,
Aldı könlümü nəvaziş bilə çəndan-çəndan.

Şükrülillah ki, gözüm düşdü günəş tək üzünə,
Müntəzir olmuş idim yolunda çəndan-çəndan.

Cismimə salmaq üçün işvə bilə tab üzə tab,
Sünbülün gül üzünə eylədi piçan-piçan.

Qaldılar seyr qılarda üzü-ləli-ləbinə
Gül baxıb, qönçə açıb ağzını heyran-heyran.

Əndəliba, qıla ver vəsl gününün şükrün,
Qalmazsan sən yenə hicarnında nalan-nalan.

NƏ BƏLA XUB

Ey rəşki-pəri, mehri-camalın nə bəla xub,
Vey nilufəri tək qoşa xalın nə bəla xub.

Fikrində olub, gözlərimə cilvə nümayən
Hər saətü hər ləhzə xəyalın nə bəla xub.

Ləlin qəmindən dışladı Xızır abi-həyatın,
Kövsər suyu tək safi-zülalın nə bəla xub.

Ey huri, üzünün biri ay, birisi gün tək,
Bu ayü günəş üzrə hilalın nə bəla xub.

Başdan ayağındır açılan gülşəni-xubu,
Sər ta beqədəm tazə nihalın nə bəla xub.

Öldürsə gözün, iki ləbin leyk verir can,
Canbəxşliyin xubi-qitalın nə bəla xub.

Baxsa üzünə, Əndəlibə heç əcəb olmaz,
Firqətzədə olana vüsalın nə bəla xub.

XURAMAN QAMƏTİ NAZİK

Xuraman qaməti nazik, nihali-sərvi-azadi,
Güləndami-məlaik, surəti-rəşki-pərizadi.

Vüsali-bəzmində üşşaqlarını kamiyab eylər,
Və likən eyləməz hərgiz məni-azadəni yadi.

Söndürdüm arizi-hicranında ayü günəş şəmin,
Çəkib bir ah munluq eylədim yer-göyü bərbadi.

Çəkib müjgənindən xəncər, sürüb meydan ara aşkar,
Tənim riş etdi ol kafir, əcəb birəhmi-cəlladi.

Hilalı əbrü müsəffa çü nazik təbi-şirinquy,
Pəri tələt, səmən nükhət, ləbi qənd, özü qənnadi.

Nolar, köyündə xara mənə olsa tikan bəstər,
Qılaram həsrət oduna yanıb, hər gecə fəryadi.

Üzi-qəddi-səmənsə kakilinin sədqəsi eylər,
Güli-sünbül bilə sərvi-çəməni qıldı azadi.

Ayağına düşüb, başından çevrilsəm əcəb olmaz,
Nəvazişlər qılıb, qılmış pozuq könlümü abadi.

Zəxi kağıl, zəxi qamət, zəxi bir işvə cadu göz,
Zəxi xalı, zəxi qəb-qəb, zəxi hüsni-xudadi.

Camalı nəqşi Çin-surətgəri saldı təxəyyirə,
Ki heyran qaldı, fani rəşk oduna yandı bizadi.

Nəsimi-ism hər beyt ibtidasından gəlir, əmma
Gərəkdir Əndəlibə ad çıxarmaqlıqda ustadi.

OLDU ƏNDƏLİB

Daş ara eylər vətən, daşbağa oldu Əndəlib,
Torpağa bağrın basıb qurbağa oldu Əndəlib.

Olmasa qurbağa, daşbağa ol nəsbi-yaman,
Nə üçün bir öydə daim yekkə oldu Əndəlib.

Biqənaətlik tutub əzasından balü pərin,
Bu üqubət birlə tikkə-tikkə oldu Əndəlib.

Dost olanlar eşitsələr soyuqdan ölməyini,
Gülüşüb söylərlər, ölsə xəkdə oldu Əndəlib.

Olsa qış, urmuş qovağa, yaz olsa yazılar,
Gəh bayquş oldu, gəhi çəkkə oldu Əndəlib.

AÇDI

Bahar əyyamı gözdən qönçələr gülşəndə xab açdı,
Səba məşşatəsi sünbülün zülfün yaydı, tab açdı.

Görüb sərgəştə əhvalını bəzmi-bustan içrə,
Təbəssümlər ilən bülbülə güllər ləli-nab açdı.

Dodağın gül qönçəsi güllər dəmə-dəm bülbülün səslər,
Hərəmi-gülşən içrə səbz süfrədən kitab açdı.

Təqdimi-bülbülə zərrin piyalə birlə gülşəndə,
Diymənlər nəstəran ləbə-ləb güli-şərab açdı.

Xəlil kimi özünü atəşi-eşq içrə uran çün,
Bilin, həq rövzeyi-gülzarından bülbülə bab açdı.

Dəbistani-çəməndə tifl sayaq Əndəlibi-zar,
Ki bismilla oxuban eldə həmradan kitab açdı.

YETSƏ

Nə xoş gündür, müsahiblər, kişi cananına yetsə,
Görüb dürlü məlamətlər, axır dildarına yetsə.

Çəkib rənci-məşəqqətlər, ki eşq yolunda afətlər,
Görüb yüz min əlamətlər, könül ərmanına yetsə.

Fələk ursa ona şəbxun, yıxılsa başına gərdun,
Görüb yüz dərdü qəm əfzun, yenə dərmanına yetsə.

Dilü canım xarab olsa, yolunda min əzab olsa,
Yanıb bağrım kabab olsa, nə ərman canına yetsə.

Mələk sima, qəddi ziba, gözü ahu, üzü həmra,
Olub çün Əndəlib şeyda, güli-xəndanına yetsə.

OLMUŞAM

Bir pərivəş nazənin yara giriftar olmuşam,
Qan udub hicrində, vəsli-yar üçün zar olmuşam.
Mən özümdən, dostlarım, sanma, xəbərdar olmuşam,
Bu cüdalıq dərdindən divanə kərdar olmuşam,
Həsrəti-ənduh ilə rüsvayi-bazar olmuşam.

Yüz müalic baxsa, ayrılmaz tənim bimardan,
Çəkmişəm yüz dərdi ələs bəzmində bir yardan,
Dəmbədəm ölməyə yetcək dil açıb naçardan,
Şikvə qılma, ey dila, bu çərxi-kəcrəftardan,
Qisməti-ruzi-əzəl ilən giriftar olmuşam.

Şəmivəş başdan çıxar hər gecə şövqi-iştiyaq,
Dərd ilə bir ahi-dil çəksəm yanar həftüm rəvaq,
Dur edibdir Yusifim Yaqub tək məndən iraq,
Ey yaranlar, eyb qılman eyləsəm suzi-fəraq,
Dosta zarü ədular əlində xar olmuşam.

Əsgəri-dərdü bəla birlə dola ..... mir,
Biəba meydan ara sürən səməndini gəlir.
Mən kimi cisminə hər yandan dəyib min zəxmi-tir,
Varmıdır aləm ara qəm əlində olan yesir?
Cami-qəmdən içəli söhbətə xumar olmuşam.

Basdı Məcnunu şahi-qəm ləşkəri-ənbuh ilə,
Oldu Şirin hicrində Fərhad ara bir kuh ilə,
Dan deyil keçsə ümmidi-ömrü ah-uh ilə,
Ötdü dünyadan yaranlar cümlə pür ənduh ilə
Məhzun söylər Əndəlib, özgə gülzar olmuşam.

SEVİRƏM

Ey şahi-nazik təbiət, gül üzünü sevirəm,
Ey qəmər üzlü, şəkər-şirin sözünü sevirəm,
Xoş qələm ol iki qaşi-qunduzunu sevirəm,
İşvə-naz ilən baxan nərgiz gözünü sevirəm,
Həm üzünü, həm gözünü, həm özünü sevirəm.

Bu nə dövlətdir ki, didarın tamaşa eyləsəm,
Sanki ol həzrəti-Yusifi sövda eyləsəm,
Ay üzün gördüm, özümü məsti-şeyda eyləsəm,
Eşqini, ey növbaharım, könlümə ca eyləsəm,
Həm başını, həm dışını, həm qaşını sevirəm.

Təxti-dünyanı gəzib, sən tək nigarı görmədim,
Sən kimi sahib-lətafət gülüzarı görmədim,
Sən kimi nazikbədən çeşmi-xumarı görmədim,
Dilrübalar içrə sən tək şəhriyarı görmədim,
Həm belini, həm əlini, həm dilini sevirəm.

Uyğuda gördüyüm ol şahi-cahanım sənmisən?
Ağlı-huşum alan ol qaşı kamanım sənmisən?
Könlüm içrə cay olan mehribanım sənmisən?
Qaməti-tubadan artıq şirin zəbanım sənmisən?
Həm dilini, həm ləbini, həm balını sevirəm.

Bu müxəmməsi sənin vəsfin ilən qıldım bəyan,
Əqli-huş yetməz sənin vəslinə, ey nazik xuram,
Vəsfini desəm tükənməz ta bu dəm yövmül-qiyam,
Mən qərib canım fəda qılsam, sənə olub qulam,
Həm boyunu, həm oyunu, həm huyunu sevirəm.
Şükr Allaha, sən kimi bir məhliqaya yetmişəm,
Çün kamalı afitab, qaşı qaraya yetmişəm,
Əndəlib binəvadır, mən ki, nəvaya yetmişəm,
Bu nə dövlətdir ki, sən tək padişaha yetmişəm,
Həm boyunu, həm oyunu, həm huyunu sevirəm.

DİLBƏR

Qurban olum gül üzə, badam qabağa, dilbər,
Görcək məni əl atdı qəmzən bıçağa, dilbər,
Ləlin meyin içmədən düşdüm ayağa, dilbər,
Olar nə cürə halım yetcək dəvaya, dilbər,
Qətlim gənəşin eylər zülfün qulağa, dilbər.

Ömür boyu qapında, ey mah, şəm tək yanaram,
Çıxsan sən xuram edib, başına dolanaram,
Xali-təbağın birlə köyünə mən dalaram,
Gənci-vüsalın istər, çün mar tək tovlanaram,
Rəhm eylə gözlərimdə qanlı bulağa, dilbər.

Şərh eyləsəm tükənməz həm dəm sifəti-hüsnün,
Bağ içrə gül qızardı alcaq bərati-hüsnün,
Əğyara həmdəm olmuş çox iltifati-hüsnün,
Ey şah, mən gədaya verməz zəkati hüsnün,
Bir görsədib özünü çəkdin qırağa, dilbər.

Baxışının arzusu qıldı qəddim xəmində,
Halım kimi pərişan oldu tənim cəbrində,
Qanlar udar həmişə könlüm ləbin qəmində,
Xalına ram oldum görcək məni-rəmidə,
Canlar quşunu zülfün saldı duzağa, dilbər.

Şövqündə, ey pərivəş, divanədir bu canım,
Hər nə günah qılsan sən, cürmanədir bu canım,
Mən xəstə binəvadan biganədir bu canım,
Vəsl axşamını tapan əfsanədir bu canım,
Şəmi-cəmalinə bax, baxma çırağa, dilbər.

Gül tək üzün qəmində yox məndə səbrü taqət,
Ruzi-şəb fərağından tapmaz zamanı rahət,

Sən olmayan zamanı qılmaz könül fərağət,
Cənnət sənin vüsalın, hicrin durur qiyamət,
Sədqə olsun gözündən, gəlgil qucağa, dilbər.

Sənsiz mənə gülüstan guya ki tari-suzan,
Şövqündə əndəlibi sarar nəvayi-əfğan,
Bil hüsnünün qədrini, səndən ötər bu dövran,
Zülmi-sitəm bədəl qıl, qoyma arada hicran,
Sədqə olsun qaşından, gəlgil qucağa, dilbər.

Rədd eyləmə qapından, ey nazənin, qulun mən,
Tün-gün şikəstə xatir, könlü həzin qulun mən,
Qəm dərdindən qaralan hinduyi-çin qulun mən,
Bazari-eşqə girən bir kəmtərin, qulun mən,
Mən zarı başından qılgil sadağa, dilbər.

Gül çöhrən et nümayən biçarə Əndəlibə,
Qılsan nə olur gəhi nəzarə Əndəlibə,
Rəhm eyləməzmisən heç avarə Əndəlibə,
Bir cəmi dolu tutgil meyxarə Əndəlibə,
Nazü itabı birlə varanda bağa, dilbər.

BU ÇARX

Həvəsli dehqanlara bir nazənin canan bu çarx,
Olsa su vəqti-əkində dolanır çəndan bu çarx,
İki yüz axça bahası olsa həm ərzan bu çarx,
Gurlayan su titrədər dirəkləri lərzan bu çarx,
Əşki-seylab gözlərindən axızır giryan bu çarx.

Hər səhərlər nalə eylər, hıçqırır şeyda olub,
Dolanır yüz nəğmə birlə bülbüli-guya olub,
Gölçə-gölçə yerlərə rəhmət suyu dərya olub,
Rəhmətindən göyərər cümlə nəbatat can bulub,
Həq-təala zikrin deyər, gecələr əfğan bu çarx.

Sən qulaq versən, yaxar, hər dəmbədəm avazı xoş,
Balaman, dütar, setardan yey olur, həm sazı xoş,
Su firavan olsa həm olar anda yazı xoş,
Dəmbədəm töksə təkər suyu fikirdən nazı xoş,
Biz kimi üftadələrin dərdinə dərman bu çarx.

Olsa guya bir səfər kim dolanmaqda cuş edər,
Yiyəsi yüz min sənalar birlə könlün xoş edər,
Mehriban olsa xuda kimə bu çarxı tuş edər,
Kim bu çarxın ləzzətin bilməz onu mədxuş edər,
Dər həqiqət, tanıyan elə əsli dehqan bu çarx.

İşbu çarxa mində bir ağac, bilin, dərkar olar,
Hər biri bir ləfz ilə zikri-xudaya zar olar,
Biri sübhan der, biri əlhəmdülillah yar olar,
Dolananda qısqanıb çərxi-fələk tək var olar,
Təkəri «hu-hu» deyib, bağırları biryan bu çarx.

Dirəyi baxıb səmaya ərşi-əla görgüsü,
Həq-təala birliyinə həm qüvvəlik vergisi,

Beləsi həq işinə daim tamaşa qılğusu,
Suyundan pəstü bülənd şurə zəminlər dolğusu,
Abi-rəhmətdən göyərir bağ ilə bostan bu çarx.

Lailahə-illəllah deyib, arpa-buğda baş olur,
Laşərikə vəhdətu deb qarğıdalı həm çaş olur,
Yerkökü, küncüt, kətən, düyü əcaib aş olur,
Çox əkin qarğıdalı, onun xüruşu məş olur,
Ehtiyat edin, ərənlər, olmasın viran bu çarx.

Həm üzüm peyda olub, əncir, həm zərdalılar,
Alma, kişmiş, qarpuzu, qovunu, qaralılar,
Püstələr, ənarlar, nabatıyü şaftalılar,
Süsənü sünbül, qızılgül açılıb, gül lalələr,
İşbu güllərin görüb, çəndan olur məstan bu çarx.

Kim ki bilməz bu çarxın ləzzətini heyvan olur,
«Su» deyib hey gözləsə, bil, axmağü nadan olur,
Daşmasa su yer üçün işimiz min əfğan olur,
Şükrüllah, Əndəlib, qıldı bu çarx cövlan olur,
Biz kimi üftadələrin dərdinə dərman bu çarx.

NƏ ƏCAİB, NƏ QİYAMƏT

Ey pərtövi-hüsnündə olan nuri-səadət,
Vey nəxli-qədin zibi-gülüstani-zərafət,
Yetirdi damağıma qədin nükhəti-rahət,
Bir qəmzə ilə baxdın, canım tapdı xəlavət,
Hay-hay, nə düşübdür bu xuraman qəddi-qamət,
Bəh-bəh, nə gözəlsən, nə əcaib, nə qiyamət.

Övraqi-camalında yazılmış xətti-reyhan,
Hər tün başının səmərəsi bir ayəti-Quran,
Şanından nüzul oldu onun «surəti-rəhman»,
Rəngin üzünə müzmər olur mənayi-əlvan,
Başdan ayağındır açılan tazə gülüstan,
Bəh-bəh, nə gözəlsən, nə əcaib, nə qiyamət.

Ol xali-siyahın ki, düşübdür zəkan içrə,
Bir müşki-Xətadan yeni gəlmiş Xotən içrə,
Hinduyi-şuxbadamın ikən əncümən içrə,
Ya nilufərindir, açılıbdır çəmən içrə,
Dürdanə dişindir, tapılıbdır Ədən içrə,
Bəh-bəh, nə gözəlsən, nə əcaib, nə qiyamət.

Mərgulələrin türreyi-tərrarın açıbdır,
Sünbül üzə sünbül güli-rüxsarın açıbdır,
Gül qönçələrin ləli-şəkərbarın açıbdır,
Sərv eybini nazik qədi-rəftarın açıbdır,
Can qəsdinə göz qəmzeyi-xunxarın açıbdır,
Bəh-bəh, nə gözəlsən, nə əcaib, nə qiyamət.

Külbəmə qədəm qoysan, öpərəm ayağından,
Gəh qəbqəbi-safi, gəhi simin sakağından,
Öldürməyə navək çıxarıbdır sadağından,
Qurbanın olum göz üzə badam qabağından,

Şərbət əzilər yəxyil-izam dodağından,
Bəh-bəh, nə gözəlsən, nə əcaib, nə qiyamət.

Ey qəmzəsi qanlar içici, gözləri cəllad,
Can almağa ustad yaradıbdır səni ustad,
İnsan demək olmaz sənə, ey hüsnü-xudadad,
Hüsnün güli-rənayü qəddin ərəri-şümşad,
Siratda məlaiksən u surətdə pərizad,
Bəh-bəh, nə gözəlsən, nə əcaib, nə qiyamət.

Ey müğbeçə, məhbubluğun həddən ötübdür,
Avazeyi-hüsnün külli aləmi tutubdur,
Üzün görəli cənnəti adəm unudubdur,
Rüxsari-camalında güli-lalə bitibdir,
Məşşateyi-təqdir səni xoş yaradıbdır,
Bəh-bəh, nə gözəlsən, nə əcaib, nə qiyamət.

Ey şux, səni görəli divanə olmuşam,
Hər gecə üzün şəminə pərvanə olmuşam,
Hicrində özüm qəm ilə qəmxanə olmuşam,
Ləli-ləbin soralı məstanə olmuşam,
Qəvvas kimi talibi-dürdanə olmuşam,
Bəh-bəh, nə gözəlsən, nə əcaib, nə qiyamət.

Bülbülün işi, Əndəliba, ahü fəğandır,
Dildar gözündən neçə vəqt oldu nihandır,
Bir görməklə od tək üzünü yanmaq həmandır,
Bu fitneyi-dövran ki, həmə səndə əyandır,
Ey müğbeçə, cadu gözün aşubi-zamandır,
Bəh-bəh, nə gözəlsən, nə əcaib, nə qiyamət.

EY DİLBƏR

Qaraldı gül ruyindən ağ buludda tey dilbər,
Könüllərin istəyin görmədim sən dey dilbər.
Hüsni-camalın üçün dövləti dilə dilbər,
«La ilahə illəlah» sözü sürdü boy dilbər,
Nurlandı haq nurundan yanaqların, ey dilbər.

Uca qəddi-qamətin oldum gerçək yesiri,
Eşqin sevdası başa düşənlərin mən biri,
Dəyib oldum rüsvayi sən bəla oxun tiri.
Məni öldürmək üçün iki kirpik xəncəri,
Çəkdi qoşunun mənə, bu günümə vay, dilbər.

Göz önümdə həmişə qüssəli tozun giryan,
Camalın gülşənində baharın, özün giryan,
Xumardan dolub duran məst-sərxoş gözün giryan,
Haqqın nuru sayılan nuranə üzün giryan,
Bismillahın «sini»sən, ağzın qönçə tək, dilbər.

Sən yağmurlu buludsan mənə asmandan gələn,
Sən açılan qönçəsən bagü bostandan gələn,
Külbəmə dürlü mehman çəkib qüssəndən gələr,
Bu biçarən yanına qaçıb hicrandan gələr,
«La ilahə illəllah», səndən aman, ey dilbər.

Hər hansı vətən yaxşı nazik torpağın ilə,
Tikilən donlar yaxşı nurlu gövhərin ilə,
İyli yasəmən yaxşı qara zülflərin ilə,
Boğulan çəmən yaxşı sənin xəyalın ilə,
Yanağından utanıb, yerə girər gül, dilbər.

Fitnə varın törədən iki sanı məst gözün,
Kirpiklərin qəmzəsi tökər qanımız bizim,

Gövhər ləbin tərpənsə, səpər şəkərin özün,
Camalın yesiridir əhli bütün Təbrizin,
Ağzından çıxan sözün haqq ayəti dey, dilbər.

Görüb hüsni-camalın başa bir bəla aldı,
Saçın Əndəlib kimi onu bu eşqə saldı,
Danışmağa sənlə dilim bir meylə gəldi,
Kəminə aşiq bülbül kuyinin qulu oldu,
Kəramətə düşərəm səbab ilə, ey dilbər.

YAR

Talan salıb bağıma, hicran odun yaxdı yar,
Tükənməz qəmə düşdüm, başa firqət taxdı yar.
Ayrılıq dərdi məni məngənə tək sıxdı, yar,
Həsrət odu qəlbimi dağladı, həm yaxdı, yar.
Firqət meyi könlümə dola-dola axdı, yar.

Pakizə cənnət oldu cənanəmin önündə,
Xıdır gəlib durardı viran külbəm yanında.
Eşqim qanad çalardı külbəmin hər yerində,
Vüsal ümidli çıram rövşəndi öz öyümdə,
Hicranın qara yeli bu çıramı yıxdı, yar.

Aydan, gündən parlaqdı nuru onun üzünün,
Cana şəfa verərdi hər nəzəri gözünün,
Oğrun baxışı mənə bəxşişiydi özünün,
Balın şirnisi çoxdu, yoxsa yarın sözünün,
Qəlbə firqət müşkünün iyi dolub yıxdı, yar.

Qismətə bax, həyatda ayrı düşdüm yarımdan,
Ruhum, bədənim, canım dolu həsrət-zarımdan,
Fərqi nə göz yaşımın tufanların zorundan,
Qədd-qamətli yarım getdi mənzil-varımdan,
Xəzan əyyamı gəlib, bağa talan saldı, yar.

Batır kimi bilindi təzım edənlər ona,
Zülfünün hər bir teli bənzədildi altuna,
Əndəlib çəmən idi, çevrildi quru tənə,
Ənqa adın itirdi, məşhur quş bu gün yenə,
Bu vadidə çox adam mənə zarın baxdı, yar.

BAŞA TORPAQ!

Yar kuyində sərgərdan gəzməyən başa torpaq!
Xəstəlikdən sağlığa yazmayan başa torpaq!
Yar uğrunda ağrıya dözməyən başa torpaq!
Eşqin qəm dəryasında üzməyən başa torpaq!
Dildar ilə sarmaşıb gəzməyən başa torpaq!

Kim səhraya tutdu üz, mövsümü gəlib gülün,
Aşiq məşuqu ilə tutdu bir küncün öyün,
Yüz bahar sona çatdı, hər gül aldı öz yerin,
Örpəklə bəzəməsəm, ürək bağının gülün,
Vurmasın böylə ürək, tökülsün başa torpaq!

Bu gün təşnə ürəyi eşq dənzinə qərq eylə,
Meylə onun nə fərqi, olsa vəziyyət belə,
Boyun sərvi olmasa, boynuna zəncir bağla,
Tovuz kimi səkən yar çıxmasa bağa seyrə,
Gül yarpağı üzülsün, tökülsün başa torpaq!

Eşq yolunda ixlas et bir neçə gün, başarsan,
Ney satan yer nişansız, sən bu yolda çaşarsan,
Xoşdur yenə oturub, dilbərlə mey içərsən,
Gözündə nur olmasa, kordur deyə bilərsən,
Yarsız ləzzət alandan tökülsün başa torpaq!

Yun xirqə geyən sofu, meyi nuş etmək gərək,
Təqvalıqda özünə əzab vermə axmaq tək,
Götür bu gün badəni, olma böylə daşürək,
O yüz qatlı çalmanı dəyişmə yara, görək,
Sevgili yar olmasa, tökülsün başa torpaq!

Kirpikdə düyün oldu, yanaqdan axan yaşın,
Xəyalım düyün oldu zülfün tarı tək başın,

Qönçə tək düyün oldu qıya-qıya baxışın,
Tatar müşkü olsa həm üstün, ətrafın-dışın,
Yanaqda xal olmasa, tökülsün başa torpaq!

Yar ilə sirli-sirli söyləşməyən hər dilin,
Ürək zövqünün bunda yoxluğunu siz bilin,
Eşq sövdası kimdə yox – olmaz huşu əqlinin,
Tale oynadar onu, misli çövgən topunun,
Didar dizində bir dəm olmayan başa torpaq!

Bu ürək pak olarmı, olmasa eşq atəşi,
Ol qəmdən pak olarmı, çəkməsə fəğan başı?!
Yar qəmində yaxasın çak etməyən bir kişi,
Qiyamətdə, söyləyin, nə olar onun işi?!
Lalə yanaq dağını görməyən başa torpaq!

Gözəllik bazarında hər güldə Əndəlib var,
Hər kəs orda görkünü özü tək edər aşkar,
Bu bazarda bir azca ad-sanımız tanınar,
Tapılar ol bazarda hər bir mala xiridar,
Bazar içrə xiridar olmayan başa torpaq!

MAİL

Rəhmsiz yarın qəlbi müdama cəfa mail,
Ömrümizdən nə hasil, olmasa vəfa mail?!

Tək mənəmmi ol yarın bəlasına mübtəla,
Qəmə mübtəla hər kəs, yox ondan səfa mail.

Görürəm yürüb gedir yar rəqibin izindən,
Ölüm qapısı açıq, ömür bu gapa mail.

Sarı qaş yar görkünə heç nöqsanlıq verməyir,
Söz dəftərdə, tərifi başından vəsfə mail.

«Bu dərdə əlac tapar» deyib Loğmana vardım,
Dedi: «Əlacsız bu dərd, sataşan şəfa mail».

Cəfan ilə nə qədər ürək sinəmi döysün,
.....

Arzuların məskəni Firidunun ürəyi,
Acizlərin pənahı xudaya tapa mail.

Əndəlib ruyi ilən arzu ipin bağlama,
Köpük tək görkün günü, deyil ol baxa mail.

BAŞINDA

Şahlıq ləlindən olan şahlıq tacı başında,
Bağın dirilik şəmin ay-gün yaxar daşında,
Cəbrayıl pəri ilə uçar Qafın qaşında,
Mələk varı şam-səhər mühafizə işində,
Ayı bölüb görkəzdin möcizənin başında.

«Aləmlərə mərhəmət» yetdin xitab bəxtinə,
Torpaq cismin oturdu böyük cənnət təxtinə,
Yüz min Süleyman tabe sən üzüyün qaşına,
Bil ki, Ruhül-əmin də düşdü qürbət daşına,
«Lövläk» donu əynində, «Ev ədna» tac başında.

Ərşdə arxayın gəzər Buraq adlı bu atın,
Doğru yolda yürüyür, əlbəttə ki, ümmətin,
Nemətli dəstərxanın bir tabağı cənnətin,
Kəlim, əgər olmasa xoşaçısı rəhmətin,
«İnni ənəllah» sözün alarmı dağ başında?!

Quran ayəti dəlil rəsulluq büsancına,
Yetdi nurundan Yusif gözəllik güvəncinə,
Cəbrayıl hacı olub, gələr sənin həccinə,
Xəlil bağından xoş iy yetirsən bir küncünə –
Sakar odu sçilər yüz min çəmən başında.

Qursağın səfasına «Əlmim nəşrəh» şayəd bil,
Qaradan qıvrım saçı sanki gülzarda sünbül,
Elm məclisinə – gül, ilahi sirrə – bülbül,
Mərdəbəsin yetirər balıqdan Aya, bilgil,
Qurşaq taxıb xidmətdə bərk duran var qaşında.

Hörmə saçın xoş ətri güli-İrəm bağının,
Gözü düşüb tubanın sərv boyuna sənin.

Bu öylər viran oldu qüvvətinə çiyinin,
Ümmətin nə qəmi var odundan cəhənnəmin,
Varsa sən tək inamdar şəfaətçi başında.

Təcəlli gülzarında boyun böyükdə durar,
Bəxtin başı meracda səndən yana naz qurar,
Binəva Əndəlibə özgə kim şəfa sunar,
Ey möcizə yiyəsi, umudu səndə arar,
Ol gün şəfaət eylə durub elin başında.

MƏSTANIM GƏLƏR

(«Mirzə Həmdəm» dastanından)

Qadir Allah əmri bilən
Kərəmli sultanım gələr,
Səhərlər nalə eyləyən
Gözləri məstanım gələr.

Qırx qulambeçə önündə,
Zəhərli xəncər qolunda,
Seyri-bazarın yolunda,
Mirzə xan tək canım gələr.

Ey yaradan Birivarı,
Səndən başqa yox qəmxarı,
Mövləvinin intizarı,
Dərdimin dərmanı gələr.

Yusif üçün hicran çəkdim,
Əndəlib tək fəğan çəkdim,
Mən özümü qurban çəkdim,
Qırx qulamlı xanım gələr.

Mövləvi mey haqdan içdi,
Qırx qulambeçə yetişdi,
Mirzəcanım mənə düşdü,
Mərdlik etsə rəhmi gələr.

QƏLƏNDƏR

(«Mirzə Həmdəm» dastanından)

Aşiqlik dərdi yamandır,
Getgil bu yerdən, qələndər.
Bu dünyanın vəfası yox,
Getgil bu yerdən, qələndər.

Aşiqlər yanıb köyməsin,
Sirrimi kimsə bilməsin,
Sultan Hüseyn görməsin,
Getgil bu yerdən, qələndər.

Sən bir aşiqi-şeydasan,
Ya məgər bir övliyasan,
Eşqin yolunda fədasan,
Getgil bu yerdən, qələndər.

Çox durma, keç bu dünyadan,
Dadmadın zövqi-səfadan,
Məqsədin dilə Allahdan,
Durma bu yerdə, qələndər.

Əndəlib tək şeyda olsam,
Mən yolunda fəda olsam,
Axır çağda səni görsəm,
Durma bu yerdə, qələndər.

Mirzəcanı çox incitmə,
Bu sözdə qaşını çatma,
Mən qəribi çox ağlatma,
Durma bu yerdə, qələndər.

YARIN LİBASI

(«Mirzə Həmdəm» dastanından)

Səbr eyləgil, ey can fərzənd,
Yetişər yarın libası.
Könlünə salmagil min dərd,
Yetişər yarın libası.

Könlündə onun qovğası,
Başında eşqin sevdası,
Xıtay, Xotən padişası,
Yetirər yarın libası.

Səbrsizlik etmə, zinhar,
Səbr qılan görər didar,
Aşiqlərə ərənlər yar,
Yetişər yarın libası.

Könlünü eyləmə tirə,
Yıxılarsan ulu yerə,
Məqsudu Allahdan dilə,
Yetişər yarın libası.

Könlünü eyləmə naxoş,
Namərd bilən olma yoldaş,
Dara düşsən tez mərdə qoş,
Yetişər yarın libası.

Dünyada çox, bitməz sözüm,
Səbrsizlik etmə, quzum,
İki dünya görər gözüm,
Yetişər yarın libası.

İLƏN

(«Leyli-Məcnun» dastanından)

Vardım ədəb sarayına,
Şənbə günü səba ilən,
Düşüb gözüm ayağına,
Bir neçə dilrüba ilən.

Lövhə açıb oxur sapaq,
Hər sapağı düz üç varaq.
Nur qoxular tabaq-tabaq,
Ağzı dolu səna ilən.

Bir pəri naz ilə baxar,
Baxışı canımı yaxar,
Danışsa şəkəri axar,
Ləblərindən şəfa ilən.

Bir pəri təzə, xoş-xürrəm,
Novgüli-bağ, lalə-fam,
Kağıli müşk, Leyli nam,
Yaşmaq örtər həya ilən.

Qapqaradır gözü-qaşı,
Qolunu salıb sarmaşır,
Oynayanda xub yaraşır,
Bir-birinə iba ilən.

Mən Qeysi oda saldılar,
Könlümü əldən aldılar,
Təzim edib əyildilər,
Xoş dedilər riza ilən.

İNDİ SƏN

(«Baba Rövşən» dastanından)

Xəznə nədi, Baba Rövşən,
Gəl arxama min indi sən,
Ağlın gedib, yıxılarsan,
Gözün möhkəm yum indi sən.

Hara varsam, ora gedək,
Göz görməyən yerə gedək,
Altı aylıq yola gedək,
Kəramətim gör indi sən.

Yoxsulluqdan oldun əda,
Sənə canım olsun fəda,
Borclu olmaq – qəhri-xuda,
Zinhar, həzər qıl indi sən.

Sür bazara, qula qatıb,
«Qulumdur» de, məni satıb,
Mədinəyə geri çatıb,
Cuhuda ver pul indi sən.

Əziz başım sənə quldur,
Borcunun əlacı budur,
Müsəlmansan, din rəsuldur,
Borcdan xilas ol indi sən.

Adım Əli Şahimərdan,
Bir də derlər şiri-yəzdan,
Dostlar mənə olar xəndan,
Sözüm qəbul qıl indi sən.

DÖVLƏTMƏMMƏD AZADİ
(1700 - 1760)

Dövlətməmməd Azadi türkmən ədəbiyyatında didaktik-moralist şair kimi məşhurdur. Qələmini və ömrünü gənc nəslin təlim-tərbiyəsinə həsr etmiş, öz tədris üsulunu və pedaqoji məktəbini yaratmış, bunu dəstəkləyən əsərlər yazmışdır. Bu mənada onu «türkmən Sədisi» adlandırmaq olar.

Dövlətməmməd Azadi 1700-cü ildə anadan olmuşdur. O, türkmənlərin göklən boyunun gərkəz tayfasına mənsubdur. Atası Məxdumqulu Yonaçı da şair olmuş, bir çox maraqlı şeirlər yazmışdır. Onun «Gürgənin» adlı şeiri indi də məşhurdur. Azadi mollaxananı bitirdikdən Xivədəki mədrəsələrdən birində oxumuş, ərəb və fars dillərini öyrənmiş, öz dövrünün bütün elmlərinə dərindən vaqif olmuş, bilgili alimlərdən biri kimi yetişmişdir. Təhsini başa vurduqdan sonra öz doğma obasına qayıdaraq burada müəllim kimi fəaliyyət göstərmişdir.

Azadi dahi türkmən şairi Məxdumqulunun atası və müəllimidir. Onun ailəsində bir-biri ardınca baş verən faciələr, uşaqlarının ölümü və bəzilərinin ata yurdunu tərk etməsi şairin səhhətini hələ cavan ikən pozmuşdur. Nəticədə Azadi altmış yaşında həyatla vidalaşmışdır.

Dövlətməmməd Azadinin ən məşhur əsəri «Vəzi-Azad» adlanan didaktik-fəlsəfi mənzuməsidir. Bundan başqa, onun «Hekayəti-Cabir Ənsar», «Münacat», «Behiştnamə» adlı məsnəviləri, bəzi qəzəlləri də var. Bunlarda şairin fəlsəfi, əxlaqi və sosial görüşləri öz əksini tapır. Azadi hələ o dövrdə ədalətli cəmiyyət, yetkin vətəndaş və milli dövlət ideyalarını irəli sürmüş, bir növ, mənzum konstitusiya yazmışdır.

Əsər dörd fəsildən ibarətdir. İlk fəsildə türkmən xalqının

azadlıq idealı işlənmişdir. Şair burada türkmənlərin feodal-tayfa dağınıqlığına son vermək və müstəqil milli dövlət qurmaq zəruriliyini vurğulayır. Üstəlik, bu dövlətin quruluş şəklini, vəzifələrini, funksiyalarını dilə gətirir.

Əsərin ikinci fəslində Azadi humanizm, xeyriyyəçilik, comərdlik kimi mövzuları işləyir. Çünki qurulacaq dövlətin yaşaması üçün geniş abadlıq işləri görülməli, yollar, kanallar, körpülər, karvansaralar, məktəblər, mədrəsələr, məscidlər, səhiyyə ocaqları və digər sosial-mədəni müəssisələr vücuda gətirilməlidir ki, bunlar da yalnız xeyriyyəçiliklə mümkündür.

Üçüncü fəsildə elm və alim problemi qoyulur. Şair burada daha ziyadə mənəvi məsələləri dilə gətirir, elmin və alimin cəmiyyət və dövlət üzərindəki müsbət təsirini açıqlayır.

«Vəzi-Azad»ın son fəslində dərvişlərin vəzifələri barədə danışılır.

Bu əsərində bir sıra orijinal fikirlər irəli sürən, eyni zamanda XVIII əsr türkmən cəmiyyətinin mənzərəsini verən Azadinin ədəbi və elmi dünyagörüşünün formalaşmasında Nizami Gəncəvinin, Sədi Şirazinin, Xoca Əhməd Yəsəvinin, Əbdürrəhman Caminin və Əlişir Nəvainin təsiri aydın sezilir, lakin şair türkmən reallığına söykəndiyi üçün bir çox məsələlərdə özünəməxsusluğunu qoruyub saxlaya bilir. «Vəzi-Azad» bu gün də öz aktuallığını itirməmişdir, gənc nəslin tərbiyəsində mühüm rol oynayır.

Dövlətməmməd Azadi öz şəxsiyyəti və poeziyası ilə başda oğlu Məxdumqulu Fəraqi və nəvəsi Qurbandurdu Zəlili olmaqla türkmən ədəbiyyatının bir çox nəslini tərbiyə etmişdir. Seydulla Seydi, Seyidnəzər Seydi, Şeydayi, Məğrubi, Qayıbı, Talibi, Kəminə, Molla Nəfəs və başqaları onun müsbət təsiri ilə yetişmişlər.

Heç şübhəsiz ki, Dövlətməmməd Azadinin türkmən xalqına əta etdiyi ən böyük əsəri oğlu, dahi şair və mütəfəkkir, atasının bədii və milli fikirlərini inkişaf etdirən və ən yüksək bədii səviyyəyə çatdıran Məxdumquludur.

VƏZİ-AZAD

(Parçalar)

III BAB

Babi-sevvom içrə vəsfil-aliman,
Zikr edəyim onları bəlli-bəyan.

Kəşf açıbdır Tanrı özü bulara,
Bəs lədin elmin veribdir onlara.

Bəs əməlsiz alim oxşar cahilə,
Nəfi yetməz elmindən hərgiz elə.

Elmi-dindən hər kişi tapsa xəbər,
Gər əməl qılmasa, bil, günah edər.

Yəni bil heyvanı ondan yaxşıraq,
Olsa ağlın, daim ol ondan iraq.

Çünki bildin məqsədi dünya imiş,
Elmi-dinə kim ki, bipərva imiş.

Misli-bünyad etmiş ol, gülzari-xoş,
Meyvəsinə eyləmiş çox pərvəriş.

İndi özü yemədi ol meyvəni,
Yeməyə həm xalqa vermədi onu.

Batdı yerə, çürüdü ol meyvəsi,
Almadı nəf yəni ondan kimsəsi.

Elm oxusa, tanrı əmrin tutmasa,
Bu şəriət yoluna rast getməsə,

Əmri-məruf, nəhyi-münkər tutmayan,
Haq kəlamın dəxi təzim etməyən,

Surətin alimlərə təşbih qılıb,
İşdə özü xalq ara fisq işləyib,

Elm ona məhşər günü düşmən olar,
Çox əzabi-kin ona şəksiz olar.

Dünya içrə tən olar eyşi ona,
Bəs məşəqqət olar ol işi ona.

Kor olar iki gözü məhşər günü,
Kim əzab içrə olar canü təni.

Der: xudaya, dünyada vardı gözüm,
Bəs nədən kor eylədin sən, ya özüm.

Haq təala der: bilib çün tutmadın,
Kim mənim buyruqlarım etmədin.

Bildinü oldun vəli, bilmən kimi,
Bəs kəlamıma nəzər salman kimi,

Ol səbəbdən əzabi-bihesab
Eylədim, indi inan, budur kitab.

Budur işin, gər əməl etməz isən,
Tanrı buyruğun bilib tutmaz isən.

Az bilib, kim elminə qılsa əməl,
Bütün aləm alimidir, yox cədəl.

Haq qaşında sevgilidir ol kişi,
Çünki var könlündə ol din təşvişi,

Elmi çox kim bilsə, əməl etməsə,
Haq təala buyruğun rast tutmasa,

Bilgil onu cümlə cahildən betər,
Eyləməz xalqa əmri-vəzi əsər.

Misli-xərdir ona yüklənmiş kitab,
İstəsən budur sana dedim cavab.

Alim kim, əməlindən yoxdur nişan,
Gövdədir kim, yox dürur içində can.

Alimi-bikar hasil almayacaq,
Hiylə-təzvir ona sud qılmayacaq.

Heç nə tikməz riştəsiz iynə həman,
Girsə-çıxsa səd həzaran, yox güman.

Üzməsi mümkün deyil qolsuzların,
Deməsi mümkün deyil dilsizlərin.

Bir oraqçı kim, oraq yox əlində,
Biçməsi mümkün deyildir, ey dədə.

Katibin kim, əlində yoxdur qara,
Yazmaq oynamaqda nə fayda görə?

Sayıçı kim, çubuğu əlində yox,
Bəs ki sayılmaz əl ilə vursa çox.

Yonğuçu kim, yox əlində kərkisi,
Yox əlac yonmaq əlin vursa bəsi.

Söyləsəm də mərifət payanı yox,
Hamısın desəm sənə, imkanı yox.

Elmdən məqsəd əməl etmək dürur,
Ol elm birlə haqqa yetmək dürur.

Ol elmdən məqsəd almasa əməl,
Yüzlənər kibr, təkəbbür, yüz cədəl.

Gər elmdən məqsədin həqq olmasa,
Dosti-həqq, ya nuri-mütləq olmasa,

Bil, zəlalət bəhrinə qərq oldu ol,
Həm riya birlə işi zərq aldı ol.

Var, riyadan can ilə qılgil həzər,
Haqqı istər sidq ilə, əlbət, tapar.

Var, əməli sidq ilə qıl biriya,
Felin düz olsa yetərsən tanrıya.

Bir hədis içində bu söz söyləndi,
Elm tərifindən bir gap eyləndi.

Elm ki ondan kişi nəf almadı,
Misli böş lafdır ki, xeyri olmadı.

Elminin nəfi budur, ey əhl-i dil,
Yəni xalqı haq yola salmaqdır ol.

Elm oxub artırmasa zühdü həman,
Tanrısına misli etgəndir üsyan.

Tanrıdan yetər ona sonsuz qəzəb,
Olmas asayiş ona, illa kərəb.

Nəfi yetməz elmdən ol haq rəsul,
Tanrıya etdi pənah, ey bi1-füzul.

«Elm iki dürlü olur» dedi yenə,
Ona rəğibsən, gəlib dinləsənə.

Birinə bu elmi-qəlbi dedilər,
Birinə həm elmi-rəbbi dedilər.

«Elmi-qəlbi elmi-nəfidir» dedi,
«Xalqa onun nəfi çox» söylədi.

Hər zaman könlünə enər xofi-haqq,
Görülən əşyadan ol alar sapaq.

Ol sapaqdan özünü tutar aşağ,
Hübbi-dünya könlündən olar iraq.

Can içində oxular haqq ayəti,
Xəlqi-aləm birlə bilməz ülfəti.

Eşq odu hər dəm onun könlün yaxar,
Durmadan iki gözündən yaş axar.

Bağrı susayar yəni ol didar üçün,
Eyləyər qurban canın yar üçün.

Olmaz onda zərrə bəhs ilə cədəl,
Tanrı əmrin qılmağa hərgiz bədəl.

Doludur haq zikrindən canü dili,
Mərifət bağından ol açmış gülü.

Söyləyər hər dəmdə dürlü mərifət,
Ağzından söz çıxmağa ol bicəhət.

Əhli-dillər mərifət bostanından,
Meyvələr yeb eyşlənirlər şəksizin.

Zahirində haqqa xidmət eyləyər,
Batinində mərifətlər söyləyər.

Haq sarı hər yanından yol açılar,
Hər saətdə dürlü rəhmət saçılar.

Bahri-rəhmətini üzər, qəvvas olub,
Dürri-gövhərlər taparlar xas olub.

Haq rəsulillanı tapar şəksizin,
Görər ol könül gözüylə dost üzün.

Dostu haqdır, dostu haqdır, dostu haq,
Elmi-nəfı istəsən budur sapaq.

Haq-təalanın əziz bəndəsidir,
Ol rəsul ümmətlərinin xasıdır.

Bəs lisani-elmi söylədim sana,
Gəl qulaq tut, bir zaman məndən yana.

Elmi-zahir elmi-şəri dedilər,
Zahirin eylər düzgün hər kim istər.

Tanrı demiş kim düzətsə zahirin,
Düzəldərəm fəzlim ilə batinin.

Elmi-zahir xalq ara rəhmətdir al,
Eşidib tutanlara rəhmətdir ol.

Bəs dəlildir onlara bu söz həman,
Eşidər, anar, tutar der bigüman.

Tanrı tövfiqi bilə hər kim tutar,
Üşbu sözdən özünə hüccət edər.

Eşidib bu sözləri kim tutmasa,
Can ilə haq buyruğunca getməsə.

Bəs əzab tapsa budur hüccət ona,
Bir əzab kim olmaya rahət ona.

Şəridə gər olsa bir iş nərəva,
İraq dur, ol işdə var sonsuz bəla.

Şəriətsiz olmaz təriqət yolları,
Bitəriqət mərifətin gülləri.

Şəriət ağacdır, təriqət budağı,
Mərifətdir ol ağacın yarpağı.

Bəs həqiqət ol ağacın nüvəsi,
Haq əridir üşbu xanın yiyəsi.

İndi bilgil şərisiz iş bitməyir,
Haq ərənlər şərisız yol getməyir.

Bəs ağacsız bitməyir budaq həmin,
Yarpaq olmaz, budaq olmasa yəqin.

Meyvə bitməz yarpağı gər olmasa,
Tapmaz yol şəriətə üz tutmasa.

Olmasa tövfiqü taət qula yar,
Qul haçan şər işin edər ixtiyar.

Ləyk fərman etdi qullara cələb,
Əmri-haqqa vacib olmuşdur tələb.

Alimi kim biəməldir, qıl həzər,
Nəfi yetməz kimsəyə, illa zərər...

Elm oxub, əməl edənləri xuda,
Çox sevmişdir, eşit, ey kətxuda...

ABDULLA ŞAHBƏNDƏ
(1720 – 1800)

1720-ci ildə Vas şəhərində anadan olmuşdur. Türkmənlərin yomut boyunun qoçaq tayfasındandır. Ömrü Yasda və Köhnə Ürgəncdə, Qafqazda və İranda (Ətrək, Gürgan və İsfahanda) keçmişdir. Atasının adı Məmi, anasının adı Dövlətbikə, sevgilisinin (arvadının) adı Mənlidir. Özünün əsl adının Əbdünəzər olduğu söylənir. Şairin Seyidnəzər, Dövlətnəzər, Məmmədnəzər və Annamənli adlı dörd oğlu olmuşdur. Şahbəndənin nəslindən olanlar hazırda Türkmənistanın Daşoğuz vilatətinin Köhnə Ürgənc və Taxta mahalında yaşayırlar. Şair 1800-cü ildə vəfat etmiş və Daşoğuzda Aşiq Aydının kümbəzi yanında dəfn olunmuşdur.

Əldə olan məlumata görə, Şahbəndə yaxşı təhsil almış, Xivədəki məşhur Şirqazi mədrəsəsində oxumuş, dövrünün ən bilgə adamlarından biri olmuşdur. Şeirləri, xüsusilə müəmmaları onun Şərq ədəbiyyatı, ilahiyyat, mifologiya, tarix, coğrafiya, astronomiya, təbabət sahələrində dərin bilik sahibi olduğunu göstərir.

Şahbəndənin gerçək həyatı başdan-başa əfsanə dumanına bürünmüşdür. Onun adı haqqında da xüsusi rəvayət var. Deyilənə görə, ən yaxın dostu savaşda əsir düşür və Şahbəndə onu axtarmağa çıxır. Gəlib görür ki, dostu bir şahın əlində əsirdir. Öz-özünə belə deyir: «Dostumla mənim aramda heç bir fərq yoxdur. Əslində, mən də şahın bir bəndəsi və əsiriyəm». Bundan sonra onun adı Şahbəndə olaraq söylənir.

Abdulla Şahbəndə Məmmədvəli Kəminə və Murad Talıbi ilə (rəvayətə görə, həm də Məxdumqulu Fəraqi ilə) yaxın dost olmuşdur. Xalq arasında onların dostluğu haqqında maraqlı

rəvayətlər dolaşır.

Şahbəndənin yaradıcılığı geniş və çoxşaxəlidir. Onun mövzularının əksəriyyəti real həyat hadisələrindən götürülmüşdür. Bəzi şeirləri avtobioqrafik səciyyə daşıyır. Şeirlərində didaktik motivlər güclüdür. O, insanları daim yaxşılıq etməyə, xeyirxahlığa səsləmiş, xüsusilə gənclərə mərdlik, şücaət, ədalət duyğuları aşılamağa çalışmışdır. Şairin dini mövzuda yazdığı şeirlərdə həzrəti peyğəmbərin həyatı və islam dininin gözəllikləri ustalıqla və səmimiyyətlə vəsf edilmişdir.

Abdulla Şahbəndənin poetik irsinin böyük hissəsi itibatmış, çox az bir qismi gəlib bizə çatmışdır. Onun bəzi şeirləri başqa şairlərin adına çıxılmış, dini məzmunlu şeirləri isə sovet dövründə ümimiyyətlə ortaya çıxarılmamışdır. Bununla birlikdə şairin yaradıcılığı türkmən ədəbiyyatında çox mühüm bir mərhələ təşkil edir. O, sələfləri Nurməhəmməd Əndəlibdən və Dövlətməmməd Azadidən təsirləndiyi kimi, özündən sonra gələn xələflərinə, o cümlədən Məxdumquluya, Zəliliyə, Molla Nəfəsə, Katibiyə, Aşiqiyə və başqa şairlərə qüvvətli təsir göstərmiş, onlara nümunə olmuşdur.

Şahbəndə bir neçə dastan müəllifidir. Onun «Şah Bəhram», «Gül-Bülbül», «Xocamverdixan» adlı dastanları var. Bunlardan «Şah Bəhram» hind mifologiyasının savaş, ovçuluq və zəfər tanrısı Varaxra, yaxud Viret-rana ilə bağlıdır. Bu surət sonralar İran mifologiyasına keçərək Bəhram kimi sabitləşmişdir. Mifik obraz olaraq Bəhram Mars və Mərrix kimi savaşı simvolizə edir. Sasanilərin on dördüncü şahı olan, ədəbiyyatda qulan (gur, çöl eşşəyi) ovlayan Bəhram Gur kimi məşhurlaşmışdır. Nizami Gəncəvi «Yeddi gözəl» əsərində, Əmir Xosrov Dəhləvi isə «Həşt behişt» poemasında onun surətini yaratmışlar. Şahbəndə də onların təsiri altında bu mövzuya müraciət etmişdir. Lakin «Şah Bəhram» dastanının süjeti xeyli fərqli və orijinaldir. Şeirləri isə müstəsna dərəcədə gözəldir. Həmin şeirlərdən biri nümunə kimi bu antologiyada verilmişdir.

Şahbəndənin «Gül-Bülbül» adlı dastanı da çox maraqlı-

dır. Bu mövzuda ondan əvvəl də əsərlər yazılmışdır. 1456-cı ildə Bədiəddin Mənuçöhr ət-Təbrizi, daha sonra özbək şairindən Səlahi «Gül-Bülbül», Lütfi isə «Gül və Novruz» adlı əsər yazmışlar. Şahbəndə öz dastanına başqa bir ruh vermiş, onun sujetini öz istəyinə və poetik məramına görə dəyişdirmişdir. Şair dastanın sonunda onun yazılma tarixi barədə (hicri təqvimlə 1214, miladi təqvimlə 1799/1800-cü il) məlumat verərək yazmışdır:

Min iki yüz on dörd oldu tarixdə,
Bicin (meymun) ili yazdım qissəni, bəylər.

Şairin qələmindən çıxan «Xocamverdixan» dastanı da öz orijinallığı ilə seçilir.

Bunlardan başqa, mənbələrdə verilən məlumata görə, Şahbəndənin gəzib-gördüyü yerlərdən bəhs etdiyi «Səyahətnamə» adlı bir əsəri də olmuşdur, lakin bu əsər indiyədək aşkar edilməmişdir.

Abdulla Şahbəndənin şeirləri və dastanlarının yüzdən artıq əlyazması hazırda Türkmənistan Elmlər Akademiyasının Milli Əlyazmalar İnstitutunda saxlanır. Şairin əsərləri dəfələrlə nəşr edilmiş, haqqında elmi tədqiqat işləri yazılmışdır.

Şahbəndənin əsərləri Azərbaycanda çox da bilinmir. Ölkəmizdə əvvəllər onun cəmi bir neçə şeiri çap olunmuşdur. Yaradıcılığı Bakı Dövlət Universitetinin tükr xalqları ədəbiyyatı kafedrasında və bəzi ali məktəblərin filologiya fakültələrində tədris olunur.

MƏNLİ

Qaşına çəkibsən sürmə
Bugün, sevər yarım Mənli.
Al yanaqda burma-burma
Siyah zülfün tarım, Mənli.

Gözə gəlməz dünya malı,
Pərişandır aşiq halı.
Xəzan vurdu sən gedəli,
Soldu bağçam-barım, Mənli.

Sənsən mənim Bəlx-Ürgəncim,
Səndən özgə yox güvəncim.
Qoynun içrə gizli gəncim –
Qızıl alma, narım, Mənli.

Seyrə çıxdın zülfün töküb,
Ağ üzünə örpək çəkib,
Şahbəndənin halın sorub,
Gəl, ey vəfadarım, Mənli.

QIRX

Xəbər vergil, Bəkir xocam,
O nə anddır, vallahı qırx,
Doqquz oğlan bir beşikdə,
Anası dörd, Allahı qırx?

Önü yürür, izi yetməz,
Yerdə-göydə məskən tutmaz,
O nə quşdur ölməz-itməz,
Ayağı dörd, kəlləsi qırx?

Nə mizan olar, nə yerdə,
Nə şəfadır yüz min dərdə,
Yeddi kiriş, yetmiş pərdə,
Sazı birdir, zilləsi[1] qırx?

Nə dəryadır, girdabı dörd,
O nə bağdır, ərbabı dörd,
Atı doxsan, əsbabı dörd,
Donu doxsan, hülləsi[2] qırx?

Nə ölkədir, eli beşdir,
Yağar yağmur, seli beşdir,
Nə tüfəngdir, nili[3] beşdir,
Çaxmağı bir, mərmisi qırx?

Nə ölüdür, yaşı doqquz,
Nə mizandır, başı doqquz,
Nə tirəndaz, daşı doqquz,
Nə əjdəha, kəlləsi qırx?

---

[1] Zillə – (burada) zil (bəmin zili).
[2] Hüllə – paltar.
[3] Nil – lülə.

Nə qaladır, bürcü doxsan,
Nə bəzirgan, borcu doxsan,
Nə qumaşdır, xərci doxsan,
Dağı on dörd, qallası[1] qırx.

O nə oddur, tütünü yüz,
O nə sözdür, ütünü[2] yüz,
Nə məsciddir, sütunu yüz,
Oğlanı üç, mollası qırx?

Sınsa çoxdur, daşsa azdır,
O nə söhbət, o nə sazdır,
O nə novruz, o nə yazdır,
Qışı doxsan, çilləsi qırx?

Aşma, xocam, bu bir pillə,
Bu sözümdə yoxdur hiylə,
Tapa bilməz neçə molla,
Məğər olsa silləsi[3] qırx.

Şahbəndə söylər hər sözdən,
Tut hesabın yüzdən, yüzdən,
Dörd çeşmə axar bir gözdən,
Bəndi beş yüz, damlası qırx.

---

[1] Qalla – taxıl.
[2] Ütün – xəcalət, utanma.
[3] Sillə – çalma, sarıq, əmmamə.

BEŞ

Xəbər vergil, Haşım xocam,
Nə çölistandır, dağı beş?
Ağzında qırx min qırx dişi,
Nə ilandır, ayağı beş?

Sinəmdə eşqin dağı var,
Dilsiz-ağızsız yağı var,
Üç yüz altmış ayağı var,
Hər ayağın barmağı beş.

Nə qumaşdır, xərci səksən,
Nə tüccardır, borcu səksən,
Nə qaladır, bürcü səksən,
Bağbanı yetmiş, bağı beş?

Qaranlıq dünyada aləm,
İyirmi beş at bir öydə cəm,
Hər atda iyirmi beş adam,
Hər birinin yarağı beş?

Şahbəndə deyər, nə filan,
Nə gün yazılmış, nə divan,
Səhər vaxtı doğan keyvan,
Qarası qırx min, ağı beş.

NƏDİR

Xəbər vergil, nə məxluqdur, üç dilli,
Hər dilin şərh eylə, bəyanı nədir?
İkisi mənalı, biri bikamal,
Birinə bənd olmuş, zamanı nədir?

Bir dilində yüzdə birdə hesab var,
Bir dilində yüzdə səksən cavab var,
İki yüzdə səkkiz dənə hicab var,
Doqquz xəbər, üç and, zəbanı nədir?

Birini üçə böl, üç-dörd baş olar,
Birin iki bölsən, neçə baş olar?
Üçdə üç, dörddə dörd, beşdə beş olar,
Üç yerdə salınan dükanı nədir?

Nə məxluqdur, dildə çoxdur qovğası,
İki ayaqlıdır, yetmiş kəlləsi,
Dişi iyirmi doqquz, yüz on pilləsi,
Fəhm eylə, qurulmuş mizanı nədir?

Fəhmin olsa, tut sən gündüz gecədən,
Neçə yumurta çıxar tək bir cücədən,
Sən bilməzsən, soruş Bəkir xocadan,
Ölkəsi, məskəni, məkanı nədir?

Bunların şanında otuz bir yağı,
Yetmiş baş, qırx bir tən, otuz ayağı,
Başın tutub, taxıb qıçına bağı,
Dörd qılıncla salan nişanı nədir?

O nə quşdur, onda nə tən var, nə can,
Çərx vurar, çevrilər misali-asiman,

Yumurtlayar toyuq kimi hər zaman,
Xoruz tək banlayar, fəğanı nədir?

Ayağı məğribdə, başı məşriqdə,
Çəpər tək tikilmiş, nə sirdir haqda,
Məşq edibdir hansı kitab-varaqda,
Fəhm eylə, katibi, yazanı nədir?

Məna sor, məna al, can ilə təndən,
Doğru söz çıxarmı əyri bədəndən?
Utanma, şairim, soruşum səndən,
Bildinmi başında qovğanı, nədir?

Nə ümmandır, daşdı, coşdu, səngidi,
Bu yolda bağlamış Şahbəndə bəndi,
Əkdi, biçdi, çəkdi, durma sən indi,
Gəlibsən dərməyə, başağı nədir?

BİLİNMƏZ

Arif olsan, səndən xəbər alım mən,
Nə millətdir, hardalığı bilinməz?
Xəbər ver, soruşum, gənci-xəzinə,
Fəqirdəmi, baydalığı[1] bilinməz.

Nə kirişdir, bənd olubdur kamana,
Hansı gün qopacaq axır-zamana?
Nə səbəbdən qərq olubdur ümmana,
Kənardamı, saydalığı[2] bilinməz.

Nə gövhər, nə yerdə yatar kəmbaha,
Necə isbat etmiş sureyi-Taha,
Qarkı[3], çoban, quzu, bülbül, əjdəha,
Beşinin bir öydəliyi bilinməz.

O nə quşdur, qonduğu yer gümüşlü,
Altı min qanadlı, əlli min başlı,
Atası qırxında, oğlu yüz yaşlı,
Yasdalığı, toydalığı bilinməz.

O nədir ki, dörd yanında üzü var,
O nədir ki, sinəsində gözü var,
Nə kəlamdır, üç yüz altmış sözü var,
Yerdə, göydə, aydalığı bilinməz.

O nədir ki, önü var da, ardı yox,
O nədir ki, qonar-köçər, yurdu yox,
Hesab edib görsəm, yenə dördü yox,
Nə məkanda, caydalığı bilinməz.

---

[1] Baydalığı – bayda, varlıda olması.
[2] Saydalığı – dayaz yerdə olması.
[3] Qarkı – kərgədan.

Şahbəndə der: üç min üç yüzü dursun,
Dörd min dörd yüz qırx dörd səfasın sürsün,
Hər kim ustad isə, cavabın versin,
Dörd dalın bir zedəliyi[1] bilinməz.

[1] Dörd de-nin bir ze-də olduğu.

HANSIDIR – BUDUR

Ver xəbər, arif olsan, sirri-pünhan hansıdır?
On iki darvazalı ol şəhri-əbdan[1] hansıdır?
Tut hesab həftadi-həft, bürci-gərdan hansıdır?
Üç yüz altmış cuyi-abı[2], iki ruhdan hansıdır?
Ver xəbər, ustad isən, ol şəhrə sultan hansıdır?

Feyzi-haqdır, söhbət içrə ol sirri-pünhan olur,
On iki darvazalı şəhri-bədən insan olur,
Bürcü yetmiş yeddi peydir, şəhər bəndi an olur,
Üç yüz altmış damar həblül-vəridə[3] qan olur,
İşbu şəhər içrə bilin kim, könül sultan olur.

İki yüz ol qırx səkkiz həm köyi-büzürg[4] qıl bəyan,
Pənc sədü bistü həşt[5] xana, beş yüz iyirmi beş dükan,
İki vəzir çox qulama buyurur kari-gəran[6],
Mənası çoxdur, hesab et, tez dolandırgil zəban,
Qazısı nədir, hökmü nə, adil fərman hansıdır?

İki yüz ol qırx səkkizdir üstüxan[7], etsəm bəyan,
Beş yüz iyirmi səkkiz öy bu əsli ərmiş məkan,
Ol bədən peyvəndidir beş yüz iyirmi beş dükan,
.....
.....

Ol nə quş, yetmiş başı, qırx tən, iki yüzdür ayaq,
İki türfə qanadı – biri qaradır, biri ağ,
Ol nə səyyad qəsd edib, kim yolunda qurmuş duzaq,

---

[1] Əbdan – bədənlər.
[2] Cuyi-ab – su yolu, arx.
[3] Həblül-vərid – qan damarı.
[4] Köyi-büzürg – böyük kənd.
[5] Pənc sədü bistü həşt – beş yaz iyirmi səkkiz.
[6] Kari-gəran – iş görənlər, işçilər.
[7] Üstüxan – sümük.

Fəhm edib, ustad isən, əbcəd hesabı birlə bax,
Ver xəbər indi görüm, ol quşa aşyan hansıdır?

Ömür – quş, yetmiş başı, qırx tən, iki yüzdür ayaq,
Gecə-gündüz qanadı – biri qaradır, biri ağ,
Bu əcəl səyyad olur, kim yolunda qurmuş duzaq,
Çün ömür üç hərf, əbcəddən etsəm iftiraq,
Bizi ustad bilsən, indi bu cəsəd aşyan olur.

Arif olsan, ver xəbər, xar nədir, xunxar nədir?
Qafil ol kim könlü xəstə, dərdi-biazar nədir?
Bilmənəm ağıl neyçin, dəhr içrə ol bidar nədir?
Sirri-pünhanına dolmuş, aləmə aşkar nədir?
Ol nə başdır, həm yenə baş içrə pünhan hansıdır?

Aşiqi-məşuq durur kim, xar budur, xunxar budur,
Qafil adam, könlü xəstə, dərdi-biazar budur,
Dünyadan ağıl qaçar, eşqli könül bidar budur,
Ol xuda pünhan gözünə, aləmə aşkar budur,
Ol cahan dostu riza, xəşmi-qədər pünhan olur.

Dəhr ara Şahbəndeyi-biçarə eyləyər sual,
Ol nə zülmətdir ki, rövşənliyə dönmək müxal[1],
Müfti-biəməl nədir, qəm dəştində fasid xəyal,
Dürri-gövhər kanı kimdir, binəva, biintiqal,
Ol nə gənc, xərc etsən artar, etməsən nöqsan olur?

Dəşt ara verdi cavab şol yerdə ol miskin həlal,
Qocalıq bir zülmətdir, rövşənliyə dönmək müxal,
Müfti-biəməl riyadır, ücb[2] olar fasid[3] xəyal,
Binəva ələmlər imiş, binəva, biintiqal,
Elm – gənc, xərc etsən artar, etməsən nöqsan olur.

---

[1] Müxal – mümkün olmayan.
[2] Ücb – ücubə, mənfur.
[3] Fasid – fəsad verən.

GÖZƏLİM

Pərilərin sultanı, gəlsənə, xan gözəlim,
Aldın səbrü qərarım, arami-can, gözəlim,
Tuti kimi süxənvər, şirin zəban, gözəlim,
Kirpiklərin xəncərdir, qaşı kaman, gözəlim,
Ləblərin şəhdi-şəkər, püstə dəhan, gözəlim,
Qoynun içində bitmiş bağü bostan, gözəlim,
Eşqində divanəyəm, dəli, heyran, gözəlim,
Açılıbsan qönçə gül, tər gülüstan, gözəlim,
Hicrində çıxdı canım, insaf, aman, gözəlim,
Həsrətindən olubdur bağrımız qan, gözəlim,
Sallanışın yaxıbdır bəlli məstan, gözəlim,
Sənsiz mənə gərəkməz aydın cahan, gözəlim.

Seyrə çıxsan, niqarım, bəzənib yaşıl-alı,
Hər sözün min tüməndir, baxışın xun bahalı,
Şirin ilə ol Fərhad çəkdi onca vəbalı,
«Leyli» deyib ol Məcnun oldu divanə, dəli,
Vərqa aşiq «Gülşah» deb ötdü cövri-cəfalı,
Zöhrə, Tahir sarılıb çıxdı sərvi-nihalı,
Arzu ilə ol Qəmbər bir-birinə vəfalı,
Yusif ilə Züleyxa keçdi zövqi-səfalı,
Seyfülməlik alıbdır sevib Məthalcəmalı,
Bizdən əvvəl qoyubdur yeddi aşiq bu yolu,
Yatsam gecələr düşüm, gündüz könlüm xəyalı,
Aləm görkü, güvəncim, sərvi-rəvan, gözəlim.

Gəl, ey qələm qaşlı yar, bağ seyrinə varalım,
Xidmətində payəndaz, qol bağlayıb duralım,
Təşnəyəm, ləblərindən bir busə ver, soralım,
Qoyma dağı-hicrində sinəm üzrə yaralı,
Mən səyyadam, ovlamam səndən özgə maralı,
Gəl, açılıb bir gülşən, şirin canı verəlim,

Ötər işbu gözəllik, beş gün söhbət quralım,
Açılıbsan qönçə-gül, tər bağçana girəlim,
Bağına bağban olub gönçə gülün dərəlim,
Haq müyəssər eyləsə, zövqi-səfa sürəlim,
Həsrətindən öldürdün, gəl bir zaman görəlim,
Yalançıda qalmasın canda ərman, gözəlim.

Altın-gümüş bəzənib, geyindiyin kətəndir,
Başdan-başa ətirsən, saçın müşki-fətəndir,
Bir neçə bivəfalar ömrü yelə satandır,
Gerçək aşiqlə məşuq bir iqrara yetəndir,
Hər kim haqqa dayansa, müşkil işi bitəndir,
Aşiq olub pərvanə, özün oda atandır,
Aşiqin incidənlər namurada yetəndir,
Kimlər baqi qalıbdır, dünyanı kim tutandır,
Oyunçudur şum fələk, onca canı udandır,
Bəlxü Buxar, Bədəxşan, bəhan şəhri-Xotəndir,
Keçər gülün mövsümü, onca xublar ötəndir,
Dünya baqi verilməz, qalmaz dövran, gözəlim.

Sadağan olum, canan, zülmün bilirəm rahət,
Hər necə cövr eyləsən,olsun canıma afət,
Qurbanam göz-qaşına, pəh, nə qəddü, nə qamət,
Yesiri-zarın oldum, qalmadı səbrü taqət,
Gözlərin cəllad məgər, qaşın canıma afət,
Şirin canım dışında pərvaz olsun əmanət,
Bir öpsəm al yanaqdan, tapsam şəhdi-nəzakət,
Odun çıxmaz içimdən, qopsa ruzi-qiyamət,
Şahbəndə der: gövhərim, qoynun dürri-səadət,
Alsa şirin ləbindən dərdli canım həlavət,
Altın-gümüş, qumaşım sahibkiran gözəlim.

BƏLLİDİR

Dostlar, dörd gözəlin vəsfin söyləyim,
Bu dördü də məşhurluqda bəllidir,
Bəzənibdir bir-birinə təsibkeş,
Əsli söyünxanlı, ağır ellidir.

Birinin əyninin yaşıl-alı var,
Birinin belinin tirmə şalı var,
Birisinin ağ üzünün xalı var,
Biri bağrım dələn şirin dillidir.

Biri bənzər gölün quba qazına,
Biri bənzər fəsli-bahar, yazına,
Biri oxşar Sayad xanın özünə,
Biri püstə dəhan, biri ballıdır.

Biri vardır bağda belə gəzməyə,
Biri vardır suda belə üzməyə,
Birinin şanına dastan düzməyə,
Biri mürçə-miyan, incə bellidir.

Dörd gözəl görmüşəm, əlhəzər, aman,
Kirpikləri oxdur, qaşları kaman,
İkisi tər gəlin, biri növcavan,
Şahbəndə der: biri səri tellidir.

NƏ BİLSİN

Türkcədən xəbərsiz neçə mollalar,
Ərəb dilin, divan xəttin nə bilsin,
Əlifdən şərməndə quru səllələr,
Hər sözün doğmasın, yadın nə bilsin.

Əksən bar gətirməz ol quru söyüd,
Əbləhlər, nadanlar almaz heç öyüd,
Başıboş, biqeyrət, təsibsiz igid
Yaxşı məhbub qədrin, adın nə bilsin.

Sözün şirin olar baldan, şəkərdən,
Yaxşı öyüd alsan gövhər tökərdən,
Sahib xüruc şahlar doymaz nökərdən,
İnsanın yaxşısın, bədin nə bilsin.

Otururlar hər kim sərsə döşəklər,
Bağda durmaz izzət görsə eşşəklər,
Çöldə miyoldayıb gəzən pişiklər
..... nə bilsin.

Şahbəndə der: igid doğsa lənətli,
Vacibi bitirməz, qoyar minnətli,
Hərfin xarab edər, pozar ləzzəti,
Zirü zəbər, təşdid, mətn nə bilsin.

QALMADI

Adəm oğlu, burda qoymazlar səni,
Səndən əzəlkilər keçdi, qalmadı.
Min cilvə eyləyib ömrün gülşəni,
Hər güldə bir qönçə düşdü, qalmadı.

Kimlər ağlayadı, kimlər gülədi,
Ağlayanlar ölənləri bilədi,
Nə kasədir, nobat-nobat gələdi,
Hər kəs öz nobatın içdi, qalmadı.

Baylar, füqəralar, gədalar, şahlar,
Əcəb sahib xüruc gözəl paşalar,
Nə fərqi, qocalar, gənclər, uşaqlar,
Hamını qara yer qucdu, qalmadı.

Xumar, ala gözlü, qaşı qələmlər,
Cana odlar salan dərdü ələmlər,
Əl-ayağı tər xınalı sənəmlər,
Zinətindən bir-bir düşdü, qalmadı.

Şahbəndə, nizamla sən yol yarağın,
Ömrün rövşən olub yansa çırağın,
Bir köhnə rəbatdır gedəcək cayın,
Səndən əvvəl gələn keçdi, qalmadı.

BƏHRAMIN TƏRİFİ

(«Şah Bəhram» dastanından)

Bir xuda dilində idi
Gecə-gündüz, sübhü şamı.
Yeddi iqlim, İran, Turan
Hökmündə idi tamamı.

Camalı misli-afitab,
Görənlərin bağrı kabab,
Sağ əlində badeyi-nab,
Sol əlində dolu camı.

Qulluq edər aləm, cahan,
Özü adil, hökmü rəvan.
Ali himmət, müşkil açan,
Sözləsə şirin kəlamı.

İran ölkəsini sarıb,
Aldı ləşkərin sındırıb,
Aləm-cahan baş endirib,
Əflatun verdi salamı.

Dad etsəydi bir biçarə,
Eylərdi dərdinə çarə,
Çıxıb hər gündə şikarə,
Qurardı çöl yerdə damı.

Yoxdu onun ciyərbəndi,
Qırx hərəmdən bir fərzəndi,
Könül ərki, can peyvəndi,
Oğul adlı bir qulamı.

Şahbəndə der aləm şasın,
Geyibdir zərrin libasın,
Fars şəhrinin padişasın[1] –
Tərif etdi Şah Bəhramı.

[1] Şasın, padişasın – şahını, padşahını.

MƏXDUMQULU FƏRAQİ

Məxdumqulu Fəraqi tarix boyu gəlib keçmiş ən böyük türkmən şairidir. Onun türkmən ədəbiyyatı tarixindəki yerini ve mövqeyini bir cümlə ilə belə səciyyələndirmək olar: Bayron ingilis, Dante italyan, Puşkin rus ədəbiyyatı üçün nədirsə, Məxdumqulu da türkmən ədəbiyyatı üçün odur. Böyük türkoloq Barthold yazmışdır ki, tarixdə hələ heç bir türk şairi öz xalqı arasında Məxdumqulu qədər populyar olmamış, onun qədər sevilməmiş, oxunmamış və əzbərlənməmişdir.

Məxdumqulu Fəraqi 1733-cü ildə Türkmənistanın Ətrək vilayətində Kümbəzhovuzun şərqindəki Hacıqovşan adlı yerdə, başqa bir məlumata görə, Qızılbayır (indiki Şarlavuq) obasında türkmən ədəbiyyatının klassiki Dövlətməmməd Azadinin ailəsində dünyaya gəlmişdir. O, əvvəlcə qonşu kənddəki İdris Baba məktəbində, daha sonra Buxaradakı məşhur Göyəltaş və Xivədəki Şirqazi mədrəsələrində oxumuş, başda Quran olmaqla ilahiyyat elmini, həndəsə, hesab, nücum, tarix, coğrafiya və digər fənləri dərindən öyrənmiş, ədəbiyyata və dilə xüsusi maraq göstərərək Şərq ədəbiyyatı klassiklərini ciddi mütaliə etmiş, Xoca Əhməd Yəsəvi, Füzuli, Nəvai, Nəsimi, Hacı Bəktaş Vəli, Yunus İmrə, Nizami, Hafiz, Xəyyam, Cami, Dəhləvi kimi şairlərin yaradıcılığını mənimsəmiş, Şərqin böyük alimlərindən Fərabinin, Biruninin, ibn Sinanın, əl-Xarəzminin, Mənsur Həllacın, Qəzalinin, Zəməxşərinin, Nəiminin, Bəyazid Bistaminin və başqalarının elmi-fəlsəfi irsi ilə tanış olmuş, cağatay, ərəb və fars dillərinə mükəmməl şəkildə yiyələnmişdir. Məxdumqulu Buxarada nəqşibəndi ordeninə ciddi maraq göstərmiş, bu ordenin şeyxi Bəhaəddin Nəqşibəndinin yaratdığı sufi məktəbinin güclü təsirinə məruz qalmış, şeyxin «Dilin yar ilən, əlin kar

ilən olsun» şüarını öz həyatının və sənətinin əsas kredosu, mayası və mənası kimi qəbul etmişdir.

Məxdumqulunun şəxsi həyatı faciələrlə keçmişdir. Abdulla adlı qardaşı hansı səbəbdənsə ata yurdunu tərk etmiş, 1754-cü ildə üç ailə üzvü – bacısı Xanmənli, kiçik qardaşı Canəsən və onun arvadı Bayram eyni gündə dünyadan köçmüş, bu dərd Məxdumqulunu, atası Azadini və anasını dərin kədərə qərq etmişdir. Üstəlik, şairin iki uşağının ikisi də kiçik yaşlarında ölmüş, çırağını yandıracaq başqa övladı olmadığından Məxdumqulu bir ata və insan kimi bunu böyük ürək ağrısı ilə qarşılamışdır. Şair gənc yaşlarından etibarən səyahətə çıxaraq bütün Türkmənistanı, Orta Asiyanı, İranı və Hindistanı gəzib dolaşmış, böyük ehtimala görə, Azərbaycanda və Anadoluda da olmuşdur.

Statistik hesablamalarına görə, şairin yaradıcılığında işlədilmiş real coğrafi, dini-mövhumi məntəqələrin, tarixi və əfsanəvi şəxs adlarının sayı 258-dir. Məxdumqulu bir sözün dəfələrlə işləndiyini nəzərə alınmaqla ümumən 101 min kəlmədən istifadə etmişdir.

Məxdumqulunun sonraki həyatı barədə dəqiq məlumatlar yoxdur. Onun vəfat tarixi də mübahisəlidir. Bəzi araşdırmaçılar şairin 1783-cü ildə, bəziləri isə 1793-cü, hətta 1798-ci ildə vəfat etdiyini yazırlar.

Məxdumqulu hər şeydən əvvəl böyük şair və istedadlı aşıqdır. Artıq XVII əsrdən etibarən türk ədəbiyyatında divan ədəbiyyatı ilə klassik aşıq yaradıcılığı qovuşaraq yeni bir mərhələyə qədəm qoymuş, yazılı ədəbiyyatla şifahi ədəbiyyatın sintezi nəticəsində şair-aşıq sənətkarlar yetişmişdir. Türkmənistanda Məxdumqulu, Azərbaycanda Vaqif, Türkiyədə isə Nədim bunların ən parlaq nümayəndəsi sayılır. Saz çalıb-çalmamasından, məclislərdə çıxış edib-etməməsindən asılı olmayaraq onların yaradıcılığı şifahi xalq ədəbiyyatı ənənələri üzərində yüksəlmiş, folklordan bəhrələnərək nəşv-nüma tapmış, aşıq şeiri janrları aparıcı mövqedə olmuş, eyni zamanda divan ədəbiyyatı

da öz qüvvətli təsirini qorumuşdur. Bu tipli sənətkarların yaradıcılığında qoşma, gəraylı, təcnis janrında yazılmış əsərlərlə bərabər qəzəl, qəsidə və məsnəvilərə də rast gəlirik.

Məxdumqulu söz sənətinə aşıq kimi qədəm qoymuş, türkmən və ümumtürk folklorunu dərindən mənimsəyən və inkişaf etdirən bir haqq aşığı səviyyəsinə yüksəlmişdir. O, digər haqq aşıqları kimi badə içmişdir. Üstəlik, Məxdumqulu yeganə aşıqdır ki, onun həyatında badə içmə doqquz dəfə baş vermişdir. Müqəddəslər əlindən badə içməsi (türkməncə buna «haqdan içmə» deyilir), bunun məkanı və zamanı, kimlərin iştirakı ilə və nə şəkildə baş verməsi şairin şeirlərində təsvir edilmişdir.

Məxdumqulunun yaradıcılığının əsasını və mayasını, heç şübhəsiz, məhəbbət lirikası təşkil edir. Vətəndaş qeyrətli şairin türkmən birliyinə səsləyən şeirləri də az deyil. Öz dövrünə görə mükəmməl ruhani təhsili alan, yetkin ərən və irfan sahibi olan Məxdumqulunun dini məzmunlu şeirləri də olduqca çoxdur. Böyük şairin ədəbi irsində ictimai-siyasi məzmunlu şeirlər, fəlsəfi-didaktik əsərlər də əhəmiyyətli yer tutur. Bunlardan başqa, Məxdumqulunun müxtəlif vəsilələrlə yazdığı şeirlər də (məsələn, vücudnamələr, atasına, qardaşı Abdullaya həsr etdiyi şeirlər, şəxsən özünün başına gələn faciələr haqqında şeirlər) vardır. Doğma xalqına minbir qırılmaz tellə bağlı olan bu böyük sənətkar bütün hallarda xalq ruhunun tərcümanı kimi onun arzu və istəklərini, həyatını və taleyini qələmə almış, bunu geniş poetik vüsət və sonsuz ilhamla, əlvan və parlaq boyalarla yerinə yetirmişdir. Məxdumqulunun üç əsrdən bəri türkmən ədəbiyyatına hakim olması, yön verməsi və sevilməsinin sirri də məhz bundadır.

Məxdumqulunun yaradıcılığı bütün türk dünyasında olduğu kimi, Azərbaycanda da həmişə sevilmişdir. Müxtəlif dövrlərdə mətbuatda onun şeirlərindən nümunələr çap olunmuş, haqqında yazılar qələmə alınmış, yaradıcılığı haqqında dissertasiya yazılmışdır.

Vaxtilə nəşr olunmuş «Klassik türkmən şeiri» kitabında

(Bakı, 1983, 239 s.) və Fəxrəddin Əliyevin tərtib və tərcümə etdiyi «Türkmən nəğmələri» (Bakı, 1989, 180 s.) kitabında Məxdumqulunun bir sıra şeirləri verilmişdir. 1984-cü ildə isə şairin 250 illiyi münasibətilə «Qəm seli» adlı şeirlər kitabı buraxılmışdır. İsmayıl Vəliyevin tərtib və tərcümə etdiyi bu kiçikhəcmli kitabda böyük sənətkarın 102 şeiri öz əksini tapmışdır. Firuzə Ağayevanın tərtib etdiyi «Şeirlər» kitabında (Bakı, 2006, 160 s.) isə Məxdumqulunun 156 şeiri toplanmışdır. Sovet dövründə nəşr olunan bu kitablarda Məxdumqulunun dini məzmunlu şeirlərindən heç bir nümunə verilməmişdir. Sovet dövründə Türkmənistanda da şairin dini-ruhani şeirlərini çap etmək mümkün olmamış, onların üstündən sükutla keçilmişdir. Ona görə də müstəqillik dövründə Məxdumqulunun kitablarından birini «Bağışla bizi» adıyla çap edən naşirlər (bu, şairin ən məşhur dini şeirlərindən birinin adıdır) həmin çatışmazlığı da aradan qaldırmış, ulu sənətkardan bir növ üzr istəmişlər.

2010-cu ildə bu sətirlərin müəllifi tərəfindən Məxdumqulunun «Seçilmiş əsərləri» (448 s.) türkməncə orijinalından tərcümə olunmuş və Ankarada TürkSOY xəttilə nəşr edilmişdir. Həmin kitabda şairin 400-ə yaxın şeiri verilmişdir. Bu nəşr də həcm məhdudluğu üzündən Məxdumqulunun yaradıcılığını tam şəkildə əhatə etmir. Burada onun şeirlərinin təxminən yarısı toplanmışdır.

Türkmən şairlərindən biri Məxdumqulu haqqında obrazlı şəkildə belə demişdir: «Xalqın sönməz çırağı Ulu ustad Fəraqi». Bu, olduqca isabətli bənzətmədir. Məxdumqulu türkmənlər üçün o qədər böyük əhəmiyyət kəsb edir ki, onlar bir şeyi daha dolğun şəkildə ifadə və izah etmək üçün Fəraqidən bir şeir parçasını misal gətirirlər. Bu mənada Türkmənistan Dövlət Universitetinə, EA-nın Dil və Ədəbiyyat İnstituna, bir sıra müəssisə və mərkəzə dahi şairin adını verilməsi heç də əbəs deyil. Türkmənistannın beynəlxalq miqyasda verilən dövlət mükafatlarından biri isə «Xalqara Məxdumqulu Bayrağı» adlanır.

TÜRKMƏNİN

Ceyhun ilə bəhri-Xəzər arası,
Çöl üstündən əsər yeli türkmənim.
Gül-qönçəsi - qara gözüm qarası,
Qara dağdan enər seli türkmənim.

Haqq rəy verib, vardır onun sayası,
Oynaşar çölündə nəri, mayası,
Rəngbərəng gül açar yaşıl yaylası,
Qərq olmuş reyhana çölü türkmənim.

Al-yaşıl bürünüb çıxar pərisi,
Yayılar ənbərin xoş rayihəsi,
Törə, bəy, ağsaqqal - yurdun yiyəsi,
Necə gurdur gözəl eli türkmənim.

Ol mərdin oğludur, mərddir pədəri,
Koroğlu qardaşı, sərxoşdur səri,
Dağda-düzdə qovsa səyyadlar, diri-
Ala bilməz, yolbars oğlu, türkmənim.

Bir olub könüllər, ürəklər, başlar,
Yığılsa, əriyər torpaqlar-daşlar,
Bişib bir süfrədə yeyilsə aşlar,
Çiçəklənər ol iqbalı türkmənim.

Könül havalanar ata çıxanda,
Dağlar lala dönər qıya baxanda,
Bal gətirər, coşub dərya axanda,
Bənd saxlamaz, gəlsə seli türkmənim.

Qafil olmaz, döyüş günü xar olmaz,
Qarğışa, qüvvətə giriftar olmaz,

Bülbüldən ayrılıb, solub zar olmaz,
Daim ənbər saçar gülü türkmənim.

Tirələr qardaşdır, uruğ yarıdır,
İqballar tərs gəlməz, haqqın nurudur,
Mərdlər ata minsə, savaş sarıdır,
Qəsbkara yürür yolu türkmənim.

Sərxoş olub çıxar, ciyər dağlanmaz,
Daşları sındırar, yolu bağlanmaz,
Gözüm dalda qalsa, könül əylənməz,
Məxdumqulu, sözün çalı türkmənim.

GÖZƏL «ŞİRQAZİ»

Məkan tutub, üç il yedim duzunu,
Gedər oldum, xoş qal, gözəl «Şirqazi».
Ötürdüm qışını, novruz-yazını,
Gedər oldum, xoş qal, gözəl «Şirqazi».

Haqqdan bizə buyruq, bağlıdır belim,
Səndə təlim aldı, açıldı dilim,
Gəlsin deyib gözlər ol gərkəz ilim,
Gedər oldum, xoş qal, gözəl «Şirqazi».

Seçərəm indi mən ağı-qaranı,
Dost, rəqib, qardaşı, haqqı, yaranı,
Oxudım, götürdüm kitap, Quranı,
Gedər oldum, xoş qal, gözəl «Şirqazi».

Ağlım qısa idi, kasam qaynadı,
Ürəyim atlandı, könlüm oynadı,
.....
Gedər oldum, xoş qal, gözəl «Şirqazi».

Coşgun ürəyimdə mövç vurar, yatmaz,
Qaynar, qəzəblənər, heç laya batmaz,
Elm-təlim alan səni unutmaz,
Gedər oldum, xoş qal, gözəl «Şirqazi».

Peyman dolmaz, gəlsək taqət yetməyən,
Pünhan zahir qılmaz aqil getməyən,
Badi-pay atlanıb, seyran etməyən
Gedər oldum, xoş qal, gözəl «Şirqazi».

Quma girsəm, qəvvas kimi üzərəm,
Bihəsrət dolanıb, biqəm gəzərəm,

Dəhan içrə balü zəban əzərəm,
Gedər oldum, xoş qal, gözəl «Şirqazi».

Kamil olub, mən sərəncam qılmışam,
Müşfiqimdən, ol pədərdən qalmışam,
Kəbəmdən ayrılıb, cüda olmuşam,
Gedər oldum, xoş qal, gözəl «Şirqazi».

Sıramı gözləyib kamana düşdüm,
Leysan tökdü yaman, qaynadım-coşdum,
Xoş qal, bu gün Ceyhun çayını aşdım,
Gedər oldum, xoş qal, gözəl «Şirqazi».

Məxdumqulu yığıb könül vəfasın,
Təzim etdi, kim çəkmişdi cəfasın,
Heç zaman unutmaz qızıl qapısın,
Gedər oldum, xoş qal, gözəl «Şirqazi».

SEYRAN İÇİNDƏ

Ey yaranlar, müsəlmanlar,
Bir gecə seyran içində,
Otuz iki kişi gördüm
Ol Şahi-mərdan içində.

Olara verdim salamı,
Sordular sağlıq kəlamı,
Şeyxü seyyid − Mövla Cami,
Ol yeddi sultan içində.

Sultan Veys Pəhlivani,
Həkim Ata Süleymani,
Xoca Yusif Həmədani
Ol şahi-Kənan içində.

Türküstan yiyəsi sərvər,
İmam Kazım, imam Cəfər,
Yəhya ilə Nuh peyğəmbər,
Bəyazid sultan içində.

Gözəl pirlər, gözəl yarlar,
Çəkdilər bu yolda zarlar,
İmam Rza şahi-pirlər,
Neçə gözəl can içində.

Məxdumqulu, sirrim çoxdur,
Mən neyləyim, açan yoxdur,
Ölmək haq, dirilmək haqdır,
Oxudum Quran içində.

DÖNDÜ

Üzü mahi-tabanım,
Gün kimi ayə döndü,
Çərx oldu nərdivanım,
Göy payə-payə döndü.

Bir gün aşiq şux oldu,
Qəm-qüssəsi yox oldu,
Hər kirpiyin ox oldu,
Qaşların yayə döndü.

Aşığı saldın oda,
Qoydun getdin burada,
Günorta verdin vədə,
Vaxt keçdi, sayə döndü.

Can qalmadı bədəndə,
Yanaram ah edəndə,
Gözüm gəlib-gedəndə,
Hər günüm ayə döndü.

Min sevdam var, bir başım,
Qoydum elim, qardaşım,
Ağlamaqdan göz yaşım
Coşğun bir çayə döndü.

Yarın könlü çağ oldu,
Aşiqlər dustağ oldu,
Dalda yerim dağ oldu,
Düz yerim qaya döndü.

İstərəm gündə-gündə,
Ağlaram tündə-tündə,

Hər zülfünə bir bəndə,
Hu saya-saya döndü.

Dal-budaqlar əyildi,
Köçdü bülbül, dağıldı,
Axar sular soğuldu,
Çöl yerlər çayə döndü.

Dərman olmaz əlaca,
Zad verməzlər möhtaca,
Baylar döndü qəllaca,
Fəqirlər baya döndü.

Məxdumqulu, gəzəndə,
Hələb, Qeysər düzündə,
Gözəl yarın izində
Ömrümüz zayə döndü.

HİNDİSTANDA XƏYALIM

Haqq uğrunda qurbandır,
Canım, dövlətim, malım.
Könül yola rəvandır,
Hindistanda xəyalım.

Ağlar gözüm yaş etdim,
Könül içrə nəxş etdim,
El-günümə bəxş etdim
Zəban içində balım.

Durdum adam sanında,
Qaramatın yanında,
Bir qardaşsız, fanidə
Necə olar əhvalım.

Ol peykəri harayım,
Bəxş qıldım sarayım,
Puş eylədim, gör, ruyim,
Götürüb mən dəsmalım.

Yürdüm cəbr köyündə,
Yandım eşqin öyündə,
Qaldı zəmin teyində
Daim verilən felim.

Canım atəşə saldım,
Nar içində mən qaldım,
Eşqdən yaralı oldum,
Loğman sorammaz halım.

El üzünə gülmüşəm,
Güldüyümü bilmişəm,

Yar önünə gəlmişəm,
Nədir mənim dəlilim.

Fani-cahan içində,
Peykan kaman içində,
Məcnun ümman içində
Qərq olmuş köhnə salım.

Bir pəriyə xiridar,
Bu canım ona nisar,
Dedim yara: «Ərzim var»
Unutmuşam sualım.

Mənli cana od salar,
Odu cismimdə qalar,
Məxdumqulu, utanar,
Mənim sahibcamalım.

BİÇARƏYƏM

Vətənimdə xan idim,
Xanlara fərman idim,
Dərdlərə dərman idim,
Miskinə dükan idim,
Cansıza mən can idim,
Neylək, indi biçarəyəm.

Gözsüzlərin gözü idim,
Lalların mən sözü idim,
El-günümün üzü idim;
Sevən məşuq nazı idim,
Hatəm Tayın özü idim,
Neylək, indi füqərayam.

İrəm içrə reyhan idim,
Vətəndə zərəfşan idim,
Mərd igidə köhlən idim,
Dağ başında duman idim,
Fəraqi der, aman idim,
İndi viran bir sarayam.

BU DÜNYA

Məşriqdən məğribə dünyanın üzü,
Demə, bizə məlum deyil bu dünya,
Abadı, xarabı, dəryası-düzü,
Yüz qırx altı min ağac yoldur bu dünya.

Bu cahan üzündə işlər peydadır,
Təfərrücdür, tamaşadır, gövdədir,
Qırx altı min ağac sudur, dəryadır,
Yetmiş iki dürlü dildir bu dünya.

Bir əlli min ağac yollar anda var,
Dev-pəri məskəni, qullar anda var,
Daşlar, dağlar, ac arslanlar anda var,
Ol yerdə adamdan çöldür bu dünya.

On iki min ağac cayi-Hindistan,
Altı min ağac yol ərzi-Rumistan,
Dörd min Səklab, Səncab, dörd min Zəngistan,
Sanki keçib varan seldir bu dünya.

Dörd min fərsəx Yəmən, bir min də Bulğar,
Zəmini-yunan həm olar yek həzar,
Min ağac yol dağdır devi-mərdumxor,
Onda keçib varan saldır bu dünya.

Min ağac kilim güş, yek dəsti-yek pa,
Beş min ağac yəcuc, min ağac səhra,
Yeddi min ağac yer cəzirə, dərya,
Min ağac yer yatan maldır bu dünya.

Üç min üç yüz ağac əhli-islamdır,
İraq, Xəzirbaycan, Misirdir, Şamdır,

Xorasan, Fars, Bəzirkuhda tamamdır,
Yox olunca, qalmaqaldır bu dünya.

Məxdumqulu, adın döndü Fərağa,
Fəraq olub, çək özünü qırağa,
Hesab etdim dünya başdan-ayağa,
Üç yüz altmış illik yoldur bu dünya.

VARMI?

Ey yaranlar, müsəlmanlar,
Ağlamayan, gülən varmı?
Yalançı, fani dünyadan,
Gedib geri gələn varmı?

Fələk, kimləri şad etdin,
Kimi qəmdən azad etdin,
Bir neçələri mat etdin,
Səndən razı olan varmı?

Kimi vəfa toxmun əkər,
Kimi əcəl zəxmin çəkər,
Kimi qəmdən azad edər,
Saralmayan, solan varmı?

Bildim bu dünya çağlığın,
Qəm-qəflətdə oyaqlığın,
Xəstə olmadan sağlığın
Qiymətini bilən varmı?

Bu dünya iki qıraqdır,
Biri qara, biri ağdır,
Mənzil iki, yol iraqdır,
Onun fikrin qılan varmı?

Məxdumqulu, gələn keçər,
Bu güzara qonan köçər,
İgidlik çırağı sönər,
Bu sözümdə yalan varmı?

GÖZLƏR

Elindən ayrı düşən
Ah çəkər, eli gözlər.
Yolundan ayrı düşən
Cəhd edib, yolu gözlər.

Göydə fələk gərdandır,
Xalq yerdə sərgərdandır,
Nə tamahkar cahandır,
Göz açan malı gözlər.

Kimlərdə altın tacdır,
Kimlər sail, möhtacdır,
Kimlər dibdən qəllacdır,
Kim xalça, xalı gözlər.

Kim nan tapmaz yeməyə,
Kim yer tapmaz qoymağa,
Kim don tapmaz geyməyə,
Kim tirmə şalı gözlər.

Bu cahan bir heçdədir,
Kim oyaq, kim düşdədir,
Hər bəndə bir işdədir,
Hər kəs bir halı gözlər.

Həngam uzun, ömür az,
Dörd mövsümə başdır yaz,
Göydə qanad gərən qaz –
Gözləri gölü gözlər.

Məxdumqulu huş edər,
Gözlərindən yaş gedər,
Dəli könül coş edər,
Yüz min xəyalı gözlər.

SARI

Onda adam sayılar,
Min bir astana sarı.
Fələk baqqal ötürmüş
Bazaristana sarı.

Qara yer ağzın açа,
Qafildir adam, keçə,
Bülbüllər ister köçə
Bağı-bostana sarı.

Nurata, Baba Darğan,
Dövrəsi dərya, orman,
Yol üstədir Bakırğan,
Şol Türküstana sarı.

Haqdan rəhmət səpilər,
İmarətlər yapılar,
Getsən, Kəbə tapılar,
Urumistana sarı.

Gündoğardan günbatar,
Tərsa, cuhud, həm tatar,
Şəhərlər qatar-qatar
Məğribistana sarı.

Aşiq deyər: «Ya sübhan,
Müşkülümü qıl asan.
Şəfaət eylə, yaran,
Şol Dehistana sarı!»

Məxdumqulu dillənər,
Gözdə yaşı sellənər,
Gündə köçdür, yollanar
Məzaristana sarı.

HEYRANDADIR-HEYRANDA

Aşiqlər haqq eşqində,
Heyrandadır-heyranda.
Gözlər zəəf içində,
Giryandadır-giryanda.

Qıldı ona haq rəhmət,
Nuri-təcəlli qüdrət,
Xirqə geyən Xoca Əhməd
Sayramdadır-Sayramda.

Yerdən çıxan ağaclar,
Dili sənalı quşlar,
Sübhan sevən dərvişlər
Dövrandadır-dövranda.

Ayıl, aşığım, ayıl,
Məcnun ol, xalqa yayıl,
Xəlil oğlu İsmayıl
Qurbandadır-qurbanda.

Tur dağında duranlar,
Neçə qaib ərənlər,
Camalını görənlər
Fərmandadır-fərmanda.

Dolduran bu dünyanı,
Sözlə iki cahanı,
Külli işin bəyanı
Qurandadır-Quranda.

Məxdumqulu, aç dillər,
Qulluq et aylar, illər,
Ertə qulluqsuz qullar
Ərmandadır-ərmanda.

SAYAR

Dağlar yerin mıxıdır,
Təpə özün dağ sayar.
Qarğa deyər bülbüləm,
Sərçə özün zağ sayar.

Qənaətdə kamal var,
Mənlik etmə, zaval var,
Hər başda bir xəyal var,
Qul özünü bəy sayar.

Gücündən, qüvvətindən,
Dünyanın qismətindən,
Varlının izzətindən
Yoxsul özün bay sayar.

Nadanam, zad bilmənəm,
Bir günahlı qul mənəm,
Sirkə deyər: bal mənəm,
Neft özünü yağ sayar.

Hər səy çıxar bir evdən,
Özün kəm saymaz devdən,
Öz yanında bədəvdən
Eşşək özün yey sayar.

Dərd çəkənlər dərd bilər,
Namərd özün mərd bilər,
Tülkü özün qurd bilər,
Tula özün səg sayar.

Məxdumqulu bir quldur,
Qulluğuna qaildir,
Axmaq deyər aqildir,
Ölən özün sağ sayar.

QARŞI

Ağız açdım, göz yumdum,
Əl atdım tasa qarşı,
Tas üstündə yatıbdır
Qələndər yasa qarşı.

Saqi durdu, səs etdi,
Kim gec qaldı, kim yetdi,
Qələndər tasın tutdu,
Düşdüm həvəsə qarşı.

Mən bikamal ol yerdə,
Eşq içrə düşdüm dərdə,
Gül üzə gülgün pərdə,
Tutdu palaza qarşı.

Xəbər tutan cahandan,
Ayrılar xanimandan,
Aşiqlər keçər candan,
Tutulsa kasə qarşı.

Bu dünya bir saraydır,
Gələn keçib varaydır,
Məxdumqulu haray der,
Xıdır İlyasa qarşı.

DƏYMƏZ

Bir neçənin dövranı,
Fani cahana dəyməz.
Buncanın yeni salı
Dərya-ümmana dəyməz.

Kor əlində dayağı,
Göz yerində ayağı,
Buncaların ayağı
Xərə, madyana dəyməz.

Dağlar başı dumandır,
Yellər daim rəvandır,
Onca dağlar virandır,
Qədri dumana dəyməz.

Kiminə vermiş malı,
Kimi görər vəbalı,
Neçələrin iqbalı
Fani cahana dəyməz.

Görkü var mərmərlərin,
Damarıdır yerlərin,
Görün, neçə pirlərin
Əli Qurana dəyməz.

Məndən qeyri yox odlu,
Daim ondan adətli,
Məxdumqulu həsrətli,
Əli dastana dəyməz.

GÖZLƏR

Mərd qədrini bilməz xan,
Eldə namərdi gözlər.
Ağzı yanan bir çoban,
Daima qurdu gözlər.

Hicran oduna bişən,
Ayrılıqdan pərişan,
Yurdundan ayrı düşən
Mehriban yurdu gözlər.

Bir dərd gələrsə yaman,
Nə mərd dözər, nə mərdan,
Dəri-dərmanlı Loğman
Mal deməz, dərdi gözlər.

Payın qiymətin görən,
Yaxın-irağı gəzən,
Səfil-sərgərdan yürən,
Xər deməz, atı gözlər.

Görüb qalar asmana,
Düşməz ulu ümmana,
Eşq aşiqi pərvana
Gecə ol odu gözlər.

Axır zamanə haçan,
Varmıdır ondan qaçan,
Cəsədi qalan bican
Abi-həyatı gözlər.

Zinhar, olmayın sirdaş,
Qocaldar ol cavan baş,

Namərdə olsan yoldaş,
Durub fürsəti gözlər.

Gözüm bağlı mən uçub,
Bişmişəm nara qaçıb,
Müftilər Quran açıb
Ulu taəti gözlər.

Kim qaldı qocalmayan,
Düxtərlər oldu cavan,
Bağda sərvi-xuraman,
Gül deməz, badı gözlər.

Bir neçələr ar edib,
Beytinləri zar edib,
Gözəl elin xar edib,
Bir ulu adı gözlər.

Dəştdə qurbandır güllər,
Ruyin öpərmiş yellər,
Ovu hesabsız çöllər
Türgən sayyadı gözlər.

Ərşə çıxdı nalələr,
Harama döndü mallar,
Bu zamanda mollalar,
Yortub, zəkatı gözlər.

Üzündədir nurları,
Gözündədir narları,
Bu əyyamın ərləri
Atı, sursatı gözlər.

Hara dönübdür dini,
Məgər yoxdur imanı,
Xəsis yığıb dünyanı,
Feli-həcatı gözlər.

Pünhan sirrim aşkara,
Neylək, çıxıb şikara,
Məxdumqulu biçara
Bircə züryəti gözlər.

EYLƏR

Xəsis adam mehman alsa,
Var zadını pünhan eylər.
Bir yurdun bazarı qızsa,
Hər bir adam dükan eylər.

Fələkdən çəkdim amanı,
Könlümdən getdi dumanı,
Daim hicran bu vətəni
Özü üçün məkan eylər.

Qaçmaz fanidən utanıb,
Gələrmiş qanadın yayıb,
Mərd igidin ərkin alıb,
Görün, fələk nadan eylər.

Cahanda öyüd verərəm,
Öyüd tutuşun görərəm,
Bihudə ağlar, yürürəm,
Fələk daim güman eylər.

Qəflətdən çıxmadı başım,
Daim fələkdir yoldaşım,
Oturmuşdır yaxın qonşum,
Bu sözümdən giryan eylər.

Çıxmışam zünnar bağlayıb,
Canü ciyərim dağlayıb,
Məxdumqulu, qan ağlayıb,
Bir həsrətli dastan eylər.

DÜŞMƏZ

Gözlərimin rövşəni
Əcəb nurana düşməz.
Bağı-İrəm gülşəni
Fani cahana düşməz.

Boş qoyubsan bu səri,
Vurdu eşqin əsəri,
Can şəhrində bir pəri
Bazar-dükana düşməz.

Sevdiyim şirin candır,
Ol pəriyə qurbandır,
Külli aşiq heyrandır,
Atəş-suzana düşməz.

Mən fəqirəm, neyləyim,
Dərdi-halım söyləyim,
Yarım tərif eyləyim,
Qeyri zəbana düşməz.

Türküstandır xəyalım,
Açgil, tanrım, sən yolum,
Hicran qərq edən salım
Dəli ümmana düşməz.

Siyahdır bitən gülü,
Amma şirindir dili,
Dəşt içrə ərəb eli
Adil fərmana düşməz.

Gözüm görmüş Hindistan,
İran ilə həm Əfqan,

Ümman, Xəzər, Dehistan...
Yürsəm, mizana düşməz.

Mərd igidə ver qeyrət,
Viranı qılgil abad,
İti qılınc, ərəb at
Feli-yamana düşməz.

Qibləyə tutdum üzüm,
Qələt deyildir sözüm,
Məxdumqulu der, gözüm
Qeyri vətənə düşməz.

HİCRAN HANSI, BİLMƏDİM

Fələk mənə qəm badəsin verəli,
Vüsal hansı, hicran hansı, bilmədim.
Haqq işinə tən vermişəm, görəli,
Arzu hansı, ərman hansı, bilmədim.

Bəndə olsan, gözlə haqqın rizasın,
Cəbr eyləsə, çəkməlisən cəzasın,
Əcəl atar bir gün tiri-qəzasın,
Kiriş hansı, kaman hansı, bilmədim.

Bir surətəm, baxman, bu gün özümə,
Arif olsan, qulaq vergil sözümə,
Dünya dibi yox görünər gözümə,
Dövr hansı, dövran hansı, bilmədim.

Az ömrümü çox sevdaya satmışam,
Bu canımı ol dəryaya atmışam,
Nə ümmandır, nə dənizdir, batmışam,
Zəmin hansı, zaman hansı, bilmədim.

Hər kim girsə ol dənizə-ümmana,
Başın alıb çıxa bilməz bir yana,
Qədəm qoydum ol səhraya, meydana,
Can hansıdır, cahan hansı, bilmədim.

Mən dünyanı asmandakı rəng bildim,
İsti-isti anlamadım, son bildim,
İndi onun varın-yoxun mən bildim,
Xeyir hansı, ziyan hansı, bilmədim.

Məxdumqulu, yolun önü, ardı var,
Çəkər yükün, hər kişinin mərdi var,
Ürəyimdə pünhan eşqin dərdi var,
Dərd hansıdır, dərman hansı, bilmədim.

TUT

Dünya görməz, tutqun qalsan bir küncdə,
Badi-pa tək yer üzünə gəldim tut.
Çin-Maçində, Rumda, hinddə, həbəşdə
Olan-olmuş hünərləri bildim tut.

Ac da olsan, varma yada diləyə,
De: «Köşkdəyəm, başım çatmış fələyə»,
Çöldə qalsan, heç tapmasan bir sayə,
İrəm bağı içrə sayə buldum tut.

Aş görəndə, özün atma irəli,
Gərçi ac olsan da, tez çəkil geri,
Zər tökübən, bəslə gerçək ərləri,
Tez ölsən də Nuh yaşına gəldim tut.

Möhtaclığın haqdan özgə bilməsə,
Ol ruzigar heç üzünə gülməsə,
Hindi kimin əynin-başın olmasa,
Sən şahların xələtini geydim tut.

Suya, yelə hökmü keçən Süleyman,
Baxsan, ondan nə nam qaldı, nə nişan,
Təşnə qalsan, yerin olsa çölüstan,
Dərya içrə mən İskəndər oldum tut.

Yoldaş olsan dilə düşməz mur ilə,
Fərş tapmayıb yerdə yatsan mar ilə,
İyirmi altı kərə yüz min ər ilə
Qarun xəzinəsin ələ aldım tut.

Məxdumqulu, çəksən cəfa, cəbr, bil,
Xudaya xoş gələr, şükr, səbr, bil,
Bu qıl cana qızıl təni qəbr bil,
Qızıl dilin sözlər ikən öldüm tut.

EHSAN HANSI, BİLİNMƏZ

Dərdim çoxdur diyarımdan, dövrümdən,
Xeyir hansı, ehsan hansı, bilinməz.
Zalımların cəfasından, cəbrindən
İslam hansı, iman hansı, bilinməz.

Söhbətlərdə haq kəlamı söylənməz,
Məclislərdə bir nəsihət eylənməz,
Halal hansı, haram hansı, söylənməz,
Xeyir hansı, ziyan hansı, bilinməz.

Xəlaiqdə görənək yox, görüm yox,
Baylarında səxavət yox, verim yox,
Əyallarda həya, qızda şərim yox,
Ədəb hansı, ərkan hansı, bilinməz.

Başqasının mal-mülkünü aldırar,
Təəssüblə qəlbinə kin doldurar,
Bir-birini nahaq yerə öldürər,
İnsaf hansı, aman hansı, bilinməz.

Məxdumqulu, can mehmandır, gövdə leş,
Yaxşıya dost çoxdur, pisə - yox qardaş,
Bu əyyamda baş ayaqdır, ayaq - baş,
Yaxşı hansı, yaman hansı bilinməz.

VAR

Səhər durdu peyğəmbər,
Məscid içrə Bilal var,
Çıxdı Bilal içərdən,
Gördü iki hilal var.

Davud əlində polad,
Bunca tutmaz nə halət,
Yetmiş iki, dörd millət,
Yüz on dörd də dəllal var.

Çarən yox, bitədbirsən,
Söylə, nə cavab versən,
Niyə haram yeyirsən,
Haq verdiyi halal var.

Yeddi dərviş, əhli-hal,
İsfəndiyar, Rüstəm Zal,
Qırx aşiq var, qırx abdal,
Hər başda bir xəyal var.

Məxdumqulunun bəndi, –
Dəştdir, bil, bəndlər bəndi,
Bütün işin sərbəndi,
Yaradan – zülcəlal var.

SƏNİ

Həbibulla, səni sevən,
Tapar hansı yolda səni?
Vallah, görməyə müştaqdır,
Bəy də, xan da, qul da səni.

Aşiqlər gül üzü solar,
Min gün ağlar, bir gün gülər,
Bülbül sənədə arzular,
Tazə qönçə, güldə səni.

Nə gövhərsən, yox qiymətin,
Cahanı tutmuş hümmətin,
Durmaz, yad edər ümmətin
Dağda, düzdə, çöldə səni.

Ərənlər yolunu izlər,
Dərvişlər sirrini gizlər,
Məşriq-məğrib tamam gözlər
Hamı sağda-solda səni.

Dövlət fələk ilə dönər,
Kimdən uçar, kimə qonar,
Görməsə, aşiqlər yanar,
Həftə, ayda, ildə səni.

Biz həm ümmətin xasların −
Yad edərik həvəslərin,
Çağırıb mədəd istərik
Yaxşı-yaman halda səni.

Məxdumqulu der, odum var,
Ərzim var, haqqa dadım var,
Şəfaətdən umudum var –
Qıl körpüdə dalda səni.

RƏVAN OLDU

Məkkədən çıxdı bir gözəl,
Mədinəyə rəvan oldu.
Görən tac etdi sərinə,
Görməyən bağrı qan oldu.

Haqdan ona endi kəlam,
Adı şam, çirağül-islam,
Müti oldu cümlə aləm,
Böylə sahib zaman oldu.

Dosta yetdi vara-vara,
Yeddi göyü yara-yara,
Hər kim münkirdir ol ərə,
Kafirdir, biiman oldu.

Əl götürüb, rəsul ağlar,
Saraldı qönçələr, bağlar,
Bədr vuruşında dağlar
Yeddi ayla duman oldu.

Səf çəkdi batır bəngilər,
Döyüşə çıxdı zəngilər,
Qana batdı üzəngilər,
Əlinin dəsti qan oldu.

Müqadil etmədi təşviş,
Əli ilə saldı döyüş,
Torpaq, dəmir, polad, gümüş,
Qalaları viran oldu.

Məxdumqulu, Rumistana,
Çaldı qılınc Hindistana,
Bədəxşana, Türküstana,
Yeddi iqlimə xan oldu.

GÖRSƏM

Dehistanın bayrında
Badi-səbanı görsəm.
Bəhaəddin Mirqulal,
Zəngi Babanı görsəm.

Nəleyni ərşə tacdır,
Adı aləmə bacdır,
İki cahan möhtacdır,
Ərəb zəbanı görsəm.

Gələn keçər çeşt edib,
Əylənməz güzəşt edib,
Könül deyər gəşt edib,
Gəzsəm, cahanı görsəm.

Xıdır kimi çöllərdə,
İlyas kimi sularda,
Kavus kimi dağlarda,
Yaxşı-yamanı görsəm.

Yuxarda Hindistanı,
Arxada Türküstanı,
Övliyalar ümmanı
Ol Rumistanı görsəm.

Can dəli, cahan şeyda,
Bundan gələrmi fayda,
Yeddi dağ, yeddi dərya, –
Dəli ümmanı görsəm.

Məxdumqulu xoş olsa,
Axsa didəm, yaş olsa,
İmanım yoldaş olsa,
Varsam, Kəbəni görsəm.

XARAB EYLƏR

Mömin olan münkir olmaz sözümə,
Cabbar bu cahanı, gör, xarab eylər,
Çox nərsələr gələr-keçər gözümə,
Bu dünyanı bəd-bəd kar xarab eylər.

İşi rəvaç tapar bəd iş tutanın,
Diləyi tuş gəlməz haq deb yatanın,
Yer üzündə olar güc-güc yetənin,
Cahanı zülümlə zor xarab eylər.

Alimlər irfana, elmə yad olar,
Yox işlər yol olar, var iş bəd olar,
Şəriət nist olar, bəd iş səd olar,
Ölkəni bir neçə tövr xarab eylər.

Bəlxi zülüm dərdi, Nişapuru daş,
Əmman şəhrin dərya, Bəsrəni atəş,
Mədinəni aclıq, Məkkəni həbəş,
Herat, Qəndaharı mar xarab eylər.

Rum şəhrin eyləyər ildırım xarab,
Yəməni hülac yıxar, Mosulu əqrəb,
Kufəni türk pozar, Bağdad şəhrin ab,
Reyi də dəlinib, yer xarab eylər.

Sözümə qulaq ver, aqil, həmişə,
Termizə taun düşər, rənç şəhri-Kişə,
Övladi-Süfyanda adı Gümişə,
İsfahanı sahibkar xarab eylər.

Səmərqəndi qıbti ağlar, bəy basar,
Buxaranı nan qıtlığı, türk basar,

Səraxsı mərg pozar, Mərvi qum basar,
Şirazı türk, çayan, mur xarab eylər.

Kaşğarı, Xotəni kafir hind əyər,
Çinə asimandan əqrəblər yağar,
Hər əqrəb dəvə tək bir-birnə dəyər,
Hindistanı vəba, zar xarab eylər.

Ədən şahı etcək Lahora əzmi,
Dönüb yurdun tapmaz, dağmı, ya düzmü,
Abi-Ceyhun xarab eylər Xarəzmi,
Dışında hər mülk ki var, xarab eylər.

Darqana şəhrinə göydən səs gələr,
Ol bir yavuz səsdir, eşidən ölər,
Bulğarın şəhrini ol urus alar,
Urusu Dəccalla nar xarab eylər.

Məxdumqulu, hər kim dinləsə candan,
Bu işlər ön gələr axır zamandan,
Mehdi yerdən çıxar, İsa asmandan,
Dəccalı ol iki ər xarab eylər.

OTURMUŞ

Qövs ərə bərabər bir kimsə yoxdur,
Tərki-dünya olub, çıxıb oturmuş.
Ağtab bir mənzildir, mənzəri haqdır,
Ol fərşi-ələya çöküb oturmuş.

Sağ-solda iki ər, imameyn derlər,
Sağındakı — göyə eylər tədbirlər.
Solundakı — yerə sərəncam verər,
Yer əncamı ilə baxıb oturmuş.

Anladığım işi eyləyim izhar,
Babi-həqdən kəşf olmuşdır bu əsrar,
Orda Övtad derlər daha dördü var,
Dünyanın dörd küncün çəkib oturmuş.

Bunca arı, bunca pakdır zatları,
Cahan içrə onlar yaxar odları.
Yeddi ər var, Budaladır adları,
Olacaq şər işə baxıb oturmuş.

Həqiqət yolundan xəbərli ərlər,
Bu sözüm eşitcək, qulaq verərlər,
On iki ər vardır, Rüqabə derlər,
Hər işi boynuna taxıb oturmuş.

Bunlar cahana can, cahan sanki tən,
Söyləyim bəyanın, qulaq vergil sən,
Adları Nücəba, özləri çiltən,
Ərbəində müdam oxub oturmuş.

Yeddinci güruhu Nüqəba, bilin,
Üç yüz ərdir, sözə bir qulaq verin,

Üç yüz altmış altı ərən hər ilin
Hər gününə biri çıxıb oturmuş.

Bunlar kimə baxsa, o gələr coşa,
Salar dünya məstin həqiqət eşqə,
Əfradi-mənna var bunlardan başga,
Xəlqi məlamətə yaxıb oturmuş.

Məxdumqulu deyər, dostlar, mən gümrah,
Heyran qaldım, bir mənzildə tapmam rah,
Üç yüz gəlib etdi özünə həmrah,
Yanıq bağrım yaşın töküb oturmuş.

YAŞIL ZÜMÜRRÜD

İlk asiman tutmuş əxtərdən zinət,
Adı Rəfa, əsli yaşıl zümürrüd,
Fəriştəsi vardır sığır surətli,
Böyükləri vardır İsmayıl adlı.

İkinci qat göyü desəm bu başdan,
Adı Əzlaundur, əsli gümüşdən,
Fəriştəsi vardır qartal surətli,
Böyükləri vardır Qəbayıl adlı.

Üçüncü göy rəngi seçilməz oddan,
Adı Kaydum, əsli qızıl yaqutdan,
Fəriştəsi vardır börü sifətli,
Böyükləri vardır Göybayıl adlı.

Dördüncü qat göyü sorsan nədəndir,
Adı Məun, əsli ağ incidəndir,
Fəriştəsi vardır ağ at sifətli,
Böyükləri vardır Nunyayıl adlı.

Deyim göyün qoy beşinci qatından,
Adı Rətqə, əsli qızıl-altından,
Fəriştəsi vardır hüri sifətli,
Böyükləri vardır Səftayıl adlı.

Altıncı qat asman çıxmasın yaddan,
Adı Dəfnə, əsli sarı yaqutdan,
Fəriştəsi vardır vildan[1] surətli,
Böyükləri vardır Əbayıl adlı.

[1] Vildan – behiştdəki oğlanlar.

Soran yeddinci qat göydəki sirdən,
Adı Əcibədir, asmanı nurdan,
Fəriştəsi vardır adam surətli,
Böyükləri vardır Nurbayıl adlı.

Yerdə, asimanda olan səriştə,
Nizam verənləri bu dörd fəriştə:
Mikayıl, İsrafil, Əzrayıl adlı,
Dördüncüsü vardır Cəbrayıl adlı.

Məxdumqulu, faş eyləsən sirrin həm,
Yiyəsi var dəryanın həm, yerin həm,
Yerin bəyi olsun Sərsayıl adlı,
Dəryalar böyüyü Qərqayıl adlı.

ONDA VAR

Birinci qat yerin adı Rəmkadır,
Akım adlı yavuz yellər onda var,
Yetmiş min fəriştə onda saxlanır,
Min qaim əzəli bağlar onda var.

İkinci qat yerin adı Hüldadır,
Quyruğu nizə tək xərçəng ondadır,
Asi adam üçün gözü yoldadır,
Nər-buğra biləkli bövlər onda var.

Altı yüz altmışdır onurğa daşı,
Hər birin altı yüz altmışdır başı,
Hər başda altı yüz altmışdır dişi,
Dağlar dözməz bəd ağılar onda var.

Üçüncü yer adı Arxayi-Afaq,
Odunu dəmirdən, dözməyir torpaq,
Duzəx ənquru var dağdan uluğraq,
Gerçəkdən imansız qullar onda var.

Dördüncü qat yerin adıdır Hürpa,
İlanlarnın dişi dərəxti-xurma,
İstisı yandırar, öldürər sərma,
Tən, can dözməz, dinməz vaylar onda var.

Beşinci yer adı Səlman zəmindir,
Almaz daş vurarlar hər kim bidindir,
Altıncı qat yerin adı Siccindir,
Tamuluq olacaq canlar onda var.

Yeddinci yer adı Qəribə dildə,
Duzəxdən qorxub gəz, xudanı bil də,
Şeytan ordan enib-çıxar hər ildə,
Fəraqi der, yaman günlər onda var.

VARDIR

Qonar, burdan başqa yerə köçərlər,
Kirişsiz qurulan yayları vardır.
Yaxasız, ətəksiz bir don biçərlər,
Qapısız, bacasız öyləri vardır.

Axirət öyünə rahat qoyarlar,
«Haq rəhmət eyləsin» - dua qılarlar,
«Mən rəbbük?» söyləyən qullar gələrlər,
Kim cavab verməsə, vayları vardır.

Əməlin pis olsa, yer səni sıxar,
Sümüyün şaqqıldar, qəlbin tıncıxar,
Sağından-solundan od-alov çıxar,
Binamazın belə köyləri vardır.

«Əsfələs-səfilin» ona dərkardır,
Şeytan onun üçün çox mədədkardır,
Cəhənnəm deyilən bir duzəx vardır,
Qeybətkeşin onda cayları vardır.

Haramidir, neçə gündür izləyir,
Tapa bilsə, pünhan yerdə gizləyir,
Oğru gəldi, mal yiyəsi sözləyir,
Siccin, Veyl adlı cayları vardır.

Görə bilməz qardaşını, elini,
Kecə bilməz onda sirat yolunu,
Tamsına-tamsına çeynər dilini,
Burda neçə-neçə ayları vardır.

Bismillah de, oxu Qurani-yasin,
Könlündən çıxarma haqqın sənasın,
Məxdumqulu, haq keçirsin günasın,
Cənnətül-məva tək cayları vardır.

VAR

Sofular, səfilər, hazır olunuz,
Əcəl vardır, həyat vardır, vəfat var.
Yaman işdən həmmə nazir olunuz,
Soraq vardır, sual vardır, heyhat var.

Münkər-Nikir dar məzara gələrlər,
«Tanrın, rəsulun kim?» deyib sorarlar,
Bilməz isən çox əzablar verərlər,
Gürzü vardır, qəhər vardır, heybət var.

Ol qaranlıq gor içində yatarsan,
Biçarəsən, haq buyruğun tutarsan,
İsrafil surunda yerdən çıxarsan,
Məhşər vardır, mizan vardır, sirat var.

Onda mizan tərəzəsin qurarlar,
Əməllərin həmin yerdə sorarlar,
Asiləri duzəx sarı sürərlər,
Məlik vardır, duzəx vardır, həm od var.

Məxdumqulu, yaşın eyləgil giryan,
Ol gün heybətindən qılsın haqq asan,
Ölsə axır dəmdə həmrahı iman,
Cənnət vardır, möhnət vardır, nicat var.

DURDU ŞAİR − MƏXDUMQULU

Durdu şair:
− Bizdən salam Məxdumqulu ustada,
Atamız Adəmin donun kim biçdi?
Dumanlı sərinə qurban olalı,
Bilmədik, məlaik meyin kim içdi?

Məxdumqulu:
− Bizdən cavab olsun Durdu şairə,
Cəbrayıl gətirdi, rizvanlar biçdi.
Qüdrət ilən şol şeytanın şərbətin
Adəm ata ilə Həvv ana içdi.

− Aləm dairəsi nə rəngli dağdır?
Ol nə quşdur, daim onda dustaqdır?
Aşiqlər sevdiyi o nə bulaqdır?
Həftayıl əbvabın varıb kim açdı?

− Qaf dağı zəbərcət rəngbərəng dağdır,
Kaknus bir quş, daim onda dustaqdır,
Mükəsat deyərlər əcəb bulaqdır,
Həftayıl əbvabın aşiqlər açdı.

− Təlamun dağında kimdir gəzənlər?
Mömin burda, kimdir orda yazanlar?
Şəmaətdə farağatı düzənlər
Neçə ildə yerdən göyə yetişdi?

− Təlamun dağında zahid gəzdilər —
Mömin burda, bərat orda yazdılar,
Şəmaətdə farağatı düzdülər,
Hər qırx ildən Zöhrə göyə yetişdi.

− Tanrının cahanda, bil, dağı neçə,
Behiştdə tubunun budağı neçə,
Üzünün məşqinin varağı neçə,
Behiştin kılidi kimə qovuşdu?

− Yeddi iqlim vardır, yeddidir dağı,
Yetmiş mindir ol tubunun budağı,
«La ilahə» olar məşqin varağı,
Behişt qıldı, rəsulüllah qovuşdu.

− De harda yaratdı səkkiz cənnəti,
Neçə binası var, neçə kümbəti,
Neçə arxı vardır, nəmədir adı,
Teyrin əbabillər kimə qovuşdu?

− Asmanda yaratdı səkkiz cənnəti,
Altı min binadır, birdir kümbəti,
İçində dörd arx var, Müsəvvər adı,
Əbabil əshabil-filə qovuşdu.

− De harda yaratdı sağər duzəxi?
Neçə quyusu var, neçə bulağı?
İçində bir ilan, nədir sorağı?
Qüdrət ilə ol mar kimə dolaşdı?

− Yeddi qat yerdədir sağər duzəxi,
Veyldir quyusu, Siccin bulağı,
Harış ilan, qeybətkeşdir sorağı,
Yalançı, zinaxar, oğra dolaşdı.

− Durdu şair deyər, yollar uzaqdır,
Mən bilmənəm, fani kimə duzaqdır?
Özünü bilməsən, yerin duzəxdir,
Doxsan doqquz min ər harda qovuşdu?

− Məxdumqulu, eşq meydanı uzaqdır,
Fani dünya möminlərə duzaqdır,
Allah bilər, kimin yeri duzəxdir,
Doxsan doqquz min ər surda qovuşdu.

AZADİ – MƏXDUMQULU

Azadi:
− Şeytanın hansı oğludur
Adəm ata ilən düşdü?!
Haqqın rəsulu peyğəmbər
Xeybərdə necə vuruşdı?!

Məxdumqulu:
− Şeytanın Hənnas oğludur,
Adəm ata ilən düşdü.
Xeybər dağında peyğəmbər
Düz yeddicə ay uruşdı.

− Hazır yiyəsi Düldülün
Bilirsənmi kimdir, bilin!
Hansı gün Qabil Habilin
Öldürüb qanını içdi?!

− Hazır yiyəsi Düldülün
Mələk-fəriştədir, bilin!
Şənbə gün Qabil Habilin
Öldürüb qanını içdi.

− Nədir, qalxıb, hava uçdu,
Nəsindən zəminə düşdü?
Neçə gündə Nuhun kişti
Cunidin dağına düşdü?

− Dərya qalxıb, hava uçdı,
Kopüyündən yerə düşdü.
Yetmiş gündə Nuhun kişti
Cunidin dağına düşdü.

− Rum şəhrinin sərdarı
Harda saldırmış gülzarı?
Hansı qalanın divarı
Məhəmmədlə merac aşdı?!

− Şəddad ol Rumun sərdarı,
Şamda saldırmış gülzarı,
Müqəddəs şəhrin divarı
Məhəmmədlə merac aşdı.

− Azadi söyləyər: yetmiş,
Nədir bu dünyanı tutmuş,
Hansı peyğəmbərdir itmiş,
Harda qardaşa uğraşdı?

− Məxdumqulu deyər: yetmiş,
İqlimdir, dünyanı tutmuş,
Yusif peyğəmbərdir itmiş,
Misirdə elə uğraşdı.

DURUBDUR

Bir çürük qoz ilə cahan cövhərin
Ol nə qumarbazdır ütüb durubdur.
Çürük saman etmiş məta bazarın,
Gövhərə bərabər satıb durubdur.

Nə döşəkdir, ona basan yarımaz,
Nə gəmidir, suya batmış, yürüməz,
Nə anadır, ölməz, itməz, qarımaz,
Öz balasın özü udub durubdur.

Nə çıraqdır, gözsüzlərin yarıdır,
Nə güzgüdür, bu aynadan arıdır,
Nə saqidir, piyaləsin yürüdür,
Bir əli boğazdan tutub durubdur.

Nə məxluqdur, nə erkəkdir, nə dişi,
Bir gözü dümağdır, bir gözü çaşı,
Rəngi qara, ala, on iki başı,
Yeri-göyü birdən tutub durubdur.

Başı varıb çıxmış ərşin üstünə,
Ayağı enmişdir yerin altına,
Canlı, cansız, hər nə gəlsə dəstinə,
Durmadan ağzına atıb durubdur.

Dostum, həvəs etmə qəhbə əyalı,
Aldadar, çox-çoxdur onun xəyalı,
Bu dünya bir kor siçanın misalı,
Kökləri birbəbir kərtib durubdur.

Dostlar, bir misaldır dilimə gələn,
Zehni olsa, bilər ağılı olan:
Cahan üzün tutmuş bir qüdrət ilan,
Quyruğu başından ötüb durubdur.

Məxdumqulu, məğrur olma bu sözə,
Heç böylə canavar dəyməmiş gözə,
Yenə bir qüdrət var, yeddi kəlpəzə,
Ol böyük ilanı udub durubdur.

ÜRƏYİN QAN İÇİNDƏ

Könül, nə iş bitirdin, gəldin, cahan içində,
Qaldın dünya qəmində, ürəyin qan içində,
Abad deyib el verdin, tamam viran içində,
Tən torpaqdır, əylənməz cövhəri-can içində,
Rüstəm quma bataraq, qaldı yeksan içində,
Sən oların yanında gəlməzsən san içində.

Dünya deyib yüyürsən, ta içində dəm vardır,
Dəm içindən çıxınca, başında min qəm vardır,
Qəm altında yatarsan, nə ona məlhəm vardır,
Doymaz gözün dolmağa iki ovuc qum vardır,
Bu cahanda, adəmzad, səndən qafil kim vardır,
Qurda, quşa nəzər qıl, külli fərman içində.

Ey dostlar, ol dünyaya varan var da, gələn yox,
Ölü-diri halından xəbər, ətər bilən yox,
Çərxi-fələk əlindən ağlayan var, gülən yox,
Ağıl edin, qardaşlar, köhnələrdən qalan yox,
Kainatın vəfası yoxdur desəm, yalan yox,
Dünyaya bel bağlayan, qaldı ziyan içində.

Ya ilahi, sən saxla qaçaqlardan yollarda,
Sağda-solda deyirlər: «Buraxmayın çöllərdə»,
Könül dünya eşqində, haram sözlər dillərdə,
Mən bir aciz bəndəyəm, kəminəyəm qullarda,
Çox günahlar qazandım, az fürsətli illərdə,
Xəcalətə qoymagil yaxşı-yaman içində!

Məxdumqulu, aldadır qəhbə dünya bəzənib,
Könlünü mail qılma ona qarşı düzənib,
Nə farağat yatırsan əl-ayağın uzanıb,
Əcəl yatır marıqda oxun-yayın gəzənib,
Məhşər günü bərabər imanını qazanıb,
Quru gəldin, boş getmə axır zaman içində!

DEDİM – DEDİM

Dedim: «Üzün tabana». Dedi: «Bənzər!» Mənli xan,
Dedim: «Qoydun ərmana». Dedi: «Könüldür viran»,
Dedim: «Ölürəm indi». Dedi: «Qalarsan aman»,
Dedim: «Ox kirpiklərin». Dedi: «Qaşlarım kaman»,
Dedim ki: «Puşeş geymiş». Dedi: «Doni-zərəfşan».

Dedim: «Üzdə xallar var». Dedi: «Ruyda güllər, hey»,
Dedim: «Qumru zəbandır». Dedi: «Şəhdi-dillər, hey»,
Dedim: «Gəl, sən xəbərləş». Dedi: «Bilər ellər, hey»,
Dedim: «Ol nə sərvdir?» Dedi: «İncə bellər, hey»,
Dedim: «Tavus bəs hardan?» Dedi: «Cayi-Hindistan».

Dedim: «Gecən qaranlıq». Dedi: «Uyğuda ayım»,
Dedim: «Kimlər yasavul?» Dedi: «Kirpiyim − yayım»,
Dedim: «Harda məskənin?» Dedi: «Laməkan cayım»,
Dedim: «Zərəfşan olar». Dedi: «Kövsərdir çayım»,
Dedim: «Ondan ver mənə!» Dedi: «İstərmiş bican».

Dedim: «Bu nə tütündür?» Dedi ki: «Qara marlar»,
Dedim: «Qorxaram ondan». Dedi: «El-oba zarlar»,
Dedim: «Sözün əslini». Dedi: «Sorar, duyarlar»,
Dedim: «Sirri faş etdin». Dedi: «Demiş əğyarlar»,
Dedim: «Ölüm var sənə». Dedi: «Sənə həm fərman».

Dedim: «Ey Məxdumqulu!» Dedi: «Gözlər yaş olar!»
Dedim: «Ol nə oğlandır?» Dedi: «Sizə baş olar»,
Dedim: «Yaxındır Kəbə». Dedi: «Köhnə daş olar»,
Dedim: «Yaxşı zamandır». Dedi: «Bu həm düş olar»,
Dedim: «İndi gedərəm». Dedi: «Getsən, var aman!»

ŞEYDAYİ
(XVIII əsr)

Şeydayi XVIII əsrin ortalarında yaşamış görkəmli türkmən şairlərindən biridir. Onun həyatı haqqında məlumatlar olduqca azdır, hətta doğum və ölüm tarixləri də bilinmir. Bilinən yeganə şey şairin Manqışlaq vilayətində dünyaya gəlməsi, türkmənlərin salur boyunun kiçiağu tayfasına mənsub olmasıdır. Bəzi məlumatlara görə, Şeydayi Buxarada və ya Xivədə təhsil almış, ömrünün çoxunu Səraxs və Marı (Mərv) vilayətlərində keçirmiş, 1875-1800-cü illərdə Buxarada hökmdar olan Şahmurad xanın dövründə həyatda olmuşdur. Bunu onun aşağıdakı misralarından anlamaq mümkündür:

Məsum Sofudur adın, ey hey oğlu Şahmurad,
Sən ədalət sultanı, qəmli könül oldu şad.

Şeydayi yüzə yaxın lirik şeirin və «Gül-Sənubər» adlı aşiqanə dastanın müəllifidir. Bu dastan türkmənlər arasında o qədər məşhurdur ki, şairin şeir yaradıcılığını kölgədə qoymuşdur.

Orta Asiyada «Sənubər can», «Kitabi-Sənubər», «Kitabi-şahzadə Sənubər» adları ilə məşhur olan bu əsər 1903-cü ildən başlayaraq Buxara, Səmərqənd, Daşkənd, Kazan, Kokand şəhərlərində daşbasma üsulu ilə dəfələrlə nəşr olunmuş, bəzi nəşrlərdə şairin adı göstərilməmişdir. Bu dastanın əlyazma nüsxələri Aşqabad, Daşkənd, Peterburq və Düşənbədəki arxivlərdə qorunur. Nüsxələr arasında xeyli fərq müşahidə olunur ki, bu da ifaçıların və katiblərin əlavələri nəticəsində yaranmışdır. Bu dastanın motivləri Azərbaycan folklorunda da görünür. «Gül Sənavərə neylədi, Sənavər gülə neylədi» adlanan nağılın süjet xətti dastanın mövzusu ilə səsləşir.

Şeydayinin şeirləri saf türkməncədir. Şair imkan daxilində ərəb və fars sözlərindən istifadə etməməyə çalışmışdır. Hətta dini mövzulu şeirlərində də dilin saflığına diqqət etmişdir.

Şairin yaradıcılığı Herman Vamberi İ.N.Berezin, A.N. Samoyloviç, A.Y.Krımski, kimi şərqşünaslar tərəfindən tədqiq olunmuşdur.

GƏLİN

Yalan dünyanın behişti,
Qızıl güldən təzə gəlin.
Ağ üzlərin bənzər aya,
Sallanışın qaza, gəlin.

Vara bilmənəm yanına,
Sənin mənzil-məkanına,
Səvab et şirin canına,
Rəhm eyləgil bizə, gəlin.

Görməyə gözlərim zardır,
Qoynunuz fəsli-bahardır,
Sevib ayrılmağım ardır,
Sən bənzərsən yaza, gəlin.

Tamaşalı toy olanda,
Qız-cavanlar yığılanda,
Qızlara nəzər salanda
Sən düşərsən gözə, gəlin.

Şeydayi der, söz olmasa,
Bağçada gülüm solmasa,
Ziyadə zərur olmasa,
Verməm yüz mün qıza, gəlin.

İLƏ

Arzu çəkib dost camalın görməyə,
Yürü könlüm, yoldaş olsan ər ilə.
Eşq ilə baş qoysan möhnət daşına,
Cəfa çəkib, yar camalın gör belə.

Təmənna dağından ötə bilmənəm,
Ədəb səriştəsin tuta bilmənəm,
Yolum uzaq, yara yetə bilmənəm,
Qanadım yox, uça bilməm pər ilə.

Qafil adam qaraları ağ bilər,
Aqil adam biliyini yox bilər,
Düz aşiqəm, xidmətimi haq bilər,
Xeyir gərək, işim yoxdur şər ilə.

Bəndə Şeydayi der sinəm dağlıdır,
Axirət zamana belim bağlıdır,
Əsli xakdan olan adəm oğludur,
Gələn keçər, yeksan olar yer ilə.

SEVDİYİM

Əvvəldə ağlımı heyran eylədin,
Xəlvət yerdə sözləşəlim, sevdiyim,
Ağladıb göz yaşım giryan eylədin,
Uzun dövran üzləşəlim, sevdiyim.

Bağda bülbül oxur, çəkdiyi zardır,
Aşiqin yanması əzəldən vardır,
Gərdanın dütardır, zülflərin tardır,
Sabah durub sazlaşalım, sevdiyim.

Yetim quzu kimi gəzmə aralı,
Sənsən bu dağların gözəl maralı,
Ömrümü ötürdim, qəlbim yaralı,
Gəlsə bahar, yazlaşalım, sevdiyim.

Şeydayi der, getməz sinəmin dağı,
Köksündə qurulmuş İrəmin bağı,
O ala gözlərin yağıdır, yağı,
Oğrun-oğrun gözləşəlim, sevdiyim.

TANIMAZ

Əsli bəy olmayan çıxsa şikara,
Qarğaya quş salar, bazın tanımaz,
Yiyəm dövlət versə bir nabekara,
Təkəbbürlük eylər, özün tanımaz.

Qoç igid önündə dursa yasovlar[1],
At salıb hər birin bir yana qovlar,
Guya ki, laçındır, qu qazın ovlar,
Ördəyin, sonasın, qazın tanımaz.

Mehmanı görəndə öyündən qaçar,
Kimsə bilməz, yerin dibindən qaçar,
Yağıdan vəhm edib, köyündən qaçar,
Ol yağının çoxun, azın tanımaz.

Şeydayi der: yaman ilə baş qoşma,
Əyan edib, öz sirrini gənəşmə,
Savaş günü yaman ilə yol aşma,
Müxənnətdir, qaçar, izin tanımaz.

[1] Yasov – yasavul, əsgər.

VARMI?

Ey yaranlar, müsəlmanlar,
Ağlamayan, gülən varmı?
Yalançı, fani dünyada
Gedib, geri gələn varmı?

Kimi vəfa toxmun əkər,
Kimi əcəl zəxmin çəkər,
Kimi qəmdən azad edər,
Saralmadan solan varmı?

Bildim bu dünya çağlığın,
Qəm qəflətdə oyaqlığın,
Xəstə olmadan sağlığın
Qiymətini bilən varmı?

Bu dünya iki varaqdır,
Biri qara, biri ağdır.
Mənzil iki, yol iraqdır,
Onun fikrin qılan varmı?

Şeydayi der: gələn keçər,
Bu güzara qonan köçər,
İgidlik çırağı keçər,
Bu sözümdə yalan varmı?

BƏYLƏR

Malay xanın zərin açdım,
İçdim qana-qana, bəylər,
Dünyaya gəlcək tutaşdım,
Keçdim yana-yana, bəylər.

Bir çəməndən gül gətirdim,
Ən şuxuna əl yetirdim,
Yaz fəslini mən ötürdim,
Qaçdım zimistana, bəylər.

Sövdəgərəm, mayda bilməm[1],
Yara sirrim ayda bilməm[2],
Yaz gəlib mən, qayıda bilməm,
Qaldım zimistana, bəylər.

Quru ağac yanar, sönər,
Ol ağacdan hasil önər[3],
Dəli dövran kimə dönər,
Çevrilər zəmanə, bəylər.

Cənnət olar sənin cayın[4],
Əl yetirin, süfrə yayın,
Şeydayi der: qulaq qoyun,
Bizim bu dastana, bəylər.

---

[1] Mayda – kiçik, kiçik hesab.
[2] Ayda bilməm – deyə bilməm.
[3] Hasil önər – meyvə bitər.
[4] Cay – yer.

VARDIR

O nədir, gəlib keçincə
Səfalıca çağı vardır?
Neçə karvanlar ötüncə
İşbu yol-yolağı vardır.

O nə dastandır, sormalı,
Oxuyub məna verməli.
O nə öydür, cüt hörməli,
Dəxi dörd çırağı vardır.

Mömin olan yoldan azar,
Təriqətə qılmaz nəzər,
Əməlini mələk yazar,
Nə qılsan, sorağı vardır.

Kərəmli padişahımın,
Fəzli çoxdur ilahımın,
Elədiyim günahımın
Nə ucu-bucağı vardır.

Şeydayi qılar fəryadı,
Aləmə dastandır adı,
İgidin olsa övladı,
Ürəyinin yağı vardır.

VARADIR

Bu anın qiymətin niyə bilməzsən,
Qafil adam, ömrün keçib varadır.
Baqi yurda varıb geri gəlməzsən,
Əcəl yeli yaxan tutub varadır.

Qəhbə fələk ayna ilə bəzənib,
Kimisi axirət öyün qazanıb,
Əcəl gəlir, qəza oxun gəzənib,
Kimisi imanın satıb varadır.

Kimisi gəlib, ey, kimisi keçib,
Kimisi güvənib, kimisi köçüb,
Kimisi işrətdə, al şərab içib,
Kimisi qızıl qan udub varadır.

Xocam versə bəndəsinə övladı,
Könlünün xoşgahı, ruhunun şadı,
Oğul imiş qoç igidin muradı,
Oğulsuzun yeri itib varadır.

Aqil bilməz bu dünyanın sorağın,
Axmaq bilməz qaranlığın çırağın,
Fələk yıxar bu dünyanın qırağın,
Gələnlər əylənməz, ötüb varadır.

Gəlib için həqiqətin meyini,
Yıxmayın siz şəriətin öyünü,
Xumar olar bu dünyanın oyunu,
Pis fələk olanı udub varadır.

Məstanə Şeydayi qaynayıb, daşıb,
Öldür nəfsin, həqiqətə ulaşıb,
Dünyada nə gördün otuzdan aşıb,
Yaşın qırx öyünə yetib varadır.

İGİDİN

Ey yaranlar, müsəlmanlar,
Atdır qardaşı igidin,
Geyib çıxsa dəmir donlar,
Artar savaşı igidin.

İgid piyada qalmasın,
Saralıb üzü solmasın,
Savaş günündə olmasın
Namərd yoldaşı igidin.

Gözəl də bir yaxşı zaddır,
Oğul igidə övladdır,
İti qılınc, ərəb atdır
Könlünün xoşu igidin.

Şeydayi der: mində, beşdə,
Əskik olmaz yazda-qışda,
Qüdrətin qalmaz altmışda,
Otuzdur yaşı igidin.

İGİDƏ

Kim qoyubdur namus-arı
Yaraqsız, atsız igidə.
Kimsənin yox etibarı
Qorxaq, qeyrətsiz igidə.

İgid odur cuş eyləsin,
Sözü yerində söyləsin,
At, yaraq olsa neyləsin,
Ürəksiz, ödsüz igidə.

Yağı ilə qarşılaşmaq,
Pisdən yaxşıya ulaşmaq,
Zor olar qaynayıb coşmaq,
Sinəsiz, odsuz igidə.

Qıya-qıya gözləşməyə,
Doğru durub sözləşməyə,
Nər, buğra tək dizləşməyə
Qardaş gərəkdir igidə.

Şeydayi der: fələk netməz,
Dövran gəlib kimdən getməz,
Toyda, məclisdə san yetməz
Əlində malsız igidə.

GEDİBDİR

Dəli könlüm, dövranlıca sərim yox,
Yalan dünya ilə xoşum gedibdir,
Mənzilim, məkanım, bəlli yerim yox,
Abad öyüm, nanım, aşım gedibdir.

Yaradana ərz eləyim zarımı,
Çəkən bilər sinəmdəki yaramı,
Yaxşını, yamanı, ağı, qaranı
Tanımayan ağlım-huşum gedibdir.

İgidlik bir təzə gülün bostanı,
Hanı sənlə dövran sürənlər, hanı?
Əgər desəm o qədimki dastanı,
Deməyə dilim var, dişim gedibdir.

Nə qismətdir, nəsibinə yazıldı,
Günahkar bəndəsən, bağrın əzildi,
Əsbabın dağıldı, ordun pozuldu,
Dur atlan, Şeydayi, qoşun gedibdir.

ŞİRİN DİLLİ CANANIM

Xuraman qəddinə, xurşud üzünə,
Mən heyranam, şirin dilli cananım.
Arzum budur, intizaram özünə,
Nə gecə var, nə gündüz var qərarım.

Rövşənim sən, çırağım sən, çağım sən,
Atəşim sən, düyümün sən, dağım sən,
Bülbül mənəm, bostanım sən, bağım sən,
Həm güzarım, gülüstanım, baharım.

Həyatım sən, peyvəndim sən, bəndim sən,
Həm şəhrim sən, xəzinəm sən, kəndim sən,
Şəkərim sən, şirinim sən, qəndim sən,
Əncirim, üzümüm, alma, ənarım.

Mənzili sən, məkanım sən, cayım sən,
Sərvərim sən, sultanım sən, şahım sən,
Göy üzündə ulduzum sən, ayım sən,
Yer üzündə nazəninim, nigarım.

Siyah zülfün ruyin üzrə yayıbsan,
Can almağa cəllad donun geyibsən,
Aşna olma hər namərdə, heyifsən,
Şeydayi der sənə düşdü nəzərim.

BİRİ PƏRİDİR

Bir dastan demişəm iki gəlinə,
Biri huri olsa, biri pəridir.
Camalları bənzər dağın gülünə,
Cənnət gülü peyğəmbərin gülüdür.

Gül üzündən götürdülər niqabı,
Guya ki açılmış cənnətin babı,
Gönçə qədəh, ləblərinin şərabı
Hövzi-kövsər şərbətindən durudur.

Alim bilər, on bir hərfdir adları,
Sifətləri, dastanları, xətləri,
Nagəhan görmüşəm pərizadları,
İrəm bağı seyran edən yeridir.

Xumar gözə xub yaraşar qaşları,
Dal gərdənə tökülmüşdür saçları,
Cəllad kimi can almaqdır işləri,
Qəmzələri dağı-daşı əridir.

Bir yerdə görmüşəm iki məhbubu,
Birisi sərvdir, birisi tubu,
Gözəllər sərvəri, xubların xubu,
Biri aydan, biri gündən arıdır.

Zinət etmiş eşq əhlinin xanları,
Firuzə qaşları, zərəfşanları,
Ağ üzündə alma zənəxdanları
Hansı bağın almasıdır, narıdır?

Canım fəda cananların üzünə,
Qələm qaşlarına, xumar gözünə,
Onlar heyran Şeydayinin sözünə,
Şeydayi onların intizarıdır.

GƏTİRDİ

Namə yazıb aşiqlərin adına,
Üç kişi önümə riqab gətirdi,
Mey ilə yaxdılar eşqin oduna,
Kəsib ciyərimdən kabab gətirdi.

Mey ilə verdilər gül ilə xarı,
Dedilər: aşiqin cahanda varı.
Birisi gətirdi iki cüt narı,
Biri bir budaqdan gülab gətirdi.

Bir kamil əl salıb köksüm arıtdı,
Abad edib, can şəhrimi yarıtdı.
Biri saqi olub kasə yürütdü,
Biri bir şüşədə şərab gətirdi.

Şeydayi, məst olub düşdün xəyala,
Mey ilə verdilər dolu piyalə,
Mey içib məst oldun, düşdün nə hala,
Eşq mənim halımı xarab gətirdi.

İLƏ

Nazəninlərə yetişdim
Yüz cilvələr, nazlar ilə.
Hardan gəlirsiniz, dedim,
Danışalım sizlər ilə.

Nazəninlər, nazlı hallar,
Cavabınız verin, canlar,
Tuti tək şirin zəbanlar,
Sözləşəlim sazlar ilə.

Aylar, illər dola-dola,
Qədəm qoydunuz bu yola,
Qonaq gəlin bizim elə
Başı taclı qızlar ilə.

Şeydayi qaynayıb coşdu,
Nazəninlərlə uğraşdı,
Bahar olub bağ gül açdı,
Novruz gəlir yazlar ilə.

TÜRKMƏNİN ƏHVALI

Otdan alçaq, dağdan bülənd,
Oldu türkmənin əhvalı,
Ayaq altında oba, kənd,
Öldü türkmənin iqbalı.

Ey yumrulmuş köhnə dünya,
Kimlər sənə oldu yiyə?
Keçən günüm deyə-deyə,
Ağlamaq türkmənin halı.

Bir yelləncək, doqquz oğlan,
Mindi, düşdü, keçdi dövran,
Dünya köhnə, sonu viran,
Düzə bənzər məkri, alı.

Oğuz eli çox ucaldı,
Qırx ölkədən xərac aldı,
Axırda nə günə qaldı,
Hanı onun dəbi, yolu.

Şeydayini bu dərd yıxır,
Hər dildən yüz yalan çıxır,
Türkmən ruhu əvvəl-axır,
Yüksəldəcək bizim eli.

GÖZƏL İYİRMİ BEŞ

Qəlbə, qulağa yatımlı,
Sözlədim gözəl iyirmi beş,
Şirin avazlı, çəkimli,
İzlədim gözəl iyirmi beş.

Bu gün yerim bəlli oldu,
Əmanətin vaxtı doldu,
Yetirib bu günə qaldı,
İstədim gözəl iyirmi beş.

Arzu edib yetə bilməm,
Görünsə də, tuta bilməm,
Dünya malın sata bilməm,
Gizlədim gözəl iyirmi beş.

Yeddisindən avaz çıxıb,
On səkkizi nalə çəkib,
Üç bu qədər ömür yaxıb,
İşlədim gözəl iyirmi beş.

Matəm, mərsiyə istəndi,
Yazıb qoydum neçə bəndi,
Oxuyan yad edər indi,
Özlədim gözəl iyirmi beş.

Şeydayi der: var betərlər,
Sənin üçin yas tutarlar,
İndi dəyərsiz tutarlar,
Gözlədim gözəl iyirmi beş.

BU GÜN

Gəldi novruz, cümleyi-aləm gülüstandır bu gün,
Gül açıldı, əndəlibin işi əfğandır bu gün,
Qılalım zövqi-tamaşalar ki, ehsandır bu gün,
Ol xüsusən aşiqi-məşuqə dövrandır bu gün,
Lalələr açıldı, səhra bağı-bostandır bu gün.

Oldu novruz, nazü qəmzə birlə səf-səf gülüzar,
Rəngbərəng, ağü qızıl geymiş tamami-zərnigar,
Çün aləmin hüsnündən oldu bu yer-göy laləzar,
Qılmışam bihəd günah, kim məst olub biixtiyar,
Eybi yoxdur, dostlar, eşq əhli məstandır bu gün.

Gəşti-novruz eyləmişlər üşbu gülrüxsarlar,
Ləzzəti, ləli-ləbi şirin süxən göftarlar,
Gər niqab açsa üzündən sərvi boylu yarlar,
Gündə yüz min qan edərlər qəmzəsi xunxarlar,
Aşiqi-məşuq üçün ölsən, nə ərmandır bu gün.

Nazəninlər seyrə çıxmışlar ki bihəd-bihesab,
Qaşlarına sürmə çəkmiş, al yanaq üzrə gülab,
Bir neçəsi ruyi-bəndli, bir neçəsi biniqab,
Hansı birini vəsf edək, hər biri bir mahtab,
Çün onların hüsnünə Şeydayi heyrandır bu gün.

QURBANƏLİ MƏĞRUBİ
(1735 – 1810)

Şairin əsl adı Qurbanəli, təxəllüsü Məğrubidir. O, türkmənlərin yəmrəli boyunun məğrub tayfasından olduğu üçün bu adı özünə təxəllüs kimi qəbul etmişdir. Əldə olan məlumatlara görə, şair 1735-ci ildə Göytəpə yaxınlığında anadan olmuş, 1810-cu ildə Manqışlaq bölgəsində fani dünyadan köçmüşdür. Gəncliyində Axal vilayətində, yaşlılıq çağında isə Daşoğuz və Ürgənc ətrafında yaşadığı bilinir. Məğrubi öz dövrünün savadlı adamlarından biri olmuşdur. Bunu şairin poetik irsi və yaratdığı dastanlar aydın şəkildə göstərir. Onun qələmindən çıxan bütün şeirlər xalq mahnısına çevrilmişdir.

Məğrubi türkmən ədəbiyyatında Nurməhəmməd Əndəlibdən bəri davam edən ənənəyə sadiq qalaraq bir neçə xalq dastanını yenidən işləmiş və mükəmməl bir hala gətirmişdir. Bunlardan «Yusif – Əhməd», «Dövlətyar», «Alıbəy–Balıbəy» adlı dastanlar qəhrəmanlıq, «Seyfülməlik–Mədhülcamal» isə məhəbbət dastanıdır. Bu əsərlər türkmən aşıqlarının repertuarında mühüm yer tutur. Şairin işlədiyi dastanlardakı qəhrəmanların bir əlində saz, digər əlində dütar vardır.

Qurbanəli Məğrubinin poeziyasında vətən sevgisi, qəhrəmanlıq, igidlik motivləri çox güclüdür. Bu da həmin dövrdə İranın türkmən torpaqlarına aramsız hücumları ilə bağlıdır. Şairin bu mövzuda bir çox şeirləri, o cümlədən «Vətənim qaldı» rədifli iki qoşması var. Məğrubinin bütün dastanları və şeirləri nəşr olunmuş, haqqında dissertasiyalar yazılmış, çoxlu elmi-tədqiqat işləri aparılmışdır. Əsərlərinin əlyazma nüsxələri Milli Əlyazmalar İnstitutundakı yetmişdən artıq qovluqda saxlanır.

VƏTƏNİM QALDI

Ağalar, ərzimi bəyan eyləyim,
Durun, Məhin atlı vətənim qaldı,
Qat-qat döşək sərib damın üstünə,
Məst olub üstündə yatanım qaldı.

Bir şahinlə min qazı çaş eylərəm,
Laf eyləsəm, on kişini əylərəm,
Qızılbaşın, yurd talayan bəylərin,
Alıb Xarəzmdə satanım qaldı.

Göytəpə, Bəhrə el, Ürgəncdir yerim,
Bamıdır, Ləngərim, aslanım, şirim,
Xoca Aləmbərdar – bir gözlü pirim,
Qum altda gömülüb yatanım qaldı.

Ac qurd idim, uca dağlar oylağım,
Şahin idim, geniş düzlər ovlağım,
Məhin qışlağımdı, Durun yaylağım,
On gecə-gün toylar tutanım qaldı.

Məğrubi der, gül ayrılsa zağlardan,
Soyuq sulu, tər çəmənli bağlardan,
Altmış başlı, ala qarlı dağlardan,
At minib üstündən ötənim qaldı.

EYLƏDİ

Ey yaranlar, gəldi yaman zamana,
Zalımlar ölkəni xarab eylədi,
Dərvişlər məst olub, girdi harama,
Mollalar şərbəti sərab eylədi.

Aradan kəsildi əzani-qamət,
Qalmadı ellərdə əhli-dəyanət,
Padişahlar qılmaz oldu ədalət,
Şahlar nökərinə əzab eylədi.

Bilib özün doğru yola salmazlar,
Cahillər zahidin qədrin bilməzlər,
Qazıları adil divan sormazlar,
Rüşvət alıb xalqa qəzəb eylədi.

Bilin, kiçiklərdə iba qalmadı,
Tanrı təqdirinə riza qalmadı,
Əksəri qızlarda həya qalmadı,
Oğul atasına cavab eylədi.

Məğrubi der, qərib qulun adına,
Haqq əmrindən hər söz düşər yadına,
Şibli kimi yandım eşqin oduna,
Eşq mənim bağrımı kabab eylədi.

İGİDƏ

Yaranlar, savaş günü
Ustad gərəkdir igidə,
Gözəl Allahın eşqinə
Heyrət gərəkdir igidə.

Günü ilə, ayı ilə,
Yürüb haqqın rəyi ilə,
Bir münasib tayı ilə,
Züryət gərəkdir igidə.

Həsədini oda yaxmaz,
Naməhrəm üzünə baxmaz,
Bircə atdan tozan çıxmaz,
İmdad gərəkdir igidə.

Bir haq çıxmasın yadından,
Ayırma könül şadından,
O yanda duzəx odundan,
Azad gərəkdir igidə.

Məğrubi, yar dərdim bilsə,
Hər dəm rəhm eyləyib gəlsə,
Bir əməl yiyəsi olsa,
İrşad gərəkdir igidə.

AT YAXŞIDIR

İgidə on beş yaşında
Sevgili arvad yaxşıdır,
Ondan son könlünün xoşu,
Yaraq ilə at yaxşıdır.

Eşqsiz ürəkdə dərd olmaz,
Zatı qırıqdan mərd olmaz,
Hər bir adam comərd olmaz,
Yerində himmət yaxşıdır.

Gəl nəsihət eşit bizdən,
Aşın dadı gələr duzdan,
Məclisdəki yersiz sözdən
Boşa hürən it yaxşıdır.

İgidlik bir qızıl gülşən,
Qocalıqda sönər rövşən,
Heysiyyətli olsa hər dəm,
Gözəldə ismət yaxşıdır.

Atdır igidin yoldaşı,
Oğuldur dövlətin başı,
Qızda olsa könül xoşu,
İgidə züryət yaxşıdır.

Ruzini istə qayıbdan,
Başın qurtulmaz ayıbdan,
Abırsız, nakəs, zəifdən
Ötsən müccərəd, yaxşıdır.

Məğrubi, bildiyin söylə,
Qoç igidin vəsfin eylə,
At saxla, qılınc itilə,
Düşmənə heybət yaxşıdır.

DƏRD İLƏ

Gəl, könül, başını çıxar dumandan,
Yalnız qaldın qəm evində dərd ilə.
Namərd ilə uzaq yerə getmə sən,
Yoldaş olsan, ol təvəkkül mərd ilə.

Düz ərlər iblisin sözünə getməz,
Münafiqlər haqqın əmrini tutmaz,
İman ilə şeytan bir yerdə yatmaz,
Necə yola gedər qoyun qurd ilə.

Can şəhrinə əcəl quşları qonar,
Könlümün dəryası coşar, qaynayar,
Çoban oğlu donuz, it ilə oynar,
Bəy balası sətrənc[1] oynar nərd ilə.

Düz dərviş könlünün olmaz yalanı,
Yaxın gəlsə axırzaman nişanı,
Bunu bil ki, iqrar saxlar imanı,
Dava artar, and içərlər şərt ilə.

Məğrubi der: yeddi iqlim çöl qalar,
Nə bəy qalar, nə xan qalar, qul qalar,
Nə dağ qalar, nə düz qalar, el qalar,
……[2]

[1] Sətrənc – şahmat.
[2] Bu sətir orijinal mətnda yoxdur.

GƏL

Könlüm, sənə bir nəsihət eyləyim,
Qafil, qəflət içində sən yatma gəl,
Bir kişi «gəl» deyib dəvət etməsə,
Öz yanından xəyal qurub getmə gəl.

Tanısan gövhəri – bir zərrə daşdır,
Tanınmayan yerdə bahası beşdir,
Ağlı olan bilər, bu dünya heçdir,
Tanınmayan yerdə qədrin satma gəl.

Bihudə gəzmə ki, düşərsən dərdə,
Ruzin olsa, Allah verər hər yerdə,
«Ac» deyib saqınma, doğru get mərdə,
Zinhar, müxənnətə üzün tutma gəl.

Məğrubi, güvənmə, saqın, malına,
Məhşər günü seyr edərlər halına,
Əməllərin bir-bir gələr alnına,
Halal malı haram mala qatma gəl.

TUTULDU - BİTİLDİ

(deyişmə)

Məğrubi:
Bizdən salam olsun, molla Qayıbi,
Dünyanın binası haçan tutuldu?
Küntü-kənzil-məhfiyəndən xəbər ver,
Kəlmeyi-şəhadət harda bitildi?

Qayıbi:
Bizdən salam olsun molla Məğruba,
Haq «kün» dedi, ol gün bina edildi,
Tuba ağacının yarpaqlarında
Kəlmeyi-şəhadət sonda bitildi.

Məğrubi:
Haq əvvəl naməni kimə oxutdu,
Ol kim idi, oxub özün unutdu,
Adəmdən irəli neçə qövm ötdü,
Dərgahda hansının sözü tutuldu ?

Qayıbi:
Haq əvvəl naməni Adəmə oxutdu,
Oxudu, Əzrayıl özün unutdu,
Adəmdən irəli Bənican ötdü,
Dərgahda rəsulun sözü tutuldu.

Məğrubi:
Hansı gündə bina etdi o quşu,
Necədir qanadı, quyruğı, başı,
Yediyi nəmədir, neçədir yaşı,
Neçə min ildən son başı ütüldü?

Qayıbi:
Çərşənbədə bina etdi o quşu,
Dörd olar qanadı, quyruğı, başı,
Yeməyi darıdır, əlli min yaşı,
Əlli min ildən son başı ütüldü.

Məğrubi:
Sudakı balığın puştu[1] neçədir,
Üstündəki əti, quştu[2] neçədir,
Ol ərşi-əzəmin hıştı neçədir[3],
Neçə mələk hesabında bitildi?

Qayıbi:
Sudakı balığın uludur puştu,
Yeddi min yeddi yüz batmandır quştu,
Qüdrətlə salındı əzəmin hıştı,
Dört mələik hesabında bitildi.

Məğrubi:
Bilirsənmi xali nədir, boş nədir,
Cəsəd nədir, mənzil nədir, quş nədir,
Ol nə bazar, qiymətbaha daş nədir,
Kimin daşı kəmbahaya satıldı?

Qayıbi:
Əgər bilsəm xali budur, boş budur,
Cəsəd mənzil, ordan uçan quş budur,
Ol imandır, qiymətbaha daş budur,
Şeytan daşı kəmbahaya satıldı.

---

[1] Puşt – pul.
[2] Quşt – ət.
[3] Hışt – kərpic.

Məğrubi:
Məğrubi der, qismətdə nə yazıldı,
Nə zəncirdir, bir-birinə düzüldü,
Neçə ildə vaxtı yetib üzüldü,
Ay ilə gün hansı vaxtda tutuldu?

Qayıbi:
Qayıbi der, qürbət ilə yazıldı.
Gecə-gündüz bir-birinə düzüldü,
Sansız ildə vaxtı yetib üzüldü,
Ay bilə gün ərəsatda tutuldu.

GƏRƏK

Ey yaranlar, qoç igidin,
Bir dil ilə başı gərək.
Ya qılığı, ya qılıncı,
Qazan içrə aşı gərək.

Haqqı özünə qıl dalda,
Olma sən özgə xəyalda,
Ya oğulda, ya əyalda,
Bir könlünün xoşu gərək.

Bir qoç igidin aşına,
Tay-tuşu gəlsə qaşına,
Bir bəla gəlsə başına,
Can yanan qardaşı gərək.

Ərşə çıxar fəryadların,
Heç kim eşitməz dadların,
Həqiqi pərizadların
Gözü ilən qaşı gərək.

Bəlli, alıcı ərlərin,
Rüstəm zal tək ərənlərin,
Məğrubi der, düz pirlərin
Gözlərinin yaşı gərək.

QAYIBNƏZƏR QAYIBİ
(1755 - ?)

Qayıbnəzər Qayıbi türkmənlərin uva/yıva boyundandır. Onun doğum tarixi 1755-ci il olaraq qəbul edilsə də, nə zaman vəfat etdiyi dəqiq olaraq bilinmir. Şairin Qurbanəli Məğrubi və Seyidnəzər Seydi ilə eyni dövrdə yaşadığı, Məğrubi ilə deyişdiyi məlumdur. Şeirlərini Qayıbi və Molla Qayıb təxəllüsü ilə yazmışdır. Uzun bir ömür sürdüyü təxmin edilir. Bir şeirində 62 yaşına çatdığını göstərir:

Molla Qayıb, nələr gəldi başıma,
Məhəbbət eyləsəm dosta-eşimə,
Ömrüm yetdi altmış iki yaşıma,
Yaşlılıq dərdinə dərman olarmı?

Şeirlərindən anlaşıldığına görə, Qayıbi yaxşı təhsil almış, ərəb və fars dillərini, əruz vəznini mükəmməl şəkildə öyrənmişdir. Yaradıcılığında qəzəl janrı xüsusi yer tutur. Qəzəlləri əsasən əruzun rəməl, rəcəc və həzəc bəhrindədir. O, klassik türkmən ədəbiyyatı tarixində gerçək mənada divan sahibi olan yeganə şairdir. Divanında 600-ə gədər şeiri əlifba sırası ilə düzülmüşdür. Şairin farsca şeirləri və təxmisləri də var.

Həyatının məşəqqət içində keçdiyi bilinir. 24 yaşında ikən gözünün biri kor olmuşdur. Şair bunu «Gözlərim» adlı şeirində belə dilə gətirmişdir:

Altı kəm otuzda idim, yaşımı etdim hesab,
Ansızın gəldi bəla, gözümə çəkdi niqab.

Qayıbi bundan sonra saza-sözə daha çox bağlanmış, öz dövrünün tanınmış aşığı-şairi kimi parlamışdır. Bir rəvayətə görə, Qayıbinin dövründə günəş tutulmuş, mürtəce mollalar bu-

nun səbəbini saz çalanların çoxalması ilə bağlamışlar. Buxara əmiri bütün şairləri, sənətkarları yığaraq onların hamısını dar ağacından asmağı əmr etmişdir. Orada olan Qayıbi

Saz ilə söhbətə yaman deməyin,
Adəm-Həvva yerə enəndə vardı.
Habıl bilə Qabil ana qarnında,
Onlar həm dünyaya gələndə vardı

bəndi ilə başlayan qoşmasını deyərək əmirin qəzəbini soyutmuşdur.

Qayıbi müxtəlif janrlarda yazdığı şeirlərlə yanaşı, alleqorik səpkidə qələmə aldığı «Otuz iki toxum qissəsi» adlı poemanın da müəllifidir.

Qayıbnəzər Qayıbinin kitabları dəfələrlə nəşr edilmiş, haqqında xeyli elmi əsər və dissertasiya yazılmışdır.

FANİ DÜNYA, FANİ DÜNYA

Yenə könlüm qara qıldın, fani dünya, fani dünya,
Ürəyimi yara qıldın, fani dünya, fani dünya.

Şərmsaran günahımdan, çıxar his odlu ahımdan,
Ayırdın məni şahımdan, fani dünya, fani dünya.

Neçələr canın alıbsan, qara torpağa salıbsan,
Onlardan belə qalıbsan, fani dünya, fani dünya.

Sənin əsla qərarın yox, qərar ilə durarın yox,
Yalançı, etibarın yox, fani dünya, fani dünya.

Neçələri türab etdin, neçələrə əzab etdin,
Abadları xarab etdin, fani dünya, fani dünya.

Cəfa canlara bağlarsan, fəraq odunda dağlarsan,
Qara torpağa çağlarsan, fani dünya, fani dünya.

Sən kişiyə olub həmrah, şad eyləyirsən onu gah,
Bir möhnət yurdusan, vallah, fani dünya, fani dünya.

Nə bir sultan, divan deməz, olar bunda güman deməz,
Aldın, piri-cavan deməz, fani dünya, fani dünya.

Neçələri cüda qıldın, zülm ilə əda qıldın,
Alıb malın, gəda qıldın, fani dünya, fani dünya.

Cəfana Qayıbi doymaz, onu dərdin-qəmin qoymaz,
Vəfasız şövqünə uymaz, fani dünya, fani dünya.

ALƏM GƏDA, MƏN HƏM GƏDA

Ey şahi-aləm, üzünə aləm gəda, mən həm gəda,
Ol şəhdi-şirin sözünə aləm gəda, mən həm gəda.

Düşdüm sənin mən kuyinə, heyran olub mən ruyinə,
Ol zülfi-ənbər muyinə aləm gəda, mən həm gəda.

Gəldi fələk zir nəlinə heç kim ərişməz felinə,
Ey cani-şirin, ləlinə aləm gəda, mən həm gəda.

Hüsn içrə olmuş dəng qəni, aləmdə səndən şah hanı?
Ey, cümlə xalq istər səni, aləm gəda, mən həm gəda.

Açıldı hüsnün gülləri, ötər qəmin bülbülləri,
Zar eyləmişsən elləri, aləm gəda, mən həm gəda.

Şol arizi-gülzarına, ol nərgizi-bimarına,
Ey məh liqa, didarına aləm gəda, mən həm gəda.

Lütf eyləgil mən zarına, mən bidili-bimarına,
Ey məh, sənin asarına aləm gəda, mən həm gəda.

Vəsfini söylər Qayıbi, görməz cəmalin qayıbi,
Hüsnünə, ey haq naibi, aləm gəda, mən həm gəda.

OLMASIN

Ey sənəm, sənsiz mənə aləmdə bu can olmasın,
Sən ki canlar canısan, səndən cüda can olmasın.

Can əgər səndən cüda aləmdə canın istəsə,
İstərəm hərgiz ona aləmdə cahan olmasın.

Kim ki vəslini dilər, vəslinə kim vasil olar,
Ayrılıb vəslindən ona dəxi hicran olmasın.

Can alana qəsd edər türkanə qatil gözləri,
Vəh, giriftarı onun heç bir müsəlman olmasın.

Həsrətində eli əfğanım yatırmaz gecələr,
Heç kimin dərdi mənim tək firavan olmasın.

Hər kişi eşqində qəm çəkib, pərişan olmasa,
Dərdi-qəm birlə həmişə şadi-xəndan olmasın.

Tiğ çəkib yar əgər desə «səni qətl eylərəm»,
Qayıbi, öylə işlərdən peşiman olmasın.

GECƏLƏR

İstərəm ay tək üzlərin, dilbər, qaranğu gecələr,
Zar olub mən, gözlərimə gəlməz uyğu gecələr.

Gecələr dərdli fəğanım eşidib, rəhmin gəlib,
Nə olar sorsan gəlib, halimi qarşu gecələr.

Özgələr məhrəm olub, mən tilbə məhrum olanam,
Çox olubdır əksəri könlümdə qayğu gecələr.

Vəh, kim gündüz xalq ilə hər növ könlüm aldanar,
Kar edər dərdi-qəmin canıma əsru gecələr.

Dəli tək getməm gələr hər dəm biyabanlar sarı,
Fikr ilə vurar sanki başıma yüz küy gecələr.

Şövq ilə eşqin xeyli gəldiyincə könlümə,
Çəkərəm fəryad edib hər ləhzə «ya hu» gecələr.

Qərq olubdır ağlamaqdan Qayıbi biçarə gör,
Gözlərimdən arx-arx kimi axar su gecələr.

PƏRVANƏSİ

Olmuşam bir dilbərin şeyda ilə divanəsi,
Atəşi-eşqində yanan natəvan pərvanəsi.

Eşq ilə hər necə kim canım fəda qıldım vəli,
Qılmadı bir dəm nəzər ol canımın cananəsi.

Naz ilə bağrım kəsib, hər dəmbədəm canım alar,
Kim qıya baxmaq ilə ol gözlərin məstanəsi.

Eşqbazlıq ilən, namərdlərin işi deyil,
Eşq ilə can oynayır aşiqlərin mərdanəsi.

Püstə ağzını açıb, ləlini xəndan eyləgəc,
Taqətimi qarət eylər dişlərin dürdanəsi.

Aləmi eylər müəttər, müşki-ənbərlər saçar,
Tar-tar eylər saçın hər sübhdəmdə şanəsi.

Qayıbi, eşqin hərarətində yandı canü dil,
Vəh, haçan tanrım, içib ləli-şərabın qanəsi.

EYLƏDİ

Yağdı nisan yağmuru, aləmi gülzar eylədi,
Ötərək bülbül dəxi dərdimi izhar eylədi.

Haq təala qüdrətindən yağdı nisan yağmuru,
Yer üzünü lölöyi, həm dürri-şəhvar eylədi.

Dürlü-dürlü don geyib aləm içrə zinət bilə,
Görkəzib özün canan, xalqına izhar eylədi.

Laleyi-əhmər, bənövşə, nərgizi-reyhani-gül,
Açılıb hər yan çəmənlər içrə bizar eylədi.

Cami-işrət tutdu gül saqi olub bülbülə kim,
Cüreyi-ləlində anı məsti-xumar eylədi.

Şövq ilə aləmlərə qovğa salıb vəhşü tüyur,
Hər biri bir dildə zikri-həmdi-bisyar eylədi.

Qayıbi gördü əcəb əsərin Allahın bu gün,
Xatirindən xoş olub bu nəqşi təkrar eylədi.

YENƏ

Cıxdılar gülgün geyib ol qəddi-rənalar yenə,
Qıldılar can qəsdini ol şuxi-zibalar yenə.

Halqa-halqa arizin pürnuri-müşk əfşan edib,
Zülməti-din qıldılar ol zülfi tərsalar yenə.

Aldılar aşiqlərin səbrü qərarü taqətin,
Düşdülər möhnət oduna zari-şeydalar yenə.

Gül dəxi yaşıl niqabın aldı üzdən naz ilə,
Bülbüli-biçarəyə kim saldı qovğalar yenə.

Bağlar içrə çəmənlər oldu cənnət tək əyan,
Huri-qılman tək təriqə girdi mirzələr yenə.

Xublar könlün alıb naz ilə yağma qıldılar,
Düşdü başıma əcəb aşüftə sevdalar yenə.

Qayıbi, ay cəyridib meydanda çabuq şuxlar,
Görsədərlər özlərin edib tamaşalar yenə.

OLDU YENƏ

Çünki novruz oldu, aləm gülizar oldu yenə,
Qönçədən güllər açıldı, mürğzar oldu yenə.

Çıxdı yerdən rəngbərəng hər səbzələr kim, var idi,
Xoş müzəyyən oldu aləm, laləzar oldu yenə.

Gül tamaşasın qılıb bülbül yenə qıldı fəğan,
Mey içib gül camından, məst xumar oldu yenə.

Sayə saldı hər tərəf sərv, çinar sərfəraz,
İşrət əhlin cəm edib, gör, üstüvar oldu yenə.

Xublar hər yan çıxıb seyri-gülüstan eylədi,
Eşq əhli gördü onları, intizar oldu yenə.

Oldu qalib şövqü hər könüldə kim, vardır həvəs,
Qüdrəti-həq birlə xoş fəsli-qubar oldu yenə.

Dad kim, dövran verib bunca çəmənləri ilə,
Aqibət zaye olub gərdi-qubar oldu yenə.

Heyf kim, ey Qayıbi, bunca cahanın xubları,
Köç edib bu dünyadan əhli-məzar oldu yenə.

ETMİŞ MƏNİ

Görsədib üz dilbərim, heyrani-zar etmiş məni,
Od salar canıma andağ, xakisar etmiş məni.

Heyrət içrə eşq alıb ağlım başımdan güc ilə,
Bənd edib, əhli-xunun birlə qatar etmiş məni.

Gələli yarın xəyalı kari-varın dünyanın,
Kim çıxarıb xatirimdən bərkənar etmiş məni.

Eyb qılmam, eyləsəm viranələr içrə vətən,
Küy urub, Bəhlul kimi divanələr etmiş məni.

Deməyin kim, nə üçün yoxdur qərarın bir zaman,
Şövqü qalıbdır könüldə, biqərar etmiş məni.

Yar dedikcə xəyalım cuş urub, ah eylərəm,
Zikri-feyzi öylə xoş, biixtıyar etmiş məni.

Yar demiş: «Qayıbi, fəzlimə tut könlünü xoş»,
Üşbu söz birlə bəsi ümudivar etmiş məni.

OLMASIN

Eşq oduna mən kimi heç kimsə büryan olmasın,
Yar vəslin arzulayıb hicr ilə giryan olmasın.

Heç kimsə ötürməsin ömrün mənim tək zar ilən,
Taqəti-bitab olub halə pərişan olmasın.

Müddəilərin cəfası bağrımı qan eylədi,
Heç müsəlman bəndənin düşməni şeytan olmasın.

Ey rəqibi-rusiyah, get, var eşiyindən uzaq,
İkimizin aramızda nagəhan qan olmasın.

Qayıbi, sən tezrək canını qurban eyləgil,
Səndən əvvəl heç kişi ol yarə qurban olmasın.

XUBLARIN

Dostlar, vermə könül, yoxdur vəfası xubların,
Hər nə qədər çəksəniz çoxdur cəfası xubların.

Aqibət can ilə dili verməyin, qurtulmadı
Kim ki yar idi əzəldən mübtəlası xubların.

Fəhm qılmaqla çü gəlməz xatirimə onların
Yoxdurü aşiqlərə qeyr əz bəlası xubların.

Xublara mehr ilə hər kim ki oldu iştiyaq,
Oldu ondan oynamaq can iltiması xubların.

Aşina oldum, əmma yüz min bəlaya uğradım,
Olmayaydım kaş ki mən aşinası xubların.

Qılmadılar, Qayıbi, bir gün inayət neçə kim,
Olmuşam mən neçə vaxtdan binəvası xubların.

VARDIR

Saz ilə söhbətə yaman deməyin,
Adəm-Həvva yerə enəndə vardı.
Habıl bilə Qabil ana qarnında,
Onlar həm dünyaya gələndə vardı.

Adəmi qovdular behişt öyündən,
Hər kim tapar öz felindən-huyundan,
Özün saxla abi-həyat suyundan,
Nuhun gəmisini minəndə vardı.

Məhəmməd peyğəmbər din yolun açdı,
Bilal əzan dedi, kafirlər qaçdı,
Əbubəkr, Ömər, Osman yetişdi,
Əli zülfüqarın çalanda vardı.

Mollalar cəm olub tapmadı dəlil,
Mən sənə sığındım, ya rəbbim cəlil,
İsmayıl peyğəmbər, İbrahim Xəlil
Məkkə-Mədinəni alanda vardı.

Mollalar cəm olub, getdilər həmmə,
Ədalət deyənin mənası nəmə?
Böylə ədalətli sultan Cümcümə
Dünyanın ləzzətin görəndə vardı.

Adəm oğlu hər hansısa bir işdə,
Yer üzünü tutmaq üçün səriştə,
Harut-Marut atlı iki fəriştə
Babil quyusına düşəndə vardı.

Söhbət üçün Musa asmanda qaldı,
İskəndər Zülqərneyn dünyanı aldı,

Musanın əsası əjdərha oldu,
Nəsiminin postun soyanda vardı.

Həzrəti Davudun qırx oğlu oldu,
Mən-mənlik eylədi, qırxı da öldü,
Qırx oğlun yerinə bir oğul gəldi,
Davudun qırx oğlu ölində vardı.

Dağların başından getməz dumanı,
Bir gün olar yaradanın fərmanı,
Mehdi gəlib alar yalan dünyanı,
Davudun bir oğlu olanda vardı.

Molla Qayıb deyər, Xızırdır pirim,
Pirim Şahimərdan, Əli dəstgirim,
Sultan Söyün Mirzə, Mir Əlişirim[1],
Dünyanın toyunu tutanda vardı.

[1] Sultan Hüseyn Bayqara ilə Əlişir Nəvai nəzərdə tutulur. Onların sarsılmaz dostluğu haqqında Orta Asiyada bir çox dastan və rəvayət vardır.

YARSIZLIĞIN DƏRDİNİ

Ey yaranlar, müsəlmanlar, ərənlər,
Sormayın siz yarsızlığın dərdini,
Xəbər verin, bizim yarı görənlər,
Sormayın siz yarsızlığın dərdini.

Ala dağın başı qarsız olmasın,
Qarsız olsa-olsun, narsız olmasın.
Məhəmməd ümməti yarsız olmasın,
Sormayın siz yarsızlığın dərdini.

Baban sandığında tamam zər olar.
Yarsız ötsə, ömrün dərbədər olar.
Ən yaxın qonşun da gümangər olar.
Sormayın siz yarsızlığın dərdini.

Bu gaplar qalıbdır şahü gədadan,
Molla nalə çəkər «təbbətyəda»dan,
Molla Qayıb dilər yarın xudadan,
Sormayın siz yarsızlığın dərdini.

İSTƏR KÖNÜL

Dünya mülkündə, yaranlar, şəhriyar istər könül,
Səyridib minsə bədəvi, şahsuvar istər könül,
Qul bilə qırnaq da olsa, xanəvar istər könül,
Taci-təxti, ləl-gövhər, zərnigar istər könül,
Kafirə vursam qılıncı, zülfiqar istər könül.

Atlanıb çıxsam şikara, at yarağı, əsbabı şay[1],
Salsam yüyrək tazılar, tuğun, ütəlgi, qarçığay[2],
Aşü nan verməkdə olsam guya ki Hatəmi-Tay,
Xoş avaz şair gərək, tənbur, qicaq[3], həm dəfü ney,
Zinəti-zövqi səfalar, kari-var istər könül.

Məscidin molla, imamı qərreyı-qürra[4] gərək,
Balalar məktəbdə olsa dilləri bürra[5] gərək,
Təzə məhbub zərnigarın ağlı bih-çıra[6] gərək,
Eli bay, cəmiyyətin taxtında adil şah gərək,
Çarvadarımız, çöldə olsa, yaylalar istər könül.

Xeyir üçün qılsam ziraət neçə dehqan, ər gərək,
Öyə qalla[7] daşımağa yeddi qatar nər gərək,
Nər başında qübbəsi altın, gümüş ovsar gərək,
Zahidə məscid gərək, kim vaizə minbər gərək,
Hafizim Quran oxusa, xoş avaz istər könül.

---

[1] Yerində, yerbəyer, hazır.
[2] Alıcı quş adları.
[3] Bir musiqi aləti.
[4] Ağıllı və nurlu.
[5] Kəskin, iti, dilli-dilavər.
[6] Çıraq kimi.
[7] Taxıl, məhsul.

Tövlədə dursa bədəvlər, yanında olsa seyis[1],
Binamazü əsrarkeşləri ixtisab qılsa rəis,
Qırx dəvəm sövdaya getsə, əl atsa Sultan Veys,
Sər hovuz, ləli-hərəmdən gəlsə müşki-ənbər is[2],
Öyə gərək nazənin, çeşmi-xumar istər könül.

Ver, ilahi, neyləyim, bəxtim olubdır əncümən,
Yari-qabil tapsamü sərf eyləsəm yüz min tümən,
Dəşti-səhraya çıxıb gəşt eyləsəm bağü çəmən,
Rəngi qır, rəftarı xub, minsəm yenə yorğa səmən(d),
Fəslimiz novruz da olsa, laləzar istər könül.

Qayıbi der, ver, ilahi, aç bu qulunun baxtını,
Kəbə sarı baş qoyuban oxusun beş vaxtını,
Dostlara bizdən nəsihət, nisyə etmə nağdını,
Gördünüzmü, neylədi Davud, Süleyman taxtını,
Kəbeyi-beytülharam deyib, ixtiyar istər könül.

[1] Mehtər.
[2] Müşk, ənbər ətri.

ANNASULTANIM MƏNİM

Özü bir daha gözəl, sallanıb yoldan keçər,
Həsrətindən gecə-gündüz fəryadım ərşə yetər.
Gözlərin cəllad imiş, kirpiyin tiğdən betər,
Afəti-can, lalə-xəndan, ay aman, xanım mənim,
Vədəsinə yalançıymış Annasultanım mənim.

Çün qızıl geydin, bəzəndin, canıma qəsd eylədin,
Sünbülün reyhanıyam deyib, özün məst eylədin,
Bizlə etdin əhdi-peyman, özgəni dost eylədin,
Afəti-can, lalə-xəndan, ay aman, xanım mənim,
Vədəsinə yalançıymış Annasultanım mənim.

Özü bir daha gözəl, sallanıb məstan gəzər,
Vəsfini ellərə desəm, bir çox aşıqlar yazar,
Şanına dastan qoşum mən aşiqi-Qayıbnəzər,
Afəti-can, lalə-xəndan, ay aman, xanım mənim,
Vədəsinə yalançıymış Annasultanım mənim.

MURAD TALİBİ
(1766 – ?)

Məşhur türkmən şairi Murad Talibi təxminən 1766-cı ildə Axal vilayətinin Göytəpə mahalında dünyaya gəlmiştir. O, türkmənlərin təkə boyunun amaşa tayfasının zərən tirəsinə mənsubdur. Şairin həyatı haqqında kifayət qədər məlumat yoxdur. Ailəsinin maddi sıxıntısı üzündən yalnız mollaxana təhsili ilə kifayətlənmiş, mədrəsə bitirə bilməmişdir. Lakin öz üzərində əzmlə çalışaraq savad və biliyini artırmışdır.

Talibi gəncliyində Tuticamal adlı bir qızı sevmiş, onunla evlənmiş və bir oğlu olmuşdur. Şair «Yardan ayrıldım» şeirini arvadının ölümünə həsr etmişdir.

Murad Talibi böyük Məxdumqulunun yolu ilə gedərək sadə dildə xalqın həyatı, yaşayışı haqqında, igidlik, mərdlik, gözəllik barədə şeirlər yazmış, öz əsərlərində çoxlu atalar sözü və deyimi ustalıqla işlətmişdir. Vətənpərvərlik şeirləri də çoxdur. O, türkmən milli ruhunun yüksək səviyyəyə qaldırılmasına çalışmış, gəncləri ana yurdun müdafiəsinə səsləmişdir. Şair öz müasirləri olan Seyidnəzər Seydi, Seydulla Seydi, Qurbandurdu Zəlili ilə birlikdə vətəni qoruyan qəhrəmanları vəsf edən şeirlər qələmə almışdır.

Murad Talibinin dastan yaradıcılığı klassik türkmən şairlərindən bir qədər fərqlidir. O, özündən əvvəlki şairlər kimi hər hansı bir dastanı yenidən işləməmiş, öz dastanını yaratmışdır. «Talibi və Sahibcamal» adlı bu dastan forma baxımından klassik dastanlara, oradakı şeirlər isə klassik şeir janrlarına tam uyğundur. Şairin yaradıcılığı ilk dəfə ötən əsrin 40-60-cı illərində tədqiq edilməyə başlanmış, əsərləri çap olunmuşdur.

QOCALIQDIR, YARANLAR

İgidliyin zoru getdi əlimdən,
Dərd yamanı qocalıqdır, yaranlar.
Artıq onun dərmanı yox ölümdən,
Dərd yamanı qocalıqdır, yaranlar.

Xəstələr qurtular, qoca qurtulmaz,
Könül quşu uçar gedər, tutulmaz,
Bu dərdə kimsədən çarə yetilməz,
Dərd yamanı qocalıqdır, yaranlar.

Ağzına baxarsan, bir dişi olmaz,
Yanında qədirli tay-tuşu olmaz,
Yorğan-döşək ilə heç işi olmaz,
Dərd yamanı qocalıqdır, yaranlar.

Ağzına nə qoysa dişi basmaya,
Oğul-qız sözünə qulaq asmaya,
İraqdan gözləsə, gözü kəsməyə,
Dərd yamanı qocalıqdır, yaranlar.

Yetmişin öyünə girəndə yaşın,
Fırlanar, çiynində dayanmaz başın,
Çörəklə işin yox, qovuddur aşın,
Dərd yamanı qocalıqdır, yaranlar.

Getdi tamam qədir bilən tay-tuşun,
Qalmadı sağlamlıq, dərddir yoldaşın,
Sənincün fərqi yox yazın, ya qışın,
Dərd yamanı qocalıqdır, yaranlar.

Talibi der, dostlar, qocalmaq betər,
Altmışın - yetmişin arası yetər,
Özünü bilməyən yüzdən pay istər,
Dərd yamanı qocalıqdır, yaranlar.

QƏRİBLİK

Fələk, səndən bir şikayət eyləyim,
Gün-gündən sürünüb gəldi qəriblik.
Qoy ərzi-halımı sənə söyləyim,
İxtiyarım əldən aldı qəriblik.

Sərvət əl kiridir, yuyulsa gedər,
Qəribə aclıqdır zəhərdən betər,
Varlı əl uzatsa, hər yana yetər,
Məni sıxdı, bağrım dəldi qəriblik.

Bir dilək diləsəm, diləyim bitməz,
Bu könül arzusu heç yana yetməz,
Varlılar əl tutmaz, qardaş rəhm etməz,
Qədəmimi geri saldı qəriblik.

Altım döşəksizdir, ürək dağlıdır,
Soruşsan açılmaz, bənddir-bağlıdır,
Dilim çox qısadır, başım bağlıdır,
İxtiyarım əldən aldı qəriblik.

Tay-tuşu görəndə basar xəcalət,
Yoxluğu yad edib, ollam bitaqət,
Nə söz soruşarlar, nə də məsləhət,
Bütün dərddən yaman oldu qəriblik.

Talibi der, könlüm, qəmli olma gəl,
Zinhar, Allah adın dildən salma gəl,
Xəsis varlılardan ümid qılma gəl,
Bir zaman əylənməz, keçər qəriblik.

OLMAZ

Cahanda çox təəccüb iş,
Əlacın eyləmək olmaz,
Alim olsun, ya da dərviş,
Ona söz söyləmək olmaz.

Müğayir çoxdur el içrə,
Axar hər nəsnə sel içrə,
Girib dəryayi-Nil içrə,
Suyunu əyləmək olmaz.

Əsir olsun, ya da azad,
Uşaq, qoca, yabançı, yad,
Əsilsiz olarsa hər zad,
Ona bel bağlamaq olmaz.

Eşq oduna düşsə insan,
Geci-tezi olar peşman,
Əgər and içsə bir düşman,
Onu dost eyləmək olmaz.

İgid gər olsa himmətsiz,
Əndək-döndək, dəyanətsiz,
Əvvəldən olsa qeyrətsiz,
Onu heç düzəltmək olmaz.

Ey Talibi, sən ey həmdil,
Biçarəsən, sən onu bil.
Bildiyini söyləsin dil,
Gümanı söyləmək olmaz.

İLƏ

Könlüm, eşit nəsihəti,
Dost olma bəd bəndə ilə.
Bəd ərin olmaz hörməti,
Xor olarsan sən də elə.

Şəriətdən çıxma zinhar,
Bil ki hər yerdə qulaq var,
Şeytan deyən məkri-əyyar
Yıxar səni gündə belə.

Talibi der, min bədəv at,
Kəskin qılınc, cövhər polad,
Borc eylə, paltarın düzəlt,
Gəzmə yırtıq cında ilə.

GƏLDİM

Dilbər, sənin ilə könlüm bir edib,
Canımı canına qatmağa gəldim,
Zülflərin boynuma xub zincir edib,
Başımı başına çatmağa gəldim.

Hərf içində qəddin bənzər əlifə,
Zinhar, onu görsətmə sən rəqibə,
Əgər xuda yazmış isə nəsibə,
Şirin ləblərinndən dadmağa gəldim.

Üzün təzə açan bağın gülzarı,
Bülbül tək edərsən naleyi-zarı,
Mən sənin bağından almanı, narı
Özüm dərib, alıb getməyə gəldim.

Dünyada görmədim sən tək zalımı,
Rəhmin gəlib heç sormadın halımı,
Mən sənin yolunda mülkü-malımı
Hamısın bir pula satmağa gəldim.

Üzün yaxşı yeni açan güllərdən,
Mən sənə bağlıyam özgə qullardan,
Arzu edib gəldim uzaq yollardan,
Bəllicə bir sözün tutmağa gəldim.

Talibi der, bu gün gəldim şanına,
Gündə sorsam, sən qoymazsan yanına,
Rəhm edib sən məni alsan qoynuna,
Almanı, narını dərməyə gəldim.

GÜL ÜZLÜ DİLBƏR

Səfalı sevdiyim, gül üzlü dilbər,
Öpsəm badam gözün qapaqlarından,
Qəddin bir tubudır, qamətin ər-ər,
Əl uzadıb tutsam budaqlarından.

Sənin hüsnün mənim gözümdən getməz,
Nə qədər istəsəm, sənə əl yetməz,
Sən olmasan bizi nura qərq etməz,
Günəş şölə alar yanaqlarından.

Qaşını oynadıb gözün güldürsən,
Bizə öz mehrini acza bildirsən.
Görürəm nə qədər həya edirsən
Qızarmış üzündən, qulaqlarından.

Neçə günlər səni arzu eyləyib,
Şükr, bu gün sənə ərzim söyləyib,
Nəsib olsa, ləblərinə ləb qoyub,
Əmib sorsam incə dodaqlarından.

Könlünü soyutma, sevdiyim, bizdən,
Umudum lap çoxdur, dildarım, sizdən,
İnci-inci tər süzülsə gül üzdən,
Utanarsan, axsa buxaqlarından.

Gül üzlü sevdiyim, mən sənə bəndə,
Mürüvvət et, mehribanlıq çox səndə,
Keç sinəmdən, mən yoluna payəndə,
Zövq alım o incə ayaqlarından.

Nə olar, Talibin halını sorsan,
Rəhm eyləyib, üzdə əhvalın görsən,
İltifatlar ilə bir busə versən,
Qəbqəb zahir olar damaqlarından.

YADIMA DÜŞDÜ

Bir gecə yatırdım yüz xəyal ilə,
Alma yanaqların yadıma düşdü,
Sözləşəndə şirin candan yol salan,
Badam qabaqların yadıma düşdü.

Sevdiyim, həsrətin hər şeydən yaman,
Zülfünün telləri boynuma kaman,
Sözləşəndə qətrə-qətrə bal daman
İncə dodaqların yadıma düşdü.

Dilin nə şirindir misli-bal kimi,
Hüsnün yeni açan təzə gül kimi,
Tağ üstündə bitən dəstəmil[1] kimi,
Qoşa məmələrin yadıma düşdü.

Bostan gülşənində bağçanın gülü,
Dağın sünbülüsən, bağın bülbülü,
Başımın altına yastıq etməli,
O ağ biləklərin yadıma düşdü.

Talibi der, alma, narı bəllənən,
Hüsn içində məşhur olan, ünlənən,
Yürüyəndə min naz ilə sallanan,
Şümşad ayaqların yadıma düşdü.

[1] Şamama.

AYRILDIM

Ərzi-halım bəyan etsəm, yaranlar,
Allah cüt eyləyən yardan ayrıldım.
Bu fələyin sitəmindən, cəbrindən,
Qaşı kaman, zülfü tardan ayrıldım.

Təzə hilal oxşar yarın qaşına,
Sədəflər küsənər gövhər dişinə,
Bənzər ayın on dördü, on beşinə,
Alma zənəxdanlı nurdan ayrıldım.

Bu hicrətə razı oldı ol pəri,
Dağlar sünbülüdür, dərya gövhəri,
Elm derlər, gümrahların rəhbəri,
Rəhbər üçün ol dildardan ayrıldım.

Fəraq miras qalmış Adəm, Həvvadan,
Sən vəfa istəmə mən bivəfadan,
Dərdimə acizəm, qılsam davadan,
Dərmansız dərd üçün zordan ayrıldım.

Qurban olum yarın qaşü gözünə,
Bəndivanam onun şirin sözünə,
Doyunca baxmadım barı üzünə,
Yol gözləyib intizardan ayrıldım.

Talibi, gedirəm ahı-zar ilə,
Yarım burda qaldı alma-nar ilə,
Söhbətim az oldu sevən yar ilə,
Onun üçün namus-ardan ayrıldım.

İSTƏRLƏR

Bir məhvəşə aşiq oldum, yaranlar,
Başlıq üçün dünya malın istərlər.
Yeddi qatar maya gəlib almağa,
Yeddi min, yeddi yüz pulun istərlər.

Səksən min qarabaş, səksən min qulu,
Səksən min at gərək, hamısı doru,
Yəhəri qızıldan, zərbafdan çulu,
Gümüşdən vurulan nalın istərlər.

Səksən min kəndirbaz oyun qurmağa,
Səksən min şah gərək onu görməyə,
Qolu bağlı qulluğunda durmağa
Külli-Xorasanın elin istərlər.

Yüz min şəhər gərək ola toyxana,
Yüz min hafiz gərək, yüz min divana,
Yüz min tirəndazı qoyub nişana,
Yüz min də İsfahan yayın istərlər.

Səksən min şeyx, rəhnəmalar cəm olub,
Səksən min də adil şahlar cəm olub,
El arası kətxudalar cəm olub
Yığışsın, dildarın toyun istərlər.

Səksən min at gərək qonaq-qaraya,
Səksən min nər gərək fəqirə, baya,
Bökənin bayrağı səksən min maya,
Yenə səksən minin payın istərlər.

Səksən min at gərək gümüş buxaqlı,
Səksən min qul gərək yundan qurşaqlı,

Qu tükü yastıqlı, zərbaf döşəkli,
Qızıl taxt üstündə cayın istərlər.

Talibi, gərdəni ləli-gövhərli,
Yüz min kəniz gərək, gürcü şəhərli,
Poladdan qəbzəli, tovuz quş pərli,
Qızıldan mürəssə öyün istərlər.

BİAR OLSA

Namərdlərə boyun əyər,
Əgər igid biar olsa.
Özün dağa-daşa vurar,
İgiddə qeyrət var olsa.

Ər ərlərdən örnək alar,
Feli yamandan gen qalar,
Öyü məclisxana olar,
Xatın bietibar olsa.

Dağın daşı yekrəng olmaz,
Hər aynadan firəng olmaz,
İgidin əli gen olmaz,
Əzəldən könlü dar olsa.

Yaxşı sözə daş yarılar,
Yağlar ballara qarışar,
İgid ağıldan ayrılar,
Xatını ər sevər olsa.

İti qılınc iti kəsər,
Elə ar olar gicbəsər,
Vadiləri duman basar,
Dağ başında qubar olsa.

Bahar gəlsə, köçər baylar,
Qurt oyanar, çaqqal yaylar,
Görsə qaplan, həzər eylər.
Ovçu yoldaşı ər olsa.

Talibi der, daşdır almaz,
Fəhmsizlər qədr bilməz,
Mayaların yükü qalmaz,
Əgər qatarda nər olsa.

ORAZPOLAD QURDOĞLU
(XVIII-XIX əsrlər)

Şairin öz adı Orazpolad, atasının adı isə Annaqurddur. O, atasının adına oğlu kəlməsini əlavə edərək Qurdoğlu təxəllüsünü almış, lakin xalq arasında daha çox «Viran bəxşi» adı ilə tanınmışdır. Bu ləqəbin xüsusi bir tarixçəsi var.

Doğum və ölüm tarixləri dəqiq bilinməyən Qurdoğlu, böyük ehtimala görə, XVIII əsrin üçüncü rübündə Göytəpə bölgəsinin bir kəndində anadan olmuş, ilk təhsilini burada almış, daha sonra iki dostu ilə birlikdə oxumaq üçün Xivəyə getmişdir. Mədrəsədə ikən dütar çalmağa başlamışdır. Bundan xəbər tutan xocası ona kəndə qayıtmağı və musiqi ilə məşğul olmağı, bəxşilik etməyi məsləhət görmüşdür. O, xocasına etiraz edərək dostları kimi oxuyub alim olmaq istədiyini söyləmişdir. Xocası «Sən onlardan məşhur və varlı olacaqsan» dediyi üçün Orazpolad kəndə qayıtmışdır. Atası onu fərsiz oğul kimi evdən qovmuşdur. Çarəsiz qalan Orazpolad viran bir evə sığınmış, dəvə çobanı olmuş, bütün vaxtını dütar çalıb türkü söyləməklə keçirmiş, mahir bəxşi kimi yetişmişdir.

Bir dəfə kənddə keçirilən toyda öz məharətini göstərmiş və bəxşilər arasında birinci yerə çıxmışdır. Bunu atasına xəbər vermişlər. O, toya gələrək oğlunu dinləmiş və ona «Viran bəxşi» adını vermişdir. Orazpolad bu adla məşhurlaşmışdır.

Orazpolad Qurdoğlunun poetik irsi mövzu və məzmun baxımından xeyli zəngindir. Şeirlərinin böyük əksəriyyəti əxlaqi və tərbiyəvi səciyyə daşıyır. Gənclərə öyüd, nəsihət verən şair onları düz yola dəvət edir, mərliyə, halallığa səsləyir.

Qurdoğlunun vətənpərvərlik şeirləri də az deyil. Öz şeirləri ilə hamını düşmənə qarşı müqəddəs savaşa ruhlandıran şair şəhid olamğı bir şərəf sayaraq bir şeirində yazmışdır:

İgidin savaşdır söhbəti, sazı,
Namərdin meydanda qaradır üzü.
Ölən şəhid olur, öldürən qazi,
Ölənin yoldaşı imandır, bəylər.

Qurdoğlu ömrünün son illərini (XIX əsrin birinci yarısı) Axal, Mərv, Bayramlı bölgələrində yaşamış, Aşqabadın Kələlli məhəlləsində dəfn edilmişdir. Şairin törəmələri hazırda Təcəndə və Bayramlıda yaşayırlar.

Orazpolad Qurdoğlu tərcümə ilə də məşğul olmuşdur. O, Vəfainin «Rövnəq ül-islam» adlı əsərini və bəzi şeirlərini türkmən dilinə çevirmişdir.

Qurdoğlunun ədəbi irsi Aşqabadda Milli Əlyazmalar İnstitutunun fondlarında saxlanır.

QURTULMAZ

Təbil çalıb şahin salsan,
Sona gölündən qurtulmaz.
Gizli gəlib canın alsan,
Ceyran çölündən qurtulmaz.

Şeyda bülbül qonar bağa,
Gül ömrü getməz uzağa,
Kəklik ötüb çıxar dağa,
Turac dilindən ayrılmaz.

Bu dünyada yoxdur qalan,
Ölüb gedər, olar yalan,
İçki içən, zina qılan
Şeytan felindən qurtulmaz.

Ruzin bir oxdur, atılar,
Hər yerdə sana qatılar.
Adam adamdan qurtular,
Adam alından qurtulmaz.

Qurdoğlu bildiyin desə,
Dostu, yarı hey dinləsə.
Kim ki yetim malı yesə,
Hicran əlindən qurtulmaz.

GÖRMƏDİM

Səni deyib sevən yarım yad oldu,
Dünya, sənin heç vəfanı görmədim.
Dostlar qəmgin, düşmənlərim şad oldu,
Dünya, sənin heç vəfanı görmədim.

Çox adamın sənə nəzəri düşdü,
Bağrı kabab oldu, qızardı, bişdi,
Tezdən gəlib qonan günorta qaçdı,
Dünya, sənin heç vəfanı görmədim.

Heç kimsənin sənlə işi bitmədi,
Neçə aşiq yar əlini tutmadı,
Qarışqa mal yığdı, alıb getmədi,
Dünya, sənin heç vəfanı görmədim.

Zorun yaman Rüstəm-Zalın zorundan,
Sevənləri ayırdın bir-birindən,
Zülmlə ayırdın yarı yarından,
Dünya, sənin heç vəfanı görmədim.

Sənə gələn bir gün qalaraq getdi,
Həsrət çəkib bağrı yanaraq getdi,
Şahlar yığdı, malın qoyaraq getdi,
Dünya, sənin heç vəfanı görmədim.

Qurdoğlu der, bivəfasan sən, dünya,
Sənə gəlib lərzanədir tən dünya,
Səndən əsla razı olmam mən, dünya,
Dünya, sənin heç vəfanı görmədim.

OLMASA

Ey yaranlar, qoç igidin
Könlündə kaş qəm olmasa.
Qohum-qardaş, oğul-qızdan
Ölməsə, matəm olmasa.

Adam adamdan dərs alar,
Dərs almayan cahil qalar,
Yaxşı bir at yabı olar,
Torbasında yem olmasa.

Mərd oğlundan namərd olmaz,
Namərd oğlundan mərd olmaz,
Xəsis oğlu cömərd olmaz,
Uğrunda Hatəm olmasa.

Biqəm olan qayğı yeməz,
Dövranın ötdüyün bilməz,
Pərizad xatın ər sevməz,
Bir taxtası kəm olmasa.

Xidmət edən qəlbi-dildən,
Muzdun alar, verməz əldən,
Dua etsə saf könüldən,
Gözlərində nəm olmasa.

Qurdoğlu gəlmədi sana,
Rüsva oldu bu cahana.
Ölüb gedər yana-yana,
Bu dərdinə əm[1] olmasa.

---

[1] Əm – dava-dərman.

GƏLSİN

Gedib dostuma deyin,
Qaşları qara gəsin.
Canıma sitəm edən,
Birbaşa bura gəlsin.

Gəlib halımı görsün,
Dərdimə şəfa versin,
Çöldə-dağda yürüsün,
Ol ahu ora gəlsin.

Hicran yelini dadıb,
Elin gözün aldadıb,
Gah yerə özün atıb,
Gah yerdə dura gəlsin.

Canım çıxacaq təndən,
Əlac gözlərəm ondan,
Əl üzməyibsə məndən
Dərmanı verə gəlsin.

Tən zəhməti nardandır,
Bilməm ki, nə hardandır,
Dərmanı ki yardandır,
Dərdimə görə gəlsin.

Yarın gözləri xumar,
Gərdanda saçı tumar,
Qurdoğlu deyər, o yar
İstənən yerə gəlsin.

SAVAŞMAĞA GEDƏLİM

Dedilər İbrahim Əmin gəlibdir,
Haydı, bəylər, savaşmağa gedəlim!
Qulun qayıtması müşkül olubdur,
Haydı, bəylər, savaşmağa gedəlim!

Çapar getdi dörd tərəfə səy edib,
Ərlər gəlsin, at-yarağın şay edib,
Götürün mərgəni iki pay edib,
Haydı, bəylər, savaşmağa gedəlim!

Qoç igidin ömrü olsun ziyada,
Yağılar yıxılıb qalsın arada,
Əcəlsiz ölüm yox, girsən də oda,
Haydı, bəylər, savaşmağa gedəlim!

İnşallah, bir ovdur bu gələn bizə,
Qafildir, dağlardan enibdir düzə,
Ər üstə yürümək ar deyil bizə,
Haydı, bəylər, savaşmağa gedəlim!

Ərənlər duası müstəcəb olar,
Yuxum çin çıxarsa çox əcəb olar,
Cana biri olar, çoxun kim bilər,
Haydı, bəylər, savaşmağa gedəlim!

Rəvac olsun görüm islamın yolu,
Bir çıraq yandırdım məşəldən ulu,
Tamam-kamal yox edəlim o qulu,
Haydı, bəylər, savaşmağa gedəlim!

Qurdoğlu der, güvənmişəm bu işə,
Döyüşməkdən özgə bəs nədir peşə,
Yüzdən əlli igid çəkməz əndişə,
Haydı, bəylər, savaşmağa gedəlim!

İLƏ

Qocalıqda dövlət getsə bir ərdən,
Dönüb ala bilməz işləmək ilə.
Qərib olsa, ayrı düşsə diyardan,
Gözə yuxu getməz düşləmək ilə.

Uçan quşa qanad gərək, pər gərək,
Nər yükünü götürməyə nər gərək,
Güvənməyə gümüş gərək, zər gərək,
Misdən üzük olmaz işləmək ilə.

İki yaxşı bir-birinə eş olar,
Biri üzük olsa, biri qaş olar,
Yamana yar olan elə faş olar,
Örtülməz belə şey gizləmək ilə.

Cübbə kimi əndamı dörd göz olar,
Dilindən çıxan şey quru söz olar,
Ağızdan diş gedər, saqqal boz olar,
Ah çəkib dodağı dişləmək ilə.

Arif olan mərifətlə söz açar,
Mərifətdən qanar, yalandan qaçar,
Pişik pələng ilə dost olmaz, keçər
Bir öydə yazlayıb qışlamaq ilə.

Boyası pozulsa, bənzəməz xətlər,
Şah olmasa, viran olar sərhədlər,
Qurdoğlu der, bu idraksız igidlər
Yola sığmaz doğru başlamaq ilə.

OLMAZMIŞ

Bir adam ki ovdan qalsa, yaşlansa,
Oğul-qız yanında sözü olmazmış.
İqbal yatıb, dövlət geri yürüsə,
Qardaşın yanında üzü olmazmış.

Hər kəs yaxşı olar, əldə var olsa,
Bir igid neyləsin əli dar olsa?
Bir qoca şir əldən düşüb xar olsa,
Alnına vursan da razı olmazmış.

Qoç igidlər qəriblərə əl tutsa,
Ağlar gələn gülsə, qəmli şad getsə,
Övlad fərsiz olub yolu itirsə,
Kordur, ağlamaqdan gözü olmazmış.

Namərd də bəy olar, dövləti gəlsə,
Eli, xalqı, əqrəbası çox olsa,
Kasıb igid ağzı ilə quş tutsa,
Yer üzünə bassa, tozu olmazmış.

Qurdoğlu der, yaxşı azdır, çox olmaz,
Əkin-biçin işləməyən tox olmaz.
Ərdən oğul, nərdən isə döl olmaz,
Bəzi şeylər var ki, izi olmazmış.

OLAR

Ağalar, yaman xatının
Hünəri dizində olar.
Kəndi gəzər başdan-başa,
Köpəklər izində olar.

Çənə vurar, heç yorulmaz,
İstədiyin yerdə olmaz,
Yaxın yerə getsə gəlməz,
Çöllərin düzündə olar.

Yetilməz yerlərə yetər,
Gecə gəzib, gündüz yatar,
Hər yetənə bir söz atar,
Zəhəri sözündə olar.

Örpəyi olmaz boyunda,
Səsi gələr hər oyunda,
Aş bişirməz öz öyündə,
Aş ərin gözündə olar.

Səsi pis duzəx narından,
Tərpənər şillə zorundan,
El-aləm görər ərindən,
Yamanlıq özündə olar.

Qurdoğlu der, söz yerində,
Ha üzdə bil, ha dərində.
Bu xatının el içində
Qarası üzündə olar.

MƏMMƏDVƏLİ KƏMİNƏ
(1770 – 1840)

Türkmən ədəbiyatının şöhrətli şairi Məmmədvəli Kəminə 1770-ci ildə Türkmənistanın Səraxs şəhəri yaxınlığındakı Qoçaqbabada anadan olmuş, 1840-cı ildə 70 yaşında vəfat etmişdir. Şair təkələrin toxtamış boyunun vəkil tayfasının yusiflər tirəsindəndir.

Mükəmməl təhsil almış, Buxara və Xivə mədrəsələrində oxumuş, dövrünün ən savadlı şəxslərindən biri kimi yetişmişdir. Müasiri olan bəzi türkmən şairləri ilə dostluq etmişdir.

Kəminə böyük Məxdumqulunun şagirdlərindən və ardıcıllarındandır. İctimai-sosial mövzularda Məxdumquludan sonra ən çox yazan şairdir. O, XIX əsr türkmən şeirinə satirik bir şair kimi daxil olmuşdur. Dövrünün bütün neqativ təzahürlərinə qarşı çıxmış, tənqidə layiq nə varsa, hamısını kəskin şəkildə tənqid etmişdir. Bəzi ədalətsiz qazılar və fırıldaqçı mollalar əleyhinə satirik şeirlər yazmışdır. Mədrəsə təhsilli şəxs olduğu və dini mükəmməl şəkildə bildiyi üçün mollalar ondan çox çəkinmiş və şairin sağlığında ona bir şey edə bilməmişlər. Rəvayətə görə, Kəminənin vəfatından sonra ondan qisas almaq istəyən bir molla şairin divanını nəşr etdirmək adı ilə onun bütün əsərlərinin əslini və surətlərini toplamış və hamısını yandırmışdır. Ona görə də Kəminənin nə öz əlyazması, nə də divanı bugünədək tapılmamışdır. Şairin əldə olan 60-dan artıq şeiri isə dildən-ağızdan toplanmışdır. 70 il yaşamış istedadlı bir sənətkar, təbii ki, bu qədər az şeir yazmış ola bilməzdi.

Kəminə xalq arasında satirik şair, hazırcavab, eyni zamanda acıdil bir adam kimi büyük şöhrət sahibi olmuş, bir çox

lətifələr onun adı ilə bağlanmışdır. Ona Türküstanın Molla Nəsrəddini deyirlər. Şübhəsiz ki, bu lətifələrin hamısının ona aid olduğunu düşünmək mümkün deyildir.

Şairin poetik üslubu bənzərsizdir. Dili xalq dilinə çox yaxındır, işlədiyi mövzular həyatidir. Eşq, qəriblik, mərdlik, vətənsevərlik mövzuları onun yaradıcılığında aparıcı yer tutur.

Əsərləri bir neçə dəfə nəşr edilmiş, müxtəlif illərdə qazax, qırğız, özbək dillərində kitabları çıxmışdır. «Qəriblik», «Qərib», «Varında», «İçmək», «Gəzər» və sair şeirləri xalq arasında populyardır.

QƏRİBLİK

Gündə min qüssəm var yüz ələm ilə,
Bütün dərdlərimdən betər qəriblik,
Sorağı mən oldum qayğı-qəm ilə,
Gəlib düşər qatar-qatar qəriblik.

Fani dünya zinət ilə, xərc ilə,
Ürəyim yaradır, bağrım bərc[1] ilə,
Vədəsiz şum ölüm, vergi-borc ilə,
İlbəildən qayım tutar qəriblik.

Yeməsəm, içməsəm müdarım ötməz,
Bürünüb yatmağa qərarım yetməz,
Gündə min qovsam da baylara getməz,
Endirər yükünü, yatar qəriblik.

Fəqirə qaradır dünyanın rəngi,
Bitib-tükənməz ki qəriblə cəngi,
Alıbdır əlinə dəmir həvəngi,
Yorulmaz, təpəmdən vurar qəriblik.

İlbəildən mənim müflisim çıxar,
Qəribin üzünə kim gülüb baxar?
Yürüşsəm, yarışsam, güləşsəm yıxar,
Oynasam, oyunda udar qəriblik.

Kəminə der, gələr bir gün şum ölüm,
Kimlərə toy-bayram, kimlərə zülüm,
Qırılma, incimə, səbr eylə, könlüm,
Gəlibdir, bir zaman ötər qəriblik.

---

[1] Bərc – yara.

VARINDA

Bu dünyada qafil oldum oturdum,
Tərpənmədim şirin canın varında,
Cahanın qayğısın çəkib gətirdim,
Dara düşdüm gen cahanın varında.

Dostlar ilə bir mərifət açmadım,
Gül ömrümdə gül qönçəsin qucmadım,
Nazi-nemət görüb, yeyib-içmədim,
Aşsız qaldım aşın-nanın varında.

Hey axar, dayanmaz gözümdən yaşım,
Könlüm min paradır, yalnızdır başım,
Hanı mənim cana-canım yoldaşım?
Müsafirəm Söyünxanın varında.

Göyə əl uzatsam, əlim yetməyir,
Yerə baxsam, könlüm qərar etməyir,
Sənin bu dünyana mehrim getməyir,
Qara yerin - əjdəhanın varında.

Milçək uçsa, qanadı var, canı var,
Yuva içrə qarışqanın sanı var,
Hər elin bir ədalətli xanı var,
Xansız qaldım bəyin, xanın varında.

Bir kəm otuz ildir sürürəm dövran,
Yar, sənsiz gərəkməz bu fani cahan!
Kəminə, baxardın tovuz tək hər yan,
İndi şadlıq yoxdur dünya varında.

QAZIM

Mübarək olsun seyriniz,
Əzm edibsiz yola, qazım,
Ağır yük qırar beliniz,
Desəm, gələr dilə, qazım.

Kül təpədən böyük olmaz,
Sevsə könül, dönük olmaz,
Qara geyik geyik olmaz,
Məgər girsə çölə, qazım.

Desəm qazılar karını,
Söyləmək olmaz yarını,
Yalan sözlərin varını
Satarsınız pula, qazım!

Kəminə, gapım gap olar,
Desəm, dərdlərim dəf olar,
Qəriblər sizə çəp olar,
Çün töhmətsiz elə, qazım!

GƏZƏR

Dünya lap mənasız şeydir,
Haram gəzər, halal gəzər,
Mal yiyəsi filan bəydir,
Adam yerinə mal gəzər.

Şəriəti bilsən doğru,
Söyləməsən, oldun oğru,
Qazı əyri, müfti əyri,
Əlif yerinə dal gəzər.

Qalıbdır kəlamın sözü,
Kor bəyənməz görən gözü,
Pir olar şeytanın özü,
Sofular həm xəyal gəzər.

Səna olmaz sübhi-şamda,
Dil qeybətdə, qulaq damda,
Kəminə, el bu əyyamda,
Toyuq yerinə fal gəzər.

BÖYLƏ

Elm bir ağacdır, islam – sayəsi,
Baş çəkmiş göylərə sahəsi böylə,
İmana qüvvətdir onun meyvəsi,
Pul ilə ölçülməz bahası böylə.

Göz yumub açınca xeyrilmürsəlin,
Meraca yetirdi Cəbrayıl əmin,
Dünyaya deyirlər asiman-zəmin,
Rüzgara qurulmuş binası böylə.

Əməlsiz mollalar, hökmsüz xətlər,
İslamın yoluna salıbsız odlar,
«Arifəm» söyləyər quyruqsuz itlər,
Gecələr yatırmaz qovğası böylə.

Elmin yiyələri elmə baxmazlar,
Halalı yaxına heç buraxmazlar,
Şəraba cumarlar, haqqa baxmazlar,
Mollanın insafı, həyası böylə.

Ağsaqqal edərlər uşaq-muşaqdan,
Məsləhət sorarlar dondan-qurşaqdan,
Qərib olsan, fərqin yoxdur ulaqdan,
Qazının xalq ilə ədası böylə.

Ağlına iş buyur, boş-boş laf etmə,
İşə giriş, əjdəhadan xof etmə,
Yalan sözü bağışlama, əfv etmə,
Söz olar qeybətin anası böylə.

Haramxor dərvişin əriməz bağrı,
Zahiri riyadır, batini oğru,

Şəriət bir yoldur, əlif tək doğru,
Düz olmaz Musanın əsası böylə.

Ey Kəminə, xəta işin vəfurdur,
Allahın adildir, bəndən kafirdir,
Müsəlmana kafir deyən kafirdir,
Kafirin duzəxdə cəzası böylə.

ZÜLFÜN

Əjdərha tək uzanıb, gənci-nahana zülfün,
Məşhuri-aləm olmuş fani cahana zülfün,
Görkəzmədi gül üzün bağ-İsfahana zülfün,
Aləmə ənbər saçar, dəyəndə şana zülfün,
Neylim ki, od salıbdır mən natəvana zülfün.

Hay-hay, sənin yerişin aslana, şirə bənzər,
Ala gözün kirpiyi kamana-tirə bənzər,
Halqa-halqa zülflərin kəməndi-dara bənzər,
Hörüm-hörüm saçların ovsunçu mara bənzər,
Hər yana başqa-başqa, od saldı cana zülfün.

Onca dastan eylərəm yarın çeşmi-məstinə,
Bir mülayim söz ilə gülüb baxsa dostuna,
Yerdən götür zülfünü, qoyma ayaq astına,
Dəstə-dəstə darayıb tök üzünün üstünə,
Tökülsün zirə-zirə geniş gərdana zülfün.

Görüb ol mahi-ruyin, könül hər yana yortar,
Görsətməsən üzünü çoxalar, dərdim artar,
Otursan, saç darasan, saçın üzünü örtər,
Sana aşiq olanın, əlbəttə, qanı batar,
Düşər hər gün vəbala, yüz nahaq qana zülfün.

Ey qardaşlar, neyləyim, taleyim tərsdir mana,
Dünya baqi verilməz, yar olsa, bəsdir mana,
Yar olmasa, bu dünya bir quru səsdir mana,
Qızıl suyu verəlim, gətir dükana zülfün.

Dürlü-dürlü yemişin tapılmaz hər ağacda,
Bah, nə qəddi-qamətin, zülalın boyda, başda,
Hər telin neçə tümən, xəzinə var o saçda,
Altın suyu verəlim, gətir dukana zülfün.

Xub açılmış güllərin güllərdən özgə olsun,
Danış, o şirin dilin dillərdən özgə olsun,
Sənin o nazik belin bellərdən özgə olsun,
Bizim gördüyümüz iş ellərdən özgə olsun,
Axıdıb əşki-qanım abi-rəvana zülfün.

Gəl, gedəlim, Kəminə, seyri-çəmən istəsən,
Min bir reyhan açılan tər əncümən istəsən,
Ləli-gövhər taxaraq, dürri-Yəmən istəsən,
Zülfün hər bir telinə yüz min tümən istəsən,
Nəğd verim pulunu, bir-bir say, sana zülfün.

OĞULBİKƏ

Meydən betər məst oldum, məstanə, Oğulbikə,
Mən ülfətli dostunam, divanə, Oğulbikə,
Xoş göftara giriftar, dürdanə, Oğulbikə,
Adın ilə aşnayam biganə, Oğulbikə,
Bir yorğan, bir yastıq qoy dövranə, Oğulbikə.

Soyuq sözdən simlədi, yaman azdı yaramız,
Kim nə deyirsə-desin, qolay olsun aramız,
Arxdan su daşan kimi, artmasın mübtəlamız,
Adam deyib düşünmə, hər kim görsə qaramız,
Məqsəd: dövran qalmasın biganə, Oğulbikə.

Qolların lam-əlifli, üzün-gözün ədəbli,
Bal damaq, ay çöhrəli, xoş ləhcə, incə ləbli,
Saçın şahmar ilan tək, gözlərin can tələbli,
Gecəm gündüz olubdur, gözəlim, sən səbəbli,
Bu dünyanın işığı, nuranə Oğulbikə.

Qızlar yanında ulduz, sən özünü ay etsən,
Hüsnünlə bu dünyanı varlı etsən, bay etsən,
Bir canım var, qurbandır, tələf etsən, zay etsən,
Yorğan-döşək, pər yastıq, öz qoynunda cay etsən,
Yatsaq, dursaq, öcəşsək dövranə, Oğulbikə.

Qocalıq bir qəflətdır, könlün-köksün oyanmaz,
Qəhər boğar qəlbini, əl-ayağın dayanmaz,
Burda məni qırmasan, o yerdə canın yanmaz,
«Filan vaxtda filandım» desən, heç kim inanmaz,
Kəminə der, qərq olma ərmana, Oğulbikə.

GƏL

Ey sevdiyim, sallanıb, yüz min cilvə ilə gəl,
Qəmzə satıb, göz basıb, qolun sala-sala gəl,
Tuti kimi süxənvər, danış şirin dilə gəl,
Qızıl geyən, ey dostum, səhər gülə-gülə gəl,
Gülün zarın istəsən, mən qərib bülbülə gəl.

Bizdən üzün çevirib, oğrun-oğrun baxarsan,
Altın-gümüş, zümrüdü gen gərdana taxarsan,
Rəqib ilə bir olub, canım oda yaxarsan,
Qaçırmazsan ovunu, biyabana çıxarsan,
Əgər səni çağırsam, şahinim, sən qola gəl.

Sən tək yara dil verib, rəqibdən narazıyam,
Yüz min məşəqqət ilə canım alsan, razıyam,
Gündüz görsəm surətin, gecələr tamarzıyam,
Dedin ki, insafsızam, insafsızın qızıyam,
Al əlinə xəncəri, bağrım dələ-dələ gəl.

Könlüm bir təzələndi yara gözüm düşəndə,
Görsəm yarın camalın, gözlərim qamaşanda,
Sərv ağacı üstündə bülbüllər sayraşanda,
Pərilər bağa girib, gözəllər oynaşanda,
Mən olum Aşıq Qərib, sən Şahsənəm ola gəl.

Kəminə, yarın ismi kaf ilə lama gəldi,
Cim ilə mim oxudum, eyni kəlama gəldi,
Görüşə çıxdı güllər, sərv salama gəldi,
Bu sözümün axırı, sözüm tamama gəldi,
Yar vəsfini yazmağa dəftər-qələm ala gəl.

DƏRDİNDƏN

Aşiqəm, saxlana bilməm,
İnləyən dilin dərdindən,
Bülbüləm, yuxlaya bilməm,
Qırmızı gülün dərdindən.

Sən Şahsənəm, mən şahsuvar,
Qəribinəm, qıl istiğfar.
Yada salsam dil susayar,
Dodaqda balın dərdindən.

Yaraşsın yağı ellərin,
Açılsın bağlı yolların,
Nazikdir incə bellərin,
Sallanan qolun dərdindən.

Yaxşını yapar ustalar,
Fəhm etməz ağlı qısalar,
Qalar qədimi nüsxələr,
Hünərli əlin dərdindən.

Həsrətəm - öpüb qucmadım,
Əlindən şərab içmədim,
Ölüncə səndən keçmədim,
Bir yırtıq çulun dərdindən.

Çağırsam, bəlkə gəlməzsən,
Gəlsən də deyib-gülməzsən,
Nə oldu, xəbər almazsan,
Kəminə qulun dərdindən.

İLƏ

Ağ üzündə qara zülfün hünəri,
Dava edib, cəng başladı əl ilə,
Aləmi yandırar bülbülün zarı,
Məgər bəhs eyləmiş qızıl gül ilə.

Aşiqə ar gələr sözündən dönmək,
Bir mərdə yaraşmaz sonun düşünmək,
Didara doymaq yox, bu mehrə qanmaq,
Get, boyuna güvəndiyim, yol ilə.

Aşiqlik dərdinə tapılmaz çara,
Qəmzən oxdur, cana salıbdır yara,
Üç yoğun, üç incə, üç ağ, üç qara,
On iki yaraşmış incə bel ilə.

Əslini soruşsam - elin uşağı,
Belinə vurubsan tirmə qurşağı,
Məni yaxdı ağ gərdanın işığı,
Alma zənəxdanlım, cürə xal ilə.

Bu sirri yayma sən yaxına, yada,
Dolanıb gəlmişəm qapına dada,
Yaxıb-yandırıbsan, salıbsan oda,
Duzladın söz ilə, dəldin dil ilə.

Kəminə der, eşit mənim fəğanım,
Müjganın xəncərdir, axıtdı qanım,
Sən məni yandırdın, bimürvət zalım!
Ağ üstünə qızıl geydin al ilə.

GETDİ

Ey ağalar, Yolötənin düzündən,
Mənim sona boylum çıxdı da getdi,
Alma yanağından, ağ-ağ üzündən,
Ləli-mərcanları tökdü də getdi.

Cüt bilərzik xub yaraşır dəstində,
Cəllad gözlər can almağın qəsdində,
Aycamalım ağ mayanın üstündə,
Bir kəniz başını çəkdi də getdi.

Yerdən, göydən üzülübdür qərarım,
Şana alıb, siyah zülfün darayım,
Aycamalım, ap-ağ üzlü maralım,
Məlul-məlul bizə baxdı da getdi.

Ceyranı var, ovlağı var bu çölün,
Ördəyi var, qazları var bu gölün,
Kəminə der, sona boylu bu gəlin,
İnləyib göz yaşın tökdü də getdi.

GÜLLƏRƏ

Xubların nazlısı qara göz olar,
Tamaşa et bülbül ilə güllərə.
Gözəlin işvəsi şirin söz olar,
Söylə, qurban olum şirin dillərə.

Al-yaşıl geyinib gülü dərəndə,
İpək qurşaq incə beli saranda,
Su sonası yaşılbaşı görəndə
Laçın könlüm həvəs edər göllərə.

Ayrı düşsəm əlif qəddim yay olar,
Ayrılmasam könlüm əcəb bay olar,
Gül üzün görməsəm, günüm ay olar,
Ayım uzar gedər ildən illərə.

Kəminə, qoymazlar yar ilə yarı,
Fələkdən dad edər gələnin varı,
Mənim dilim, sənin əlin hünəri,
Nüsxə olub qalsın eldən ellərə.

QƏLƏM QAŞLI QIZ

Gəldi qələm qaşlı qız,
Toyladılar yanıma.
Kirpikləri sivri ox,
Batar mənim canıma.

Mən dedim ki, can tələş,
Gözdən axar qanlı yaş.
Baxsana bir, bağrı daş,
Hali-pərişanıma.

Mən dedim, ey ruyi-gül,
Xidmətində bəndə qul,
Qəhrini bas, səbr qıl,
Susamısan qanıma?

Kəminə der, qul oldum,
Yana-yana kül oldum,
Bu gecə daxil oldum
Tazə gülüstanıma.

BƏRABƏR

Könül, sən mərdlərə belin bağlasan,
Haq verər muradın dilə bərabər.
Riya olmaz, Allah deyib ağlasan,
Bülbülün qan-yaşı gülə bərabər.

Hər şeyi yoxluqdan yaratdı cabbar,
Özünün mülküdür, sahib-ixtiyar,
Ölüm şərbətini içməyən kim var,
Ölüm bir mirasdır, elə bərabər.

Verən, alan özü pərvərdigardır,
Özgədən yapışmaq namusdur, ardır,
Ölüm el içində əvvəldən vardır,
Çəkilən qatarlı yola bərabər.

Əvvəl adam bu dünyaya gəlməsə,
Əgər gəlib ömür sürsə, ölməsə,
Vay, əgər igiddən züryət qalmasa,
Gəlməyi gəlməmək ilə bərabər.

Dəmbədəm artmada dərdim dünyada,
Mən kimin üstünə gedim imdada,
Həvəsim yox, bəylər, fani dünyada,
Hər günüm bir aya, ilə bərabər.

Kəminə, əskildim, düşdüm gün-gündən,
Həmişə şom ölüm ayrılmaz məndən,
Əvvəl-axır, Allah, umudum səndən,
Yetir dövlətini elə bərabər.

BİLMƏDİM

Sən qıza aşiqəm, qorxaram səndən,
Könlündə nə varsa bilə bilmədim.
Eşq odu yamandır, eyb etmə məndən,
Sənin ilə həmdəm ola bilmədim.

Dağdan bələnd aşiqlərin hümməti,
Yar deyib yanmasın rəsul ümməti,
Qiymət desən, beş min tümən qiyməti,
Səndə bir nar gördüm ala bilmədim.

Ağlım divanədir eşqin əlindən,
Mehrim heç doymadı qızdan-gəlindən,
Rəqibin dərdindən, elin dilindən,
Qayğısız qapından gələ bilmədim.

İgidin sevdiyi olsa mehriban,
Girsə qucağına, qalmaz arzuman,
Kəminə der, yaxdı məni Gülüstan,
Biəlac, dərdindən ölə bilmədim.

GƏLİNLƏR

Xoş gəlibsiz, xoşluq ilə gedərsiz,
Dünyanın seyrinə gələn gəlinlər.
Dağılan şəhrimi abad edərsiz,
Qəmdə qalan könlüm alan gəlinlər.

Ağ öyün yiyəsi, bayın qızları,
Əyyamın sultanı derlər sizləri,
Xidmətə münasib görün bizləri,
Məhəbbət sayəsin salan gəlinlər.

Ərə söhbət gərək, gözələ tinət,
Kimin gücü çatar, bahalı, qiymət,
Uzun boylu, gen sinəli, xoş surət,
İzzəti, hörməti bilən gəlinlər.

Ağ üzünə qara zülfün yayıbdır,
Sanki ay üzünü bulud alıbdır,
Xəstə canım, müjdə, təbib gəlibdir,
Dərdimin dərmanı olan gəlinlər.

Bağ meyvəsi olmaz şirin dil kimi,
Bəlli-bəlli sözün vardır bal kimi.
Kəminə der, ağlı-qızılgül kimi,
Aşığın canını alan gəlinlər.

ƏRSARININ QIZI

Yarım deyib yola çıxsam,
Yollar ərsarının qızı.
Ceyran üçün çölə cıxsam,
Çöllər ərsarının qızı.

Çölistanda vardır baylar,
Zindan oldu ağ saraylar,
Keçib gedər illər, aylar,
Günlər, ərsarının qızı.

Alma-narın qoxusu var,
Tər məmələr əldən qaçar,
Üzü görklü, əli uçar,
İşlər ərsarının qızı.

Yerdə yatmaz yazın günü,
Oxuyar bağın bülbülü,
Mən istəməm özgə gülü,
Güllər ərsarının qızı.

Kəminə bir dastan yayar,
Kimlər dadar, kimlər doyar,
Ürəyimdə dağlar qoyar,
Dağlar ərsarının qızı.

EDƏR

Ey ağalar, yaman arvad
Saqqal çıxmamış ağ edər.
Abırını yerə tökər,
Ürək-bağrını dağ edər.

Başı çıxmaz heç bir işdən,
Nə gedişdən, nə gəlişdən,
Ağ iplikdən, göy ərişdən
Saçına ipdən bağ edər.

Kim deyir ki, sözə baxar,
İnci taxar, muncuq taxar,
Paltar geysə, yarsın yaxar,
Yaxasın yırtıb çak edər.

Əri qazanıb gətirər,
Çuval dolmadan bitirər.
Gedib küllükdə oturar,
Deyər: ərim həlak edər.

Sözünün yox dal-qabağı,
Allahın bir balqabağı.
Eldən yığışmaz ayağı,
Öz öyünə hey lağ edər.

Baxıb alın əslin-zatın,
Nə boşayın, nə də atın.
Kəminə der, axmaq xatın
Qara saçı dümağ edər.

SEYİDNƏZƏR SEYDİ
(1775 – 1836)

Türkmən ədəbiyyatı tarixində Seydi təxəllüslü iki şair vardır. Onlardan birincisi olan Seyidnəzər Seydi Çərçov vilayətinin Qarabəkavul qəzasının Ləmmə kəndində 1768-ci ildə, digər bir versiyaya görə, 1775-ci ildə, bəzi alimlərin fikrincə isə 1760-cı ildə anadan olmuşdur. O, türkmənlərin ərsarı boyundandır. 1836-cı ildə vəfat etmişdir.

Şairin ömrü və yaradıcılığı vətənpərvərliyin parlaq bir örnəyidir. Onun şeirlərində ərsarı türkmənlərinin tarixi və sosial həyatı, xüsusilə 1801-02-ci illərdə baş verən üsyanlar haqqında məlumatlar verilir. Buxara əmiri Şahmuradın ölümündən sonra oğlu Mirheydərin taxta çıxması ilə Amu-Dərya sahillərində yaşayan türkmənlərin vəziyyəti daha da pisləşmişdir. Onlar üsyan etmiş, nəticədə doğma yurdlarını tərk edərək Mərvə köçmək məcburiyyətində qalmışlar. Seyidnəzər Seydi «Xoş indi», «Ərsarının igidləri», «Vardır», «Bədəvsuvar indi», «Qoçaqlar», «Ayrıldıq», «İgidlər» və başqa şeirlərində bu olayları qələmə almışdır. Mərvə köçdükdən sonra şair öz qələmini qılınca çevirərək bu dəfə də türkmənləri İran hücumlarına qarşı vətən uğrunda savaşa ruhlandırmışdır.

Seyidnəzər Seydinin lirikası da qüvvətlidir. Aşıq Ələsgər kimi o da el gözəllərinə şirin qoşmalar həsr etmişdir.

Şairin özünün xəttilə yazılmış əsərləri bizə gəlib çatmamışdır. Üzü köçürülmüş şeirləri hazırda Türkmənistan Elmlər Akademiyası Milli Əlyazmalar İnstitutunun fondlarında qorunur.

GƏRƏKDİR

Sultan Niyaz bəyin toyuna indi,
Münəccimlər saat tutsa gərəkdir.
Gələn dostu getməz öyünə indi,
Xidmət edib burda yatsa gərəkdir.

Çar tərəfə çapar getdi xətt ilə,
Xoş libaslar geyib, yüyrək at ilə,
Gəlsə qayı eli, həm bayat ilə,
Əvvəl altın tabaq atsa gərəkdir.

Başdan-ayaq külli ərsarı gəlib,
Təkə, salur, sarıq bisyarı gəlib,
Bil ki türkmən adlı el, varı gəlib,
At minib, don geyib getsə gərəkdir.

Yenə hər el sağdan-soldan yetişib,
Qarşı, Buxar, Qaragüldən yetişib,
Bud ətindən yaxşı plov, aş bişib,
Hamı xursənd olub getsə gərəkdir.

Yeddi gün peykədən bədəv çapılıb,
Meydanlar süpürüb, sular səpilib,
Ol gün hər nə istəyirsən tapılıb,
Var işi Allahdan bitsə gərəkdir.

Ürgəncdən, Balkandan, Qəzvin, Tehrandan,
Məşhəddən, Heratdan, Bəlx, Bədəxşandan,
Qazaxdan, Konraddan, qırğız, Kokanddan,
Eşidənlər sürüb yetsə gərəkdir.

Necə doqquz bəxşi xoş avaz ilə,
Söhbətlər quralar dürlü saz ilə,

Yenə çox oyunçu, çox dərbaz ilə
Əcaib oyunlar etsə gərəkdir.

Min dana, iki min qoyun soyulub,
Ulu ata bir gül bayraq qoyulub,
Oğuz xanın toyu kimi toy olub,
Çox tamaşa ilə ötsə gərəkdir.

Məhəbbətli bütün yaxını-dışı,
Gətirər halına layiq peşkəşi,
Oturub yeyəndə çox dürlü aşı,
Əli-ağzı yağa batsa gərəkdir.

Xəlq edəndə mövlam əzəldə bunu,
Könlünə salmamış zərrə qayğını,
Bu toy üçün xalqı cəm edən günü,
Ənamının sanı itsə gərəkdir.

Gələn elin bütün kasıbı-bayı,
Geyərlər özünə layiq sərpayı,
Çox eşidib nağarayı, zurnayı,
Xalqın göz-qulağı batsa gərəkdir.

Yeyən deyir: «Afərinü mərhəba!»
Dürlü ziyafətlər hər şamü səba,
Bəlkə gələn bütün qərib-qürəba,
Dadmadıq təamı dadsa gərəkdir.

Bu Seydinin yalan olmaz sözləri,
İnşallah, hamının görür gözləri,
Yeddi gün çapılan atın tozları,
Ay-gününün şöləsin tutsa gərəkdir.

MÜBARƏK OLSUN!

Ey qaravul bəyi, Ləbabdan qaçıb,
Bu gələn yurdunuz mübarək olsun!
Mirheydərin külli varından keçib,
Bu gələn yurdunuz mübarək olsun!

Xarəzmdə sürüb dürlü «işrəti»,
Görüb gəldinizmi, ol xan «həzrəti?»
İndi heç görməyin qəmi-həsrəti,
Bu gələn yurdunuz mübarək olsun!

...eyləyib uzun əndişə,
Əl vurubsuz bu gün çox yaxşı işə,
İlahi şərəfli etsin həmişə,
Bu gələn yurdunuz mübarək olsun!

Bəndi bağlasanız, cəfalar çəkib,
Çox hasil alarsız əkinlər əkib,
Oturmağa qatar boz öylər tikib,
Bu gələn yurdunuz mübarək olsun!

Eşitmişəm çox ağızdan, çox dildən,
Özün keçiribdir derlər hər eldən,
Haq versə, çox əkib ağdan-qızıldan,
Bu gələn yurdunuz mübarək olsun!

Biz həm gəldik bu gün sizi görməyə,
Nəsib olsa, dürlü dövran sürməyə,
Seydi deyər, sağlıq ilə yürməyə,
Bu gələn yurdunuz mübarək olsun!

AYRILDIQ

Ey ağalar, ərman ilə,
Dürlü dövrandan ayrıldıq,
El olub Rəhim xan ilə,
Heydər sultandan ayrıldıq.

Bədəv minib, yunlar geyən,
Nə nazi-nemətlər yeyən,
Çox işrətli Ləbab deyən,
Bir qədirdandan ayrıldıq.

Girdik bir çöli-Muğana,
Su içmədik qana-qana,
Tuş olduq əzabi-kana,
Rahəti-candan ayrıldıq.

Ərsarının adı itdi,
Hər igid bir yana getdi,
Xan «həzrətin» könlü bitdi,
Biz addan-sandan ayrıldıq

Sübhi-şam ilə yürüşən,
Xeyri-şəri tən görüşən,
Zövqi-səfalar sürüşən,
Yari-yarandan ayrıldıq.

Dağlarda dikilmiş ərən,
Qırılmışdır sansız ceyran,
Ürgənç, Ləbaba su verən
Bəhri-ümmandan ayrıldıq.

Kürsüsü neçə payəli,
Bəylər qaldı çox dayəli,

Sər hovuzlu, xoş sayəli,
Köşki-eyvandan ayrıldıq.

Neçə işvəli, şivəli,
Qaçdıq, tapmadı Xivəli,
Dürlü ağaclı, meyvəli,
Bağü bostandan ayrıldıq.

Tapmadan önkü işrəti,
Udarıq qəmi, həsrəti,
«İstəyərək» xan «həzrəti»,
Axır məkandan ayrıldıq.

Seydi deyər, hayıf, Ləbab!
Qaldı elsiz-günsüz bitab,
Əldən çıxdı mülki-əsbab,
Var xanimandan ayrıldıq.

ƏRSARININ İGİDLƏRİ

Hər yerdə çox şərəf tapar
Ərsarının igidləri,
Yağıların üstə çapar
Ərsarının igidləri.

Heç zada salmaz nəzərlər,
Daima məstan gəzərlər,
Həm oxurlar, həm yazarlar
Ərsarının igidləri.

Orta yerdə top dikərlər,
İki yanda səf çəkərlər.
Vətən üçün qan tökərlər
Ərsarının igidləri.

Özü Hatəm çörəklidir,
Hamı aslan ürəklidir,
Dava günü gərəklidir
Ərsarının igidləri.

İki yana əlləşərlər,
Alıb ovun bəlləşərlər,
Qəniməti bölüşərlər
Ərsarının igidləri.

Seydi deyər, bu cahanda,
Ölsə, ərman yoxdur onda,
Mötəbərdir, bil, hər yanda
Ərsannın igidləri.

VARDIR

Bizim ərsarının igidlərnin
Hər zaman başı cəm olduğu vardır!
Məclis içrə gülgün sərablar içib,
Şad-xürrəm oynayıb güldüyü vardır.

Türfə ədəblidir, otursa-gülsə,
Hamı qulaq asar, biri söz desə,
Hər yerdə özündən böyüyü görsə,
Onun qədrin yaxşı bildiyi vardır.

Yaxşısı, yamanı aylı-saylıdır,
Ata minsə, yaraqlıdır, şaylıdır,
Gön sadaqlı, isfahani yaylıdır,
Görənlər heyrana qaldığı vardır.

Dünyada igid yox bu adda-şanda,
Qeyri müxənnəslər heç olmaz sanda,
At yıxılıb, yoldaş qalsa meydanda,
Dönüb nizə, qılınc çaldığı vardır.

Alğır quş tək sağü soluna baxıb,
Gündə at oynadıb, meydana çıxıb,
Harda qənim görsə, atından yıxıb,
Qolu bağlı alıb gəldiyi vardır.

Zirehi əynində, dəbilqə sərdə,
İstəsən tapılar, hər şuri-şərdə,
Külli türkmən, özbək yığılan yerdə,
Əvvəl başda şöhrət aldığı vardır.

Gündüzlər ovlayıb sonanı, qazı,
Gecələr qurarlar söhbəti-sazı,
Seyid kimi şairlərin avazı
Bu yalan cahana dolduğu vardır.

GEDƏLİM

El birlik etmədi bizə, igidlər,
Gəlin bu vətəndən çıxıb gedəlim.
Düşmənin yalına alışan itlər,
Getməsə, ip ilə çəkib gedəlim.

Durdurmayın qoçaqların atını,
Batırmayın ərsarının adını,
İndi mövlam versə elin dadını,
La hövla billanı deyib gedəlim.

Bəylərin üzünə qara çəkildi,
Onun üçün şərəf yerə töküldü,
Üstümüzə əmir tuğu dikildi,
Əldən gəlsə, onu yıxıb gedəlim.

Gün-gündən halımız olubdur xarab,
Bir neçə axmağın sözünə səbəb,
Seydi deyər, haram oldu bu Ləbab,
Bir yana sel kimi axıb gedəlim.

ÜSTÜ BƏDƏVİN

Minəndə tamamsa bütün əsbabı,
Təxti-Süleymandır üstü bədəvin.
Çul eyləsən atlas ilə zərbabı,
Bil ki, biərmandır üstü bədəvin.

İncə at, igidi yetir murada,
Əcəb xoş görünər yaxına, yada,
Bilsəniz, yaranlar, ötər dünyada,
Dövləti-dövrandır üstü bədəvin.

Bədəv minən xəstə olsa, sağalar,
Gözü qara olar, kefi çağ olar,
Könlü xub açılan təzə bağ olar,
Əcəb gülüstandır üstü bədəvin.

Bədəv minən dərhal girər oyuna,
Onu görən gözlər əcəb sevinə,
Verib alsan yüz min dəvə, qoyuna,
Yenə də ərzandır üstü bədəvin.

Mən olaram bir bədəvin şeydası,
Bu dünya, bu ömrüm onu fədası,
Bədəvə mərd minsə çoxdur faydası,
Namərdə ziyandır üstü bədəvin.

Aləmə dolubdur bədəvin adı,
Ona çox yaraşır, etsə hər zadı,
Gedib tanımağa yaxını-yadı,
Bir türfə seyrandır üstü bədəvin.

Kim minsə, meydanda rəqibə çatar,
Istəsə hər yerdə ovunu tapar,
Uzaq yerə əgər eyləsə səfər,
Hür dar ül-amandır üstü bədəvin.

Bir igidin əsli olsa zinadan,
Ölüncə əlini çəkməz günadan,
Seydi deyər, mənə ata-anadan
Əcəb mehribandır üstü bədəvin.

GƏLİNİN

Əsli bəşər, huri-qılman surətli,
Bənzər pərizada özü gəlinin.
Türfə xoş qılıqlı, üzü hicablı,
Ürəyə od salar sözü gəlinin.

Qırx cüvan kənizdir, əlli qız nökər,
Hər görən, görməyən həsrətin çəkər,
Gündə yüz aşiqin qanını tökər,
Bir zalım cəlladdır gözü gəlinin.

İnanmayın bu fələyin alına,
Şirin canı tapşırıram əlinə,
Dəyər yüz min qıza, yüz min gəlinə,
Asta-asta basan izi gəlinin.

DÖVRANI VARDIR

İşabaşı oğlu Sultanniyaz bəyin
Bu dünyada dürlü dövranı vardır.
Bədəv minib yaxşı igidlər ilən,
Gündə çox səfalı seyranı vardır.

Həmişə yürüşü hünkar tutumlu,
Sözləsə, hər kimə sözü ötümlü,
Sübhi-şam süfrəsi yeyib-içimli,
Haq bərəkət verən aş-nanı vardır.

Şanı çatıb həm yaxına, uzağa,
Bəlkə yetişibdir Ruma, İrağa,
Qismət olsa bütün bəylərə ağa
Olmağına neçə nişanı vardır.

El içində hökmü ola həm cari,
Heç bir müsəlmana yoxdur azarı,
Hər ramazan ayı gətirib qare,
Səvab üçün xətmi-Quranı vardır.

«Səxavətdə Hatəm Taydan ziyadə»,
Deyən adam yalan deməz dünyada,
Xidmətinə hər kim gəlsə piyada,
At minib, don geyib gedəni vardır.

Ağıldan ucadır onun hər işi,
Mərd oğuldır, mərdanədir yürüşü,
Xoş görər mollanı, xoca-dərvişi,
Onlara çox lütfü, ehsanı vardır.

Təbi bülənt, özü ağıllı, huşlu,
Yanı mirşikarlı, qolları quşlu,

Əcəb fərasətli, mərdanə işli,
Hansı mülkün belə sultanı vardır.

Savaş günü kəsərlidir qılıncı,
Özü əhli-savaş, döyüş bilici,
Daim izi üzülməyən, gəlici,
Hər gün dörd tərəfdən mehmanı vardır.

Hazır at-yarağı, bütün əsbabı,
Geyər daim atlas ilə zərbabı,
Axtar Buxaranı, axtar Ləbabı,
Belə bəyi tapmaq imkanı vardır?

Atlansa, din-islam qılıncın çalsa,
Yaraşar kafirdən bac-xərac alsa,
Otursa, önünə ərizəçi gəlsə,
Ədaləti, doğru divanı vardır.

Heç kimsə oxşamaz sözü-söhbəti,
Özgə bəyzadədir, çoxdur hümməti,
Yalan desə bir Məhəmməd ümməti,
Əlbəttə, dininə nöqsanı vardır.

El yığılıb gündə verər salamı,
Xidmətdə dayanıb neçə qulamı,
Qul Seydi söyləyər xalis kəlamı,
Söyləsəm, tükənməz dastanı vardır.

Qurbandurdu ZƏLİLİ
(1780 - 1852)

Dəvlətməmməd Azadinin nəvəsi, böyük şair Məxdumqulunun bacısı oğlu olan Qurbandurdu Zəlili 1800-cü ildə Gürgən yaxınlığındakı Qaraquzu kəndində dünyaya gəlmişdir. Türkmənlərin göklən boyunun gərkəz tayfasındandır. Əvvəlcə kənd məktəbində, sonra isə Gürgəndə mədrəsədə oxumuşdur. Ömrünün son illərini Ətrək və Qarrıqala ətrafında keçirmişdir Hazırda onun nəslindən olanlar Gürgən, Ətrək, Qarrıqala və Qızılarvat civarında yaşayırlar. 1852-ci ildə vəfat etmiştir.

Büyük Məxdumqulunun yanında yetişən və onun sənətini davam etdirən Zəlilinin şeirləri öz humanist ruhu, nəsihətamiz üslubu, sadəliyi və axıcılığı ilə seçilir. Şeirləri XIX əsr türkmən ədəbiyatında realizmin inkişafında mühüm rol oynammışdır.

Zəlili öz müasiri Seydulla Seydi ilə yaxın dost və axirət qardaşı olmuşdur. Onlar birlikdə böyümüş, eyni məktəbdə oxumuşlar. 1837-ci ildə İran ordusu Türkmənistana hücum edərək bəzi vilayətləri tutmuş, əhalini müxtəlif yerlərə sürmüşdür. Zəlili də sürgün olunmuş, iki dost bir-birindən ayrı düşmüşdür. Zəlili 1845-ci ildə sürgündən qayıdanda Seydulla Seydinin vəfat etdiyini öyrənmiş və bundan çox sarsılmışdır.

Zəlili sürgün dövründə elə-obaya, vətənə, dostu Seydiyə bir çox şeirlər həsr etmişdir. Onun «Vətənim, səni», «Oldum», «Nişan, Seyidi», «Salam, Seyidi», «Yaxşıdır», «Qara döndü», «Bəllidir», «Söyləmək ilə», «Olmasa», «Leyla gərəkdir» kimi şeirləri şairin vətənsəvərlik, həsrət və məhəbbət hisslərini ortaya qoyan ən güzəl örnəklərdir.

Zəlilinin əsərlərinin 30-dan artıq əlyazması mövcuddur.

ALDATDI MƏNİ

Əvvəl başda çirkin dünya
Saz ilə aldatdı məni.
Dilbər gəlinə bənzəyib
Naz ilə aldatdı məni.

Fayda dedilər ziyanı,
Göstərib neçə xubanı.
Yox ikən sonu, pəyanı,
Söz ilə aldatdı məni.

Bu məkana qonan köçdü,
Neçə çıraq yanıb öçdü,
Sansız illər gəlib keçdi,
Yaz ilə aldatdı məni.

Zəlili çəkdi cövrünü,
Görmədi yaxşı dövrünü,
Hey yada saldı Gürgəni,
Boz ilə aldatdı məni.

OLDUM

Qəriblik aldı qüvvəti,
Çəkər oldum məşəqqəti,
Yüz min qayğı-gərəməti,
Başa qoyan kimi oldum.

Atıb gəldik ol məkanı,
Cövrə saldıq şirin canı,
Fəhm edib fayda-ziyanı,
İndi duyan kimi oldum.

Xof aldı ağlın öyünü,
Aldırdıq elin yerini,
İndi vətənin şükrünü,
Yaxşı bilən kimi oldum.

Görmədim könül çağını,
Aldırdım ürək yağını,
Çəkib vətənin dağını,
Oda yanan kimi oldum.

Gəldi ayrılıq qəzası,
Qaçdı Xivənin məzəsi,
Sanki bir odlu libası
Əynə geyən kimi oldum.

Nələr gördük zalim xandan,
Ayırdı əziz vətəndən,
Zəlili der, bu məkandan,
Axır doyan kimi oldum.

ƏLLİ YAŞIN İÇİNDƏ

Ərzi-halım bir-bir bəyan eyləyim,
Gəzər oldum qayğı-qəmin içində.
Dərdim güclü, mən yanıram, neyləyim,
Qovğa çoxdur sinə-başın içində.

Cəfa çəkib, dünya yolun tapmadım,
Toylar tutub, hər yana at çapmadım,
Çəkib qonaqları, xələt yapmadım,
Bisan oldum tayın-tuşun içində.

Bu qəriblik üstümüzdən getmədi,
Könül məqsəd-muradına yetmədi,
Qayğı-qəmsiz mənim vaxtım ötmədi,
Gəzmədim heç könül xoşun içində.

Fələk saldı məni tükənməz hala,
Dünyada uğradım yüz qilü-qala,
Bəd oldı güzəran, düşdük bir hala,
Gücsüz olduq neçə başın içində.

Biməzə görünər gözə məkanım,
İlbəil ufaldı ağır dükanım,
Ayrılıb fərzənddən, yandı bu canım,
Gözlərim qaldı da yaşın içində.

Ölümün heybəti basdı gün-gündən,
Acıdır, şirin can ayrılsa təndən,
İki yar sualı sorarlar məndən,
Əndişə çox ağıl-huşun içində.

Zəlili der, ağıl hər yana çaşdı,
Dar oldu bu yerlər, məzəsi qaçdı,
Başıma çox ələm-sevdalar düşdü,
Hər şey gördüm əlli yaşın içində.

NİŞAN, SEYİDİ

Yaxın könül ilə bu iraq yerdən,
Göndərdim mən sana nişan, Seyidi!
Gündoğdudan, Xallıqılınc sərdardan,
Yazıb bir zarına dastan, Seyidi!

Qaldıq bu möhnətdən burda saqınıb,
Rizqimizi sağdan, soldan tapınıb,
Gen qaçarıq görənlərdən utanıb,
Məskənimiz çöl-biyaban, Seyidi!

Başdan bəri vətən düşməz ağzımdan,
Nanü-nəmək asan getməz boğzımdan,
Gecə-gündüz səni deyib gözümdən,
Axar yaşım badi-baran, Seyidi!

Xətt yollamaq burdan asan iş deyil,
Ayrılıq bir dağ-düyündür, onu bil,
Gürgənin düzündə toy qurub bu il,
Yenə sürək kaş ki dövran, Seyidi!

Bu odlara bu can dözməz, mən dözsəm,
Yurd şirin zad, ondan necə əl üzsəm,
Tapmaram Xivəni, Buxarı gəzsəm,
Sənin tək özümə yaran, Seyidi!

Ata-baba keçən yerləri görsəm,
Gürgəndə nan yesəm, Ətrəkdə yürsəm,
Dəyməsələr, at üstündə bir varsam,
Heç olmasa etsəm seyran, Seyidi!

Mən neyləyim, qaldı ara daş olub,
Qanadım yox, uçub gedəm, quş olub,

Kaş sağ ikən bir-birinə tuş olub,
Ayrılsaq da qalmaz ərman, Seyidi!

Gəzər bu Zəlili, yanaraq bişib,
Vardı neçə ayrılanlar qovuşub,
Ötən bahar Kəsarxacda sataşıb,
Hanı etdik əhdi-peyman, Seyidi?

SƏNİN

Çox heyif, ötdü ömrün, Mənli xoca xan, sənin,
Ayrılıqdan bu canımda qaldı çox ərman sənin,
Hər kişi görsə bu halın, oldu bağrı qan, sənin,
Əhli-beytin ağlaşıb cox etdilər əfğan sənin,
Heç unutmaz el-ulus ol etdiyin ehsan sənin.

Gələni qarşılayıb xidmət edərdin can ilən,
Onca dövranlar sürüb, xəlvət edərdin xan ilən,
Hamısı oldu yalan ol qüdrəti-sübhan ilən,
Sinədə qoydun düyün, öldün qərib, ərman ilən,
Tutdular yasını ol bacı-qardaş, doğan sənin.

Bu fələyin zülmü ilə onlar vətəndən ayrılıb,
Düşdülər üftadə, aciz, at önündə sürülüb,
Neçəsi batdı qara, neçəsi palçığa girib,
Neçəsi çıxdı ordan, neçəsi qaldı qırılıb,
Elin, xalqın oldular bu dəşt ara viran sənin.

Heyif, getdi bu cahandan yaxşı adın sus olub,
Xalq ara düşdü xəbər, ağladı amü-xas olub,
Titrədi asman, zəmin, yıxıldı dağlar pəs olub,
Ad-sanını eşidənlər qayıbından dost olub,
Görməyə didarını müştaq idi İran sənin.

Çərxi-kəçrov ov edib, yoluna qurdu duzağı,
Ta ki ölməzdən əvvəl, eylədi göz dustağı,
Beləymiş təqdir əzəldən, çəkdi Ürgənc torpağı,
İndi şükr etməkdən özgə çarəsi yoxdur dəxi,
Dedi yar olsun, Zəlili, həmrahın iman sənin.

YAXŞIDIR

Verimsiz bəylərdən, paxıl baylardan,
Çölə çıxsan, erkək çoban yaxşıdır;
Əli gen, könlü dar, çıxımsız xandan,
İşin düşsə, mərd yolkəsən yaxşıdır.

İgidi yox edər yoxsulluq, dərd həm,
Geyrətsiz igiddən yaxşıdır it həm,
Biqədir qardaşdan qədirli yad həm,
Nadan dostdan aqil düşman yaxşıdır.

Bu dünya malı deb, keçmə yaxşıdan,
İraq otur məhəbbətsiz kişidən,
Müxənnət yoldaşdan, yaman qonşudan,
Yuvaşca ayrılıb, qaçan yaxşıdır.

Bir xəbər gəlibdir aşiqi-zardan,
İtidir nəştərdən, soyuqdur qardan,
Bədəsil xatından, bədniyyət ərdən,
Yiyəsinə sadiq heyvan yaxşıdır.

Zəlili, ölümü unutma qəti,
Ölümdən betərdir kişi minnəti,
Mollalar öyərlər ol qiyaməti,
Qoysalar, bu parlaq cahan yaxşıdır.

BİGANƏ YAXŞI

Bir yaşayan, könlü ayrı qardaşdan,
Şirin söz-söhbətli biganə yaxşı.
Yüz min minnət ilə verilən aşdan
Yesən, bir dad verməz dəhanə yaxşı.

Könül bir quş, qanadları yatanda,
Qayğı artar, qəlb qüssəyə batanda,
Dediyin olmasa, eşqin bitəndə,
Sözləsən, söz gəlməz zəbanə yaxşı.

Düz dəyər hədəfə oxun doğrusu,
Bir mənzilə yetməz yükün əyrisi,
Qırx günə faş olar oba oğrusu,
İgid sadə gərək, türkanə yaxşı.

Əslinə yet, bir söz varsa arada,
Çətin çıxar, peykan qalsa yarada,
Ov yoxsa, ağıllı susar orada,
Vuruşmaq yaraşar nadana yaxşı.

Bilənin yaxşılıq yadından getməz,
Dost dostdan yamanlıq görsə unutmaz,
Olsa bir iş, acizlikdən kar aşmaz,
Olan şey hər işə mərdanə yaxşı.

Zəlili der, gəz dünyanı, ol sərxoş,
Gizlə sirrin, hər namərdə etmə faş,
Əgər əldən gələr-gəlməz hər bir iş,
Görk üçün siyasət düşmana yaxşı.

YAR, SƏNDƏN

Yanaqları laləm, püstə dəhanım,
Mən dönərəm, könlüm dönməz, yar, səndən.
Ruyi-gül bənövşəm, tuti süxənim,
Mən dönərəm, könlüm dönməz, yar, səndən.

Fərhad «Şirin» deyib bunca gəzəndir,
Məcnun Leyli sitəminə dözəndir,
Demə ki, yar məndən əlin üzəndir,
Mən dönərəm, könlüm dönməz, yar, səndən.

Çıxmaq olmaz yaradanın əmrindən,
Adəmzadlar görər biri-birindən,
Ölən aşiq yoxdur məşuq cəbrindən,
Mən dönərəm, könlüm dönməz, yar, səndən.

Bu yalan cahanda sənsən dayancım,
Gövhərim, xəzinəm, mədənim, gəncim.
Məqsədim, muradım, könül güvəncim,
Mən dönərəm, könlüm dönməz, yar, səndən.

Zəlili der, mənim Döndü xanımsan,
Cəsədim içində şirin canımsan,
Əzizim, dayağım, mehribanımsan,
Mən dönərəm, könlüm dönməz, yar, səndən.

BƏLLİDİR

Gələcəyin qoç igidi
Ən kiçik yaşda bəllidir.
Kim sayılır, kim seçilir,
Tay ilə tuşda bəllidir.

Birinə yoldaş olanda,
Dost olub, qardaş olanda,
Yaxşı-yaman iş olanda,
Dostun gənəşdə bəllidir.

Bir neçə adam zənn ilə,
Zənni olar təxmin ilə,
Atı tanıtmaz sinn ilə,
Bədəv yarışda bəllidir.

Çox qoşunun başı sərdar,
Mərd kişidir yaxşı sərdar.
Namərd quru öydə gurlar,
Batır savaşda bəllidir.

Hər kişinin olsa ağlı,
Söz yerində sözlər haqlı,
Uzaq yolda ağır yüklü
Dəvə gedişdə bəllidir.

Eldən iraq çöl ölkədə,
Şir sayar özün tülkü də,
Söz ustası mərəkədə,
Cömərdlər aşda bəllidir.

Zəlili deyər: sərxoşlar
Yorğa minib, yüyən boşlar,
Yiyəsin sevən dərvişlər,
Səhər göz yaşda bəllidir.

YANINDA BƏLLİDİR

Dostlar, artıq söz etmək
Ər yanında bəllidir,
Süfrə açıb, nan tökmək,
Var yanında bəllidir.

Qənim görəndə mərdlər,
Ev içində namərdlər,
Çöldə gəzən ac qurdlar
Şir yanında bəllidir.

Mən söyləyim birbəbir,
Ağacları qurd yeyir.
Gümüş, qalay, mis, dəmir
Zər yanında bəllidir.

Qananlara ver öyüd,
Onları mərd tək böyüt,
Bir təqsirli qoç igid
Ar yanında bəllidir.

Yazda açılar güllər,
Ötər qumru-bülbüllər,
Ziba, nazlı gözəllər
Yar yanında bəllidir.

Zəlili deyər, ya haq,
Bu qərib halıma bax,
Artıq-əskik qalan yük
Nər yanında bəllidir.

CANIMIN CANANƏSİ

Sənsən mənim dilbərim,
Canımın cananəsi,
İki cahan sərvərim,
Könlümün qəmxanəsi.

Üzlərin gül-gülmüdür,
Avazın bülbülmüdür,
Zülflərin sünbülmüdür,
Dişlərin dür danəsi.

İqlim pərizadısan,
Qəmgin könlüm şadısan,
Sən bir eşqin odusan,
Mən fağır pərvanəsi.

Mən bir miskini-gəday,
Sən nazənin, hüsnə bay,
Kirpiyin ox, qaşın yay,
Mən onun nişanəsi.

Cinmisən, ya almısan,
Canıma əcəlmisən,
Günmüsən, ya ləlmisən,
Ey sonalar sonası.

Dostu qıldın biganə,
Ümid verdin düşmana,
Görmək qaldı gümana,
Yamandır zəmanəsi.

Zəlili, ahü zarın,
Dilbərim, Allah yarın,
Biri sorsa «Nə karın?»,
- Bir sənəm divanəsi.

MƏNİ

Yeni başdan oda saldı yar məni,
Eylədi hüsnünə xiridar məni,
Zülfləri tar-tar məni,
Ağlatdı zar-zar məni,
Qaşı kaman, kirpikləri tir məni,
Əgər görsə, qəmzələri yer məni,
Öldürür bu gözləri xunxar məni.

Cahan içrə məni rüsva qılıbdır,
Bu əziz ömrümü qısa qılıbdır,
Mənə cəfa qılıbdır,
Yaxıb, əda qılıbdır,
Qayğı ilə saralıb, gül rəngim solubdur,
Ellərə məşhur edib, indi gözdən salıbdır,
Bu ovsunçu-sehrbaz, siyah saçı mar məni.

İzində qılıbdır yar məni sayə,
Məcnun kimi dəli, tilbə, divanə,
Yarım, gözü məstanə,
Dişi sədəf, dürdanə,
Fələk yardan ayırdı, qıldı məni biganə,
Mən ah çəkib ağlaram, ahım çıxar asmana,
Bu azara qoydu sitəmkar məni.

Yar camalın göstərib odlar saldı bu cana,
Yandırdı qara bağrım, ürəyim döndü qana,
Adı düşdü İrana,
Bəlx, Buxar, Bədəxşana,
Ordan Bağdad, Misirə, Kənana, Rumistana,
Mənim yarım tək pəri gəlməz indi cahana,
Eylədu kuyində şərmsar məni.

Zəlili der, düşdüm yaman sevdaya,
Rəhm etmədi mən tək aciz gədaya,
Qəddi bənzər suraya,
Üzü oxşayır aya,
Bilmirəm niyə düşdü mənim başım bəlaya,
Dad, fəryad, dilbər, dedim, heç yetmədi haraya,
Etdi yaman dərdə giriftar məni.

HALIM PƏRİŞAN

Fərağında sənin, ey sərvi-rəvan,
Olubdur mənim bu halım pərişan,
Ey bivəfa yar,
Verdin çox azar,
Məndə nə günah gördün, ey canan,
Alma zənəxdan,
Zülfü xuraman,
Yandırdın məni,
Öldürdün məni,
Rəhmsiz dildar,
Gözləri xunxar.

Pak nuruna vəch beyza bərkamal,
Ləfzin şəhdi-şəkər, ey sahibcamal,
Bəri gəl, bəri,
Göstər didarı,
Çəkdirmə böylə ah ilə əfğan,
Güldürmə düşman,
Bağrım dolu qan,
Yandırdın məni,
Öldürdün məni,
Rəhmsiz dildar,
Gözləri xunxar.

Məşuq aşiqinə nəzər salmazmı,
Cəfanı az qılsa, rahat olmazmı,
Axdı əşkim gözdən,
Silməsi sizdən,
Çox ümidim var, ey mahi-təban,
Dərdim firavan,
Qoydun çox ərman,
Yandırdın məni,

Öldürdün məni,
Rəhmsiz dildar,
Gözləri xunxar.

Ey eyni-qatil, qəmzəsi xəncər,
Neştərdən iti, bağrıma sancar,
Ey qəddi şümşad,
Ey zülmi-afət,
Müjganların tirdir, gör, əbrun kaman.
Ey püstə dəhan,
Dişləri dürdən,
Yandırdın məni,
Öldürdün məni,
Rəhmsiz dildar,
Gözləri xunxar.

Olmuşam izində dəli-divanə,
Vəsli-vüsalından etmə biganə,
Ərk səndə, can yar,
Mürvət, aman, yar,
Zəlili deyər, ey kərəmli sultan,
Yolunda bu can,
Başım tərcüman,
Yandırdın məni,
Öldürdün məni,
Rəhmsiz dildar,
Gözləri xunxar.

SEYDULLA SEYDİ
(1780 – 1845)

1966-cı liə qədər türkmən ədəbiyyatında Seydulla Seydi adlı bir şairin varlığı bilinmirdi. Məsələ burasındadır ki, tanınmış ədəbiyyatşünas Əbdülhəkim Qulməhəmmədov hələ 1926-cı ildə yazdığı bir kitabda Seydulla Seydi ilə Seyidnəzər Seydini eyni müəllif zənn edərək Seydi imzası daşıyan bütün şeirləri səhvən Seyidnəzər Seydinin adına çıxmışdır. Halbuki Seyidnəzər Seydi Çərçov vilayətində, Seydulla Seydi isə Qarrıqalada anadan olmuşdur. Üstəlik, Seyidnəzər Seydinin 1760, 1768 və ya 1775-ci illərdə doğulduğu təxmin edilir. Seydullanın doğum tarixi tam bilinməsə də, Zəlili ilə yaşıd olduğu, bərabər oxuduğu nəzərə alındıqda o da 1780-cü ildə və ya bir-iki il əvvəl, yaxud sonra anadan olmalıdır. Bu halda iki Seydi arasında coğrafi fərqlə yanaşı 5-20 illik yaş fərqi də meydana çıxır.

Bu məşum səhv 1966-cı ildən sonra məşhur alimlərdən Səfər Axallı, Aşırpur Mərədov və Qurbandurdu Gəldiyevin titiz araşdırmaları nəticəsində düzəldildi. Bu iki şairin əsərlərini həm üsluba, həm tarixi mövzulara, həm də şeirlərdə adı çəkilən şəxslərə görə bir-birindən ayırmaq zərurəti yarandı. Məsələn, Seyidnəzər Seydi Buxara əmirləri, 1801-02-ci illərdə baş verən üsyanlar haqqında yazdığı halda, Seydulla Seydi, təbii olaraq, 1844-45-ci illərdə İranın Türkmənistana hücumundan bəhs etmişdir. Üstəlik, hər şair öz sevgilisinə şeirlər yazmışdır. Zəlilinin Seydullaya, Seydullanın da Zəliliyə xitabən qələmə aldıqları şeirlər də var. Bütün hallarda, bəzi şeirlərin kimə aid olması hələ də mübahisəlidir, bu «bölgü» işi tam və ədalətli şəkildə həll edilmiş deyildir.

QALDI

Fələyin əlindən eylərəm dadı,
On beşdə ox atan bazlarım qaldı,
Gedər oldu can, bədənin qüvvəti,
Bir neçə həvəsli sazlarım qaldı.

Sabah-axşam xəyal edib yatardım,
Xəyalımda çox yerlərə çatardım,
Şikar edib yaxşı tüfəng atardım,
Sonalı, ördəkli qazlarım qaldı.

Heç kim saxlayammaz gələn qəzanı,
Əvvəl başdan bizə təqdir yazanı.
Bilməm nə vaxt gələr ömrün xəzanı,
Gül açılan bahar-yazlarım qaldı.

Çox qayğı, əndişə gəlibdir sərə,
Vaxtı çatan adam gedəcək yerə,
Seyran edib çıxmaz oldum çöllərə,
Laləzar, çəmənli düzlərim qaldı.

Fələyin əlindən gəlib mən dada,
Qəmdən qurtulmadım yalan dünyada.
Şad olmadım, düşdüm ayrılıq, oda,
Giryanın içində gözlərim qaldı.

Seydi deyər, dünya bir quru addır,
Burda kimi ağlar, kimsələr şaddır,
Fəhm eylədim, bunun sonu bərbaddır,
Karvan çıxıb getdi, özlərim qaldı.

QALMAZ

Bahar mövsümü ötəndə
Dağ başında sellər qalmaz.
Xəzan vaxtına yetəndə,
Tər açılan güllər qalmaz.

Əcəl quşu edər cövlan,
Geri gəlməz ora varan.
Özünü dağ, pəlvan sanan
Şirü pələng, fillər qalmaz.

Nəfsi-şeytan ağlı alar,
Hər kəsi bir hala salar,
Vaxtı yetsə, hər kəs ölər,
Qohum-qardaş, ellər qalmaz.

Qulaq verin siz bu sözə,
Ölüm baxmaz çoxa, aza,
Şirin can gəlsə boğaza,
Danışmağa dillər qalmaz.

Yalan bilsək də dünyanı,
Amanatdır verən canı,
Ölüm bilməz şeyx, işanı,
Haqqa yaxın qullar qalmaz.

Kəndirbazdır bu dövranlar,
Qərib ölər, qalmaz xanlar,
Qarı olar şux zənanlar,
Xub qucmalı bellər qalmaz.

Seydi deyər sözü doğru,
Tutarlar yaman dəsturu,
Ol İsrafil çalsa suru,
Bütün canlar, ellər qalmaz.

QƏNİMƏT

Bəyan etsəm bu dünyanın halını,
Dünyaya gəldinsə, dövran qənimət.
Yaxşı-yaman, əyri-doğru yolunu,
Hər birindən bir az görən qənimət.

Bu dünya, bilginən, qatıdır daşdan,
Ömrü rəndələyər yaz ilə qışdan,
Nəfsi daşsa, alar ağlını başdan,
O nəfsi-şeytanı vuran qənimət.

Qəlbini fərəh tut, əyilmə özün,
Olara-olmaza uzatma sözün,
On iki əndamın, o iki gözün,
Bu nurlu cahanı görən qənimət.

Gördüm bu dünyada yaxşı-yamanı,
Pozar şəriəti qazısı, xanı,
Dörd pula satırlar dini, imanı,
Allahı yad edib gedən qənimət.

Zalımıar dünyanın varın alıbdır,
Bəd iş rəvac tapıb, xeyir qalıbdır,
Bəlkə qiyamətə lap az qalıbdır,
Qərib üçün sinə gərən qənimət.

Seydi der, düşməni qoyma vətəndə,
Kim ölsə, ad qalar burdan gedəndə,
Səksənindən doxsan yaşa yetəndə,
Fanidən baqiyə varan qənimət.

ÇOXALDI

Ey yaranlar, bu zamanda,
Eldə gubar, gərd çoxaldı.
Zərrə insaf yox yamanda,
Zalım, cəbərrüd çoxaldı.

Yad etməyən axirəti,
Dadarlar haram ləzzəti,
Dünya üçün andı, şərti,
Fərqin bilməz mərd çoxaldı.

Dünya bir caddə, bir küçə,
Əlamətlər gəldi neçə,
Halal yeyən yetsə üçə,
Haram yeyən dörd çoxaldı.

Cahillərin könlü azdı,
Haqq işi nahaqqa yazdı,
Türkmənin də feli azdı,
Zalım xanlı yurd çoxaldı.

Seydi der, baxın bu yola,
Qulaq verin ərzi-hala,
El bənzəyər qoyun-mala,
Onu yeyən qurd çoxaldı.

XARAB EDƏR

Bir qəhrəman alp igidi
Axır hiylə xarab edər,
Çıra yanmaz göy üzündə,
Dəysə, güllə xarab edər.

Bacarsan, mərd ilə barış,
Namərdlərdən çıxmaz bir iş,
Nəri yürüş, atı yarış,
Uzaq pillə[1] xarab edər.

Almaq üçün el gəzir pir,
İldən-ilə nəfs güclənir.
Hər yetən sofuyam deyir,
Onu səllə[2] xarab edər.

Təbibi gəlməsə, naçar
Necə şəfa tapsın bimar?
Xəstə qalıb biixtiyar,
Ağı ilə xarab edər.

Yaxşının olmaz hörməti,
Yamanın artar qüvvəti,
Seydi deyər, şəriəti
Neçı molla xarab edər.

---

[1] Pillə - mənzil.
[2] Səllə - əmmamə, sarıq, çalma.

XƏDİCƏ

Qoymaz rəqib görüşünə gəlməyə,
Gözəllər gözəli, sultan Xədicə.
Bir gün güllü dəsmal içində güzgü,
Oldum sən tərəfə rəvan, Xədicə.

Gizli dərddən səni eyləsəm hali,
Bilənlər aşiq der, bilməyən dəli,
Güzhüyə bax, götür güllü dəsmalı,
Olsun mən qəribdən nişan, Xədicə.

Dərdim çoxdur, mənə təbib tuş gəlməz,
Könlüm gəmgin, dünya sözü xoş gəlməz,
Hicran oxu doğru gələr, dış gəlməz,
Sancılar bağrıma peykan, Xədicə.

Fələk məni dərdə ulaşdırıbdır,
Basıb qəm zığına, bulaşdırıbdır,
Alıbdır ağlımı, üləşdiribdir,
Mən bilmirəm xeyir-ziyan, Xədicə.

Ah etdim, ağzımdan çıxan od oldu,
Dost üzün döndərib bizdən yad oldu,
Əhli-düşmən alqışladı, şad oldu,
Mənə rəqib oldu cahan, Xədicə.

Sənin tək nazənin cahana gəlməz,
Görsəm gözüm doymaz, könlüm ayrılmaz,
Yanaşanda sənin ilə tay olmaz
Səksən qız, səksən min cüvan, Xədicə.

Bu necə sirr oldu, bilə bilmədim,
Ölüm fikrin tutdum, ölə bilmədim.

Heyif, cəfa çəkdim, ala bilmədim,
Çox qaldı canımda ərman, Xədica.

Seydi der, qoy dərim qönçə gülün mən,
Əmib sorum ləblərindən balın mən,
Xidmətində qolu bağlı qulun mən,
Qoy olum başına qurban, Xədicə.

TUMAR XƏDİCƏ

Gözün qara, qaşın qara,
Zülflərin tumar Xədicə,
Ürəyimə saldın yara,
Elədin timar, Xədicə.

Gözünə sürmə yaraşar,
Belinə tirmə yaraşar,
Saçına hörmə yaraşar,
Saçları hamar Xədicə.

Bağrında tuti-qumrular,
İzində cahil-cümrülər,
Köksündə qoşa yumrular,
Almadırmi, nar, Xədicə?

Seydi deyər, bu şərtlərə,
Qoyma tükənməz dərdlərə,
Gəldik qədimki yurdlara,
Sürəlim dövran, Xədicə.

YERLƏRİM

Dostlar, bu gün görüb yadıma düşdü,
«Yar, yar» deyə Məcnun olan yerlərim.
Gündüz oturmadan, gecə yatmadan,
Cövrü-cəfalara qalan yerlərim.

Yar həm mənə baxar, mən həm ol yara,
Gündüz sirrim gecə etsəm aşkara,
Üz tutub, yalvarıb pərvərdigara,
Xədicəni haqdan soran yerlərim.

Dəli olub, düşdüm xalqın gözündən,
Biz-biz oldum münkirlərin sözündən,
Xədicənin reyhan qoxan üzündən,
Qorxa-qorxa busə alan yerlərim.

Ceyran atım mindim, vaxtım çağlayıb,
Sinəm üstün çalın-çarpaz dağlayıb,
Gündüz yardan ayrı düşüb, ağlayıb,
Gecələr qovuşub gülən yerlərim.

Qucaqlaşıb, qol boyuna salışıb,
Ləb üstə ləb qoyub busə alışıb,
Öpüşüb, qucuşub, deyib, gülüşüb,
Zövqi-səfaları sürən yerlərim.

Eşqin qazanında ətim qovurub,
Od edib, kül edib, yelə sovurub,
Bu Seydini Xədicədən ayırıb,
Çərxi-fələk bağrım dələn yerlərim.

ƏBDÜRRƏHİM ZİNHARİ
(1771 – 1880)

Əbdürrəhim Zinhari 1791-ci ildə Çərcev vilayətinin Xalac qəzasındakı Əsənmənli kəndində dünyaya gəlmişdir. Bəzi əsərlərində Xəllaci təxəllüsündən istifadə etmişdir. Ömrü boyu öz kəndində yaşamış, 1880-ci ildə dünyaya gözlərini yummuşdur. O, türkmənlərin ərsarı boyunun bəylər tayfasına mənsubdur. Şairin törəmələri indi də həmin kənddə yaşayırlar.

Əbdürrəhimin əsil peşəsi dəmirçilik olmuşdur. Buna görə də kənd camaatı ona «Dəmirçı Rəhim» demişdir. Tüfəng düzəltməyə qədər hər növ dəmir işi ilə uğraşmışdır. Şairin öz kəndlərindəki məktəbdə oxuduğu, lakin ailəsinin maddi vəziyyəti üzündən mədrəsə təhsili ala bilmədiyi bilinir. Ağır həyat şərtlərinə görə o özünə Zinhari təxəllüsünü seçmişdir.

Zinharinin şeirləri əsasən əxlaq, öyüd, xitab və didaktik səciyyə daşıyır. O, islam dinini şəxsi qazanc mənbəyinə çevirən bəzi din xadimlərini, molla və qazıları da tənqid etmişdir.

İctimai məzmunlu əsərlərlə yanaşı dini şeirlər də yazan şair eyni zamanda lirik və axıcı məhəbbət şeirləri də qələmə almışdır. Əldə olan məlumata görə, Zinharinin əsərlərinin böyük bir qismi XIX əsrdə baş verən qanlı savaşlar və yağmalanmalar zamanı itib batmış, şairin öz əli ilə yazılmış bir qismi isə stalinizm illərində məhv edilmişdir. Ona görə də onun zəngin poetik irsinin az bir hissəsi bizə gəlib çatmışdır.

YAXIN GƏLƏNDƏ

Neçə əlamətlər olar,
Qiyamət yaxın gələndə.
Bəd işlər dünyaya dolar,
Qiyamət yaxın gələndə.

Ədaləti pozar xanlar,
Kəsilər xeyir-ehsanlar,
Çox tökülər haqsız qanlar,
Qiyamət yaxın gələndə.

Keçər neçə ərlər, mərdlər,
İlbəildən artar dərdlər,
Çoxalar and ilə şərtlər,
Qiyamət yaxın gələndə.

El yönələr haram yerə,
Fırıldaqçı bənzər pirə,
Tülkülər də dönər şirə,
Qiyamət yaxın gələndə.

Bu il ötən ildən betər,
Yaxşılıqlar əldən gedər,
Qəriblərə sitəm yetər,
Qiyamət yaxın gələndə.

Zinhari, yox imana,
Rəvac veriblər yamana,
Əməl etməzlər Qurana,
Qiyamət yaxın gələndə.

OLSA

O igidə mehman gələr,
Əlində çoxlu pul olsa,
Hər kəs onu yaxşı bilər,
Xoşsöhbət, şirindil olsa.

Hər kəsə bir dövran yetər,
Kim qəribdir, halı betər,
Fəqir saya gəlməz, gedər
Gücü, qüvvəti fil olsa.

Yaxşı adam fisqə getməz,
Yaman ayıb açar, örtməz,
İpək, atlas baha etməz,
Əriş-arğacı qıl olsa.

Bu dünyada neçə iş var,
Kimi halal, kimi murdar,
Ol xatının bəxti yatar,
Ərdən ayrılıb dul olsa.

Qəza yosa, adam ölməz,
Ömür keçər, qafil bilməz,
Ölən gedər, geri gəlməz,
Yanıb yerində kül olsa.

Zinhari sözdə xam qoymaz,
Aqil adam ömrün saymaz,
Bu dünyanı görən doymaz,
Yaşı neçə yüz il olsa.

NOLUR?

Nazlı dilbər, yerə baxma,
Bir şad olub qalsan nolur,
Dərdli canı oda yaxma,
Sözə qulaq assan nolur?

Ayrıldım səbrü qərardan,
Getdim tamam ixtiyardan,
Ümidim var qoşa nardan,
Sinən bəndin bölsən nolur?

Dişlərin əcəb dürdanə,
Odlar saldın şirin cana,
Bənzədim sanki Məcnuna,
Sən də Leyli olsan nolur?

Könlümdə var yüz xəyalım,
Yolundadır başım, malım,
Gecə-gündüz xarab halım,
Bir söz xəbər alsan nolur?

Rəhm eylə sən mən gədaya,
Gül ömrümü vermə zaya,
Dönüb şahinə, humaya
Bir qoluma qonsan nolur?

Aşiqlərin odu məndə,
Arzuların dadı səndə,
Olam gül üzünə bəndə,
Bircə dəfə gülsən nolur?

Zinhari der, çəkdim zarı,
Görməyə möhtac dildarı,
Mən istəməm özgə yarı,
İxlasımı bilsən nolur?

YAXŞIDIR

Bir yaxşı xatının desəm vəsfini,
Əzəl başdan ağıl-huşu yaxşıdır.
Diqqət edən görsən edən kəsbini,
Sərəncamlı olan qoşu[1] yaxşıdır.

Ürgənç almasına bənzər yanağı,
Qaşları kamandır, badam qabağı,
Çaki-zənəxdandır qızıl dodağı,
Gövhərdən düzülən dişi yaxşıdır.

Şüm rəqibdən uzaq saxlar özünü,
Naməhrəmdən pünhan tutar üzüni,
Nə sağa, nə sola dikməz gözünü,
Hər dilbərdən gözü, qaşı yaxşıdır.

Sallananda, rəvan olar yolları,
Tər xına yaraşan nazik qolları,
Ləb uzadıb, sormalıdır balları,
İncə beli, boyun, başı yaxşıdır.

Tər xatının nazları həm im[2] olar,
Üzlərində burçaq-burçaq nəm olar,
Hər bir sözü neçə dərdə əm[3] olar,
Pünhanda sirləri, dışı yaxşıdır.

Sözləşəndə, könlüm sirrini bilər,
Hər cavab verəndə qımışıb gülər,
Təamından qəndin məzəsi gələr,
Bişirən neməti, aşı yaxşıdır.

---

[1] Qoş – ev müxəlləfatı, əşya, cehiz.
[2] İm – işarə.
[3] Əm – dərman.

Üzü bənzər qan səpilən qarlara,
Çox adam yetişməz belə yarlara,
Yanaqları bənzər alma-narlara,
Nazəninin xoş baxışı yaxşıdır.

Min tümənlik olar hər bir nazları,
Vaxtını xoş edər qışü yazları,
Düzgün olar öylərinin sazları,
Elədiyi hər bir işi yaxşıdır.

Zinhari der, olsa əlində zəri,
O olar dünyanın zinətli əri,
Hər igidin olsa yaxşı dilbəri,
Bilsən, onun ömrü, yaşı yaxşıdır.

DÜNYA

Dost olub neçə al ilə,
Gələn dünya, gələn dünya!
Axmaq qəlbə bəd fel ilə,
Dolan dünya, dolan dünya!

Vədə verib, tez unudan,
Səni sevən olar peşman,
Əvvəldən adama düşman
Olan dünya, olan dünya!

Hər adama göz yetirib,
Qəlbə yüz xəyal gətirib,
Qara torpağa ötürüb,
Qalan dünya, qalan dünya!

Səni yaxşı bilən deyər,
Dürlü məlaməti geyər,
Axmaq adam səni sevər,
Yalan dünya, yalan dünya!

Bilənə sən köhnə dükan,
Səndə yoxdur bəlli məkan,
Şəddadı bağa qoymayan,
Alan dünya, alan dünya!

Hər qəlbə saldın təşvişi.
Səni sevər namərd kişi,
Adəmzada hər bir işi
Salan dünya, salan dünya!

Zinhari der, dünya atdır,
Elə bilmə farağatdır,
Bunun axırı bərbaddır,
Talan dünya, talan dünya!

İZLƏRİNDƏN

Dolansın dünya gözəli,
Basıb gedən izlərindən!
Bahan etməz, versə pulu,
Çox ədəbli qızlarından.

Müjganların candan ötür,
Səndən mana sitəm yetir,
Gəl, indi niqabın götür,
Zənəxdanlı üzlərindən!

Bunca incitmə bu canı,
Sənsən gözəllərin xanı,
Müjgan-tiğin tökər qanı,
Qara qaşlı gözlərindən.

Səhər gəlsən gülə-gülə,
Seyr edəlim bağı belə,
Avazın bənzər bülbülə,
Tuti kimi sözələrindən.

Zinhari der, dedim sözü,
Bunca yandırma gəl bizi,
Min gözələ verməm sizi,
Yüz işvəndən-nazlarından.

BUXARDADIR

Hər şəhərdən tüccar gələr,
Saray-saray dolub qalar,
Malgirləri bacın alar,
Gündə mehman Buxardadır.

Sözlənər əmir pəyamı,
Bəyləri verər salamı,
Mollası oxur kəlamı,
Üləmalar Buxardadır.

Bağlarında bitər qönçə,
Dükanları satar parça,
Tərib etsəm incə-incə,
Bağü bostan Buxardadır.

Rəisi alar salamı,
Əlində dəftər-qələmi,
Ayırar halal-haramı,
Qazı-hakim Buxardadır.

Sağında məscidi-kəlan,
Müəzzinlər deyər əzan,
Şəriətdən eylər bəyan,
Mələiklər Buxardadır.

Üzləri aydan da duru,
Özləridir cənnət gülü,
Yanağında bitər balı,
Nazəninlər Buxardadı.

Zınharidir, deyər, ötər,
Bir sövdadır, bəlkə udar,
Ucuz alıb, baha satar,
Nainsaflar Buxardadır.

HARDA QOYDUN?

Rəşid sofu, sayma sözümü acı,
Söylə, araxçını sən harda qoydun?
Neçə illər oldı başının tacı,
Söylə, araxçını sən harda qoydun?

Günbəgündən cövhər açıbdır dışı,
Ata-babaların sirri, sirdaşı,
Hesab etsən, səndən uludur yaşı,
Söylə, araxçını sən harda qoydun?

Neçə illər geyib, könül xoşladın,
Yaz vaxtı yazladın, qışda qışladın,
Baba mirasını niyə dışladın?
Söylə, araxçını sən harda qoydun?

Sona kimi ləlekləri tellidir,
Başa geysən, saçaqları yellidir,
Külli söyünxana özü bəllidir,
Söylə, araxçını sən harda qoydun?

Yalanı yox, budur sözün qısası,
Onu deyən olar günahkar, asi,
O, həzrəti çaharyarın libası,
Söylə, araxçını sən harda qoydun?

Əslini sorarsan behişt bağında,
Naxışlar təpədə, həm qırağında,
Musa ilə birlikdə Tur dağında,
Söylə, araxçını sən harda qoydun?

Bu sözün bir zərrə yoxdur qiyməti,
Quzusu Bağdadi, ana- Herati,

İsmayıla enən qoçlar züryəti,
Söylə, araxçını sən harda qoydun?

Cəbrayıl cənnətdən toxmun gətirən,
Haqa zikri-sənasını yetirən,
Nuh, Davud, ol Süleymana ötürən,
Söylə, araxçını sən harda qoydun?

Zinhari der, sözüm eşit, binəva,
Saxlasan, olardı dərdinə dəva,
Əvvəl sərpay gəldi Adəmə Həvva,
Söylə, araxçını sən harda qoydun?

MOLLA NƏFƏS
(1810 – 1862)

Molla Nəfəsin həyatı haqqında məlumat olduqca azdır. Şairin 1810-cu ildə Marıda (Mərv) təkə türkmənlərinin yazı, başqa bir məlumata görə, toxtamış tayfasına mənsub Qədirverdi adlı bir sərracın ailəsində dünyaya gəldiyi təxmin edilir. Molla Nəfəs ilk təhsilini evdə atasından, sonra Mərvin məşhur pedaqoqlarından olan Molla Məmmədsalihdən almışdır. Daha sonra Buxarada və Xivədə mədrəsədə oxumuş, çağatay, ərəb və fars dilləri ilə yanaşı həmin dövrdə tədris olunan elmləri, o cümlədən ilahiyyat (Quran, fiqh, təfsir), riyaziyyat, həndəsə, hesab, nücum, kimya, dil, ədədbiyyat, tarix, coğrafiya sahəsində dərin bilik əldə etmişdir. Şair Şərq poeziyasının Xoca Əhməd Yəsəvi, Füzuli, Nəsimi, Nəvai, Yunus İmrə, Nizami, Sədi, Hafiz, Cami kimi nümayəndələrinin əsərlərini, türkmən şairlərindən Əndəlibin, Azadinin və Məxdumqulunun şeirlərini, - habelə şifahi xalq ədəbiyyatını, dastan və nağılları diqqətlə öyrənmiş, ədəbiyyat nəzəriyyəsini, bədii ifadə vasitələrini, ədəbi janrların növlərini, bir sözlə, Şərq poetik sistemini mükəmməl şəkildə mənimsəmiş, ilk əsərlərini də elə burada yazmağa başlamışdır.

Təhsilini başa vuran Molla Nəfəs oz doğma yurduna qayıtmış, burada ailə qurmuşdur. Onun Molla Rəsul və Molla Rəhim adlı iki oğlu olmuşdur. Molla Nəfəsin nəslinin davamını kişi xəttilə 1940-cı illərin sonuna qədər izləmək mümkün olsa da, ikinci dünya müharibəsi dövründə baş verən aclıq və qıtlıq, həmin illərdə bölgədə tüğyan edən qarın yatalağı epidemiyası nəticəsində tükəndiyi təxmin edilir.

Maraqlıdır ki, Molla Nəfəslə onun dahi sələfi Məxdumqulu Fəraqinin ədəbi taleyi arasında böyük bənzərlik vardır. Onların hər ikisi əvvəlcə evdə öz atalarından dərs almış, sonra mollaxanada, daha sonra isə Buxara və Xivə mədrəsələrində oxumuşlar. Zaman etibarilə aralarındakı yetmiş illik fərqə baxmayaraq təxminən eyni proqram üzrə təhsil almış, eyni elmi və ədəbi məktəblərdə, eyni mənəvi iqlimdə və mühitdə nəşvi-nüma tapmışlar. Bu oxşarlıq onların yaradıcılığında da özünü biruzə verir. Xüsusilə üç mövzu hər iki sənətkara çox doğma və əzizdir: türkmən birliyi, dini-ruhani şeirlər və lirika. Onu da vurğulamaq lazımdır ki, Molla Nəfəs məhz Məxdumqulunun davamçısıdır. Mövzu və janr baxımından Məxdumqulu daha geniş və əhatəli olduğu halda, Molla Nəfəsin yaradıcılığında lirika üstünlük təşkil edir. Onun məhəbbət şeirləri saf və göz yaşı kimi dumduru bir çeşməni andırır. Bu əsərlər sadə, incə, həzin və səmimidir, mayasını və qidasını xalq yaradıcılığından, doğma türkmən folklorundan alır. Şairin gəraylı, qoşma, qəzəl, müxəmməs, müsəddəs janrlarında qələmə aldığı əsərlər, xüsusilə türkmən qızının fiziki və mənəvi gözəlliyini, saf eşqi, məhəbbəti vəsf edən «Dəlbəra», «Nazənin», «Gözlərin», «Ayrıldım», «Ola, ya olmaya», «İstəyib gözəl yarı», «Gözəl», «Kiçginə», «Tapılmaz», «Dilbər», «Qız», «Dedim-dedi» və digər şeirləri öz ülviliyi ilə seçilir.

Molla Nəfəsin «Bu məkana gəlmişəm» adlı poeması isə öz orijinallığına görə dünya poeziyasında misli-bərabəri olmayan bir şedevrdir. Bu əsərdə eşq ən yüksək poetik səviyyədə ülviləşdirilmiş, hətta ilahiləşdirilmişdir. Şairin lirikasının zirvəsi olan bu əsər müsəddəs janrında aaaaba, ccccda, ssssta sxemi üzrə yazılan poema altı misralıq 34 bənddən ibarətdir. Sərbəst olan hər beşinci misra iki yerə bölünərək öz arasında qafiyələnir ki, bu da gözəl bir şeiriyyət yaradır. Məhəbbət himni adlandırılan bu poemanın aşağıdakı xüsusiyyətlərini qeyd etmək mümkündür:

1. Poema qəhrəmanlarının böyük əksəriyyəti dini obrazlardır. Onların arasında Allahı (əsərdə başqa adları ilə – Mövlam, Rəhman, Mürtəza pirim adları ilə də yad edilir), mələkləri (Cəbrayıl və Əzrayıl), peyğəmbərləri (İbrahim, Xıdır, İlyas, Davud, İsa, Yəqub, Əyyub, Loğman, Yusif, Süleyman, sahib-axır-əz-zaman Mehdi), fəriştələri (adbaad göstərilməsə də) görürük;

2. Poemanın bəzi personajları islam dininə mənsub tarixi şəxsiyyətlərdir. Burada Məhəmməd peyğəmbəri (əsərdə Əmin adı ilə verilir), onun dörd əshabəsindən üçü (Ömər, Osman, Əli) və ardıcılı Veysəl Qərani, böyük mütəsəvvif şair Xoca Əhməd Yəsəvi iştirak edirlər;

3. Bunlardan başqa, poemada bəzi mifik, əfsanəvi və tarixi şəxsiyyətlərin, o cümlədən dində böyük yeri olan 360 ərənin, Süleymanın arvadı Bilqeysin, Yusifin sevgilisi Züleyxanın, Məcnunun və Fərhadın, Harunun və Hatəm Tainin adları çəkilir.

Molla Nəfəsin vətəndaşlıq, vətənpərvərlik şeirləri də öz milli ruhuna görə diqqəti cəlb edir. Həmin dövrdə Türkmənistanı, eləcə də bütün Türküstanı istila etməyə çalışan çar Rusiyasına, ara-sıra baş verən İran hücumlarına qarşı mübarizədə öz sazı-sözü, hətta silahıyla iştirak edən Molla Nəfəsin belə vuruşmaların birində yaralanaraq şəhid olduğu barədə rəvayətlər də vardır. O, ana vətəni, yurdu igidliklə qoruyan türkmən sərkərdələrinin, xanlarının, bəylərinin rəşadətini tərənnüm etmiş, döyüşçüləri qələbəyə ruhlandırmışdır. Bunların arasında «Yetişsin», «Sərdarı», «Bərqərar olsun», «Qaraoğlan», «Gələn Qaraoğlan», «Gəldi», «Bəylər», «Deyim», «Sutnanıdır» şeirləri öz mübariz ruhu ilə fərqlənir.

Molla Nəfəs tanınmış sənətkar kimi Orta Asiyanın və Qafqazın bir çox şəhərlərində olmuş, yerli şairlərlə, aşıqlarla, sənət adamları ilə görüşmüş, toylar və məclislər keçirmişdir. Onun əsərlərində Çərcov, Səraxs, Murqala, Mürqab, Marı-Şahi-cahan, Ürgənc, Səmərqənd, Buxara, Əndican, Xarəzm, Qən-

dəhar, Kabil, Herat, Astarabad, Həmədan, İsfahan, Xorasan, Tehran, Qəzvin, Şam, Bağdad şəhərlərinin, hətta Misir, İraq, Rum, Firəng ölkələrinin adı çəkilir. Təbii ki, bu coğrafi məkanların bir qisminin adı poetik ehtiyaca görə zikr edilmişdir. Lakin onun Azərbaycanda olduğu heç bir şübhə doğurmur. Şair bir şeirində yazır:

Təvriz diyarında olmuşam səyyad,
Həzirbaycan şəhrin gəzdim adbaad.

Şairin ictimai-siyasi məzmunlu şeirləri sayca o qədər çox olmasa da, məzmunca dərin və dəyərlidir. Bu əsərlərdə haqsızlığa, ədalətsizliyə qarşı etiraz, dünyanın gərdişindən şikayət motivləri güclüdür. Onun «Nər kimi gəz», «Gəlmişəm», «Xəbər ver», «Ayrıldım», «Var ikən», «Olar», «Vəqtidir», «Baş olar» adlı şeirlərində sosial motivlər güclüdür.

Molla Nəfəsin yaradıcılığında dini şeirlər də mühüm yer tutur. Şairin Allaha, Məhəmməd peyğəmbərə həsr olunmuş «Edən cəlil», «Gördüm», «Məhəmməd», «Fəda eylədi» kimi şeirləri diqqəti cəlb edir.

Sovet dövründə Molla Nəfəsin yaradıcılığı öz həqiqi qiymətini almamışdır. Onun ilk şeirlər kitabı yalnız 1940-cı ildə (cəmisi 27 şeir) nəşr edilmişdir. 1947-ci ildə çapdan çıxan kitabında 75 şeir, 1955-ci ildə buraxılan kitabında isə vur-tut 70 şeir verilmişdir. 1961, 1962, 1963 və 1973-cü illərdə də nəşr olunan kitablara şairin ədəbi irsinin sovet ideologiyası ilə «səsləşən» kiçik bir qismi daxil edilmişdir.

Molla Nəfəsin zəngin irsində «Zöhrə-Tahir» dastanı xüsusi yer tutur. Bu əsər Molla Nəfəs tərəfindən tamamilə yenidən işlənərək orijinal bir hala gətirilmiş, türkmən həyatının, ruhunun, mədəniyyətinin və etnoqrafiyasının ensiklopediyası səviyyəsinə çatdırılmışdır. Molla Nəfəs dastanı tam bir zərgər dəqiqliyi ilə cilalamış, onun süjetini, qəhrəmanlarının xarakterini təkmilləşdirmiş, şeirlərini yenidən yazmışdır. Buna görə də Molla Nəfəs dedikdə ilk növbədə «Zöhrə-Tahir» dastanı, «Zöhrə-Tahir» dastanı dedikdə isə Molla Nəfəs yada düşür.

Türkmən xalqı 2010-cu ildə öz Molla Nəfəsin 200 illik yubileyini böyük təntənə ilə qeyd etdi. Bu münasibətilə bir-birindən maraqlı tədbirlər təşkil edildi. Türkmənistan Elmlər Akademiyası Marı vilayətinin icra hakimiyyəti ilə birlikdə 7-10 aprel 2010-cu ildə Marıda «Molla Nəfəs və XIX əsrdə türkmənlərin həyatı» mövzusunda beynəlxalq elmi konfrans keçirdi.

Molla Nəfəsin anadan olmasının 200 illiyi münasibətilə bu sətirlərin müəllifi şairin iki kitabını (Bu məkana gəlmişəm. Bakı, 2010, 160 s. və Seçilmiş əsərləri. Bakı, 2010, 240 s.) Azərbaycan dilində nəşr etdirdi. Onu da qeyd etmək lazımdır ki, əvvəllər ölkəmizdə şairin bəzi şeirləri çap olunsa da, bu, Molla Nəfəsin Azərbaycanda nəşr edilən ilk kitablarıdır.

NƏR KİMİ GƏZ

Könlüm, sənə nəsihət: gəzsən sərbəsər gəz sən,
Tanı dostu, düşməni, öylə baxəbər gəz sən,
Yağı ilə yol getsən, daim səfərbər gəz sən,
Gəzsən dünya üzündə, müdam təzə-tər gəz sən.
Qırx il maya tək gəzmə, bir il nər kimi gəz sən.

İki adam vuruşsa, çalış buna yol vermə,
Birisinə gap verib, o birnə al vermə,
Əvvəl adamdan qaçma, qaçsan əsla əl vermə,
«Can ağa, özün bil» de, hər nakəsə yalvarma,
Qırx il maya tək gəzmə, bir il nər kimi gəz sən.

Nəfəs deyər kəm durma tay-tuşundan, dost-yardan,
Pul tapmasan, borc alma nakəsdən, sələmxordan,
Hər dinəndə, qəm basar, könlün dolar qubardan,
Doğmaz doxsan dörd ildə, boğaz olsa ər ərdən,
Qırx il maya tək gəzmə, bir il nər kimi gəz sən.

ARZU EYLƏR

Könlüm quşu qanad çalıb,
Uçsam deyib, arzu eylər.
Qızıl cama şərab süzüb,
İçsəm deyib, arzu eylər.

Bülbül könlü xoş gülündən,
Cömərd könlü çağ elindən,
Nazlı yarın ol belindən
Qucsam deyib, arzu eylər.

Qalar qızlar, könül çağlar,
Müdam ağlar, ürək dağlar,
Dəli könül qanad bağlar,
Uçsam deyib, arzu eylər.

Çöllər gəzsəm İlyas kimi,
Dağlar gəzsəm Kavus kimi,
Atəş içrə kaknus kimi
Bişsəm deyib, arzu eylər.

Burdan varsam Hindistana,
Ya üz tutsam Dağıstana,
Şəhri-Bulğar, Rumistana
Aşsam deyib, arzu eylər.

Mən çıxsam Məcnun dağına,
Girsəm ol İrəm bağına,
Nazlı yarın qucağına
Düşsəm deyib, arzu eylər.

Coşsam, dostlar, mən ümman tək,
Dünyanı tutsam duman tək,
Nəfəs deyər, ol taban tək
Batsam deyib, arzu eylər.

BİR YANA

Tiği-peykanın gəzləyir,
Qaş bir yana, göz bir yana,
Dəhanın açıb sözləyir,
Dür bir yana, söz bir yana,

Xəzan ayrılmaz gülümdən,
Bir qəzəl yazdım dilimdən,
Yaşılbaş uçdu gölümdən,
Su bir yana, qaz bir yana.

Sevdiyim qız sanki quşdu,
Birbaş rəqiblərə uçdu,
Bir səbəbdən ayrı düşdü
Yar bir yana, biz bir yana.

Bəzənib canım alarlar,
Görənlər heyran qalarlar,
Cilvə edib sallanarlar,
Yar bir yana, qız bir yana.

Qulaq verin ahu-zara,
Söyləsin Nəfəs biçara,
Etdi bağrımı səd para,
Tiğ bir yana, tiz bir yana.

FƏRAĞINDAN

Dilbər, yazım vəsfini,
Yandım ki fərağından.
Mən təşnəni yandırma,
Busə ver dodağından.

Yar qaməti ərərdir,
Rüxsarı onun zərdir,
Aləm ki münəvvərdir,
Köksündəki ağından.

Firqət işığın yapsam,
Rəhmətdə vüsal tapsam,
Gəhi gözündən öpsəm,
Gəh alma yanağından.

Bağlara qılıb seyran,
Ağlımı edib heyran,
Zülfün olub iki yan
Şirmayı darağından.

Eşqində yanan qulam,
Özgəyə nəzər salmam,
Tər qönçədə bülbüləm,
Yar, qovlama bağından.

Çün aşiqi-məstanam,
Ləlin meyindən qanam,
Həm başına qurbanam,
Həm qaşi-qabağından.

Məstanə Nəfəs hər dəm
Özünə dilər həmdəm,
Tozun gözümə sürtəm,
Gər çıxsa ayağından.

İLƏ

Tuti təkəllüm bir pəri,
Sözlər şəkər xarı ilə.
Könlüm quşun bənd eyləmiş
Zülfünün bir tarı ilə.

Gözə görünsə gül üzü,
Otursa gecə-gündüzü,
Yar gəlsə tənha bir özü,
Gəlməsə əğyarı ilə.

Müşkin saçın eylər düyün,
Halımı eyləyib zəbun,
Razıyam, öldürsə bu gün
Qoynundakı narı ilə.

Bəh-bəh, əcaib simi-tən,
Odur məni Məcnun edən,
Ağlıqda bəhs eylər bədən
Qırx çillənin qarı ilə.

Hər kim özün ram eyləyir,
Sübhün onun şam eyləyir,
Kafiri islam eyləyir
İzhari-göftarı ilə.

Gəh sarmaşıq tək sarmaşıb,
Gəh öpüşüb, gəh oynaşıb,
Molla Nəfəs der, yanaşıb,
Otursa öz yarı ilə.

QALAR

Bağ içinə yar sallanıb girəndə,
Bülbüllər ötüşməz, heyrana qalar.
Gəşt edib, sərçəmən üzrə gəzəndə,
Qanaddan ayrılar, pərvanə qalar.

Ay nurdan ayrılar, gün göydən uçar,
Ulduzlar qərarsız dörd yana köçər,
Saqi mey gətirər, ərənlər içər,
Onlar ah çəkərlər, zəmanə qalar.

Şahlar yata bilməz, arzuda gəzər,
Ölü balıq görsə, canlanıb üzər,
Qolu bağlı qullar zəncirin üzər,
Sözləməz yüz düşsə, divanə qalar.

Gülüb baxsa, ol yaşlılar şadlanar,
Ötən günlər, igid çağlar yadlanar,
Göy otlar saralıb, dərəxt odlanar,
Asman cünbüş eylər, lərzanə qalar.

Nəfəs, təriflədin yarın camalın,
Yel dəyib, götürdü üzdən dəsmalın,
Haq vermiş əzəldən ona iqbalın,
Şahlar görsəm deyib, ərmana qalar.

BAŞIMA

Yatırdım bağ içrə könlüm yaralı,
Bir bülbül dolandı, qondu başıma.
O zalım yar ötdü məndən aralı,
Heç baxmadı gözdən axan yaşıma.

Tez qalxıb ayağa öpdüm yarımı,
Qəzəblənib yox elədi varımı.
Bir qara quş eşidərək zarımı,
Havalanar, qonmaq üçün leşimə.

Yar getdi, yandırdı məni fərağı,
Naləmdən titrədi gülün yarpağı,
Mən ayıldım, demə, yoxmuş duzağı,
Bir ah çəkib, gəldim sonra huşuma.

Nəfəs tapdı bu dərdin əlacını,
Yar görkəzib qaçdı zülfün ucunu,
Odur deyib, qucdum sərv ağacını,
Heyran oldum özüm qılan işimə.

GÜNÜDÜR

Aşiqlər şəhrində, köşkün üstündə,
Yar dünyaya höküm verən günüdür.
Qırx kənizlər dövrə vurub altında,
«Qulluqdur, bibi can» deyən günüdür.

Sol yanında dürlü sazlar çalınıb,
Qızıl kasə dolu meylər alınıb,
Saf ipəkdən xalı-xalça salınıb,
Behişt içrə yarım yatan günüdür.

Qafada bənd edib asman Burağın,
El yatanda, çəkib aşiq fərağın,
Baş ucunda adil şahın çırağın
Qoyub beşdən-ondan yaxan günüdür.

Doymam didarından, dastanım yazıb,
Ağlım-huşum uçdu, duzağın çözüb,
Nəfəs deyər, yarım gözlərin süzüb,
Mənə tərlan quş tək baxan günüdür.

GƏLİN

İran, Turan, ərəb, əcəm elində,
Görmədim sənin tək növcavan gəlin.
Xublar arasında, bağın gülündə,
Olmaz özün kimin gül bədən gəlin.

Gözəlsən, can alar qara gözlərin,
Ölünü dirildər şirin sözlərin,
Alma yanaqların, gülər üzlərin,
Şirindir ləblərin meyvədən, gəlin!

Bir üzümsən şərbət ilə udmağa,
İzin verməz könül çıxıb getməyə,
Duzaq qurub aşiqləri tutmağa
Zülfün başdan-ayaq tor edən gəlin.

Bizi bülbül edib, özün gül edib,
Saçların boynuna həmayıl edib,
Naz odundan ürəyimi kül edib,
Söz balından bağrım su edən gəlin.

Qamətin tubadır, qoynunda nardır,
Gərdənin dütardır, zülflərin tardır,
Camalın görməyə gözlərim zardır,
Görsəm gül üzünü səbadan, gəlin!

Molla Nəfəs, aşnalığım yad olmaz,
Bir görməsəm, hərgiz könlüm şad olmaz,
Yer yüzündə sən tək pərizad olmaz,
Məyər yerə düşdün havadan, gəlin!

QIZ

Ya mələkdir, ya pəridir, bilmədim,
Naz eyləyib, məstan basıb, gələn qız.
Yüz söz sordum, cavab ala bilmədim,
Sözləməzmi adəmzaddan olan qız!

Ətir-zəfərandır qoynunda narı,
Boynuma zəncirdir zülflərin tarı,
Horülən saçları dağların marı,
Dəli könlüm ovsun edib alan qız.

Görmədim dünyada sən kimi dilbər,
Ağlım tarac etdi bir pəri-pəykər,
Siyah zülfün rast qəddinə bərabər,
Saldı zülfün can mülkünə talan qız.

Halım zəbun oldu, neyçün bilməzsən?
Pərişan halıma nəzər salmazsan?
Vədə verib, neyçün vəfa qılmazsan?
Vədəsinə, ilqarına yalan qız!

Mən səni sevirəm can ilə təndən,
Ölsəm əl götürməm, dönmərəm səndən,
Xubluq səndən keçər, igidlik məndən,
Ağıl eylə, dövran sarı dolan, qız!

Qızların sultanı, gözəllər şahı,
Asiman sərvəri, zəminin mahı,
Könlümün xoşluğu, bəxşi-ilahi,
Adı-sanı bu cahana dolan qız.

Nəfəs der: tərifin yazaram müdam,
Rəhm eylə halıma, yandırma, ey can,
Mən sənin hüsnünə əlmüdam heyran,
Yenə məni müdam heyran qılan qız.

KÖNLÜM

Sevdim bir pərini, vuruldum ona,
Pərvaz eylər hər dəm ol yara könlüm.
Rahatlıq görmədim, yetişdi afət,
Firqət içrə qaldı azara könlüm.

Sanki bahar fəsli açılan güldür,
Yandım həsrətindən, bədənim küldür,
Yarım təzə güldür, könlüm bülbüldür,
Ya rəb, haçan qonar gülzara könlüm?!

Tiği-peykanından bağrım dəlindi,
Razıyam, öldürüb canım al indi,
Qara zülfün üzdə yüz-yüz bölündü,
Hər zülfün üzündə yüz para könlüm.

Gül üzünə düşən ol qara qaşdır,
Baxmaqdan ol qaşa gözlərim yaşdır,
Halıma rəhm etməz, bir bağrı daşdır,
Müdam sərgərdandır avara könlüm.

Sən tək gözəl gəlməz yalan cahana,
Gördüm atəş düşdü bu şirin cana,
Könlüm quşu ürküb uçmaz heç yana,
Bağlıdır zülfündə bir tara könlüm.

Nəfəs deyər, sərim, yar, sənə qurban,
Camalın görənlər hüsnünə heyran,
Mən eşqin dərdini gizlədim pünhan,
Görün, zahir qılar aşkara könlüm.

KİÇGİNƏ

Məni eşqində yaxan qəhri yaman kiçginə,
Xoş təkəllümginəsi şövqi-zəban kiçginə.
Qaşı qaraginəsi misli-kaman kiçginə,
Dişi dür, ləbginəsi qönçə-dəhan kiçginə,
Əlqərəz, yaxdı məni nari-suzan kiçginə.

Girib bağginəsinə, üzübən gülginəsin,
Quruban damginəsin, dinlər bülbülginəsin,
Töküb üzginəsinə zülfi-sünbülginəsin,
Gəh qısıb ləbginəsin, gəh açıb qolginəsin,
Saldı mənim sinəmə dağı-nihan kiçginə.

Qısdı qolginəsinə məmeyi-kiçginəsin,
Tökdü üstginəsinə müşk-ənbər saçginəsin,
Gizlədi narginəsin, qoymadı heçginəsin,
Görmək istədim, söydü, yığaraq güçginəsin,
Saldı yumruqginəsin qəhri yaman kiçginə.

Tutdu hörükginəsin, hüllə, qunduzginəsin,
Geydi əyninə gözəl qırmız libasginəsin,
Gündə yüz bir paltarda görkəzir özginəsin,
Qucdum belginəsini, öpməyə üzginəsin,
Qıldı yalanginədən ahi-fəğan kiçginə.

Gəldi tez-çəbikginə, oturdu həmdəmginə,
Al yanağı tərginə, qəbqəbi-şəbnəmginə,
Bildim bu nə rəyginə, sordum oşol dəmginə,
Dedi əğyar, rəqibəm mən sənə həmdəmginə,
Atəşim yüksəlsə də, keçdi rəvan kiçginə.
Al-yaşıl bəzəndi ol qədginə, qamətginə,
Qoydu mənim canıma nazi-qiyamətginə,
Qurdu mənim qəsdimə yayı-xoşamədginə,
Atdı öldürmək üçün ol oxi-afətginə,
Nəfəs der: canım alan arami-can kiçginə.

DEDİM-DEDİ

Dedim: «Aşiqlər şahı!» Dedi: «De ərzin, mehman!».
Dedim: «Keç günahımdan!» Dedi: «Ötdüm damla qan».
Dedim: «Təxtin bərqərar!» Dedi: «Bənzər, bipayan».
Dedim: «Sənin tək şahlar...» Dedi: «Yoxdur bigüman».
Dedim: «Gəldim. Qulun mən».
«Dur get, - dedi, - müsəlman!».

Dedim: «Ol nə püstədir?» Dedi ki: «Dəhan olar».
Dedim: «Ol nə qumrudur?» Dedi ki: «Zəban olar».
Dedim: «Ağ üzdə xallar...» Dedi ki: «Reyhan olar».
Dedim: «Bu necə dondur?» Dedi: «Zərəfşan olar».
Dedim: «Ölsəm ərman yox...» Dedi: «Tökmə nahaq qan».

Dedim: «Zülflər ovsunçu...» Dedi: «Dağdan gəldi mar».
Dedim: «Nə qoşa alma?» Dedi: «Ağ köksümdə nar...».
Dedim: «Ol nə əncirdir?» Dedi ki: «Bağda ənar».
Dedim: «Çillə qarıdır...» Dedi: «Onda gül-güzar».
Dedim: «Yoxdur günahım». Dedi: «Çoxlarda ərman».

Dedim: «Bir busə vergil!» Dedi: «Verim, güldürsən».
Dedim: «Haqq aşığıyam». Dedi: «Karın bildirsən».
Dedim: «Əziz mehmanam». Dedi: «Gəlib öldürsən»,
Dedim: «Bu nə sözdür, ey!...» Dedi: «Gəlib qaldırsan».
Aldım dərhal qoluma. Dedi: «Görəcək bağban...».

Qolum saldım boynuna, gəldi tavusum uçub,
Dedim: «Gəl indi tutum». Dedi: «Gül tək çulğaşıb...».
Dedim: «Vüsalın yetir». Dedi ki: «Ağlın çaşıb».
Çıxdı ürək yerindən, getdi qərar sıçraşıb,
Aşıq Nəfəs bu gecə sürdü belə çox dövran.

PİYALƏ

Nərgiz demək xətadır ol vəhşiyi-qəzalə,
Tubi ki boynun əymiş, rəxnə qəddi-nihalə,
Gördüm ki, mah-ruyin saraldı, rəngi lalə,
Bülbüllər uçdu güldən, rüxsara oldu valə,
Nə olar, öz əlindən versən mənə piyalə!

Gül üzün şöləsindən zərrə tək müztərəf mən,
Bağrıma tiğ vuraram, özümə dərqəzəb mən,
Firqət zəhrin içərəm, səndən vüsal tələb mən,
Qıldım ki dadi-bidad, dedim ki təşnə ləb mən,
Nə olar, öz əlindən versən mənə piyalə!

Qəsdin nədir bu cana, ey yari-mahi-taban,
Mən çəkmişəm bu cəbri, çəkməsin heç müsəlman,
Ötməzmi şəmi-hicran, gəlməzmi dəli dövran,
Gülşən içrə seyr edib, tapıb bir cayi-pünhan,
Nə olar, öz əlindən versən mənə piyalə!

Qaşların mahi-tündür, üzün xurşidi-əla,
Gördüm şəmi-camalın, başıma düşdü qovğa,
Qarətçi küfr zülfün imana saldı yağma,
Muğ əlindən mey içib, huş əhli oldu rüsva,
Nə olar, öz əlindən versən mənə piyalə!

Nəfəs der: atəş içrə yanar oldum dəvamət,
Eşq odunun alovu həddən aşdı qiyamət,
Bu bəhrə qərq olanlar çıxmaz imiş səlamət,
Dedim yanmaq müddətim - gəldi vəqti-ziyafət,
Nə olar, öz əlindən versən mənə piyalə!

BİR GÖZƏL

Hüsni-gülşən bağı içrə qıldı seyran bir gözəl,
Qırmızı gül tək üzü, qəddi zərəfşan bir gözəl.
Zalimi-ədna əlində bəndi-zindan bir gözəl,
Vah, əcəb sahib tərəhhüm, məsti-məstan bir gözəl,
Dişi dürlərin dürüdir, gənci-pünhan bir gözəl.

Ayrı düşsəm bir zaman ki, ağlayıram zar-zar,
Xəstə könlüm çırpınır, sanki qulun tək biqərar,
Görmüşəm çaki-zənəxdan üzrə zülfün tarı-mar,
Tərk edə aşiqliyim desəm ki, yoxdur ixtiyar,
Tutdu könlüm, qoymadı getməyə hər yan bir gözəl.

Ya əcəb nəqşi-nigardır nüktə halı hüsn ara,
Saçları sünbülə oxşar, gözü nərgisdən qara,
Qaş dartıb, ləb dişləyib, sinəmə saldı çox yara,
Ömür salı odlanır, hicrində mən tək macəra,
Aşiq əhlini qılıb hüsnünə heyran bir gözəl.

Vədeyi-vəslində dedin, gündə qurbanın olam,
Vədə qıldın, dedin ki, gəhi ərmanın olam,
Ey gözəl, dedin yenə, can içrə cananın olam,
İldə bir qurban gəlir, mən gündə qurbanın olam,
Ləfzı şirin, xülqü xoş, sərvi-xuraman bir gözəl.

Çıxsa evdən dolun ay tək, qəddinə qıldım nəzər,
Görənin könlün pozar, geyən libası simuzər.
Sözləsə qaşın dartıb, göftarı bağrımı əzər,
Hiyləgər kafirdə yox nərgis gözün tək cadugər,
Der Nəfəs: yandırdı məni çeşmi-məstan bir gözəl.

DİLBƏR

Qadir haqqın sənətindən gəldin cahana, dilbər,
Aşiqlər göz yaşına sənsən bəhanə, dilbər.
Hüsn əhlində sən özün yek-yeganə, dilbər,
Əzm eyləyir bu canım, gəlsən zəbana, dilbər,
Bir bəri bax, sevdiyim, od düşdü cana, dilbər.

Qara saçın hörülmüş ağ üzündə taybatay,
Xal qoyulmuş al yanaqda dənə-dənə, caybacay,
Qara nərgis gözlərin can almağa çəkmiş yay,
Hicab çəkər üzünə şöləndən gün ilə ay,
Ləli-mərcan düzülmüş püstə dəhana, dilbər.

Dilbər, sifətin desəm, iki «əlif», bir «nundır»,
Sonrasında «qəyn» yaz, ol qəddinə mövzundır,
Eşqin odu sinəmdə gündən-günə füzundur,
Gözdən axar qanlı yaş, sanki abi-Ceyhundır,
Göz yaşıma rəhm edib, seyr et cahana, dilbər.

Yaxdın fani cahanı, göz altından süzərək,
Erdir, axşam çıxarsan, tavus kimi süzərək,
Kətən köynək əynində, baş-gözünü bəzərək,
Saz eyləyər kərkaran, seyrə çıxsan gəzərək,
Gəlmək üşün yanına yoxdur bəhanə, dilbər.

Abbasını düzübsən köksünə dənə-dənə,
Bir qəmzədə salırsan islam-kafiri dinə,
Aşiqlərın qanından qoydun barmağa xına,
Rüxsət alıb, məmənə qoysam köks ilə sinə,
Pis rəqibin qəsdinə bir bax bu yana, dilbər.

Hüsn əhlinin şahısan, fani cahan içində,
Qəndü şəkər əzilmiş püstə dəhan içində,

Müşki-ənbər qoyulmış afəti-can içində,
Sən tək gözəl tapılmaz huri-qulman içində,
Cənnətdə huri alar səndən nişana, dilbər.

Uzaq yerdən gəlmişmən, yar, camalın görməyə,
Ta ölüncə qapında əl-əl üstə durmağa,
Umud edib gəlmişəm zövqi-səfa sürməyə,
Rüxsət versən, dilbərim, əl uzatsam düyməyə,
Əlim salıb yaxandan, gəlsək məstana, dilbər.

İskəndər tək hökmlü, Süleyman tək adil şah,
Aşiqlərə rahatdır, ağ köksündən versən cah,
Var umudum səndədir, olarsan mənə dilxah,
Sən bir kərəmli şahsan, aşiqlərə dadigah,
Ərz eyləyib gəlməşəm, yetgil bu dada, dilbər!

Qoysan zülfün, dilbərim, düşsün beldən aşağa,
Qurban olam başına, ağ üzdə qoşa xala,
Həvəs edər bu könlüm incə beldən quçmağa,
Səndə bir eyb görmədim, baxdım başdan-ayağa,
Fərağında yanaraq gəldim fəğana, dilbər.

Başım alıb gedərəm, qərib könlüm almasan,
Məcnun kimin ağlaram, yar, qoynuna salmasan,
Dura bilmən yerimdən, sən əlimdən tutmasan,
Taqətim yox deməyə, özün halım bilməsən,
Nəfəs deyər, zar edib gəldim fəğana, dilbər.

İSTƏYİB GÖZƏL YARI

İstəyib gözəl yarı, gördüm ki səlamətdir,
Baş qoydum ayağına, «Dur! - dedi, - nə halətdir?»
Durdum, dedim: «Ərzim var», - «Ərz eylə, ədalətdir!»
Dedim: «Sənə aşiqəm», «Qoy, - dedi, - nə hacətdir?»
Dedim: «Pərilər xanı,
Sənsiz nedirəm canı?»
Dedi: «Bu sözün bizə yalançı hekayətdir».

Dedim: «Gözün öldürdü, qəmzən ki qılıb xəstə».
«Şəksiz ölərsən, - dedi, - bir qeyri vətən istə».
Dedim ki: «Özüm getsəm, canım sənə vabəstə!»
Dedi: «Nə əlac edim, sən bir aşiq şikəstə?»
Dedim ki: «Əlac eylə,
Hüsnün mənə tac eylə»,
Güldü əlin dişləyib, dedi: «Nə zərafətdir?»

Dedim: «Nə tütündir bu?» - «Zülfi-kakilim» dedi.
Dedim: «Nə əlifdir bu?» Ol: «İncə belim» dedi.
Dedim: «Nə şəkərdir bu?» - «Şərbətli dilim» dedi.
Bir busə tələb qıldım, - «Lazımdır ölüm» dedi.
Dedim: «Məni ya öldür,
Ya busə mürüvvət qıl!»
Ağzıma barmaq qoydu: «Sus, - dedi, - qəbahətdir».

Ümmidi-vüsal ilən qapını kiçik açdım,
Gözlədi əl altından, göz eylədi, mən düşdüm,
Düşmənlərdən gizlincə bir ləhzə xəbərləşdim,
«Pünhan yerə var» dedi, vardım ki qucaqlaşdım,
Dedim ki: «Eşqində, ah,
Yandırma məni, ey şah!»
Dedi ki: «Yanıb - ölmək aşiqlərə adətdir».

Dedim ki: «Gülü-cənnət,
Bir dəm sürəlim işrət...».
Dedi ki: «Səhər oldu...», durdu, dilədi rüxsət.
«Rüxsəti verək desəm, araya düşər firqət»,
Ağlayıb əlim tutdu. «Sən çəkmə, - dedi, - həsrət»,
Dedim ki: «Məni öldür,
Bu - ayrılıq, ey dildar!»
Dedi: «Sənə bu işrət hər gecə ziyafətdir...»

Çağırdı, sual etdi. «Yanına varaq» dedim.
Dedi ki: «Kəsbin nədir?» - «Qulluqda duraq» dedim.
Pərdə ilə sözləşdi. «Aç üzün, görək» dedim.
Dedi ki: «Nə gətirdin?» - «Canımı verək» dedim.
Dedi: «Bu nə divanə?»
Dedim: «Sənə pərvanə».
Dedi: «Sənə görmək yox, can təndə əmanətdir».

Dedim ki: «Mənim könlüm,
Almazmısan, ey zalım?»
Dedi ki: «Nə axmaqsan, xalq deyir sənə alim».
Dedim: «Nə günahım var, söylə, nədir amalım?»
Dedi ki: «Pünhan sirrim xalq içrə qılıb məlim».
Dedim ki: «Günahkaram,
Möhnətə giriftaram».
Dedi mənə ol yarım: «Möhnət sonu rahətdir».

«Nədən bu gözün yaşı giryan varadır?» dedi.
«Firqət ki yaman» dedim, «Sinəm yaradır» dedi.
Boynuna qolum saldım, «Düşmən görədir» dedi.
Öpdüm yanağın, «Ey, vay, bəxtim qaradır» dedi.
Dedim: «Bu nə təşvişdir?»
Dedi ki: «Bu nə işdir?»
Mən dedim: «Əcəb işdir». Yar dedi: «Məlamətdir».

Yatanda güli-gülşən,
Bir gecə gələrək mən,
Duraraq qulaq verdim, uyğuda yatmış ikən,
Vararaq üzün açdım, oyandı qəzəb ilən,
«Kimsən?» dedi. Dedim: «Mən». Dedi ki: «Nəfəsmisən?»
Dedi ki: «Gəlibsən xoş!», «Xoşbəxt olasan» dedim.
Aşiq ilə məşuqdan bir-birnə xoşaməddir.

İÇİNDƏ

Dostlar yandım, tutuşdum fani cahan içində,
Dinməz, gözüm yaş tökər, ciyərim qan içində.
Ellər zövqi-işrətdə, gündə dövran içində,
Mən qəm içrə qərq olub, qaldım ərman içində,
Üzüm qara, dilim lal, dostü düşman içində.

Heç kim dadıma yetməz, sığınmışam xudaya,
Qurular quru, bağban yiyə çıxmaz bu bağa,
Gözəldir bu dünyada al-qızıl, qara, ağa,
Elə-günə gap oldum, özümcə vara-yoxa,
Məni qəsdən yaxdılar dostü düşman içində.

Güldən nazik üzlərə gərdü qubar çəkildi,
Könlüm kərpic sarayı qəm tozuna büküldü,
Ləli-yaqut, zümmərət səg boynuna taxıldı,
Dürlü-dürlü meyvələr özü dəydi, tköküldü,
Əl vurmayan çaş olub, qaldı meydan içində.

Hicranın atəşindən yandım, içim-dışım yox,
Gecə-gündüz ağlayıb dinməm, yazım-qışım yox,
Özüm yananda yanım, can yanan qardaşım yox,
Sirrim deyib danışam, sirr alan sirdaşım yox,
Ol deyə, mən ağlayam cayı-pünhan içində.

Sirri-halımı desəm, mən qəm içrə yanaram,
Əziz könlüm pərişan, həsrətdə dərbədərəm,
Ər-xatının zövqündən qafiləm, bixəbərəm,
Molla Nəfəs, mən sənə axır sözüm deyərəm,
Sən bu sözü saxlagil tən ilə can içində.

GÖZƏLİM

Gözəllərin içində bəlli məstan, gözəlim,
Yandım, yandım eşqində, odlandı can, gözəlim.
Sən ayın on dördüsən, mahi-taban gözəlim,
Gördüm şəmi-camalın, ağlım heyran, gözəlim,
Görməyənlər köyündə qurar ərman, gözəlim,
Qızlar ilə bağlarga qılsan seyran, gözəlim,
Qəddin əyib salam ver, sərvi-rəvan, gözəlim,
Yalançını yandır sən, baxsan hər yan, gözəlim,
Gözəllərin padişahı, şahi-cahan, gözəlim,
Müdam sənin köyündə mən sərgərdan, gözəlim.

Pərilərə baş olub, seyrangaha çıxarsan,
Altın, gümüş, zəbərcət, öz boynuna taxarsan,
Qaşa vəsmə, gözlərə siyah sürmə çəkərsən,
Humay kimin devikib, dörd tərəfə baxarsən,
Tavus kimi daranıb, zülfün üzə tökərsən,
Nərgiz gözün güldürüb, qələm qaşın çəkərsən,
Göz ucuyla bir baxsan, Rüstəm-Zalı yıxarsan,
Nəzər qılsan bir saat, dağı-daşı yaxarsan,
Adəm derlər surətin, nurdan olan peykərsən,
Tuti quşun məskəni, şəkəristan gözəlim.

Aşiqləri yandırıb, qıldığın işvə-nazdır,
Hər telinə zülfünün min tümən versəm azdır,
Qoynun baği-behiştdir, açılan lalə yazdır,
Qəlbim quşu əzm eylər, seyr etməyə pərvazdır,
Qəmgin könlüm didarın bir görsə sərfərazdır,
Gözlərin cadugərdir, tilsim, əfsundur, razdır,
Gül eşqində oxuyan bülbüli-xoş avazdır,
Məşuqam deyib gəzsən, qıldığın məkri-bazdır,
Altın düymən sədası müdam qulağa sazdır,
Ol saz üçün məşq etdim dürlü dastan, gözəlim.

Dürlü əlvan bəzənib, geyibsən yaşıl-alı,
Ol surətin görənlər olar divanə-dəli,
Gül yüzündə cəm olmuş iki qaşın hilalı,
Bir-birinə naz edən iki tavus misalı,
Əcəb nəqşi-nigardır ağ üzdə hindi xalı,
Al yanağa tökülmüş zülfün tubi-nihalı,
Ağ kağıza çəkilən sanki cədvəl misalı,
Hicranında yanaram, verməyirsən vüsalı,
Ölər, boynunda qalar aşiqlərın vəbalı,
Gündə yüz vəqt qılarsan yüz nahaq qan, gözəlim.

«Mim» - mübarək üzlərin misli mahi-tabandır,
«Ri» kimidir qaşların, görən kişi heyrandır,
«Lam əlif»lə naz ilə sallan, beş gün dövrandır,
«Bi» - baharın bustanı, qoynun lalə-reyhandır,
«Sin» - sənınlə bəhs edən hansı axmaq zənandır,
«Dal» - dəvamət eşqində işim ahi-fəğandır,
«Əlif» qəddim xəm qılan həsrət ilə hicrandır,
«Nun» növrəstə çağların ötər səndən, amandır,
Vergil hüsnün zəkatın, görkün üzdə mehmandır,
Nəfəs deyər maralım, bağü bostan gözəlim.

GÖZƏL

İlk başdan sevmişəm mən səni can, gözəl,
Dolanasan, gəzəsən istərəm hər yan, gözəl.
Aləmə şölə salan püstəyi-dəhan, gözəl,
Boz maralın yatağı, qaşları kaman, gözəl,
Yalançıda görmədim başgeyi-canan, gözəl,
Dünyanı təkcə tutdum, vermədin aman, gözəl,
Eşqdən imarət qurdum, qılıbsan viran, gözəl,
Vəfa görmədim səndən, eylədin ziyan, gözəl,
Dağları seyr edəli, bu aləm duman, gözəl,
Piyalədır gözlərin, qaşların kaman, gözəl,
Baqi verilməz bizə, ötəcək dövran, gözəl,
Tərs gəlib işlərmiz, pis olmuş zaman, gözəl.

Leyli, Şirin, Züleyxa, Zöhrə qıza tay gözəl,
Fani dünya içində hüsnü bizə bay gözəl,
Qoynun içində reyhan seyrangahi-cay, gözəl,
Günəş ilə oynaşar şol camalın ay, gözəl,
Tuti təki dilavər, barmaqların nay gözəl,
Kirpiklərin ox olub, qara qaşın yay, gözəl,
Bahar mövsümü gəlsə, dağ başında yay gözəl,
Eynəl-baqi suyunun dibindəki lay gözəl,
Neyçün məni xorladın qəmzən ilə, vay, gözəl,
Dur gedəlim seyrana, qalx yerindən, hay, gözəl,
Saçın misli-tütündir, köksün vadi, çay, gözəl,
Rəqib ilə sözləşmə, bu karını qoy, gözəl.

Eşqin odu tutuşdu, mən fağırı qoy, gözəl,
Xəstə cana rəhm eylə, zalım olma, ey gözəl,
Hər bivəfa namərddən təlim alma, ey gözəl,
Şol səbəbdən sən məni yerə salma, ey gözəl,
Nahaq yerə öldürüb, qana qalma, ey gözəl,
Külli-aləmi yandırdın, cahana dolma, gözəl,
İşrətli zaman gəldi, yas həngi çalma, gözəl,
Mən Nəfəsi ağladıb, ərmana qoyma, gözəl.

KÖNLÜM

Yüz min nədamət ilə dünyaya gələn könlüm,
Gözün açıb, aləmə nəzərın salan könlüm.
Cahanı qılıb seyran, sərgəştə olan könlüm,
Dövlət üçün güvənmə, bu fani yalan, könlüm,
Ağlayıb qəm gələndə, şad olsa gülən könlüm,
Baqi dövlət vüsalın allahdan dilən, könlüm,
Əzrayılın qəhrindən həsrətdə solan könlüm,
Gəhi fani ürbasın torpağa çalan könlüm,
Ki axırət əsbabın - var, iman ilə könlüm.

Məşq eyləyib, könlüm sən, xalqa sirrin yayarsan,
Qaçıb ələm əhlindən qafilləri söyərsən,
Məskənin dərə, dərya, cahana qol yayar sən,
Xeyr işləri bəd bilib, bəd işə baş qoyar sən,
Öldürməyib nəfs itin, haram loxma yeyərsən,
Fələk ilə bəhs edib, bir mən özüm deyərsən,
Ağıl, haqqı yad eylə, neyçün şeytan uyarsan?
Şeytan üçün bel versən, cəhənnəmdə yanarsan,
Əzrayıla can verib, bir özgə don geyərsən,
Can gedər cəsədindən, torpağa bulan, könlüm.

Qalmadı baylarında bu xeyr ilə səxavət,
Fağırlarda yox oldu həm səbr ilən qənaət,
Xatınlarda həya yox, şərməndeyi-qiyamət,
Padişahda ədl yox, kəmdir dərvişdə taət,
Tutmazlar həq kəlamın səhər saətbəsaət,
Oyan, ey adam oğlu, yatma belə fərağət,
Zəbanda zəhr əzildi, yoxdur şirin ləzakət,
Dostlar bir-birə düşmən - qiyamətdən əlamət,
Haçan tapar muradım, hamıdan qalan könlüm.

Yalançı bivəfadır, yanan çırağ öçərlər,
Bütün canlı məxluqat əcəl zəhrin içərlər,
Ayrılıb bu dünyadan, baqi yurda köçərlər,
Axır zaman olmuş deb, alim göftar açarlar,
Zalımın zülmü artıb, füqaralar qaçarlar,
Alimlər amal etməz, çaxır-şərab içərlər,
Cadılığa üz qoyub, səma üzrə uçarlar,
Zina qılıb aşkara, naməhrəmi qucarlar,
Can fani, cəsəd fani, bular tamam keçərlər,
Sən həm baqi qalmazsan, kəfənə dolan, könlüm.

Çərxi-fələk cəbrindən qıldı məni avara,
Gəlmişəm bu cahana, qalmışam dərdi-zara,
Qəza oxu gəzlənər, bir gün qılar səd para,
Tiğ altındadır günüm, neyləyim mən biçara,
Gər salsa, mən neylərəm, danla atəşi-nara,
Cürmi-günah boynumda, guya ki səngi-qara,
Onca bundan əl üzüb, gedər özgə diyara,
Qadir özü rəhm etsin mən təki namidara,
Nəfəs deyər, umudum, gözüm düşsə dildara,
Sidqini birə bağla, haq sarı dolan, könlüm.

DEYİŞMƏ

Səraxslı şair:
Molla, sən vergil xəbər, sözlə süxənvər hansıdır?
Başı asmana yetən ol şahi-ərər hansıdır?
Özünün bənzəri yox, pakizə gövhər hansıdır?
Bəhri-rəhmətdə açılan müşki-ənbər hansıdır?

Molla Nəfəs:
Əvvəla, sözlə süxənvər bir xudanın özüdür,
Başı asmanda – şəriət rahnəmanın özüdür,
Özünün bənzəri yox, nuri-imanın özüdür,
Bəhri-rəhmətdə Mühəmməd Mustafanın özüdür.

-Yenə bir quş görmüşəm türfə, əcaib pərlidir,
Bətinində cəm olan altın mürəssə zərlidir,
Yazılı yeri tutan qanadları ləngərlidir,
Quşların sərkərdəsi balayi-şahpər hansıdır?

-Ol əcaib pərli Cəbrayıl-əminulla olar,
Bətinində cəm olan Quran-kəlimulla olar,
Yazılı yeri tutan «xalisan lillə» olar,
Quşların sərkərdəsi elə onun özüdür.

-Əvvəla, həqqin kəlamın varısın bilən nədir?
Çox təkəbbürlük edib, özün ulu qılan nədir?
Neçələrin azdırıb, öz yanına alan nədir?
Gərdanına yüklənən əlayi-harvar hansıdır?

-Həqq kəlamın varısın bilən ləin şeytan olar,
Çox təkəbbürlük – ulu qılan ləin şeytan olar,
Neçələrin azdırıb, alan ləin şeytan olar,
Gərdanına yüklənən harvar günahın özüdür.

MOLLA NƏFƏS

Qəflət uyğusunda qaldın,
Oyan indi, Molla Nəfəs!
Gəh saralıb, gəhi soldun,
Oyan indi, Molla Nəfəs!

Hicran bağrını dağlayar,
Həsrət sinəndə çağlayar,
Sevən yarın çox ağlayar,
Oyan indi, Molla Nəfəs!

Bu dünyaya dürlər doldu,
Aylar ötdü, günlər qaldı,
Dur ayağa, vaxt oldu,
Oyan indi, Molla Nəfəs!

Yad eylə gəl sevən yarı,
Ağ köksündə alma, narı,
Dolanmışdır zülfi-tarı,
Oyan indi, Molla Nəfəs!

Nəfəs, gəlgil sən huşuna,
Çox oyun gələr başına,
Yetmək üçün sirdaşına,
Oyan indi, Molla Nəfəs!

BU MƏKANA GƏLMİŞƏM

Ey könlümdə xoşgahım, əcəb Quranım sənsən,
İki cahan çırağım, dinim-imanım sənsən,
Eşq əhlinin sultanı, qaşı kamanım sənsən,
Yas günümün xürrəmı, könlü xəndanım sənsən,
Yanan bağrım atəşi,
Eşq karımın sirdaşı,
Sal rəhm nəzərini, mən hicrana gəlmişəm.

Əcəb sünbül saçların, eşq darının bağıdır,
Könlüm üstünə çökən Fərhad yıxan dağıdır,
Bəndi-reyhan üstündə ayrı ölkə zağıdır,
Əndəlibim çırpınır, fərağın dustağıdır,
Qəfəs içində daim
Ötürüb günüm-ayım,
Ərz eyləyib, üz tutub, sən sultana gəlmişəm.

Qoynun buyi saçılıb, bihuş eylər yandırar,
Müjgan oxun kəskindir, qanı günəş qandırar,
Suyi-asman tavusun, zarı ilə qondurar,
Eşqin yükü ağırdır, aciz belim sındırar,
Mən tapmadım pəlvanı,
Xərç edib xanimanı,
Gəda olub eşqində, mən ehsana gəlmişəm.

Ömür qısa, ol xuda vermiş ulu fərmanın,
Fərman qəzəb donunda, bilməz yaxşı-yamanın,
İnsanlara andırmaz çəkən ahi-fəğanın,
Həsrət odu yaxıbdır, zəmzəm çeşmi-dəhanın,
Yalnız qoyub dəndanı,
Viran edib zəbanı,
Naxoş qulam, sürünüb ol əmirə gəlmişəm.

Dedi Mövlam: «Əzrail, ol dilbərin canın al,
Bir çibindən dərd verib, qoygil sərinə zaval,
De ki Loğman həkimə: «Qılma dərdinə amal»,
Qəza dolan çağında zarlar beytül bir mahal,
Behişt rəvanə olsun,
Cəsəd zəminə qalsın,
Laməkanın içində mən fərmana gəlmişəm».

Vah, bixəbər dilbəra, şana vurub sünbülə,
Firdövs zünnarın taxıb sərvi qaməti ilə,
Qabaqları gül dəstə, əzm vurub bülbülə,
Seyrana məşğul olub, varar bağı-məchula,
Nazil oldu Əzrail,
Yarın boyuna qail
Olub, əqlin itirib, der: «Amana gəlmişəm».

Məcnun olub Əzrail, qədəm vurub laməkan,
Çöli-Kərbəla düşdü Xıdır əleyhissəlam,
Dedi peykər xəstəsi: «Bu dərdimə qıl dərman,
Mən almazam canını, hətta öz canım qurban»,
Deyər: «Əqlim itirdim,
Həqqə fəğan gətirdim,
Eşq toruna bağlanıb, matəmxana gəlmişəm».

Xıdır gəzib biyaban, sataşıbdır yarıma,
Əqlin-huşun itirib, əl uzatmış narıma,
Firqət yeli əsərək, dəyibdir yarpağıma,
Ruyin sürtüb ağlayar ol payı-torpağıma,
Deyər: «Yanan qulun mən,
Ümman içrə salın mən,
Qeyri karım yox deyə mən cananə gəlmişəm».

Qəvvas ümmanı üzüb, düçar olub salına,
Həvəs edib ürəyi, çıxıbdır yar yoluna,

Aşna sərv boyuna, əsir olub halına,
Ümman yaqutun verib ol pəri camalına,
Gəda miskin olubdur,
Eşqə əsir qalıbdır,
Deyər: «Həqqin alnında mən üsyana gəlmişəm».

İbrahim nar içində eşqinə olub həmdəm,
Bir tarına bağlanıb, bənd qalıbdır dəmbədəm,
Tün-gecəsin qərq eylər, gülzara dönüb aləm,
Ol reyhanın şöləsi bərq vurub bağa hər dəm,
Nurun saçıb asmana,
İşıq verib cahana,
Namut yalan dünyadan, mərdut cahana gəlmişəm.

Aşiqlərin sultanı Yusif görüb üzünü,
Züleyxanı unudub, yaşa bağlar gözünü,
Məcnuna oxşar ol dəm, nara vurub özünü,
Vəsf eylər yar camalın, peşkəş eylər sözünü,
Həqdən cüda düşübdür,
Eşq oduna bişibdir,
Deyər: «Dərdə dərman yox, mən Loğmana gəlmişəm».

Bilqeys qəhri-qəzəbdə, Süleymanı istəyib,
Eşqdən dərdli yarına ol dərmanı istəyib,
Behişt yerin axtarar, xuramanı istəyib,
Tapa bilməz heç yerdən, ol Loğmanı istəyib,
Loğman yarın qaşında
Pərvaz vurub dışında,
Deyər: «Özüm dərdliyəm, bir dərmana gəlmişəm».

Davud keçib fərzənddən, deyər: «Gəldim qaşına,
Malım, mülküm, imanım qurban sənin başına,
Nuhun ömrün istərəm, əcəb gözəl yaşına,
Güzidələr ağılı bağlı olsun huşuna,

Təxtı-Süleyman sənin,
Bu bələnd məkan sənin,
Qalıb bunda binəva, mən divana gəlmişəm».

Yəqub müştaq ruyinə, ağlayıb ol xari-zar,
Hər dəm çəkib dərdini, daim qalmış biqərar,
Külli-aləmdən ötüb, deyər: «Görkəzgil didar,
Bir tarına bağlanıb, sərvi boya intizar
Qalıb, girməyən bağa,
Fərhad tək çıxıb dağa,
Məcnun sazını çalıb, dağ-nihana gəlmişəm».

Kağılləri şanalar tel-tel edib tökübdür,
Qumru kimi daranıb, biyabana çıxıbdır,
Məhvəş eylər gülləri, xoş ruy ilə baxıbdır,
Ərzin deyib Süleyman, yar alnında çökübdür,
Deyər: «Eşqində yandım,
Malı-mülkümdən döndüm,
Həqdən mənim arzumdur, sən rənaya gəlmişəm».

Ləbi-ləli, zəbanı bala, şəkərə bənzər,
Barmaqları gümüşdən, cabbar çəpərə bənzər,
İncə beli, boyları sərvi-şəcərə bənzər,
Çıxsa buluddan ayım, dilim çıxara bənzər.
Ərzi budur İsanın
Alnında gör sultanın,
Deyər: «Eşqinə qızıb, mən pərvanə gəlmişəm».

Göllərə nəzər salsam, oyun qılar qazları,
Meyxanələr içində qulluq eylər qızları,
Yeddi fələyə çıxar hər dəm tutan sazları,
Kafiri qılar mömin yarın eşqi-nazları,
Mehdi gəlib nişana,
Düşüb hali-zəbuna,
«Beytül-əhzandan çıxıb, - der, - məstanə gəlmişəm».

İlyas onda sataşıb, dilbər əlində badə,
Eşq dəryası coş vurub, dərdi artıb ziyadə,
Sərxoş olub zar eylər, deyər: «Yetir muradə»,
Asman lərzəyə gəlib İlyas çəkən fəryadə,
Zəmin eyləyər cünbüş,
Deyər: «Allah, nədir iş,
Ya ki halım, əlvandan sər cövlana gəlmişəm».

Aşiq olmuş bir baxıb ona Əyyub peyğəmbər,
Tənin aşiyan eylər, qurdlar qılar sərbəsər,
«Hu-həqq!» deyib dolanıb eşq oduna dərbədər,
Ol eşq ilə cəhənnəm, vallah, olub münəvvər,
Behişt halına dönmüş,
Bütün acizlər dinmiş,
Deyər xilas olanlar: «Gör, xəndana gəlmişəm».

Üç yüz altmış ərənlər köçüb gələr yurdundan,
Üzlərinə sürərlər yarın payi-gərdindən,
Danalığı unudub «hu» deyib eşq dərdindən,
Fəna ağlar, zarlarlar, Məcnun – eşqin mərdindən,
Yar qaşında saralıb,
Yetim tək boyun burub,
Derlər: «Eşqin sultanı, bir ay hüsnə gəlmişəm».

Fəriştələr cəng qurar, istər əcəb nihalı,
Yar oturmış ədəblə, üzə tutub dəsmalı,
Buludlardan çıxar ay, dəysə bahar şəmalı,
Kövkəblərə eşq verər, yarın gözəl camalı,
Fəriştələr pərvanə,
Düşüb atəş rizvanə,
Xoş olub bu günə, der: «Mən ərkana gəlmişəm».

Ömər zarın gətirər, sərviyə dəyib yellər,
Deyər yarım: «Eşitməm, bu nə bişirin dillər»,

Boy-gərdanın tutubdur siyah sünbül kağıllər,
İki əjdər altında qalıb ol mürçə bellər,
Olub çölün qayası,
Sinə düşüb sayası,
Məstanə qılıb cahan, zərəfşana gəlmişəm.

Osman deyər dilbərə: «Dünya görkü var səndə»,
Deyər yarım naz ilə: «Sahibcamal var məndə»,
«Görkəz mənə üzünü, canım civədir təndə»,
Deyər yarım: «Ol gövhər daim oturmuş gündə»,
Deyər Osman: «İraqdır,
Kələmələr fəraqdır,
Ədalətli sultansan, sahibgirana gəlmişəm».

Veysəl Qərani söylər: «Aşnalıqdır xəyalım»,
«Hindi beçələr üzdə». Yarım deyədir: «Xalım»,
«Əcəb gərdanmı, nədir?» Dilbər deyədir: «Qolum»,
Deyər: «Nə şəkər dəhan?» Yar deyər ki: «Eşq balım»,
Veysəl: «Zəbanım gəldi,
Dilə dastanım gəldi,
Həqqə deyib almadım, mən dəndana gəlmişəm».

Bağışlayar dastanın, xidmət qılar Yəsəvi,
Bir dəm salmaz nəzərin yarım könli-məsavi,
İntifayət əlində, versə dərdliyə davı,
Quşlar aşiyana qonub, səyyadlar qılıb avı,
Bihuşlar tutub humay,
Harun olub Hatəm Tay,
Malın verib miskinə der: «Peşmana gəlmişəm».

Deyər Mövlam: «Cəbrail, nə hadisə cahanda?
Peyğəmbərlər atəşli, cahan əhli fəğanda,
Bənd qalıbdır cəhənnəm, firdövs hasil məstanda,
Nə əcaib surətdir, şəmsi-qəmər dumanda?

Əyan qılın bu işi,
Artar aləm təşvişi,
Deyər: «Sərim çıxmayır, mən heyrana gəlmişəm».

Cəbrail nəzər salar, qafil oturmuş Osman,
Bihuş, yerdə təprənər Xıdır, İlyas, Süleyman.
Yusif, Əyyub, ərənlər, Yəqub, Davud, həm Loğman,
Veys, Əhməd Yəsəvi, İbrahim çəkib ərman,
İsa özün unudub,
Bir dilbəri yad edib,
Derlər: «Eşq yandırdı, həqq, lərzana gəlmişəm».

Eşqi coşub Əminin, dilbərə salıb nəzər,
İxtiyarın aldırıb, çəkər oldu ahi-zar,
Yavuz qaldı Rəhman, bilmir nə gəlməz xəbər,
Görsə Cəbrail onda, eşqin narına yanar,
Həqq qalıbdır heyrana,
Fəriştələr pərvanə,
Yar qaşında oturub, der: «Suzana gəlmişəm».

Deyər Mürtəza pirim: «Gör cahanın hədisin»,
Zülfüqarın altında bilməzsən amü xasın,
Nə lənətli əlamət, peyğəmbər eşq həvəsin
Alıb cüda olubdur, qoyub dinin, namısın,
Kimdir bu hala qoyan?
Qılgil bu işi əyan,
Yavuzluqda oturub, mən zəbuna gəlmişəm».

Çıxdı evdən dışarı, şölə salıb aləmə,
Əli halı zəbundır, eşqi yetib kəlama,
Deyər: «Ulus gəlməsin mənim çıxan naləmə,
Şölə verər ol peykər, vallah, mahi-salimə».
Əli donüb yolundan,
Zulfüqarı qolundan
Düşüb indi torpağa, der: «Pəlvana gəlmişəm».

Qəhhar ilə ol Mövlam yürür oldu dəmbədəm,
Deyər yarıma mənim: «Nurdan oldunmu, sənəm?»,
Deyər yarım: «Torpaqdan hasil qıldınız, mənəm,
Dəhanımda kövsərin, zəbanımda var şəbnəm,
Bu torpaqdan yaratdın,
Qüdrət ilə var etdin»,
Mövlam deyər: «Bilməzdən zənəxdana gəlmişəm».

Deyər Mövlam biqərar: «Qaldı eşqə bu başım,
Daim yavuzluq ilə olar mənim sirdaşım,
Cahan karından keçdim, eşqə verən atəşim,
Şol atəşin içində,
Eşqi-huşun içində
Laməkanı unudub, bu cahana gəlmişəm».

Çəkdi sünbül saçların nazlı dilbər üzündən,
Gün tutulub, bu aləm şölə aldı gözündən,
Mövlam taqət gətirməz, getdi şol dəm özündən,
Dedi yarım: «Həqq aşiq dönə bilməz sözündən,
Hökmü rəvan Birivar,
Mən Nəfəsə xiridar,
Bir şol deyib əzəldən, bu məkana gəlmişəm».

Çıxdı suyi-asmana gecələr çıxan ahım,
Aşna oldu canana, nəzər qılsın xudahım,
Vallah, həqqin alnında olmaz mənim günahım,
Məşuq varın saxlayır, eşq müqəddəs pənahım,
İnsan Nəfəsin yarı,
Külli aləm qərarı,
Mən əndəlib xoşbəxt, nov reyhana gəlmişəm.

ORAZ AŞİQİ
(1829 - ?)

Oraz Aşiqi təxminən 1829-cu ildə Daşoğuz vilayətində anadan olmuşdur. Ölüm tarixi bilinmir. Türkmənlərin yomud boyunun uşaq tayfasındandır.

Şairin Xivə mədrəsəsini bitirdiyi bilinir. Savadlı adam olduğu üçün ona «Molla Oraz» da demişlər. Hələ Xivədə oxuyarkən Aşiqi təxəllüsü ilə bir kitab yazmışdır. Həmin kitab gəlib bizə çatmamışdır. Bəzi alimlərin fikrincə, hazırda Türkmənistan Elmlər Akademiyasının Milli Əlyazmalar İnstitutunda saxlanan şeirlər həmin kitabdan köçürülmüş olmalıdır. Lakin bu fikirlə razılaşmaq çətindir. Çünkü bu şeirlər gənc bir tələbənin qələmindən çıxmış şeirlərə bənzəmir. Onlar yetkin bir sənətkarın əsərləridir.

Sosial ədalətsizlik, kasıblıq Oraz Aşiqinin tez-tez müraciət etdiyi mövzulardır. Bu tipli şeirlərində bir can yanğısı hiss edildiyindən belə nəticə çıxarmaq olar ki, şair özü də məşəqqət içində yaşamış, maddi sıxıntı çəkmişdir. Varlı-kasıb, mərd-namərd, qəhrəmanlıq-qorxaqlıq problemini qabardan şair o dövrə xas olan məsələləri gündəliyə gətirməklə cəmiyyətin islahına çalışmışdır. Onun «Tapılmaz», «Dəyməz», «Gedər» gibi şeirlərində Məxdumqulu və Zəlili gibi şairlərin təsiri aydın sezilir.

Hazırda elm aləminə Oraz Aşiqinin yüzə yaxın şeiri məlumdur. Onlardan səksəni Milli Əlyazmalar İnstitutunun arxivindədir.

Şairin əsərləri bir neçə dəfə kitab halında nəşr olunmuş, bəzi şeirlərinə musiqi bəstələnmişdir.

DƏYMƏZ

Yaxşı igid ölkə üçün qaladır,
Adam vardır, edən karına dəyməz.
Adam var, yaramaz, cana bəladır,
Adam vardır, adam yerinə dəyməz.

Adam var, qazanar xidmətdən azıq,
Adam vardır, xidmətkardır, xəlayiq,
Adam vardır, minsə bədəvə layiq,
Adam vardır, minən xərinə dəyməz.

Adam vardır, bəyə, xana gərəkli,
Yeri tük düşəkli, əli çörəkli,
Adam var, qanmazdır, heyvan ürəkli,
Yaşar, ancaq sürən ömrünə dəyməz.

Gözəl vardır, geysə altın yaraşar,
Görsə gözün doymaz, yürəyin coşar,
Gözəl vardır, görsən zehnin dolaşar,
Pərinin zülfünə, tarına dəyməz.

Aşiqi der, söylə hər gördüyünü,
Adam var zəhərdir sədası, ünü,
Savaş günü, qeyrət günü, ar günü
Yüz namərdlər mərdin birinə dəyməz.

İLƏ

Axmaq «dünya mənim» deyib,
Gəzər könül çoşu ilə.
Aqil dünyanı fikr edib,
Üzün yuyar yaşı ilə.

Mərdin ad-sandır muradı,
Çıxsa hər babatdan adı,
Bəyənməzlər mülaqatı
Olmasa tay-tuşu ilə.

Bir mərd qardaşdan ad qalar,
Namərddənsə lənət qalar,
Yaman arvad dava salar,
Bacı, qardaş, qonşu ilə.

Yaxşı qonşu aybın örtər,
Verməz sənə zərrə zərər.
Elə cumub, ayıb tapar
Olsan yaman qonşu ilə.

Doğru yoldan çıxan insan,
Hər sirrini edər bəyan,
Kəramət arar bigüman
Axşam görən düşü ilə.

Aşiqi, bil, pisdir qaydan,
Utan barı gəl xudaydan,
Zənni əyrı dönməz rəydən
Əlli-altmış yaşı ilə.

GEDƏR

Adəm oğlu, yatma, oyan,
Ömrün ötüb, başın gedər.
Baqi verilməz bu cahan,
Bütün tayın-tuşun gedər.

Qoca ərə it hürüyər,
Ləzzət gedər, diş çürüyər,
Qəlbini qüssə bürüyər,
Eşqin gedər, huşun gedər.

Həm ağlayan, həm də gülən,
Həsrət ilə keçər gələn,
Yaxın dostun, qədrin bilən,
Tayın gedər, tuşun gedər.

İskəndər tək dünya alsan,
Loğman olub, çarə qılsan,
Əflatun tək hər şey bilsən,
Bir gün ağlın-huşun gidər.

Əcəl tor çəkər daşına,
Topraq endirər başına,
Yoldaş olub bu leşinə,
Otuz ilə yaşın gedər.

Necə gəzsən, getsən hara,
Bir gün girərsən məzara,
Yanın ilə vara-vara
Xeyir-şər qılmışın gedər.

Aşiqi der, bir gün ölüb,
Çürüyərsən toza dönüb.
Cana əzablı od olub,
Bundan da pis işin gedər.

KEÇƏR

Savaşda meydana gəlməz,
Namərd ağıl-huşdan keçər,
Yabı ürkər day görəndə,
Bədəv sıçrar, leşdən keçər.

Yaman ərlə qılsan səfər,
Küy qoparar, qovğa edər,
Axır ondan zəhlən gedər,
O, yoldaşdan, eşdən keçər.

Söz verilsə bir nadana,
Ya vəzifə çatsa ona,
Yaxın gəlməz bir insana,
Bütün taydan-tuşdan keçər.

Savaş sözü eşidəndə,
Başı üstdən ox ötəndə,
O «atlan-ha-atlan!» gündə,
Namərd ölüb huşdan keçər.

Namərdə iqbali gülsə,
Səs etməz, pul-para gəlsə,
Haq mərdə var-dövlət versə,
Sözü dağdan, daşdan keçər.

Ol çıxmaz quru ad üçün,
Mərd can verər ar, at üçün.
Nəf bilib varlı zat üçün,
Nakəs gözdən-qaşdan keçər.

Aşiqi der, çoxdur dərdlər,
Yaramaz dərdə namərdlər.
Bir ar-namus üçün mərdlər
Candan, maldan, başdan keçər.

TAPILMAZ

Haq özü verməsə qeyrəti ərə,
Ağıllıya dövlət, dövran tapılmaz,
Loğman həkim gəlsə, eyləsə çarə,
Əcəlin dərdinə dərman tapılmaz.

Kimsənin əzabda təpəsi qaynar,
Kimilər ölüncə işrətdə oynar,
Yeyər nazi-nemət, bal-şəkər, qaymaq,
Kimiyə yeməyə bir nan tapılmaz.

Sanma ki, gedənlər gələndən kəmdir,
Gələn də, gedən də eyni rəqəmdir,
Cavanlıq şadlıqdır, qocalıq qəmdir,
Qışa yetsən, güli-xəndan tapılmaz.

Aşiqi, sən vermə ömrünü bada,
Dilin olsun daim zikri-sənada,
Arxa ol, kömək et yaxına-yada,
Qalsa könül, çıxsa bu can tapılmaz.

GƏRƏKDİR

Nam qazanıb ad almağa
Qılınc ilə aş gərəkdir,
Hakimsiz yurd qalar zora,
Fərasərli baş gərəkdir.

Nökərsizə xan deyilməz,
Tək bir «cim»ə can deyilməz,
Yalnıza mərdan deyilməz,
Arxada yoldaş gərəkdir.

Oğul mərdin könül xoşu,
Fərasətli yan yoldaşı,
Həm dövlətin, mülkün başı,
Döyüşdə dörd-beş gərəkdir.

Xeyir yox oyunbaz ərdə,
Görünməz namusda-arda,
Mahnı, nəğmə, söz deyəndə
İçdə ürək, cuş gərəkdir.

Düzlük olmaz başsız eldə,
Nər olsa, yük qalmaz çöldə,
Qanlı gündə, uzaq yolda
Mərdanə yoldaş gərəkdir.

Aşiqi der, mərd qalmağa,
Qanad gərək yol almağa,
Milçək deyil, fil olmağa
Qeyrətli qardaş gərəkdir.

BİLİR

Bir kimsənin xasiyyətin
Güman bilməz, görən bilir,
Münkir-nəkirin heybətin
Yer qoynuna girən bilir.

Nadan gəzər gözdən düşüb,
Özün bilməz həddən aşıb,
Ər qədrini sərt savaşıb
Üzbəüz ox atan bilir.

Mərd çıxar hər işdən sərin,
Namərd işi bilməz dərin.
İgidliyin, gücün qədrin
Gücdən düşüb qalan bilir.

Yaxşı at yolun Burağı,
Fərzənddir işin çırağı,
Öy qədrini, rahatlığı
Uzun yolu yoran bilir.

Yaman ərə düşsə işin,
Qurtulmaz qovğadan başın,
Qədrini qohum-qardaşın
«Vur-ha-vur»a girən bilir.

Eyni bilmə ərlə əri,
Atla atı, yerlə yeri,
Başqadır yaxşının qədri,
Bunu pisi görən bilir.

Aşiqi, dünya cəfasın,
Düşə bənzətdim səfasın.
Fani dünyanın vəfasın
Vədə dolub gedən bilir.

BİR PƏRİ

Ay kimi şölə saçıb, getdi gözümdən bir pəri,
Görünüb, təlim verib, uçdu gözümdən bir pəri,
Ya ağlımı, ya sərimi alandır şol yar pəri,
Görünüb, təlim verib, uçdu gözümdən bir pəri.

Ol pəri-peykər, mələk səkkiz cənnətdə huridir,
Ya Şirin, ya Şahsənəm, yeddi məşuqun biridir,
Ağ damaq, alma yanaq, həm qızıl, həm sarıdır,
Görünüb, təlim verib, uçdu gözümdən bir pəri.

Ol pərinin qüdrətidir bu ürək cuşum mənim,
Gündüzü xəyalımdır, gecələri düşüm mənim,
Getdi ol pəri ilə öz ağlım, öz huşum mənim,
Görünüb, təlim verib, uçdu gözümdən bir pəri.

Ağ üzündə qara saçı həm uzun, həm qısadır,
Eybi olmaz işinin, on barmağı on nüsxədir,
Al yanaqdan öpüş verib, ləblərindən busədir,
Aşiqinə cilvə edib, keçdi gözümdən bir pəri.

Aşiqi der, yaradandır bir xoşruy eldən səni,
Sevdiyim, haq saxlasın kəm göz ilə dildən səni,
Nəsib olsa bizə verər bir neçə ildən səni,
Görünüb, təlim verib, uçdu gözümdən bir pəri.

QIZLAR

Biz də gəldik tamaşana,
Boyu uzun, saçlı qızlar,
Əlləri əlvan xınalı,
Qıyma qələm qaşlı qızlar.

İncə belli, düz ayaqlı,
Əlləri xana boyaqlı,
Düz qamətli, al yanaqlı,
On dörd-on beş yaşlı qızlar.

Gedər elinə-elinə,
Mən qurban incə belinə,
Çıxalım bağın seyrinə,
Əli tuti quşlu qızlar.

Aşiq Oraz deyər, nazlım,
Boynu ördək, quba qazlım,
Şirin dilli, bal ağızlım,
İnci-gövhər dişli qızlar.

ƏVƏZTAQAN KATİBİ
(1803 - 1881)

XIX əsr türkmən ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Katibinin əsl adı Əvəztaqandır. O, 1803-cü ildə Bəhərdənin Qaraqan kəndində dünyaya gəlmişdir. Təkə boyunun toxtamış tayfasındandır. Ailənin yeganə övladıdır. İlk təhsilini öz kəndində, mədrəsə təhsilini isə Xivədə, yaxud Buxarada almışdır. Daha sonra doğma kəndinə qayıdaraq müəllimlik, ovçuluq və karvan ticarəti ilə məşğul olmuşdur.

Əvəztaqan öz kəndindən Annagözəl adlı bir qızla evlənmiş, ondan Oğulnur adlı bir qızı, Ata adlı bir oğlu olmuşdur. Törəmələri hazırda Aşqabad şəhərində yaşayırlar.

Katibi Göytəpə savaşında yaralanmış, ox bədənindən çıxmamışdır. Bir qədər sonra yara yeri iltihablanmışdır. Şair ömür yolunun başa çatdığını hiss edərək qardaşlarının köməyi ilə ata minmiş, Göytəpə şəhərini görməyə getmiş, doğma yurdunu atla gəzərək vətənlə vidalaşmış və çox keçmədən 1881-ci ildə vəfat etmistir.

Şairin şeirləri tematik baxımdan müxtəlifdir. Ancaq vətən sevgisi, həyat və ölüm, eşq-məhəbbət mövzusunda qələmə aldığı şeirləri daha çoxdur. Bəzi şeirlərində Miskin Katibi, Molla Katib imzasından istifadə etmişdir.

Əvəztaqan Katibinin əsərləri Milli Əlyazmalar İnstitutunun fondlarında qorunur. Yaradıcılığı ciddi şəkildə tədqiq edilmiş, müxtəlif vaxtlarda şeir kitabları çapdan buraxılmışdır.

EYLƏDİ

Həsrət ilə günüm-ayım otürüb,
Fələk məni yardan cüda eylədi,
Qovğalı sərimdən huşum ayırıb,
Müsafir yerlərdə gəda eylədi.

Şikayət edərəm qəhbə fələkdən,
Yar avazın dəf eylədi qulaqdan,
Bir işim bitmədi yüz min diləkdən,
Bu kimin dərdinə dəva eylədi.

Müdam işi hiylə-təzvir iləndir,
Bu gün gələn sabah ertə öləndir,
İnanmam andına, sözü yalandır,
Bu yalançı kimə vəfa eylədi.

Kimi şahlıq edər eldən-ellərə,
Kimi Məcnun olub düşər çöllərə,
Kimi səyyad olub girər göllərə,
Sona-qaz tək yüz min əza eylədi.

Çoxu gəzər ulus-eldən ayrılıb,
Neçələri başdan, maldan ayrılıb,
Bir neçə bəzirgan yoldan ayrılıb,
Susuzluqdan özün fəda eylədi.

MƏNİM

Qadir allah, qəmim izhar etməyə
Bu dünyada qəmgüsarım yox mənim.
Başım alıb yar yurduna getməyə
Aşiq olub, namus-arım yox mənim.

Qara bəxtim qəflət içrə, oyanmaz,
Neyləyim, muradım çırağı yanmaz,
Dediyim sözlərə heç kim inanmaz,
El içində etibarım yox mənim.

Daim fəğan çəkib ömrüm ötürdüm,
Qovğalı sərimdən huşum itirdim,
İyirimi üç yaşımda nalə bitirdim,
Ağlamaqdan özgə karım yox mənim.

Aşiq olub, yetəmmədim vüsalə,
Gedərəm hər gündə yüz min xəyalə,
Qəfəs içrə qalıb, eylərəm nalə,
Əndəlibəm, gülüzarım yox mənim.

Katibi der, iki cahan sənindir,
Şəms, qəmər, ərz, asiman sənindir,
Mürdə cismim, bu xəstə can sənindir,
Səndən özgə heç müdarım yox mənim.

MƏSTANƏ BƏYLƏR

Fani dünya, şum əcəlin əlindən
Gəzmədi bir neçə məstana, bəylər.
Varlı, yoxsul, neçə şahlar, gədalar,
Bura gələn qalar ərmana, bəylər.

Əcəl yaxandadır, müdam həmdəmin,
Tutsa, çarə yoxdur, olasan əmin,
Ölçülü rizqinlə, sayılı dəmin,
Qalacaq gümanın gümana, bəylər.

Kimin adı çıxsa atdan, qılıncdan,
İzzəti əskilməz lap əzəl başdan,
Haray yoxdur oğul-qızdan, qardaşdan,
Əcəl gəlib dolsa peymana, bəylər.

Qəriblik bir bəla, ağrıdar canı,
Tay-tuşdan ayırar dostu, insanı,
Yoxluqda kəm olsa süfrədə nanı
Qoç igid qəm çəkər müdama, bəylər.

Adi sözü min tümənə satılar,
Hər məclisdə, eldə adı tutular,
Yaxşısı deyilər, pisi atılar,
Var-dövlət gəlsə bir insana, bəylər.

İqbalı kəc olsa, hər bir insana,
Xeyir sərə dönər, fayda ziyana,
Sözünü almazlar hesaba-sana,
Hətta ağlın yetsə cahana, bəylər.

Beş günlük ömür var, yüz min xəyal var,
Dünya dolmaz, doymaz, min qilü qal var,

Söz bir dürdür, ağıl ona xiridar,
Bir quru avazdır nadana, bəylər.

Katibi, olmaz iş ola söyləmə,
Diş bir qala, dil bir bəla, söyləmə,
Təkcə görüb, mərdə sitəm eyləmə,
Ha alar, ha verər mərdana, bəylər.

SÜRGİNƏN

Dostum, dünyanın səfasın
Ötməzdən əvvəl sürginən,
Əcəl çaki-giribanın
Tutmazdan əvvəl sürginən.

Gedərsən dünyadan köçüb,
Yatarsan qara yer qucub,
Bir əjdəha ağzın açıb
Udmazdan əvvəl sürginən.

Axirət olsun muradın,
Fitnədir malın, övladın,
Bu fani dünyadan adın
İtməzdən əvvəl sürginən.

Haq yolunda doğru durub,
Gələn aclara nan verib,
Qara yer qoynuna girib
Yatmazdan əvvəl sürginən.

Katibi der, mən bipərva,
Olmuşam aşiqi-şeyda,
Ömür – gəmi, əcəl dərya,
Batmazdan əvvəl sürginən.

GÖRMƏDİYİN SÖYLƏMƏ

Bizdən öncələrdən qalan söz vardır,
Gördüyün ört, görmədiyin söyləmə,
Duyar-görər, qulaq vardır, göz vardır,
Gördüyün ört, görmədiyin söyləmə.

Nasehlərin nəsihətin anlagil,
Alimlərin gəlib yanın yanlagil,
Arzum budur, mənim pəndim dinləgil,
Gördüyün ört, görmədiyin söyləmə.

Ayıblasan, sənin aybın açarlar,
Dostun-yarın ölkə-ölkə qaçarlar,
Sən düz olsan, sənə rəhmət saçarlar,
Gördüyün ört, görmədiyin söyləmə.

Oyun qurma xatın ilə, baş ilə,
Dava etmə nə tayla, nə tuş ilə,
Nə işin var yaxşı-yaman iş ilə,
Gördüyün ört, görmədiyin söyləmə.

Katibi, sən izlə rahi-həqiqət,
Qəbul eylə hər nə desə şəriət,
Sən kimsən ki, elə verdin nəsihət?
Gördüyün ört, görmədiyin söyləmə.

AZ OLAR

Rəqib olsa arasında dostların,
Bir-birinə məhəbbəti az olar,
Qoşulub üzsə də eyni göllərdə,
Uçsa, ördək ördək, qaz da qaz olar.

Ceyran gölə, şahin düzə yaraşmaz,
Kin-küdurət sizə, bizə yaraşmaz,
Təlbə ilə tənbur saza yaraşmaz,
Dəf dəf ilə, ney ney ilə saz olar.

Aşnalıq dış olsa, hər aqil mərdə,
Cüda olsa, düşər tükənməz dərdə,
İki həmdən məclis qursa bir yerdə,
Könlü xürrəm olar, sərəfraz olar.

Xalqdan düşmüş bir-birinin izinə,
Eybi olsa aşkar deyər üzünə,
Hər kimsə inansa rəqib sözünə,
Dəqiq bil ki, onun ağlı az olar.

Hər kim olsa sənin yaxşı məhrəmin,
Bu dünyada, axirətdə yer qəmin,
Miskin Katibi der, iki həmdəmin
Cismi bir-birinə payəndəz olar.

XƏBƏR ALMAĞA

Dünya içrə oldum hali-pərişan,
Kimsə yox halımı xəbər almağa,
İzində qalmışam didəsi giryan,
Kişim yoxdur gözdə yaşım silməyə.

Harsi-dünya olub, qaldım dəşvuşü,
Könlümdə yer etmiş yüz min əndişə,
Müsibətin tutub sənin həmişə,
Taqətim yox oynamağa, gülməyə,

Rəhmsiz görürəm öz tay-tuşumu,
Heç biri silməzlər gözdən yaşımı,
Qadir Allah mənim qərib başımı
Kömək etsin yar kuyinə salmağa.

Yalan yerdən alim deyib adına,
Özü yazar, aşiq olar xəttinə,
Molla Katib minib əcəl atına,
Vaxt yaxındır, yanınıza gəlməyə.

YOX MƏNİM

Qadir Allah, sənsən püşti-pənahım,
Səndən özgə heç bir kişim yox mənim,
Yar vəsfidir dildə fikrim-sənahım,
Ondan qeyri heç bir işim yox mənim,

Lütfün ilə xəstə canım sormasan,
Yaxşıların tərəfində durmasan,
Rəhm eyləyib yarı mənə verməsən,
Nalədəyəm, yazım-qışım yox mənim.

Yar gəlməsə gözdə yaşım silməyə,
İxtiyarım yoxdur deyib-gülməyə,
Pərişan halımdan xəbər almağa
Ellər içrə tayım-tuşum yox mənim.

Dünyanın qovğası könlüm öldürdü,
Qara gözlərimi qanla doldurdu,
Qəm xəzanı gül tək bənzim soldurdu,
Qəmgüsarım, yar-yoldaşım yox mənim.

Katibi der, çəkib cəbri-cəfanı,
Görəmmədim sərvi boylu cananı,
Məcnunluqdan bilməm yaxşı-yamanı,
Divanayəm, ağlım-huşum yox mənim.

SƏNİN

Könlüm, qəm ilə dünyadan,
Keçər mahi-salın sənin,
Bilmənəm, iki aləmdə,
Necədir iqbalın sənin.

Paxıla olma həmnişin,
Dadma onun duzun-aşın,
Kifayət qıl kişi işin,
Bir gün düşər yolun sənin.

Xoş söz çıxsın dəhanından,
El gülüb getsin yanından,
Yey olsun şirin canından
Qohum-qardaş, elin sənin.

Qəriblərin sor halını,
Sor kefini, əhvalını,
Diri ikən ver malını,
Boşa getməz malın sənin.

Könül versən töv əkülə,
Gözün nəzər etməz pula,
Katibi der, ulus-elə,
İza verdi dilin sənin.

İÇSƏM ÖLDÜRƏRLƏR,
İÇMƏSƏM - ÖLLƏM!

Eşqin meyin bir nazlının əlindən
İçsəm öldürərlər, içməsəm - ölləm!
Sərvi-sənubər tək incə belindən
Qucsam öldürərlər, qucmasam - ölləm!

Bilmənəm dünyada edən işimi,
Yolunda qoymuşam qərib başımı,
Həsrətindən gözdən axan yaşımı,
Saçsam öldürərlər, saçmasam - ölləm!

Yarı yey bilərəm şirin canımdan,
Könlüm üzdüm hər dəm gülüstanımdan,
Yaranlar, yar üçün xanimanımdan,
Keçsəm öldürərlər, keçməsəm - ölləm!

Namus-arım cüda oldu üzümdən,
Özüm utanıram deyən sözümdən,
Şum rəqiblər gülər, görüb izimdən,
Qaçsam öldürərlər, qaçmasam - ölləm!

Miskin Katibi ahü fəğan eyləyib,
Sona, şahin kimi göldən ayrılıb,
Yol azan karvan tək yoldan ayrılıb,
Köçsəm öldürərlər, köçməsəm - ölləm!

SALLANA-SALLANA

Yaranlar, yarım qarşıdan
Gələr sallana-sallana.
Asta basıb, zülfün tutub
Gələr sallana-sallana.

On dördü ay kimi dolub,
Dörd tərəfə şölə salıb,
Qəmzə ilə canım alıb
Gələr sallana-sallana.

Tuti kimi sözlər ilə,
Sona şahin qazlar ilə,
On üç, on dörd qızlar ilə
Gələr sallana-sallana.

Zülfündən müşk ətri qoxub,
Mənim canım oda yaxıb,
Min naz ilə qaşın dartıb
Gələr sallana-sallana.

Əlində altın piyalə,
İncə kəmər incə bilə,
Ağ qolların sala-sala,
Gələr sallana-sallana.

Məni gözdən salmaq üçün,
Əğyar ilə olmaq üçün,
Xəstə canım almaq üçün
Gələr sallana-sallana.

Könlümdə yoxdur qərarım,
Göyə yetər ahı-zarım,
Katibi der, sevən yarım
Gələr sallana-sallana.

DİLBƏR

Görməsə gül camalın,
Göz dönər selə, dilbər.
Gəl, bir tərəhhüm eylə,
Yetir vüsalə, dilbər,

Hüsnün deyildir baqi,
Büş gün üzün qonağı,
Xumar oldum, ey saqi,
Tutgil piyalə, dilbər.

Sinəmdə od tutuşdı,
Dərdim sərimdən aşdı,
Ahım ərşə ulaşdı,
Qılsam ki nalə, dilbər.

Dərdim artar gün-gündən,
Dava istərəm səndən,
Düşmüşəm mən eşqindən
Yüz min xəyalə, dilbər.

Müsafirəm elində,
İxtiyarım əlində,
Girib gəzsəm yolunda
Bir köhnə şala, dilbər.

Mən bir divanə, sail,
Sənsən sultani-adil,
Zülm eyləmə, ey qatil,
Haqdan utan, a dilbər.

Katibi, hüsnün gəday,
Sənsən bir dövlətli bay,
Dilər hafizi-xuday,
Düşmüş bu elə, dilbər.

NİGARIMDAN XƏBƏR

Vergil, ey sübhün yeli, nazik nigarımdan xəbər,
Sən bilərsən, doni-gülgün, gülizarımdan xəbər.

Mən vətəndən ayrılıb çöllərdə qaldım, neyləyin,
Kəsra bir, Misirdə bir şəhri-diyarımdan xəbər.

Bu xəzanın sarsarı qurutdu ömrüm bağını,
Ya münəccim, ver bu gün fəsli-baharımdan xəbər.

Üzdə arım, başda huşum, dildə səbrim, taqətim,
Katibi deyər, xuda, səbri-qərarımdan xəbər.

HA İNAN, HA İNANMA

Sənsən sevən yarım, ha inan, ha inanma,
Qandır mənim ciyərim, ha inan, ha inanma.

Məxmur gözün şövqündə biməzə olub mən,
Ey gül pərim, ha inan, ha inanma.

Eşqində yanıb öldü, kabab bütin dil-canım,
Ey taci-sərim, ha inan, ha inanma.

Rühsarın gül əfşanı, ey sərvi-nihalım,
Vardır nəzərim, ha inan, ha inanma.

Hər qətrə gözüm yaşı, suyu çox da az olur,
Budur kərəm, ha inan, ha inanma.

DOSTMƏMMƏD
(1815 -1865)

Dostməmməd (Dostməhəmməd) 1815-ci ildə Aşqabadın Ənəv kəndində doğulmuşdur. Bu kənd 860-cı ildə inşa edilmiş Seyid Cəmaləddin məscidi və Ənəv qalası ilə ünlüdür. Şair bütün ömrünü öz doğma kəndində keçirmişdir. Onun törəmələri hazırda Aşqabadda yaşayırlar.

Dostməmməd hələ uşaqlıqdan şeirə, saza-sözə böyük maraq göstərmiş, bəxşiləri və sazəndələri dinləmişdir. Şeir yazmağa da gənclik illərində başlamışdır. O, bir müddət öz dövrünün tanınmış bəxşisi Durdu ilə birlikdə olmuş, onun şeirlərini sazla ifa etmişdir.

Dostməmmədin həyatı da bir çox türkmən şairi kimi əsrar pərdəsinə bürünmüşdür. Rəvayətə görə, o, öz kəndindən Aycamal adlı bir qızı sevmiş, lakin ona qovuşa bilməmişdir. Aycamalı günü olaraq zorla yaşlı bir adama ərə vermişlər. O, daim Dostməmmədə sadiq qalmış, onun adını dilindən düşürməmiş, buna görə də əri tərəfindən qətlə yetirilmişdir. Nakam şair sadiq sevgilisinə bir çox şeir həsr etmişdir.

Dostməmmədin ölümü də əsrarlıdır. Yenə rəvayətə görə, Xivə xanı Ənəv qalasına hücum etmiş, onu mühasirəyə almışdır. Şairin bir qardaşı savaşda həlak olmuş, özü isə kömək gətirmək üçün qoyun dərisinə girərək qaladan çıxmış, lakin düşmənlər bunun fərqinə vararaq onu öldürmüşlər. Bu hadisə təxminən 1865-ci ildə baş vermişdir.

Dostməmməd də digər türkmən şairləri kimi ən çox eşqdən, məhəbbətdən, ayrılıqdan, vətəndən, dostluqdan, mərdlikdən yazmışdır. Şeirlərinin çoxu xalq mahnısına çevrilmişdir.

AYRILDIQ

Ey ağalar, ərzim sizə söyləsəm,
Seyid Cəmaləddin pirdən ayrıldıq,
Tapılarımı səyyad olub izləsəm,
Şeyx Mövluddan, Vəli şirdən ayrıldıq.

Qənim ilən bir gün meydana girdik,
Qeyrət edib bir-birindən ön durduq,
Şol davada beş yüz at, adam vurduq,
Vallah, namus bilə ardan ayrıldıq.

On üç aydır qənim ilən vuruşduq,
Qeyrət edib su yerinə qan içdik,
Minənə bir olub durduq, duruşduq,
Huri Pəlvan adlı nərdən ayrıldıq.

Kəc fələkdir, yenə kəcliyin etdi,
Kürd, türk xanları murada yetdi,
Uca rəbbim, imam Rza əl tutdu,
Siddiq Məxdum, Hacı Şirdən ayrıldıq.

Bu əsrdə müzəffərdir pirimiz,
Şəhitlərdən dərs aldıq hər birimiz,
Meydana girəndə əsrik nərimimiz,
Altın-gümüş, qızıl-zərdən ayrıldıq.

Dosməhəmməd, könlüm səndən üzülməz,
Tarixdə yazılmış Ənəv pozulmaz,
Ey ağalar, bu dərdlərə dözülməz,
Yüz min hünər, yüz min kardən ayrıldıq.

DÖZMƏNƏM

Aycamal xan, dinlə ərzi-razımı,
Zəri-zivər taxışına dözmənəm,
Yanaraq keçirdim bahar-yazımı,
İndi canım yaxışına dözmənəm.

Öydən çıxıb niqabına bürünər,
Su quşu tək səyyadına sürünər,
Bivəfalıq rəsmi səndə görünər,
İndi canım yaxışına dözmənəm.

Pərilər nişanı vardır üzündə,
Heç xilaf tapmadım sənin sözündə,
Yol yürüsən, gözüm qalar izində,
Kəkilik kimi səkişinə dözmənəm.

Öydən çıxıb nə süzürsən humay tək,
Hüsnün şölə saçar göydəki ay tək,
Dəstələyib siyah zülfün yana çək,
Ağ üzünə töküşünə dözmənəm.

Allahdan istərəm alsın canımı,
Kirpiyin nəştərdir, töksün qanımı,
Yolunda tərk etdim xanimanımı,
Göz süzüb, qaş çəkişinə dözmənəm.

Dostməhəmməd, yardan ayrı qalıbsan,
Bil ki, özün eşq oduna salıbsan,
Dilbər, şivə ilə canım alıbsan,
Oğrun-oğrun baxışına dözmənəm.

YANDIRAR

Fəsli-bahar olub göyərsə düzlər,
Bülbül nalə çəksə, gülü yandırar,
Qara göz sərdarın dışında qızlar
Sallanıb gedəndə, yolu yandırar.

Getsə yolu yandırar,
Çıxsa çölü yandırar,
Qaş dartıb, yumşaq sözlər
Dodaq-dili yandırar.

Öpsəm yarın, dodağından, dilindən,
Qucaqlasam nazik, incə belindən,
Badə içsəm sevən yarın əlindən,
Məni ağ üzünün xalı yandırar.

Mənim gözüm xalında,
İxtiyarım əlində,
Candan umud üzmüşəm,
Baş qoymuşam yolunda.

Sərim qurban gözəllərin məstinə,
Göz dikibdir can almağın qəsdinə,
Gözə dəyən canı verim dəstinə,
Səkkiz hörük saçı dalı yandırar.

Saçda şana, sevdiyim,
Əldə xına, sevdiyim,
Gəl ikimiz qoşalım,
Canı-cana, sevdiyim.

Bilmirəm nə idi mənim günahım,
Çıxar asimana naleyi-ahım,

Özgə qula nəsib etdi Allahım,
Mənim eşqim pünhan çölü yandırar.

Çıxma çölə, dilbərim,
Bənzər gülə dilbərim,
Haq səni nəsib etmiş.
Özgə qula, dilbərim.

Dostməmməd ölüncə yolunda bəndə,
Hamının həsrəti qalıbdır səndə,
Sənin gözün məndə, mənimki səndə,
Nazik kəmər incə beli yandırar.

İncə belli zibasan,
Nə xoş gəldin suya sən,
Aşiqi öldürməyi
Neyçün rəva qılasan?

DEYİŞMƏ

Qurbanqulu:
Bir söz deyim, sənin halını sorum,
Dinlə sözüm əvvəl başdan, Dostməmməd!
Belə bivəfaya könlünü vermə,
Doldurma gözlərin yaşdan, Dostməmməd!

Dostməmməd:
Qulaq verin, xilaf yoxdur sözümdə.
Mail oldum belə yara mən, ata!
İxtiyarım olsa indi özümdə,
Eylərdim dərdimə çara mən, ata!

Qurbanqulu:
Gəl, atam, haqqımı yetir halala,
Batildən güzəşt et ləli camala,
Sonda, oğlum, yetişərsən kamala,
Çək əlini bu tələşdan, Dostməmməd!

Dostməmməd:
Ata, haqqın məndən əda olunmaz,
Neylək, canım sənə fəda olunmaz,
Bu eşq adı məndən cüda olunmaz,
Ta yetməsəm nazlı yara mən, ata!

Qurbanqulu bu sözdən sonra oğlu Dostməmmədə baxıb ürək ağrısı ilə dedi: -Ey oğlum, Dostməmməd, sən gözəl bir qıza aşiq olubsan. Gəl belə işlərə baş qoşma. Sən cavansan, belə işləri bilmirsən. O qızın eşqi ilə bağrın yanıb kabab olsa da, bil ki, onu sənə verməzlər. Gəl, ondan əl çək, bu yoldan dön, uyğun yerdən bir gözəl tapıb sənə alaq. Dostməmməd bir şey demədi, onlar qarşılıqlı şəkildə deyişməyə davam etdilər.

Qurbanqulu:
Haq yolunda zarın-zarın ağla sən,
Eşq oduna ciyər-bağrın dağla sən,
Öz sidqini öz yarına bagla sən,
Fayda yoxdur gözdən-qaşdan, Dostməmməd!

Dostməmməd:
Öz yarım çox yaxşı, dursun bu yanda,
Onun çox həsrəti vardır bu canda,
Məqsədə yetməsəm fani cahanda,
Heç baxmanam namus-ara mən, ata!

Qurbanqulu:
Qismətin budursa, nə gələr əldən,
Sən keçmə bu cürə narahat yoldan,
Oğul olsan tutgil yaxşı könüldən,
Çək əlini bu tələşdan, Dostməmməd!

Dostməmməd:
Zahir oldum həm ağıldan, həm huşdan,
Soruşun halımı tay ilə tuşdan,
Ölsəm ayrılmanam belə gənəşdən,
Düşmüşəm ataşa-nara mən, ata!

Qurbanqulu:
Qurbani der, aqil özün xar etməz,
Görən bivəfaya özün yar etməz,
Nə balasan, sözüm sana kar etməz,
Məğər sənin bağrın daşdan, Dostməmməd!

Dostməmməd:
Dostməmmədəm, haqqa boyun əyərəm,
Dönə bilsəm, mən bu yoldan dönərəm,
Hər sübhi-şam yar deyibən yanaram,
Düşmüşəm ataşa-nara mən, ata!

GƏLİNİN

Tərif etsəm bir gəlini, bir qızı,
Balı vardır dodağında gəlinin,
Yandırdı atəşə, hicrana bizi,
Bunca qaldım müştağında gəlinin.

Bir gəlin, bir qız var əli hünərdə,
Baxmaq ilə fər qalmadı nəzərdə,
Guya ki, açılmış vəqti-səhərdə
Qırmızı gül yanağında gəlinin.

İkisi də sığal vermiş özünə,
Bilməm hansı vəfalıdır sözünə,
Gözüm düşdü aya bənzər üzünə,
Bağım olsun ayağında gəlinin.

Gəlin cilvə eylər zərəfşan geyib,
Qız üçün aşiqlər qayğı-qəm yeyib,
Keşke öldürsəydi, biganə deyib,
Leşım qalsa qucağında gəlinin.

Gəlin külli gözəllərin sultanı,
Canım olsun ikisinin qurbanı,
Heyif olar, bir gün keçər dövranı,
Qucmalıdır xub çağında gəlinin.

Bilmədim dünyada nik ilə bədi,
Tapılmadı bu könlümün məqsədi,
Soruşsan bu qəmli Dostməhəmmədi,
O da gəzər sorağında gəlinin.

QARAGÖZ

Kimlər səni görüb düşmədi meyli,
Müştağındır aləm-cahan, qaragöz.
Mən Məcnunam, sən də guya ki Leyli,
Gəl olaq biz-bizə həmdəm, qaragöz.

Çöldə ceyran ilişərmi gözünə,
Qəndü nabat qatılıbdır sözünə,
Sən istərsən bir yaxşı yar özünə,
Mən də səni istərəm həm, qaragöz.

Cənnət hurisinə bənzər surətin,
Bəlkə huridən də çoxdur şöhrətin,
Mənim ahım çoxdur, sənin həsrətin,
İkimiz də qaldıq ərman, qaragöz.

Əndamın bəzərsən sim ilə zərdən,
Sənin tək nazənin doğmaz bəşərdən,
Mən əyaldan yarımadım, sən ərdən,
Gəl olaq biz-bizə canan, qaragöz.

Dostməhəmməd ötər, guya ki bülbül,
Bülbül ötər, amma hanı tazə gül,
Qədirsiz əlində ömrün oldu kül,
Heyif oldun sən növcavan, qaragöz.

ANNAQILINC MÖHTACİ
(1824 – 1884)

Gerçək adı Annaqılınc, təxəllüsü Möhtaci olan şair 1824-cü ildə Aşqabadın Köşi kəndində dünyaya gəlmişdir. XIX əsrin görkəmli şairlərindən biridir. Xallı Bəxşi ilə eyni kənddən olması və qonşuluğu onun şeirlərinin mahnı kimi xalq içində yayılmasını təmin etmişdir.

Möhtaci kənd məktəbini bitirmiş,ənənəvi türkmən mədəniyyətini, xalq dastanlarını dərindən öyrənmişdir. Gəncliyində sevdiyi və qovuşa bilmədiyi Annagülün həsrəti onu saza-sözə bağlamış, şairliyə sövq etmişdir.

Annaqılınc Möhtaci bir müddət İranda əsirlikdə qalmış, 1879-81-ci illərdə baş verən Göytəpə faciələrinin şahidi olmuş, 1884-cü ildə Köşi kəndində qızılca xəstəliyindən vəfat etmiştir. Onun çoxlu övladı olmuş, atası kimi şair olan oğlu Molladurdu maarif naziri vəzifəsində işləmişdir. Nəvəsi Murad da şair olmuşdur. Törəmələri Aşqabadda yaşayırlar.

Şairin eşq, vətən sevgisi və sosial mövzularda qoşduğu şeirləri bugün də bəxşilərin repertuarında mühüm yer tutur.

Möhtacinin öz əlilə yazdığı şeir dəftərləri hazırda Türkmənistan Elmlər Akademiyasının Milli Əlyazmalar İnstitutunda qorunur. Şairin zəngin irsi tədqiq edilmiş, şeir kitabları dəfələrlə nəşr olunmuşdur.

VARMI?

Xəbər verin, ey yaranlar,
Yazılanı pozan varmı?
Sevdiyindən ayrılanlar,
Firqətinə dözən varmı?

Aşiqlər qaçmaz adından,
Ellər yatmaz fəryadından,
Fərhad kimi eşq odundan
Qara dağı qazan varmı?

Gah qaynayıb, gah da coşub,
Kaknus kimi yanıb-bişib,
Yarı ilə başın qoşub,
Həmdəm olub gəzən varmı?

Altmışdan keçəndə salı,
Qalmaz könlündə xəyalı,
Möhtaci der, mənim yalı,[1]
Yardan əlin üzən varmı?

[1] Yalı – kimi.

SAÇIN

Mübarək camalın gördüm,
Huşum aldı bəlli saçın,
Görübən bitaqət oldum,
Nə gözəl, sığallı saçın.

Eşidən görməyə zardır,
Köyündə yanan bimardır,
Tam bir qulac boyu vardır,
Dörd barmaqdan enli saçın.

Sən oyanıb gecə yarı,
Eşit mənim ahı-zarı,
Fəqir bəndə xiridarı,
Gər verilsə pullu saçın.

Hər teli zildən çəkilən,
Otursan yerə tökülən,
Müşk ilə ənbər səpilən
Düzüm-düzüm güllü saçın.

Tax belinə zərli kəmər,
Dodağından yağ-bal damar,
Qırmızı bağ, gümüş tumar,
Qızıldan heykəlli saçın.

Mən bir səyyad, sən bir ceyran,
Mən qovaram, sən qaçarsan,
Möhtaciyə ovsun vuran,
Əfi ilan hallı saçın.

YAR

Neçə ildən bəri çəkdim cəfanı,
Cavanlıqda sənsən mehrim alan yar,
O qədər görmədim əhdi-vəfanı,
Boş səbəblə mənə düşmən olan yar.

Baxsam, qəmzən ilə canım yaxarsan,
Könlüm evin azdan-azdan yıxarsan,
Bimürvətsən, qan tökməyə baxarsan,
Sinəm üstə tiğsiz yara salan yar.

Zaman-zaman uzaq tutub özündən,
Canım həzər edər ala gözündən,
Sümüklərim lərzan vurar sözündən,
Cismimin şəhrinə talan salan yar.

Aşık olan məşuq könlünü yıxmaz,
Səndən özgə adam nazımı çəkməz,
Ölsə Möhtacidən ikilik çıxmaz,
Tapılmaz sözümdə zərrə yalan, yar.

BİLƏN VARMI?

Ey yaranlar, xəlayiqlər,
Bu dərdimdən bilən varmı?
Eşqin odu yaman, canlar,
Qərib könlüm alan varmı?

Tez gəlibdir qışın, yazın,
Sonalı, ördəkli qazın,
Xallı ilə Aman qızın
Obasından gələn varmı?

Ağ üzündə xalı kiçik,
Topuqda xalxalı kiçik,
Ey oturan ulu-kiçik,
Bu sözümdə yalan varmı?

Ceyranım ovlatdım düzdən,
Qanlı yaşım axar gözdən,
Hey, xəbərin varmı bizdən,
Qara bağrım dələn varmı?

Gərdanında bitən güllər,
Qıldan nazik incə bellər,
Bilərzikli bəyaz qollar,
Bu boynuma salan varmı?

Möhtaci der, oldum gəda,
Yar yolunda canım fəda,
Axırında versə xuda,
Sevdiyini alan varmı?

İRAQDA DURMA

Nazlı dilbər, bir diləyim var sana,
Söyləyim ərzimi, iraqda durma,
Neçə vaxtdan bəri oldum zar sana,
Köyündə yanmışam, könlümü burma.

Aşiq əvvəl çəkər cövri-cəfanı,
Axırında görər mehri-vəfanı,
Qurtarma gəl sürən zövqi-səfanı,
Bekar gəzib, ömrün yelə sovurma.

Arzu edər duyub, görməyən adam,
Şirinə bənzərsən, mən də Fərhadam,
Müjgənin xəncərdir, ləblərin badam,
Zəbanın şərbətdir, ləblərin xurma.

Görsəm gül üzünü, könlüm xoş olar,
Yatan zaman, yar, cəmalın düş olar,
Biri bilsə, el-obaya faş olar,
Hər yetər-yetməzə sirrini vermə.

Qara saçın qara dağın şahmarı,
O səbəbdən oldum eşqin bimarı,
Səhər durub, ver özünə tumarı,
Əlinə xına yax, gözünə sürmə.

Bəndə olan candan sevər cananı,
Qurban edər sevdiyinə bu canı,
Mən olmuşam qara qaşın qurbanı,
Pərvanə tək cismim yaxıb, qovurma.

Gər söyləsəm, rəqiblərə xoş olar,
Söyləməsəm, öz işlərim yaş olar,
Yalançıda yaxşı-yaman huş olar,
Qoca Möhtacini əlindən vermə.

DEYİŞMƏ

Gəlin:
Gəlib-keçəndən vəhm eylə,
Gözləmə, oğlan, gözləmə.
Şirin canına rəhm eylə,
Gözləmə, oğlan, gözləmə.

İgid:
Mən bu sözlərə baxmaram,
Gözlərəm, gəlin, gözlərəm.
Heç bir kimsədən qorxmaram,
Gözlərəm, gəlin, gözlərəm.

Gəlin:
Mənimlə olmasın işin,
Sədəfdən bac alar dişim,
Qanını tökər qardaşım,
Gözləmə, oğlan, gözləmə.

İgid:
Sənin ilə vardır işim,
Gözlərəm, gəlin, gözlərəm.
Sədəfdən bac alar dişin,
Gözlərəm, gəlin, gözlərəm.

Gəlin:
Bülənd dağların qarısan,
Güldən bal çəkən arısan,
Utanmaz, üzün qurusun,
Gözləmə, oğlan, gözləmə.

İgid:
Aşiq məşuquna gəlməz,
Gəlsə də oynayıb-gülməz,
Düz aşiqdə həya olmaz,
Gözlərəm, gəlin, gözlərəm.

Gəlin:
Qaşım cəllad, gözüm yağı,
Ürəyimə çəkdin dağı,
Üzdən öpüş al uzağı,
Gözləmə, oğlan, gözləmə.

İgid:
Sabah olar, qonşun yatmaz,
Sevən muradına yetməz,
Öpüş ilə bu iş bitməz,
Gözlərəm, gəlin, gözlərəm.

Gəlin:
Sallanıban gəl oynuma,
Qolunu dola boynuma,
Olmasa gəl gir qoynuma,
Gözləmə, oğlan, gözləmə.

Möhtaci der, aydın gecə,
İncə belin quca-quca,
Bir dərdim yox ta ölüncə,
Gözlərəm, gəlin, gözlərəm.

DEYİŞMƏ

Aman xan:
Ərəb atı sürən igid,
Düz bura gəl, düz bura gəl.
Cəzirədə duran igid,
Düz bura gəl, düz bura gəl.

Söyeq batır:
Qadir Allahı çağırıb,
Yalnız çıxdım düzə bu gün,
Məgər kəlləmi alasız,
Yaxın gəlməm sizə bu gün.

Aman xan:
Altından qaçar qayalar,
Ənsənə nizə dayanar,
Paltarın qana boyanar,
Düz bura gəl, düz bura gəl.

Söyeq batır:
Savaşda yoldaş yoxlanar,
Düşmən yolu bərk saxlanar,
Bir oxla min quş oxlanar,
Dov gələrəm yüzə bu gün.

Aman xan:
Gərək igid ola hər bab,
Qılınc iti, donu zərbab,
Cavan ömrü etmə xarab,
Düz bura gəl, düz bura gəl.

Söyeq batır:
Kəsilərsə əgər başım,
Yasım tutar tayım-tuşum,
Bu meydana düşsə leşim,
«Aman!» deməm sizə bu gün.

Aman xan:
Çaqqallara şam edərəm,
Ac qurdlara yem edərəm,
İgid, səni ram edərəm,
Düz bura gəl, düz bura gəl.

Söyeq batır:
Ərəb atı qaşovlaram,
Ac börü tək ov ovlaram,
Ləşkərini tək qovlaram,
Yayaram bu düzə bu gün.

Aman xan:
Dünyada «mən» deyən xandır,
İgidlərim sanbasandır,
Mənim adım Aman xandır,
Düz bura gəl, düz bura gəl.

Söyeq batır:
Möhtaci, tərifin yetir,
Birbaşa meydana gətir,
Bizə derlər Söyeq batır,
Qan dolubdur gözə bu gün.

MİSKİN QILINC
(1845 - 1905)

A.N.Samoyloviçin fikrincə, XIX əsrin son görkəmli şairlərindən biri olan Miskin Qılınc 1845-ci ildə Xivə şəhərində, digər alimlərin fikrincə, 1850-ci ildə Gürgəndə doğulmuşdur. Bu fərqin səbəbi odur ki, 1836-cı ildə İran şahı Türkmənistana hücum edərkən 9 min türkmən Xivəyə köç etmiş, onların əksəriyyəti 20 il sonra geri qayıtmışdır. Rus aliminin fikrincə, şair Xivədə qalan ailədə, türkmən alimlərinin fikrincə, geri qayıdan ailədə dünyaya gəlmiştir. Miskin Qılınc 1905-ci ildə Gürgənin Qılıncişan kəndinndə vəfat etmiştir.

Miskin Qılınc əvvəlcə mollaxanada, sonra mədrəsdə oxumuş, təhsilini başa vurduqdan sonra müəllim işləmiş, əkinçiliklə məşğul olmuşdur. Şair 32 yaşında evlənmiş, iki qızı, bir oğlu olmuşdur. Öldüyü zaman oğlu yeddi yaşında imiş. Törəmələri hazırda Qarrıqalada və Gürgəndə yaşayırlar.

Miskin Qılınc öz böyük sələfləri Məxdumqulu və Zəlilinin sənət anlayışını davam etdirmiş, lirik-pastoral poeziyaya, ictimai-sosial məzmunlu şeirə böyük töhfələr vermişdir. Onun əsərləri arasında təbiətə dair şeirlər də az deyil.

Şair «Batır Nəfəs» adlı bir mərsiyə-dastan və «Bəyzadə Qurban» adlı bir mənzum hekayə də qələmə almışdır.

Miskin Qılıncın heç də bütün əsərləri bizə gəlib çatmamışdır. Onların yalnız bir qismi Milli Əlyazmalar İnstitutunda saxlanır.

Əsərləri kitab halında dəfələrlə nəşr edilmişdir.

DAĞLAR

Uzaqdan görünər bülənd, heybətli,
Sis-çəndir, dumandır, qardır bu dağlar,
Cana rahat, yüz min dürlü nemətli,
Haqdan gələn rəhmət-nurdur bu dağlar.

Soyuq suyu xəstələrin dərmanı,
Dərdə şəfa olar, sağaldar canı,
Halallıq məskəni, mənzil-məkanı,
Səslənib çağırsan, yardır bu dağlar.

Bədəsillər əsil olmaz, pak olmaz,
Yüz min yusan, zatı qara ağ olmaz,
Ölməz, itməz, heç qocalmaz, yox olmaz,
Qədim ül-əyyamdan vardır bu dağlar.

Əjdəha-marları burda dolanar,
Təkə, qoç, ağ maral burda sulanar,
Şahin salsan, kəkilik, turac ovlanar,
Pələngdir, qaplandır, şirdir bu dağlar.

Qəmgin adam gəlsə, könlü açılar,
Çaylarından cənnət suyu içilər,
Allahın rəhməti burda saçılar,
Dövlətdir, himmətdir, nurdur bu dağlar.

Yaz olsa açılar min dürlü gülzar,
Varıb görgil, əgər olsan xiridar,
Üzüm var, incir var, alma, ənar var,
Bostandır həm bağdır, vardır bu dağlar.

Miskin Qılınc, çıxdın düşmən qəsdindən,
Dəlisindən, məcnunundan, məstindən,
Çox cananlar keçmiş bunun üstündən,
Bu gün bizə müyəssərdir bu dağlar.

BU DAĞLAR

Üstündən yol düşsə, könlün məst olar,
Həmişə biqəmdır, xoşdur bu dağlar,
Ürəkdə dərd qalmaz, qayğı nist olar,
Rəhmətdir, dəryadır, coşdur bu dağlar.

Büləndində Halat Nəbi yatandır,
Çox ərənlər burda məskən tutandır,
Xızır, İlyas yollarından ötəndir,
Hər kimə bir güzər, düşdür bu dağlar.

Bülbüllər ötüşər, qönçə güldədir,
Haqqın zikri, həm sənası dildədir,
Savaş günü qısılana daldadır,
Ər igidə mərd yoldaşdır bu dağlar.

Bahar olsa, çarvadarlar çıxarlar,
Otlağında nər, mayalar baxarlar,
Sinəsindən buz bulaqlar axarlar,
Dağların içində başdır bu dağlar.

Burdadır məkanı şikarın, ovun,
Buradır məskəni pərinin-devin,
Nalını, mıxını tökər bədəvin,
İti-iti qara daşdır bu dağlar.

Geyik, qulan, şahin, laçın quşları,
Çəmən-çəmən təkələri, qoçları,
Altın-gümüş olar tamam daşları,
Xana dövlət, başa tacdır bu dağlar.

Miskin Qılınc, yüz min dərdin şəfası,
Dəysə olar dağlarının səfası,
Bu dünyanın yoxdur zərrə vəfası,
Viran olar, sonu heçdir bu dağlar.

OLMUŞ KİMİ

Yar ağlını aldırmış,
Divanə olmuş kimi,
Gül bənizin soldurmuş,
Qəmxanə olmuş kimi.

Bilmən niçin məhvəşdir,
Müdam könlü qəmkeşdir,
Gözləri dolu yaşdır,
Giryanə olmuş kimi.

Ərz etsəm deyər, yara:
«Qoyma məni azara!»
Bu könlümə, əğyara
Həmxanə olmuş kimi.

Şah durmaz ədalətdə,
Ləşkəri nədamətdə,
Ya təni-məlamətdə,
Əfsanə olmuş kimi.

Cadudan oldum şair,
Bənd etdi saça sehr.
Mənim başıma axır,
Zəmanə olmuş kimi.

Söz desəm, gələr qəhri,
Ağzında dolu zəhri,
Dostundan gedib mehri,
Düşmanə olmuş kimi.

Gəhr ilə cavab etdi,
Halımı xarab etdi.
Bağrımı kabab etdi,
Büryanə olmuş kimi.

Düşvar onu tərk etmək,
Vəslindən iraq getmək,
Bilməm ki, ona yetmək,
Gümanə olmuş kimi.

Miskin Qılınc qələndər,
Uçmağa yox qanad-pər,
Bizdən bu gün ol dilbər,
Biganə olmuş kimi.

AYRILSA

Pis olar gözəlin halı,
Tay ilə tuşdan ayrılsa,
Bigörk olar yar camalı,
Göz ilə qaşdan ayrılsa.

On beş yaşda eşqə minər,
Yirmidə əlvana dönər,
Vara-vara eşqi sınar,
Yirmi beş yaşdan ayrılsa.

Otuzdur eyni mahalı,
Qırx beş yaşda sonki halı,
Əsər qocalıq şəmalı,
Əllidə saçdan ayrılsa.

Altmış yaşda olmaz cuşu,
Yetmişdə tökülər dişi,
Səksən yaşda qaçar huşu,
Ağılı başdan ayrılsa.

Doxsan yaşda görməz kordur,
Yüz yaş kimə müyəssərdir,
Son mənzili axır gordur,
Can həm cəsəddən ayrılsa.

Gözəl, halın zəbun olar,
Gözdə yaşın Ceyhun olar,
Əvəzbikə Məcnun olar-
Miskin Qılıncdan ayrılsa.

HİKMƏTLİ

Aləmi geşt edib, bir gözəl gördüm,
Hekayətli, əfsanəli, hikmətli,
Hüsnün görüb, tən verdim,
Aftab deyib, can verdim,
Dəydi mana cilvəsi, sərdən keçib can verdim,
Bir təzə can verdi, yerimdən durdum,
İsa kimin dəmli, əcəb hümmətli.

Saqi verdi, mey-məhəbbət içildi,
Könlüm xüruc etdi, dilim açıldı,
Məhbub donu biçildi.
Gözüm yaşı saçıldı,
Dedi dilbər: «Ey aşiq, söylə, halın nə oldu?»
Mən dedim: «Könlümə çox söz keçildi»,
Yar dedi: «Bəyan et, dilin rüxsətli».

Mən dedim: «Görmədim sənin tək dildar,
Kəkilləri çil-çil, zülfləri tar-tar».
Dedi: «Nə xəyalın var?»
Mən dedim: «Visal dərkar.
Boynunda qolum olsa, qoynunda məskənim var».
Yar dedi: «Səbr eylə, olma biqərar,
Əlbət, olar möhnət sonu rahətli».

Dedim: «Səbr etməyə yoxdur məcalım».
Qucaraq, boynuna doladım qolum,
Dedi: «Çəkil, ey zalım,
Yetər sana zavalım,
Bu iş sana layiqmi, özün övladi-alim»,
Mən dedim: «Görürəm, sormursan halım,
Bura sana məkan, mana yox dəxli.

Qəhərlənib durdum qolumu çəkib,
Tutdu ətəyimdən bir gülüb baxıb,
Yar dedi qaşın dartıb:
«Hara vararsan çıxıb?
Bu sana bir nazımdır, saqın duymasın rəqib».
Miskin Qılınc ol dəm kinini töküb,
Sarmaşıb yar ilə oldu işrətli.

DİLBƏR

Arzum eşit, cananım, sirri-nihana, dilbər,
Ağlamaqdan gözlərim oldu giryana, dilbər,
Məni belə çox yaxma dağı-hicrana, dilbər,
Rəhm eylə cana, dilbər,
Gəldim amana, dilbər,
Bənzərsən xana, dilbər,
Hökmün rəvana, dilbər.

Bağ içində sən özün tər açılan gül etdin,
Mən qəribi eşqində şeydayi-bülbül etdin,
Vüsaldan uzaq tutub hər bir günüm il etdin,
Sultan başım qul etdin,
Gövhər idim, kül etdin,
Başım qara pul etdin,
Keçmədim sana, dilbər.

Dostları qəmgin edib, düşmənləri güldürüb,
Qoç-quzu mən, qurban et, öz qapında öldürüb,
……..
Könlüm qəmlə doldurub,
…….
Axır məni öldürüb,
Qalarsan qana, dilbər.

Əvvəla, təklifinə məhrəm etdin, yar məni,
Axırında ölüncə bir görməyə zar məni,
Belə cəfalı gündən kaş ki uda yer məni,
Bimarı sevəni və sevməyəni,
Ay günlərin xərməni,
Dön müsəlmana, dilbər.

Ölüncə ümidim var ol şəmi-çırağından,
Ölsəm canım qurtarar, ol gərdi-ayağından,
Ey gözəllər sərvəri, yandım ki fərağından,
Öpsəm ki yanağından,
Sorsam ki dodağından,
Hər nə cəfa eyləsən, əl götür bu bağından,
O ki bir yana, dilbər.

Bivəfalıq yaraşmaz aşiqlərin şanına,
Rəhm et Leyli-Məcnunun edən etibarına,
Od çıxardı ağzından, yarı düşsə yadına,
Yet aşiqin dadına,
Naleyi-fəryadına,
Yandım eşqin oduna,
Oldum pərvanə, dilbər.

Miskin Qılınc, yar, sənin əslin gövhər, zatın pak,
Qaşın hilal, üzün ay, yerin asiman, əflak,
İkimizə bir köynək, qoy yaxası olsun çak,
Sənə, mənə bir qəbir, kifayətdir, olsun xak,
Dövran sürək varınca
Məzaristana, dilbər.

AHI-ZAR

Dağın desəm Mədəd ilə Nəfəsin,
Eşidənlər ağlar, çəkər ahı-zar,
Bir zaman söyləyim, siz qulaq asın,
Yaxın gəlsin, hər kim olsa xiridar.

Hər biri nər kimi əsrik, məstdilər,
Rüstəm tək pəhlivan, zəbərdəstdilər,
Bir-birinə can verici dostdular,
Cahanda yox onlar kimi vəfadar.

İkisi savaşa birgə çıxardı,
Biri şimşək kimi göydə çaxardı,
Biri at qoşdurub, adam yıxardı,
Birisi sərkərdə, birisi sərdar.

Birisi dağların marı-əjdəri,
Birisi meşənin qaplanı-şiri,
Sarsıdar göyləri, titrədər yeri,
Vursalar düşmana qılınc-zülfiqar.

Görənlərin yanar bağrı, ürəyi,
Külli göklən, söyünxanın gərəyi,
Yıxıldı qınığın iki dirəyi,
Biri arxa, dağdı, biri dal, çinar.

Nəfəs əvvəl öldü Mədəddən, bilin,
Mədəd vurdu sonra xalqa dağ-düyün,
İkisinin arasıdır əlli gün,
Bir yerdə oldular ikisi məzar.

Fani dünya kimə pəyan eylədi.
Ancaq abadları viran eylədi,
Dağlarını xalqa dastan eylədi,
Qələm alıb Miskin Qılınc xoş güftar.

GƏLİR

Bir qız, bir gəlin, bir cüvan,
Çıxmış otağından gəlir.
Biri diğərindən xuban,
Firödvs bağından gəlir.

Gəlir sallana-sallana,
Ala gözlər xumarlana,
Bənzər şahbaza, tərlana,
Əjdəha dağından gəlir.

Oyan, nazlı yarım, oyan,
Eşqin dərgahından boylan,
İgidə xeyirlə ziyan,
Qız ilə gəlindən gəlir.

Aman, ey sevdiyim, aman,
Mənim sərim sənə qurban,
İstər yaxşı, istər yaman,
Hər kəsə felindən gəlir.

Miskin Qılınc, yarın səsi,
Artırar məndə həvəsi,
Müşki-ənbər rayihəsi,
Yarın buxağından gəlir.

DÖVLƏTMƏMMƏD BALQIZIL
(1854 – 1912)

Türkmən ədəbiyyatı tarixində iki Seydinin başına gələn bir-birinə qarışdırma olayı Dövlətməmməd Balqızıldan da yan keçməmiş, onun şeirləri səhvən Dövlətməmməd Azadinin adına çıxılmışdır. A.N.Samoyloviç 1930-cü ildə işə qarışana qədər Balqızıl kölgədə qalmışdır.

Türkmənlərin yomud boyunun qızıl tayfasına mənsub olan Dövlətməmməd 1854-cü ildə Əsənqulu bölgəsində dünyaya gəlmişdir. Yomudlarda «ballı» sözü qardaş deməkdir. Şair öz təxəllüsünü bu sözlə tayfasının adının birləşməsindən almışdır. Bəzi şeirlərində təxəllüsü ilə birlikdə adını da göstərmişdir.

Balqızıl 1912-ci ildə Əsənqulunun Qurbansaz kəndində vəfat etmişdir. Yaxın bir keçmişdə yaşamasına baxmayaraq bizə şairin vur-tut otuza qədər şeiri gəlib çatmışdır. Bunun əsas səbəbi o dövrdə baş verən dağıdıcı savaşlar, yağmalama, talan etmə olaylarıdır. Ona görə də onun ədəbi irsinin çox böyük bir qismi itib-batmışdır.

Dövlətməmməd Balqızılın yaradıcılığında lirika mühüm yer tutur. Şair türkmən qızlarının misilsiz gözəlliyini, ismətini, saflığını parlaq boyalarla təsvir etmişdir. Onun bəzi əsərləri isə sosial məsələlərə, kasıbların acınacaqlı halına, varlıların amansızlığına, zəmanənin qəddarlığına həsr olunmuş şeirləri də var.

Balqızılın türkmən ədəbiyyatı qarşısındakı əsas xidməti dilinin canlı xalq dilinə yaxın olmasıdır. O, Məxdumquludan sonra ən xəlqi şairlərdən biri sayılır.

XIX əsr türkmən ədəbiyyatının son azman şairi Dövlətməmməd Balqızılın yaradıcılığı ilə klassik dövr başa çatır.

KÖNLÜM SƏNİ

Qərib könlüm, məlul olma,
Şad edərəm, könlüm səni.
Məlul namərdin işidir,
Xoş edərəm, könlüm səni.

Aşiq isən, söylə cavab,
Mehrin yoxdur, halım xarab,
Altın kasa, gülgün şərab,
Nuş edərəm, könlüm səni.

Qarışma rəzil, rüsvaya,
Bulaşma sən bivəfaya,
Dünyadakı dilrübaya
Baş edərəm, könlüm səni.

Dövlətməmməd, könül xoşum,
Yara qurban olsun başım,
Axsa giryan gözdə yaşım,
Bəxş edərəm, könlüm səni.

ARANIZDA

Qara gözlü, qaşı kaman,
Əzizim yox aranızda.
Mələksima, sahibcamal,
Əzizim yox aranızda.

Qızlar yığnaqda cəm olub,
Giryan ağlaram, qəm olub,
Sevdiciyim harda qalıb,
Əzizim yox aranızda.

Siz bir maral, o bir sona,
Bənzəyərmi başqasına,
Salamımı deyin ona,
Əzizim yox aranızda.

Yar-yar deyib ötən dillər,
Yar bağında qönçə güllər,
Qəddi şümşad, incə bellər,
Əzizim yox aranızda.

Dövlətməmməd yara bəndə,
Cəfasın çəkdim hər gündə,
Xəbər üçün gəldim mən də,
Əzizim yox aranızda.

GƏLİN

Ağ üzünə çəkib pərdə,
Yaxma şirin canı, gəlin,
Gül istəsən, gül verərəm,
Qurban beşi-onu, gəlin.

Adının bir hərfi be-dir,
Önü əlif, sonu te-dir,
Bu süfrəyə bir mey gətir,
Geyib yaşıl donu, gəlin.

Siyah zülfün töküb üzə,
Görüb aşiq olduq sizə,
Can gözüylə bir bax bizə,
Gəlinlər sultanı, gəlin.

Sanki görkün Şahigülzar,
Üzünə aləm intizar,
Hüsni-ruyin Bilqeyscə var,
Gəlinlərin xanı, gəlin.

Dövlətməmməd aşiq gülə,
Məqsədin Allahdan dilə,
Ağ qolun boynuma dola,
Ötdü beş gün fani, gəlin.

YAŞ GƏTİRDİM

Ey yaranlar, müsəlmanlar,
On dörd-ob beş yaş ötürdüm,
Məclis ilə mərəkədə
Yaş üstünə yaş gətirdim.

Dünya kimə verdi vəfa,
Bir dəm kədər, bir dəm səfa,
Dütar çalınca hər dəfə
Ağıl-huşumu itirdim.

Heyif, zehnim avam oldu,
Avamlıqla davam oldu,
Ötən günə salam oldu,
Gözlərimə yaş gətirdim.

Ey yalançı fani, sənin...
Sən hamıya oldun qənim,
Hanı siyah zülfüm mənim?
Düşündüm, durdum-oturdum.

Gəzərdim yarın bağında,
Bülbül kimi budağında,
Ötərək səhər çağında
Gülü bülbülə yetirdim.

Deyər Dövlətməmməd dəli,
Azdırar dünyanın malı,
Dünya bir mehman misalı,
Bilmədim, nə iş bitirdim.

LÜĞƏTÇƏ

A

Abdal – dərviş, qələndər; Allah bəndəsi.
Abnus – qara rəngli bir ağacın adı. Bu ağac yandıqda xoş iy verir.
Abtər – gözü yaşlı, nəmli.
Adəm –yoxluq, yox olma; Adəm peyğəmbər.
Afaq – dünya, aləm, cahan; üfüq.
Afəriniş – yaradılış, yaratma, varlıq, dünya.
Aftab (afitab) – günəş. Afitabi-aləm ara – aləmi bəzəyən günəş; Məhəmməd peyğəmbərin epiteti.
Ağaz – başlanğıc, ön. Ağaz eyləmək, qılmaq – başlamaq.
Ahənrüba – maqnit; özünə cəzb edən.
Ahi-dil – ürək naləsi, qəlb ağrısı.
Altın qabaq – qədim bir oyun. Toyda və bayramlarda meydançanın ortasına uzun bir ağac basdırılır, onun başına qızıl bilərzik və ya üzük bərkidilirdi. İgidlər at çapa-çapa gələrək əvvəlcədən müəyyən edilən məsafədən ona ox atırdılar. Kimin oxu halqanın (üzüyün) ortasından keçsə, həmin bilərziyi, yaxud üzüyü nəmər olaraq alırdı.
An – o. An su – o tərəf.
Aram – dinc, rahat, arxayın.
Aramgah – dincəlmə yeri; düşərgə; məzar, qəbristan.
Ariz – üz, yanaq; ərizə verən, şikayətçi.
Asa – rahat, dinc; bənzər, oxşar.
Asib – bəla, müsibət, ziyan, zəlil; məşəqqət, külfət, xorluk.
Astan(a) – işıq, dərgah, qapının önü, girəlgə; şah guşəsi.
Asi – üsyan edən, üsyankar; tabe olmayan, boyun əyməyən.
Aşüftə – özünü itirmiş, həyəcanlı; qarışıq; dəlicəsinə vurğun, aşiq.
Aşub – qovğa, gurultu, çaxnaşma; fitnə.
Avam – qara kütlə, cahil, savadsız.
Avazə – şan, şöhrət; şayiə; mahnı.
Ayaq – piyalə, kasa, qədəh, içki içilən cam.

B

Ba – ilə.
Ba xud – özü ilə, öz yanı ilə.

Bad – yel, hava, külək. Badi-xəzan – xəzan yeli, soyuq payız yeli, badi-səba – sərin səhər yeli.

Bal – qanad.

Baliğ – yetişən, yetkinlik yaşına çatan; layiq, münasib.

Barlas – türk boylarından biri.

Baş – baş, kəllə; yara.

Beyt – ev, yer. Beytül-əqsa – ən uzaq ev (Qüdsdəki məşhur cami, Məkkədən uzaqda yerləşdiyi üçün belə adlanmışdır). Beytül-müqəddəs–Qüds, Yerusəlim. Beytül-hərəm–müqəddəs ev, yer, Məkkə. Beytullah – Allahın evi, Kəbə.

Bəççə/beççə/beçə – çaga, uşaq, bala, oğlan.

Bəhr – dəniz, ümman. Bəhrü bərr – dəniz və quru yer.

Bərdar – dardan asılmış.

Bərhəqq – doğru, həqiqət, gerçək.

Bərhəm – dağınıq, qarışıq, pozulmuş.

Bərcəstə – məşhur, görkəmli, ali dərəcəli.

Bərkamal – bütünlüklə, nöqsansız, qüsursuz.

Bərna – cavan, gənc, igid.

Bərq – ildırım, parıltı.

Bərr – quru, yer.

Bəsi – çox, kifayət qədər.

Bəstər – döşək, yorğan-döşək.

Bəşir – müjdəçi, muştuluq gətirən.

Bədxu – pisxasiyyət.

Bəzm – toy, məclis, keyfi-səfa. Bəzmara – toy-məclisin bəzəyi.

Biəba – laqeyd, cəsur, qoçaq, qorxu bilməyən.

Biövni – yardımı ilə, köməyi ilə.

Bibax – bahadır, igid, qorxu bilməyən.

Biğəş – xalis, saf, təmiz, pak, qatışıqsız.

Biqiyas – misilsiz, tayı-bərabəri olmayan; çox, hədsiz çox.

Bixar – tikansız.

Bihədd – saysız, çox.

Bikəran – saysız, çox; sahilsiz.

Bilqeys – rəvayətə görə, Yəməndəki Səba şəhərinin qadın şahı. Süleyman peyğəmbər ona aşiq olub evlənmişdir.

Bim – qorxu, vahimə, xof.

Bimar – naxoş, sayru, xəstə.

Bina – göz, görmə, qəlb gözü açıq; ayıq-sayıq; bina.

Binagah – qəfil, qəflətən, birdən.
Binəva – biçarə, fağır, qərib.
Birivar – Allah.
Biriya – riyasız, üz görməyən, doğruçul.
Bistam – şəhər adı.
Biyaban – çöl, səhra, susuz yer.
Bivüzu – dəstəmazsız, abdəstsiz.
Budü nəbud – olmaq və olmamaq, varlıq və yoxluq.
Bukrat – Hippokrat (e.ə. 460-377); Loğman.
Bulğar – türk boylarından biri.
Bünyad – dib, özül, kök, təməl.
Büryan – bişirmə, qovrulan.

C

Ca(y)– yer, məkan.
Cabbar – Allah, tanrı, xuda.
Caddə – geniş yol, prospekt.
Cah – mərdəbə, dərəcə.
Cahan – dünya, aləm.
Cahangir – dünyanı alan.
Camə – əyin-baş, geyim, üst-baş.
Canfəza – cana can qatan, ləzzət verən, ruhunu coşduran.
Cəfər-Təyyar – həzrət Əlinin qardaşı. 627-ci ildə bizanslılarla savaşda şəhid olmuşdur. Vuruşmada iki əli çapılıb üzülsə də, bayrağı yıxılmağa qoymadığı üçün ona «təyyar zülcinaheyn» (iki qanadıyla uçan) ləqəbi verlimişdir.
Car(i) – elan etmək, car çəkmək.
Cavidan – həmişəlik, əbədi.
Cazim – qəti, kəskin qərar.
Cəbrayıl – Allah kəlamını Məhəmməd peyğəmbərə yetirən mələk.
Cəla – şölə, nur, parlaklıq; görk, görmək.
Cəla – yurdu tərk etmək, vətəndən ayrı düşmək, köçüb getmək.
Cəmşid – İran şahı, Təhmurəsin oğlu. Əsatirə görə, bir camı varmış, onun içində dünyanin hər yeri görünürmüş.
Cənnət – behişt, uçmaq. Cənnətil-məva – cənnət evi, asudə cənnət.
Cəfaeyn – cəbr-cəfa etməyi özünə peşə edən.
Cərahət – yara.
Cəridə – yalnız; nizə; dəftər; qəzet.
Cəzbə – həvəs, özünə çəkmə, cazibə.

Cərcis – Müqəddəs Georgi, dini rəvayətə görə, kəramətli peyğəmbərlərdən biri olmuş, düşmənləri onu yüz para edib öldürsələr də o hər dəfə dirilirmiş. Məzarı Azərbaycandadır.
Cında – cır-cındır, dərvişlərin geyimi.
Cöv – arpa.
Cuşü xüruş – coşma, qaynama, canlanma.
Çuçi – Çingiz xanın oğlu.
Cünun – dəlilik, divanəlik.
Cuybar – axar su, arx.
Cüz(v) – bölüm, hissə; az, azacıq.
Cünab getmək – yüyürmək, uğramaq, yola düşmək.
Cüstəcu etmək – gözləmək.

Ç

Çah – quyu.
Çahar (çar) – dörd.
Çakər – xidmətçi; şagird.
Çaki-giriban – yaxa yırtmaq, yaxa yırtıb ağlamaq.
Çarlatmaq – çağırmaq, çağırtdırmaq.
Çəlipa – dörd qat hörük. Zülfi-çəlipa – dörd hörük saç.
Çəndan – çox, güclü, artıq.
Çərik –qoşun, ləşkər, ordu.
Çün – səbəbilə, üçün.

D

Dad – ədalət.
Dadxah – ədalət istəyən, haqqını arayan.
Dağal – qəlp; cığal; hiylə, məkr.
Dam – duzaq, tələ.
Damad – kürəkən.
Damağ (dimağ) – beiyn, ilik, burun.
Damən – ətək.
Daniş – elm, ağıl.
Dar – ev, yer. Darül-fəna – yoxluq evi, bu dünya, fani dünya.
Dara – Kəyan şahı Darabın oğlu, 12 yaşında şah olmuşdur.
Dariğ – heyf, vah.
Daşbağa – tısbağa.
Davər – hakim, qazı; şah; Allah, tanrı, xuda.
Davud – yəhudi padşahı və peyğəmbəri, Süleyman peyğəmbərin atasıdır. E.ə. 1033-962-cı illərdə yaşamışdır. Gəncliyində çobanlıq

etmişdir. Boyca kiçik, lakin çox qüvvətli olmuşdur. On beş yaşında ikən zalım padşah Cəlludu öldürmək şərtilə Təllud şahın qızına evlənmişdir. Beytül-müqəddəsi kənanlılardan (fələstinlilərdən) alaraq paytaxt etmiş və ona Urşalim (Yerusəlim) adını vermişdir. Qırx ilə yaxın padşah və peyğəmbər olmuşdur. Çox gözəl səsi varmış.

Dey– kimi, təki, tək.
Deyr – bütxana, məbəd; meyxana; dünya, aləm.
Dəbistan – məktəb.
Dəkən – Hindistanda bir yer adı.
Dəmsaz – yaxın dost.
Dəniz – bu söz Əndəlibdə çay mənasında işlənir.
Dər an – bir dəmdə, dərhal.
Dərgah – qapı, işıq; qəbul edilən yer.
Dərməndə – aciz, haldan düşən.
Dəstgir olmaq – dəstəkləmək, yardım, kömək etmək.
Dəşt – çöl, səhra; geniş meydan.
Dəhr – dünya, aləm, cahan.
Didə – göz. Didə pürnəm – gözü yaşla dolu.
Dil – ürək, qəlb.
Diləfkar – ürəyi yaralı.
Dilxah – sirdaş, könüldaş.
Dilxəstə – ürəyi yaralı.
Dilkəş – özünə çəkən, könül cəlb edən.
Dilnəvaz – ürək açan, xoşagələn; sevgili.
Dilrüba – gözəl, könül alan; sevgili.
Divanəvar –dəli kimi, dəlicəsinə.
Doxtər – qız.
Dur – uzaq, uzaqlıq.
Dustan – dostlar.
Dürrac – turac.
Dürud – salam, salam vermə.
Dürc – sandıqca, qutu, mücrü; məc. sevgilinin ağzı.
Düruğ – yalan, qəlp, saxta, aldatma.

E

Elkən – pəltək.
Eyş – yaşayış, həyat, şadlıq, kef, nəşə.
Ey yuhənnas – ey insanlar, ey camaat.
Ecaz– möcizə, kəramət.

Ə

Ədn – cənnət, behişt; Yəməndə bir şəhərin adı.

Əbr – bulud, duman. Əbri-neysan – yaz buludu, yaz yağışı.

Əbru – qaş.

Əda – tərz; işvə, naz; davranış; həlak etmə, fəda olma; ödəmə; bəyan; kömək, yardım; yerinə yetirmə.

Ədu – düşmən, yağı.

Əlam – elmli, çox bilən; Allah, tanrı, xuda.

Əhəd – bir, tək, vahid; Allahın adlarından biri.

Əhbab– (təki: həbib) dostlar, sirdaşlar, yaxınlar; sevimli, istəkli.

Əhməd-muxtar – Məhəmməd peyğəmbərin bir adı.

Əhmər – qızılı, qırmızı, al.

Əhməd – Məhəmməd peyğəmbərin bir adı.

Əhzan–(təki: hüzn) qayğı, qəm, kədər. Beytül-əhzan – qəm evi; Yusifdən ayrı düşəndən sonra Yaqubun çəkilib oturdğu külbə.

Əhzər – yaşıl, göy (bitki barədə); göy, mavi.

Əcəm – ərəb olmayanlar; iranlılar.

Əli – Əli ibn Əbutalib (600-661). Məhəmməd peyğəmbərin əmisi oğlu və kürəkəni, dörd səhabədən biri. Peyğəmbərdən sonra dördüncü xəlifə (656-661). Şahimərdan (mərdlərin şahı), Əsədulla (Allahın şiri), Mürtəza (razı olunan), Səftər (səfpozan) kimi ləqəbləri var.

Əfğal – niyyət.

Əfkar – fikir, qayğı.

Əlan – indi, bu anda.

Ələm –əzab, qayğı, kədər, qəm, qüssə.

Əlfaz (ləfz) –söz demə, danışma. Ləfzi şəkər–şirin sözlü.

Əndəlib asa – Əndəlibə bənzər, bülbül kimi.

Ərbədə – dava, qalmaqal, mərəkə, gurultu.

Ərş – asiman, göy, asimanın ən uca yeri, yuxarı qatı; ucalıq, böyüklük; təxt. Ərşi-əzəm – böyük ərş.

Ərz – yer, torpaq; ölkə, diyar.

Ərzurum – Kiçik Asiyada bir şəhər.

Əsvəd – qara, qara rəng.

Əltaf – lütf sözünün cəmi, rəhimlilik, mehribanlıq.

Əmri-məhal – mümkün olmayan iş.

Ənbiya – nəbilər, peyğəmbərlər.

Ənbuh – çox, saysız-hesabsız.

Əndək – az, azacıq,

Ənduh – qəm-qüssə.
Ənfas – nəfəs, dəm.
Əngiz – cazibə, özünə çəkmə; -lı, -li, -lu, -lü.
Əncüm – ulduzlar.
Əncümən – məclis, yığınaq, yığıncaq.
Ərk – qala, köşk, qəsr, qalanın içi.
Əsb – at, madyan, ayğır.
Əsədulla –Əlinin ləqəbi; Allahın şiri deməkdir.
Əsər –üz, nişan, əlamət, təsvir; əsər, kitab, yazılı abidə.
Əshab(ə) – səhabələr, Məhəmməd peyğəmbərin yaranları.
Əsrar – sirr, gizlin.
Əsru – çox.
Əsrükginə – sərxoş, kefi kök.
Əşbəh – bənzər, oxşar.
Əşk – göz yaşı. Əşki-qəltan – gözdən axan damla.
Əşkani – İranda pişdadilərdən və kəyanilərdən sonra hökm sürmüş üçüncü sülalə. Bunlar fars deyil, parfiyalı saka tayfasına mənsubdur.
Əşrəf(i) – pul vahidi, qızıl pul.
Əyyub –Yaqubun nəslindən olan peyğəmbərlərdən biri.
Əz – -dan, -dən, çıxışlıq hal şəkilçisi; istək, həvəs, arzu.
Əz-ah – vah, heyf.
Əzdad – rəqiblər, düşmənlər, zidd olanlar.
Əhli-ginə – varlı, zəngin.

F

Fatihə – Qurani-Kərimin 1-ci surəsi; dua etmək.
Fatimə – Məhəmməd peyğəmbərin qızı, Əlinin əyalı.
Fəna – yox olma, ölmə.
Fəraq – həsrət, ayrılıq.
Fərar eyləmək – qaçmaq, qaçıb getmək.
Fərib – aldatma, hiylə.
Fərhad – Şirinə aşiq olan daş ustası.
Fərrux – şad, şadyana, bəxtiyar; mübarək.
Fərruh bal – qəlbi rahat, qəlbi şad, bəxtiyar.
Fərş – döşək.
Fərzanə – ağıllı, fəhmli, alim.
Fəta – igid, bahadır.
Fəttan – özünə çəkən; fitnəkar.
Fil-fövr – dərhal.

Filhal – o vaxt, o zaman, o anda.
Fiqh – şəriət elmi.
Firqətzədə – ayrılığa düçar olan.
Fitrət – təbiət, yaradılış, xasiyyət.
Föhş – söyüş, pis sözlər.
Füruğ – nur, şölə.
Füsun – əfsun, sehr, cadu.

G

Geysu – saç, zülf.
Gənc – xəzinə, var-dövlət.
Gərdun – fələk, çərxi-fələk, təqdir.
Gilan – İranda bir şəhər.
Giryan – ağlar, ağlayan.
Gövhərpaş – gövhər saçan, gövhər səpən.
Gur – qədim bir şəhər, bir vilayət adı.
Gülbün – qönçə; qızılgül kolu.
Gülcəbin – gülüzlü, gözəl.
Güli-bixar – tikansız gül, tikansız çiçək.
Gülrux – gül üzlü, gözəl.
Gümrah – yolunu azan.
Güvah – şahid.

H

Hadi – doğru yol göstərən.
Hafiz – saxlayan, qoruyan, hifz edən, Allah, tanrı, xuda.
Hatəm – Hatəm ibn Abdulla ibn Səəd, ərəblərin tay qəbiləsindən olan tarixi şəxsiyyət, səxavət simvolu, 605-ci ildə vəfat etmişdir.
Həbib – yaxın dost, yaxın adam. Həbibi-haqq – haqqın dostu, Allahın dostu. Məhəmməd peyğəmbərin ləqəbi.
Həddad – dəmirçi; qapıçı, gözətçi; zindanban, zindan keşikçisi.
Həcər – daş, bərk cisim. İbrahim peyğəmbərin ikinci əyalının adı.
Həft puşt – yeddi arxa.
Həftüm rəvaq – göyün yeddinci qatı.
Həmra – qızılı rəng.
Həmra(h) – yoldaş.
Həsən – Əlinin oğlu, Məhəmməd peyğəmbərin nəvəsi.
Həşəm – nökər, yasavul, xanın yaxın adamları.
Həşmət – heybət; böyüklük.
Hidayət – haq yoluna gətirmək, doğru yola salmaq.

Hindu – Hindistanın müsəlman olmayan sakini; buddist; qarayanız adam; xal.
Hisar – bərkitmə; hasar, qala.
Hövzi-Kövsər –cənnətdə axan Kövsər çeşməsinin hovuzu.
Hüseyn – Əlinin oğlu, Məhəmməd peyğəmbərin nəvəsi.
Hüveyda – aydın, açıq-aşkar.

X

Xa hunə – bu yerdə.
Xab – uyğu, yuxu. Xabi-qəflət – qafillik yuxusu.
Xamə – qamış qələm; ipək.
Xatəm – üzük, möhür; məşuqənin ləbi.
Xar – tikan; xor baxılmaq, rəzil olmaq, rüsvay olmaq.
Xasü avam – seçkinlər və qara kütlə; hamı.
Xatib – xütbəçi, xitab edən, vəəz edən.
Xeyl – ilxı, süvari qoşun.
Xeymə – çadır.
Xəndan – gülər üzlü. Xəndan-xəndan – gülə-gülə.
Xəsm – düşmən, yağı.
Xıdır (Xızır) – peyğəmbər.
Xırs – ayı.
Xirəd – fəhm, ağıl; huş.
Xotən – Kaşğara yaxın tarixi bölgə, müşk ceyranı ilə məşhurdur.
Xumar – kefli, sərxoş.
Xun – qan.
Xunabə – qanlı su; qanlı göz yaşı.
Xunçəkan – qanla dolu, qan damlayan, qanı tökülən.
Xunxar – qaniçən.
Xuraman – nazla, sallana-sallana yürüyən.
Xurşid – günəş.
Xülq – sifət, xasiyyət, qılıq, təbiət.
Xüruc – qalmaqal; çıxma; üsyan.

İ

İadə – qaytarma, geri vermə, cavab vermə.
İbtida – baş, ön, başlanğıc.
İdiş – qab, qab-qacaq, tabaq.
İdris–peyğəmbər, başqa dinlərdə Hermes, Ermis, Ahnuh kimi adlarla tanınır, misirlidir, çox səyahət etmişdir.
İməs (əməs) – deyil, yox.

İna – ağır zəhmət.
İnci mal – ata-ana tərəfindən verilən mülk, miras.
İqab – cəza, cəbr, əzab vermə, qınama.
İraq – dış, uzaq; Orta Şərqdə ölkə.
İskəndər– Makedoniyalı İskəndər (e.ə. 356-323). Şərqdə İskəndər Zülqərneyn adı ilə məşhurdur.
İsmayıl – İbrahim peyğəmbərin oğlu. Rəvayətə görə, İbrahim öz oğlu İsmayılı Allah yolunda qurban etmək istəmiş, bu zaman göydən bir qoç nazil olmuş, onu qurban kəsmişdir.
İsrafil – mələk. Dini imama görə, axırzaman olanda Allahın əmri ilə öz surunu çalacaq. Onun səsini eşidən canlılar öləcək, təkrar eşitdikdə isə hamısı diriləcək.
İtab – məzəmmət, danlama, əzab.
İrtibat – əlaqə, rabitə.
İştiyaq – şövq, həvəs, istək, arzu.
İşvə – naz, qəmzə.
İza – azar, əziyyət.
İzar – üz, yanaq.
İzhar – bəyan etmə.

K

Kamiyab – məqsədə yetirmə, üstünlik qazandırma.
Kamran – məqsədinə yetən, bəxtiyar.
Kan – xəzinə, sərvət.
Kavus – kəyanilər sülaləsinin ikinci şahı. Keyqubadın oğlu.
Key – ali mərtəbəli, adil (keçmişdə dörd sahın «key» titulu olub).
Keyin – üz, arxa, sonra.
Kəlim – sözləşən, həmsöhbət olan. Tur dağında Allahla danışan Musa peyğəmbərin (Kəlim, Kəlimulla) ləqəbi.
Kəmtərin – ən az.
Kənan – Fələstin, Yaqub peyğəmbərin vətəni.
Kərrar – güçlü hücum edən; həzrət Əlinin ləqəbi.
Kəsra (kisra) – Xosrov sözünün ərəbcə deyilişi; Nuvşirəvanın ləqəbi; sasani şahlarının ümumi adı.
Kəşmir – şəhər adı.
Kəttə – böyük.
Kəyani – İranda pişdadilərdən sonra hökm sürmüş əfsanəvi sülalə.
Kəyumərs – İran əsatirinə görə, ilk adam və ilk hökmdardır.
Kirdar – amal, hərəkət.

Kişvər – ölkə, yer, yurd.
Kön – «ol» deməkdir, Allah bütün aləmi «kön», yəni «ol» deyərək yaratmışdır.
Kövkəb – ulduz.
Kövn – varlıq, aləm, cahan.
Kövneyn – iki dünya, bu dünya və axirət.
Kövsər – cənnət çeşməsi, hovuz.
Ku (köy) – küçə. Kubəku – küçəbəküçə.
Kuh – dağ.
Külbeyi-əhzan – qəm evi.
Küşəndə – öldürücü, qaniçən.

Q

Qaffar – rəhmli, bağışlayıcı; Allah, tanrı, xuda.
Qamət – boy.
Qamu – hamı, bütün.
Qanun – simli çalğı aləti, Fərabi (IX əsr) təkmilləşdirmişdir.
Qarun – Tövratda və Quranda adı çəkilən qısqanc, paxıl şəxs.
Qasım Ənvar (1356-1433)–Gilanda, Heratda, Səmərqənddə yaşamışdır. «Ənisül-aşiqin» və «Məqamatül-arifin» adlı iki poeması var.
Qatil (Qatili-Əntər) – Əntər adlı düşməni yenən həzrət Əlinin ləqəbi.
Qazi – din və vətən uğrunda vuruşan; qəhrəman.
Qəddi-mövzun – boy-buxunlu.
Qəllac – kasıb, yoxsul, möhtac.
Qəltan – diyirlənən, yuvarlanan; yumru, girdə.
Qəmdidə – cəbr çəkən, xorlanan.
Qəmbər – Əlinin qulunun adı.
Qəmər – Ay.
Qərqab – suya batma, qərq olma.
Qəvvas – suda üzən, üzgüçü.
Qəza – üzə çəkilən qızılı rəng, ənlik; hadisə, qəza; cahad, savaş.
Qəzal– körpə ceyran; sevgili.
Qital – qanlı vuruşma.
Qulam – xidmətçi.
Qut – bəxt, iqbal.
Qüdəma – qədimkilər, ata-babalar.
Qüddüs – müqəddəs, pak, mübarək, ən əziz; Allah, tanrı, xuda.
Qülğulə – hay-küy, qışqırıq.

Qüreyşi – Məhəmməd peyğəmbərin mənsub olduğu ərəb tayfası.
Qütbül-ərən – ərənlərin piri. Əhməd Yəsəvinin ləqəbi.

L

La ilahə-illəllah – Allahdan başqa ilah yoxdur.
Laəql – ağlı gedən, sərxoş.
Lamənkan – məkansız; Allah, tanrı, xuda.
Laşərikə-vəhdahu – birliyinə şərik yoxdur.
Ləli-Bədəxşan – Bədəxşanda çıxan qiymətli daş, rubin.
Ləli-meygün – qırmızı şərab rəngində ləl.
Ləli-nəf – saf, xalis ləl.
Ləin – lənətli.
Ləhzə – göz açıb-yumuncaya qədər keçən vaxt, bir an.
Ləb – dodaq; kənar, dərya yaxası, dərya boyu.
Ləktun – Hindistanda bir şəhər.
Ləm yəzəl – həmişəlik, əbədilik, ölməz-itməz.
Leyl – gecə. Leylətül-merac – merac gecəsi.
Li – üçün.
Liqa – üz, camal.
Loğman – «Qisasül-ənbiya»da verilən məlumata görə, Həbəşistanlı bir ağac ustasının oğludur, Davudun zamanında yaşamışdır. Xalq arasında yayılan inama görə, Loğman 4400 il ömür sürmüşdür.
Lölö – dürr, inci, qiymətli daş.
Lövh – lövhə.
Lut – İbrahim peyğəmbərin qardaşı oğlu. «Qisasi-Rəbğuzi»yə görə, tam adı Lut ibn Xəzər ibn Bərih ibn Xarandır. İbrahim Fələstində, Lut Ürdündə (İordaniya) yaşamışdır. Ürdündə Darduma (Duma), Amura, Sevan (Səna), Sədum, Suar (Səva) atlı beş böyük şəhər varmış. Haq yoldan azdıqları üçün bu beş şəhər əhalisi ilə birlikdə yerə batmışdır. Yəbd, Məşhur, Qub və Qut adlı dörd bütə sitayiş etmişlər.
Lübə –oyuncaq.
Lücac –su, dərya.

M

Mahi-Kənan – Kənanın ayı. Yusif peyğəmbərin ləqəbi.
Mamuq – pambıq; yumşaq.
Manənd – bənzər, oxşar.
Matəmqəza – yas, ölümlə bağlı qəm-qüssə.
Matamsəra – yasxana, qəmxana.
Mavəranünnəhr – Amu-Dərya ilə Sır-Dərya arası.

Mehrab – məscidin içində üzü Məkkəyə baxan hündür yer.
Mehr– gün. Mehr-məh – günəş və ay.
Meygün – al şərabın rənginə yaxyn qızılı rəng.
Meykədə – mey içilən yer, meyxana.
Məbrur –günahı bağışlanmış; ölmüş, vəfat etmiş.
Məcruh – yaralı.
Mədhuş – huşsuz, ağlını itirən.
Mədum – yox edilən, yaşamayan, itib gedən.
Məhcub – utancaq, həyalı.
Məhliqa – ayüzlü.
Məhərrəm – hicri-qəməri təqvimin birinci ayı, aşura ayı.
Məhfil – yığınaq, məclis, dərnək.
Məhuf – xoflu.
Məhvəş – ay kimi, aya bənzər.
Məhzun – hüznlü, qayğılı.
Məqal – söz, gap.
Məlayik – mələklər.
Məlun – lənətlənən; şeytan.
Məlih – mülayim; sevgili.
Məmluv – dolu, dopdolu.
Məmur – abad.
Mənsur – Hüseyn ibn Mənsur Beyzavi (X əsr). Mistik şair və məşhur sufi. Həllac ləqəbi ilə tanınır. 46 kitab müəllifidir. Dinə qarşı çıxdığı üçün asılmışdır. Əttar, Əbu Səid, Cami, Hafiz, Nəsimi, Qayıbi kimi şairlər onu yüksək dəyərləndirmişlər.
Məric – od, tüstüsüz od; od şöləsi, nur.
Mətlub – istək, məqsəd, mətləb, arzu.
Mərdud – rədd edilən, qovulan.
Mərğub – rəğbət olunan, sevilən.
Mərkəb – ulaq, minik heyvanı.
Məsa – gecə, axşam.
Məsakin – məskənlər.
Məsih – İsa peyğəmbərin ləqəbi.
Məsiha (məsiha nəfəs) – can verən, dirildən. İsa peyğəmbərin ləqəbi.
Məslub – alınan, qoparılan, itən.
Məsnəd– əsas, dirək; taxt.
Məstur –örtülü, gizlin.

Məşrəb – meyxana, şərab içilən yer; xasiyyət; hərəkət; təbiət.
Məşşatə – gəlinlərin saçını darayıb-bəzəyən qadın.
Məva – məskən, məkan, ev; pənagah.
Məxzən – xəzinə.
Məyub – eybli.
Miğ – bulud, duman, sis.
Mina – şüşə, billur.
Mirqəzəb –cəllad.
Mirşəb – şəhərin gecə qarovulu.
Mişkin – müşk kimi.
Mizbanlıq –mehman qəbul etmək, qonaqpərvərlik.
Mövç – dalğa.
Muciz – möcizə göstərən.
Musa – yəhudi peyğəmbəri. Rəvayətə görə, e.ə. 157-ci ildə firon II Ramsesin dövründə Misirin Memfis şəhərində anadan olmuşdur. Qırmızı dənizin kənarında çoban olmuş, özünü orada peyğəmbər elan etmişdir. Qul psixologiyasını unutdurmaq üçün öz xalqını tam qırx il səhrada gəzdirmişdir. Bir sıra möcüzələri ilə, ələlxüsus əsasını ilana çevirməklə məşhurdur.
Mustafa – sayılan, sevilən. Məhəmməd peyğəmbərin ləqəbi.
Müalic – təbib, loğman.
Müctəhid – dini qanunları bilən, fitva verən adam.
Müdərris – dərs oxudan, müəllim.
Müddəi – tələb edən, iddia edən; prokuror.
Müfti – dini qanunların əsasında fitva verən.
Müğbeçə – meyxanada işləyən oğlan; atəşpərəstin oğlu.
Mühəyya – hazır, hazır etmə, hazırlama.
Mühit – okean, ümman, dəniz.
Müqəddər – öncədən yazılan, qədər, iqbal, tale.
Müqəddir – təqdir edən; Allah, tanrı, xuda.
Müqərrar – qərar edilən, qərara gəlinən.
Müqtəda – başçı, sərdar, xəlifə, imam.
Mükərrəm – hörmətli, kəramatli.
Mükəvvən – peyda olma, törəmə, var olma, yaradılma.
Müləvvən – rəngbərəng, əlvan.
Münadi – car çəkdirmə, carçı.
Münim – nemət verən, rizq verən; Allah, tanrı, xuda.
Münir – nurlu, parlaq.

Mürəssə – qiymətli daşlarla bəzədilən.
Mürdə – ölü, ölən, cansız, cəsəd.
Mürğ – quş.
Mürşid – pir, şeyh, başçı.
Müsavi – bərabər.
Müsəlsəl – zəncir kimi biri-birinə bağlanan.
Müshaf – kitab, səhifələr; Quran.
Muşfiq – şəfqətli, mehriban.
Müşk – qara rəngli, xoş ətirli maddə.
Müştaq – meylli, istəkli, şövqü olan.
Mütrüb – sazəndə, müğənni.
Müzmər – gizlin, üstü örtülü.

N

Nafiq – faydalı, xeyirli.
Nagahan – birdən, qəfil, qəflətən.
Nahan – gizlin, oğrun.
Nameber – mirzə, məktub yazan.
Nar – od, alov, atəş; cəhənnəm.
Narı –anarı, o yana.
Nasəza – yaraşmayan.
Navək – ox, peykan; kirpik.
Navəkfəkən – ox atan.
Naziş – naz etmək.
Nəam – nemətlər.
Nəbatat – bitkilər, botanika.
Nəbi – pəyğəmbər. Nəbiullah – Allahın peyğəmbəri.
Nədamət – peşmançılıq.
Nəhr – arx, çay, irmaq.
Nəim – nemətli, nemət sahibi, nemət verən.
Nərm – yumşaq, mülayim.
Nəsrin – bir gül adı.
Nəssac – toxucu.
Nəstəran – gül adı.
Nət – Məhəmməd pəyğəmbəri və səhabəsini məhd edən şeir.
Nəxl – xurma ağacı.
Nihan – gizlin, oğrun.
Nigəhban – qoruqçu, qoruyucu.
Niqabəfkən – üzündən örpəyi, pərdəni, niqabı götürən.

Nikhət – ətir.
Nikukar – yaxşı işlər görən.
Nilgun – mavi, göy, lacivərd.
Nisar – saçma, dağıtma; şabaş; qurban.
Nist – yox olma, itmə.
Niz – yenə, yenə də, yenidən.
Noh – doqquz.
Növrəstə – gənc, igid, yeni yetişən.
Nuh – 50 yaşında özünü peyğəmbər elan edən ağac ustası. Allahın əmri ilə daşqından əvvəl bir gəmi düzəltmiş, içinə hər heyvandan bir cüt və insanları almış, daşqından sonra Ağrı dağına çıxarmışdır. Nuh çox uzun ömür sürmüşdür, ona ikinci Adəm də deyilir.
Nuşirvan (Nuşirəvan, Ənuşirəvan) – sasanilər sülaləsinin 21-ci şahı. Adı Xosrovdur. Ərəblər ona Kəsra deyirlər. 531-579-cu illərdə hökmdar olmuşdur. Ədəbiyyatda adil şah olaraq bilinir.
Nübüvvət – peyğəmbərlik.
Nük – uc. Nüki-müjgan – kirpiyin ucu.
Nümayan – aşkar, görünən.
Nüsrət – yardım, kömək; zəfər, qələbə.
Nüzul olmaq – enmək, aşağı göndərilmək.

O - Ö

Ovqat – vaxtlar; durum, vəziyyət.
Övc – yuxarı, ən yuxarı.
Övraq – vərəqlər, səhifələr.
Övsaf– vəsflər, təriflər.

P

Peyvəstə – bağlı, bitişik; həmişə, müdam, daim.
Pərivəş – pəri kimi.
Pərtöv – nur, işıq, şölə.
Pərva – qorxu, ehtiyat, xətər; rəğbət, meyl; taqət, səbr.
Pərvər – tərbiyə edən, bəsləyən, yetişdirən.
Pəyam (peyğam) – xəbər.
Piç – buruq, qıvrım; hörük, halqa.
Piçan-piçan – hörüm-hörüm, dəstə-dəstə, qıvrım-qıvrım.
Pişü pəsi – önü-ardı, dalı-qabağı.
Pişdadi – ilk İran sülaləsi. Firdövsinin təxəyyülünün məhsuludur.
Pişva – sərdar, rəis, başçı.
Pür – dolu, dolğun, çox.

R

Rah – yol.
Rast – doğru, dürüst; sağ.
Rast sürudu – rast muğamının həngində oxunan mahnı.
Ravi – rəvayət edən.
Reyb – şəkk , şübhə, güman.
Rəhnə – ziyan, zərər.
Rəxşan – parlaq, cilalı, işıqlı.
Rida – paltar, ruhanilərin geydiyi paltar.
Rəha – azad olma, xılas olma.
Rəfi-hicab eyləmək – üzdən pərdə atmaq; utanmazlıq.
Rəfrəf – İsrafilin məkanı. Məhəmməd peyğəmbərin merac gecəsi mindiyi iki atdan biri. Peyğəmbəri Allahın dərgahına aparan taxt.
Rəhnüma – yol göstərən.
Rəmidə – ürkək, ürküb qaçan.
Rənci-iza – cəbr-cəfa.
Rəstəxiz – dirilmə, oyanma; qiyamətdə ölülərin dirilməsi.
Rəşk – qısqanclıq, paxıllıq.
Rəvan – axma, axıtma; yola düşmə; can, ruh.
Rəvaq – açıq eyvan; göy, asiman.
Rəzmara – savaşın bəzəyi; bahadır.
Rind – hiyləgər, zirək; şərab içən; qorxusuz; hər şeyi danan.
Risalət – pəyğəmbərlik vəzifəsi.
Riş – yara.
Riştə – iplik, saçaq; quş tükü.
Riya – iki üzlülük.
Riyahin – reyhanlar, reyhan gülləri.
Rizvan – cənnət qapıçısının adı; cənnət, behişt.
Rövşən – işıqlı, nurlu.
Rövzən – dəlik, deşik; pəncərə, baca.
Ruhül-əmin – pak ruh, müqəddəs ruh, Cəbrayılın ləqəbi.
Rusyia(h) – üzüqara, biabır olan, rüsva.
Ruzi-cəza – qiyamət günü, yaxşılığa yaxşılıq, yamanlığa yamanlıqla cavab veriləcəyi gün.
Ruzi-əzəl – heç bir şey yaradılmazdan əvvəlki dövr.
Rüb-məsakin – yer üzünün insan yaşayan dörddə bir qismi.
Rüqə – xətt, yazı, ərzi-hal.
Rükn – sütun, dayanç.

S

Safi – pak, pakizə, xalıs; Adəmin və həzrət Əlinin ləqəbi.
Sahibgiran – bəxtli, iqballı; teymurilərin ləqəbi.
Sağər – piyalə.
Salar – başçı, rəis, sərdar.
Salih – doğruçul, saf ürəkli.
Salik – mürid, sufiliyi qəbul edən.
Sanə – törədən, yaradan; Allah, tanrı, xuda.
Saqi – şərab paylayan.
Sarsar – güclü, şiddətli soyuq, yel.
Sasani – 224-651-ci illərdə İranda hökm sürmüş dördüncü sülalə.
Sası – qoxmuş, üfunətli.
Səbi – çağa, körpə, bala.
Səbükbar – yükü yüngül; asudə, rahat, dinc.
Səbz –yaşyl, göy ot, səbzə.
Səccad – çox səcdə edən; şiələrin dördüncü imamı Zeynalabidinin və Əbu Məhəmməd Əli ibn Abdulla ibn Abbas ibn Əbdülmütəllibin ləqəbi.
Səftər – bahadır; səfpozan; həzrət Əlinin ləqəbi.
Səhabə – Məhəmməd peyğəmbərin yaranları.
Səlatin – sultanlar.
Səmək – balıq. Dini inama görə, yer bir balığın üstündə durur.
Səməndər – əfsanəvi quş.
Səmənsa – səmən gülünə bənzər.
Sənaət – sənət; ustalıq; dəmirçilik.
Sənc – ölçü daşı; miqdar; müqayisə.
Səngdil – daşürək.
Səra – ev, saray. Dü səra – iki cahan, o dünya və bu dünya.
Sərəşk – göz yaşı.
Sərfəraz (sərəfraz) – ulu, hörmətli, böyük.
Sərgəştə – sərgərdan; heyrət edən.
Sərir – taxt.
Sərnəgun – başı aşagı.
Sərpuş – qapaq, örtü.
Sərraç – yəhər ustası; yalançı.
Sərrəştə – məqsəd, mətləb.
Səttar – ayıbları örtən; Allah, tanrı, xuda.
Səvad – qara.

Sərvər – başçı, rəis.
Səxa – səxavətlilik, cömərdlik.
Səxt – qatı, bərk.
Səyyar – seyr edən, gəzən.
Səza – layiq, münasib, uyğun.
Sibteyn – imam Hüseynlə imam Həsənin ləqəbi. Sibteyni-nəbi – peyğəmbərin iki nəvəsi.
Sidrə – ağac adı. Rəvayətə görə, asimanın ən yuxarı qatında (7-ci fələkdə), Cəbrayılın gedə biləcəyi ən son nöqtədə bitir.
Sim qəbqəb – ağ buxaq.
Sima – üz, görk, sifət.
Simin – gümüş kimi ağ.
Sipah – qoşun, ləşkər.
Sipehr – göy, asiman; dünya.
Sipəhsalar – sərdar, sərkərdə.
Sirac – çıraq, işıq.
Sirat–cəhənnəmlə cənnət arasında qılıncdan iti, qıldan incə körpü.
Sirət – xasiyyət, qılıq.
Sitəmgər – zalım.
Su(y) – tərəf.
Sufal – kuzə, kasa; it yalağı.
Surətgər – rəssam.
Suz – yaxısı, yandırıcı.
Sübbuh – müqəddəs, pak; Allah, tanrı, xuda.
Sücud – səcdə, təzim.
Süleyman – Davudun oğlu, yəhudi peyğəmbəri. Rəvayətə görə, təbiətdəki bütün canlıların dilini bilirmiş, yelə-suya hökm edirmiş. E. ə. 1001-ci (bəzi bilgilərə görə, 1016) ildə taxta çıxmış, 962 və ya 976-cı ildə ölmüşdür.
Süluk – yol.
Sün(g) – yaratma, törətmə; iş, amal.
Sürud – mahnı, həng.
Süqubət – kin-küdurət.
Süxən – söz.
Süxənpərdaz – dilavər.

Ş

Şahab – şölə, alov.
Şahbaz – bahadır, igid; bürküt, qartal.

Şahi-xatəm – sonuncu şah. Məhəmməd peyğəmbərin ləqəbi.
Şayəstə – layiq, münasib.
Şey lilläh – Allahın yolunda, Allahın xətrinə bir şey verin.
Şeyda – aşiq, eşqə düşən, dəli.
Şəbqun – gecə kimi, qara.
Şəbröv – gecə yol kəsən, oğru.
Şəcər – ağac.
Şəddad – ərəb hökmdarlarından biri. Rəvayətə görə, İrəm bağını saldırmışdır. Hut pəyğəmbəri hüzuruna qəbul etmədiyi üçün bütin qövmü ilə birlikdə məhv olmuşdur.
Şəfiq – rəhmli, şəfqətli, şəfaətli.
Şəhla – ala gözlü.
Şəhriyar – şah, hökmdar.
Şəkərha – sirin sözlü.
Şəkərşikən – şəkər döyən; şəkərdən də şirin.
Şəms – günəş. Şəmsi-aləmtab – aləmə nur saçan günəş.
Şəmvəş – şam kimi, şama bənzər.
Şərabi-feyz – bərəkət (eşq bərəkətinin) şərabı.
Şərar – od, alov, qığılcım.
Şəri – dini qayda, şətiətə uyğun.
Şəyatyn – şeytanlar.
Şibli – məşhur sufi Əbu Bəkr Şibli (247, Səmərra – 334, Bağdad). Atası Mavəraünnəhrin Şibliyə kəndindən olduğu üçün bu nisbəni işlətmişdir. Cüneyd Bağdadinin şagirdi və müridi, Mənsur Həllacın məktəb yoldaşı olmuşdur. Mənsur asıldıqdan sonra dəlixanaya düşmüş və orada ölmüşdür.
Şimal – quzey; sol tərəf, sol əl.
Şikəstə xatir – könlü sınıq.
Şikvə – şikayət, ərz.
Şirazə–kitab səhifələrini biri-birinə yapışdıran lent; tərtib, düzgün.
Şirinquy – şirin sözli, süyci sözli.
Şis (Şiş) – Kəyumərs zamanında yaşayan şəxs; qədim pəyğəmbərlərdən biri, Adəmlə Həvvanın üçüncü oğlu sayılır.
Şitab eyləmək – tələsmək.

T

Ta əbəd – həmişə, əbədi.
Ta key – haçana qədər.
Tab – nur, işıq; taqət, güc, qüvvə; buruq, qıvrım.

Tabiş – nur saçma, şölələnmə.
Taət – tabe olma, boyun əymə, qulaq asma.
Talib – tələb edən.
Tamğa/damğa – damğa, bəlgə. Əski türklərdə bu söz əlifba və yazı mənasında da işlənmişdir.
Təbah – xarab olma, zay olma.
Təcəlli – gözəllik, görk; nur.
Təhəmmül – səbr etmə, dözmə.
Təfsir – şərh.
Təəmmül – düşünmə, mülahizə.
Təəxxür – gecikmə.
Təkavər – yüyrək at.
Təkəllüm – danışma, sözləmə, söz.
Təqi – dinə hörmət edən, təqva sahibi.
Təqrir – bəyan etmə, iqrar etmə.
Tələt – gözəllik, xarici görünüş.
Tənnaz – naz edən.
Tərab – şadlıq, eyş-işrət.
Tərəhhüm – rəhm etmək.
Tərh – şəkil, rəsm; layihə; tərtib, nəqşə.
Təsəddüq – sədəqə vermə, qurban etmə, fəda etmə.
Təvil – yozma, təfsir etmə, bəyan etmə.
Təxəyyür – heyran, heyran qalma.
Təzib – sitəm etmə, əzab vermə.
Təzir – məzəmmət etmə.
Təziyə – yas, matəm.
Təzvir – hiylə, məkr, aldatma.
Tiğ – qılınc.
Tinət – xasiyyət; varlıq, təbiət, yaradılış.
Tirkeş – oxdan, sadaq, ox qabı.
Tovsan – hələ minilməmiş, ram edilməmiş at.
Tövf – təvaf, dolanma.
Tövfiq – kömək, yardım, üstünlük.
Tuba – behiştdə bitən ağac.
Tüfeyl – kömək, yardım; müftəxor; çağrılmamış qonaq.
Tüfeyli – səbəb ilə, xatirinə, üçün.
Tümən – on min; diviziya; vilayət; pul vahidi.
Tün – gecə, qaranlıq.

Türrə – alına tökülən saç, qıvrım tel. Türreyi-tərrar–alın saçı.

U - Ü

Üftadə – biçarə, yıxılan; düçar, mübtəla.
Üqba – axirət, qiyamət, məhşər, o dünya.
Üqubət – cəza, əzab, cəbr, sitəm.
Üləma – alimlər.
Ülfət – yoldaş, yaran, dost.
Üşşaq – aşiqlər.
Ütrük – yalan, hiylə, yalançı, hiyləgər; xor, xar.

V

Vabəstə – bağlı, asılı, kömək, arxa.
Vafir – çox, çoxlu.
Valə – heyran qalmaq, aşiq olmaq.
Vallahi-əlam – doğrusunu Allah bilir.
Var(ı) – hamı, hamısı.
Veysəl-Qərani – Məhəmməd peyğəmbərin dövründə yaşayan ərəb sufilərindən Üveys (vəfatı: 657/658). Şərq ədəbiyyatynda «Sultan Veys», «Veysəl Qərani», «Veysəl Qəran» adları ilə bilinir.
Və driğa – heyf, təəssüf ki.
Vəhdanyyət – birlik, yalnızlıq.
Vəhhab – səxi, səxavətli, kərəmli; Allah, tanrı, xuda.
Vühuş – vəhşilər.
Üslət – qovuşmaq.

Y

Yafəs – Nuh pəyğəmbərin oğlu. Rəvayətə görə, bütün türk xalqları, o cümlədən oğuzlar-türkmənlər onun törəmələrindəndir.
Yağma – talan; bir türk boyu.
Yaqub – Yusif peyğəmbərin atası.
Yanlığ – kimi, təki, tək.
Yaruldu – parladı.
Yasinü təha – Qurandakı iki surənin adı.
Yavuq – yaxın.
Yazı – çöl, meydan.
Yekkə - yalnız, tək, yeganə.
Yəhya –Zəkəriyyə peyğəmbərin oğlu, o da peyğəmbərdir.
Yəzdan – Allah, tanrı, xuda.
Yövmül-qiyam –qiyamət günü, axırzaman.
Yövmü-məza – ötən gün, keçən gün.

Yunus – pəyğəmbər, rəvayətə görə, delfinin qarnında gizlənmişdir.
Yusif – Yaqub peyğəmbərin oğlu, Şərqdə gözəllik simvolu.
Yüklü – hamilə.

Z

Zaifə – qadın, naçar.
Zaye – zay, xarab.
Zə – farsca «əz» şəkilçisinin qısa forması, -dan, -dən şəkilçisi.
Zəban – dil.
Zəbərcət – qiymətli daş.
Zəbih olmaq – kəsilmək, qurban olmaq.
Zəbun – biçarə, fağır, aciz, halı xarab.
Zəəf – gücsüzlük, zəiflik.
Zəhi – gözəl, aydın; bərəkəlla.
Zəkəriyyə – peyğəmbər, e.ə. VI əsrdə yaşadığı ehtimal edilir.
Zəlil – aciz, fağır, yazıq.
Zəhra – Məhəmməd pəyğəmbərin qızı Fatimənim ləqəbi.
Zər – qızıl.
Zəxm – yara. Zəxmi-dil – ürək yarası. Zəxmi-tir – ox yarası.
Ziba – gözəl.
Zinhar – agah ol, aman, xəbərdar ol!
Zikri-səna – yad etmək, Allahın adını anmaq.
Zöhhak – Ərəbistanlı Mərdas adlı adamın oğlu, İran ərtəkilərinin qəhrəmanı. Rəvayətə görə, onun hər çiynində bir ilan varmış. İranda şah olduqdan sonra xalqa zülm etdiyi üçün xalq dəmirçi Gavənin başçılığı altında ona qarşı üsyan etmiş, onu yıxaraq Cəmşidin nəslindən olan Firidunu taxta çıxarmış, Firidun Zöhhakı Dəmavənd dağında bir qovaqdan asmışdır.
Zöhrə – Venera.
Zülcəlal –Allahın epiteti.
Zülfüqar – Əlinin qılıncı.
Zülmət – qaranlıq.
Zümərrəd – zümrüd.
Zünnar – qurşaq; xristianların bağladığı qurşaq.

R a m i z Ə S K Ə R

10 yanvar 1954-cü ildə Amasiya rayonunun Qaraçanta kəndində müəllim ailəsində anadan olmuşdur. M.V. Lomonosov adına Moskva Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmişdir (1978).

Azərbaycan radiosunda redaktor (1978-83), Azərbaycan, türk, ərəb, fars, ingilis, fransız və alman dillərində çıxan «Azərbaycan bugün» jurnalının baş redaktoru (1983–84), kiril, latın və ərəb əlifbaları ilə nəşr olunan «Odlar yurdu» qəzetinin baş redaktoru (1984-91), «Hürriyet» qəzetinin (İstanbul) Azərbaycan üzrə xüsusi müxbiri (1991-93), Xarici Turizm Şurasının idarə rəisi (1993-94), «XXI əsr» qəzetinin baş redaktoru (1994–96), «Yeni Forum» jurnalının (Ankara) Bakı təmsilçisi (1993-97) olmuşdur. 1997-ci ildən Azərbaycan Jurnalistlər Birliyinin baş katibidir. Bakı Dövlət Universitetinin bədii tərcümə elmi-tədqiqat laboratoriyasının müdiri, Folklor İnstitutunun baş elmi işçisidir. Filologiya elmləri doktorudur.

«Qızıl qələm», «Həsən bəy Zərdabi», «Humay», Türkiyənin «Yeni Orhun» və «Türk dünyasına xidmət», Türkmənistanın «Altın əsr» mükafatları laureatıdır. Yazıçılar və Jurnalistlər Birliklərinin, Beynəlxalq Mətbuat İnstitutunun (İPİ, Vyana) üzvü, Azərbaycanın Əməkdar jurnalistidir.

Türkologiya, ədəbiyyat, tarix və jurnalistikaya dair kitablar yazmış, türk, rus, özbək, uyğur, türkmən, qaqauz dillərindən tərcümələr etmişdir. Avrasiya Tərcüməçilər Birliyinin (Ankara) sədri seçilmişdir (2010).

Monoqrafiyaları:

1. İqlimdən-iqlimə, təqvimdən-təqvimə. Bakı, İşıq, 1987, 104 s.
2. Qutadğu bilig. Bakı, Elm, 2003, 320 s.
3. Mahmud Kaşğari və onun «Divanü lüğat-it-türk» əsəri. Bakı, MBM, 2008, 432 s.
4. Mahmud Kaşğarinin 1000 illik yubileyinə 1000 biblioqrafik göstərici. Bakı, MBM, 2008, 96 s.
5. Mahmud Kaşğarinin «Divanü lüğati-it-türk əsəri üzrə biblioqrafik və qrammatik göstərici. Bakı, MBM, 2008, 192 s.
6. Mahmud Kaşğari və onun «Divanü lüğat-it-türk» əsəri. Bakı, MBM, 2009, 532 s.
7. Mahmud Kaşğarinin «Divanü lüğat-it-türk» əsərinin tədrisi. Bakı, MBM, 2011, 192 s.

Nəşr edilmiş əsas tərcümələri:

1. Azərbaycan Masalları. Bakı, Yazıçı, 1982, 196 s.
2. M.B.Məmmədzadə. Milli Azərbaycan hərəkatı. Bakı, Nicat, 1991, 248 s.
3. Faruq Sümər. Oğuzlar. Bakı, Yazıçı, 1992, 432 s.
4. Yusif Balasağunlu. Qutadğu bilig. Bakı, Azərnəşr, 1994, 492 s.
5. Murad Tağı. Həyatım. Bakı, Oka Ofsət, 1998, 92 s.
6. Erik Fichtelius. Jurnalistikanın on qızıl qaydası. Bakı, AJB, 2002, 192 s.
7. Bahəddin Ögəl. Türk mifologiyasi. Bakı, Səda, 2004, I cild, 626 s.
8. Mahmud Kaşğari. Divanü lüğat-it-türk. Bakı, Ozan, 2006, I cild, 512 s.
9. Mahmud Kaşğari. Divanü lüğat-it-türk. Bakı, Ozan, 2006, II cild, 400 s.
10. Mahmud Kaşğari. Divanü lüğat-it-türk. Bakı, Ozan, 2006, III cild, 400 s.
11. Mahmud Kaşğari. Divanü lüğat-it-türk. Bakı, Ozan,2006, IV cild, 752 s.
12. N.Ozerov. İlham Əliyev: Mən Azərbaycanıma inanıram. Bakı, Azərnəşr, 2007, 376 s.
13. Махмуд Кашгарский. Дивану лугат ит-тюрк. Баку, МБМ, 2009, I том, 512 с.
14. Махмуд Кашгарский. Дивану лугат ит-тюрк. Баку, МБМ, 2009, II том, 400 с.
15. Махмуд Кашгарский. Дивану лугат ит-тюрк. Баку, МБМ, 2009, III том, 492 с.
16. Oraz Yağmur. Qarabağlı ananın ağısı. Bakı, MBM, 2009, 84 s.
17. XX əsr özbək şeiri antologiyası. Bakı, MBM, 2009, 96 s.
18. Molla Nəfəs. Bu məkana gəlmişəm. Bakı, MBM, 2010, 160 s.
19. Molla Nəfəs. Seçilmiş əsərləri. Bakı, MBM, 2010, 240 s.
20. Todur Zanet. Ana dilim. Bakı, MBM, 2010, 104 s.
21. Məxdumqulu Fəraqi. Seçilmiş əsərləri. Bakı, MBM, 2010, 448 s.
22. Türk ədəbiyyati tarixi. Bakı, MBM, 2010, I cild, 602 s.
23. Türk ədəbiyyati tarixi. Bakı, MBM, 2010, II cild, 658 s.
24. Nurməhəmməd Əndəlib. Şeirlər. Poemalar. Dastanlar. Bakı, MBM, 2011, 292 s.
25. Zəhirəddin Məhəmməd Babur. Seçilmiş əsərləri. Bakı, MBM, 2011, 328 s.
26. Sultan Hüseyn Bayqara. Divan. Bakı, MBM, 2011, 248 s.
27. Abdulla Tukay. Millətim. Bakı, MBM, 2011, 268 s.
28. Mehri Xatun. Divan. Bakı, MBM, 2011, 368 s.
29. Zəhirəddin Məhəmməd Babur. Baburnamə. Bakı, BXQR, 2011, 432+32 s.
30. Qurbanqulu Berdimühəmmədov. Axaltəkə atı–iftixarımız və şöhrətimiz. Bakı, SBC, 2011, 232 s.
Türkcə, rusca, almanca və ermənicə bilir.
e-mail: <ramizasker@gmail.com>

İÇİNDƏKİLƏR:

Türkmən ədəbiyyatının qızıl dövrü (*Ramiz Əskər*).....3
Nurməhəmməd Əndəlib 10
Dövlətməmməd Azadi 41
Abdulla Şahbəndə..... 51
Məxdumqulu Fəraqi.....71
Şeydayi 125
Qurbanəli Məğrubi 145
Qayıbnəzər Qayıbi.....156
Murad Talibi..... 175
Orazpolad Qurdoğlu 187
Məmmədvəli Kəminə.....197
Seyidnəzər Seydi.....219
Qurbandurdu Zəlili.....233
Seydulla Seydi 250
Əbdürrəhim Zinhari.....260
Molla Nəfəs 271
Oraz Aşiqi.....312
Əvəztaqan Katibi.....322
Dostməhəmməd.....338
Annaqılınc Möhtaci.....347
Miskin Qılınc 357
Dövlətməmməd Balqızıl 369
Lüğətçə 374

TürkSOY kitabxanası seriyası: 13

Tərtib edən,
türkməncədən uyğunlaşdıran
və ön sözün müəllifi:
Prof. Dr. Ramiz ƏSKƏR

Redaktor:
AMEA-nın müxbir üzvü,
Prof. Dr. Tofiq HACIYEV

Məsləhətçi:
Prof. Dr. Annaqurban AŞIROV

Türkmən şeiri antologiyası (XVII-XIX əsrlər).
Bakı, MBM, 2011, 400 s.

Korrektor: Leyla
Texniki redaktor: Ülvi Arif
Kompüterdə yığdı: Solmaz Əskərova
Dizayner: Ceyhun Əliyev

Çapa imzalandı: 11.05.2011
Formatı: 60x84
Həcmi: 25 çap vərəqi
Tirajı: 500 ədəd
MBM MMC mətbəəsində
çap olundu.